**Cəfər Cəfərli**

# AZƏRBAYCAN RESPUBLİKASINDA HÜQUQ İSLAHATLARI

**(Konstitusiya, məhkəmə, vəkillik, insan hüquqları, pensiya, təhsil və səhiyyə sahələrində)**
**(1995-2025)**

**ADPU-nun Tarix və coğrafiya fakültəsi Fəlsəfə və sosial elmlər kafedrasının 22.10.2025-ci il tarixli iclasının 3 saylı protokoluna əsasən çap edilir**

**Bakı-2025**

Elmi redaktor: Hüseynov Xəzər Allahverdi oğlu.
tarix üzrə elmlər doktoru, professor.

Rəyçilər: Kərimov Zakir Hafis oğlu.
tarix üzrə fəlsəfə doktoru, dosent.

Həsənov Yusifəli Lətif oğlu.
tarix üzrə fəlsəfə doktoru, dosent.

Seyidov Mirafərim Nəzir oğlu.
hüquq üzrə fəlsəfə doktoru, dosent.

Cəfərli Cəfər Sudeyyub oğlu.
Azərbaycan Respublikasında Hüquq islahatları.
(1995-2025). Bakı-2025. ADPU-nəş. 240 s.

Annotasiya: Monoqrafiyada Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsindən sonra 1995-2025-ci illərdə Konstitusiya, məhkəmə, vəkillik, insan hüquqları, pensiya, təhsil və səhiyyə sahələrində keçirilən hüquq islahatları tarixi nöqteyi-nəzərdən tədqiq edilmişdir.

Monoqrafiyadan ali məktəblərin tarix və hüquq fakültələrinin tələbələri, magistrlar, tarixçilər, hüquqşünaslar, elmi işçilər, ali və orta məktəb müəllimləri faydalana bilər.

**Mündəricat**

Giriş ------------------------------------------------------------4

**I FƏSİL.**

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və Konstitusiya islahatlarının keçirilməsi---------------------9

**II FƏSİL.**

Məhkəmə-Hüquq sistemində islahatlar.------------------------42

§2.1. Məhkəmə sahəsində --------------------------------------42

§2.2. Vəkillik istiqamətində islahatın keçirilməsi-------------87

**III FƏSİL.**

Hüququn digər sahələrində islahatların keçirilməsi---------108

§3.1. İnsan hüquqlarının qorunması sahəsində---------------108

§3.2.Pensiya sahəsində ---------------------------------------- 135

§3.3. Təhsil sahəsində------------------------------------------166

§3.4. Səhiyyə sahəsində ---------------------------------------196

Nəticə -------------------------------------------------------219

İstifadə edilmiş ədəbiyyatın siyahısı------------------------222

# GİRİŞ

2025-ci il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin isə 5-ci ildönümünü nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik ili” elan edilib.

Sərəncamda qeyd edilir ki, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır (23).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 fevral 2025-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nı təsdiq etdi.

Tədbirlər Planında “Konstitusiya və Suverenlik ili” ilə əlaqədar olaraq respublikamızda genişmiqyaslı tədbirlərin həyata keçirilməsi və həmçinin konstitusiyanın qəbul edilməsinin ölkəmizin və xalqımızın tarixində oynadığı əhəmiyyətli rolu xalqımıza çatdırılması nəzərdə tutulub.

Konstitusiyanın qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində böyük əhəmiyyət daşıyır. Milli dövlətin formalaşmasında, hüquq sisteminin, qanunçuluğun və hüquq qayda-

sının, milli qanunvericiliyin inkişafında, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasında Konstitusiyanın rolu əvəzedilməzdir. Konstitusiya Respublikamızda milli qanunvericiliyin yenilənməsi, hüquq sisteminin təkmilləşdirilməsi, qanunçuluğun və hüquq qaydasının qorunmasında əsas hüquqi baza rolunu oynamağa başladı.

Azərbaycan Respublikasında qanunvericilik sisteminin əsasını təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin təminatçısı kimi çıxış edir və eyni zamanda hüquqi-siyasi münasibətlər sisteminə əhəmiyyətli təsir göstərir. Əsas Qanun dövlət quruluşunun əsaslarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivəsini, siyasi sistemin təşkili prinsiplərini, hakimiyyətlərin bölünməsini, hakimiyyət orqanlarının təşkilini, səlahiyyətlərini və fəaliyyət qaydalarını müəyyənləşdirir, insan hüquqları və azadlıqlarının təminatı ilə bağlı mühüm məsələləri tənzimləyir.

Hər bir dövlətdə Konstitusiyanın qəbul edilməsinin çox böyük siyasi və hüquqi əhəmiyyəti var. Konstitusiya və onun əsasında qəbul edilmiş qanunlar cəmiyyətdə qanunçuluğun qorunmasında, siyasi sabitliyin, sosial-iqtisadi inkişafın, mədəni tərəqqinin, təhsil və səhiyyənin inkişaf etdirilməsində rolu və əhəmiyyəti olduqca böyükdür.

Konstitusiya hər bir ölkədə hüququn və qanunvericiliyin əsas bazasını təşkil edir və hüquq fəlsəfəsi nöqteyi-nəzərdən cəmiyyətin inkişafında xidmətləri olduqca böyükdür. Beynəlxaq hüquq normalarına müvafiq qəbul və tətbiq edilən hüquq normaları dövlətin əsaslarını möhkəmləndirir.

Konstitusiyası və hüququ stabil olan dövlətlər möhkəm olur. Əksinə hüququn zəif olduğu dövlətlər isə zəif və gücsüz olur. Tarixdən misal çəksək bundaha aydın görə bilərik. Sovetlər birliyi dünyanın ən güclü iki super dövlətlərindən biri idi. Bu dövlətdə hüquq deyil avtoritar idarəçilik güclü idi. Dövlət və cəmiyyət güc yolu ilə idarə olunurdu. Sovet KP-nın qurultaylarının və siyasi bürosunun qərarları qanundan üstün

tutulurdu. Sovet dövlətinin süqutunun siyasi, iqtisadi səbəbləri ilə yanaşı hüquq sisteminin də zəif olması bu dövləti süquta aparan səbəblərdəndir.

Ümummilli Lider H.Əliyev 30 oktyabr 1997-ci ildə Azərbaycan yazıçılarının X qurultayında çıxış edərək bu barədə demişdir:"İndi keçmiş kommunist rejimində partiya tərəfindən hazırlanmış ideologiyamız yoxdur. Buna ehtiyac da yoxdur. Bizim ideologiyamız iki il bundan öncə Azərbaycanın qəbul etdiyi Konstitusiyasında öz əksini tapmışdır. Əsas o Konstitusiyadır. Çünki keçmişdə bizdə qanun işləmirdi, dövlətin, partiyanın ideoloji prinsipləri, partiyanın ideoloji qərarları əsasında iş gedirdi. Amma indi qanun işləməlidir, çünki biz hüquqi dövlət qururuq. Əsas qanunda bizim Konstitusiyamızdır" (186,s.128).

Hüququn gücü cəmiyyətdə stabilliyi təmin edir. Cəmiyyət qanunlarla idarə olunur. Belə cəmiyyətlərdə hüquq və qanun hakim olur və qanunun hakim olduğu bir cəmiyyət formalaşır. O cəmiyyəti siyasi iradə, güc, ayrı-ayrı şəxslərin iddiaları deyil, hüquq idarə edir. Qanun və hüququn hakim olduğu cəmiyyətlərdə iqtisadi inkişaf da baş verir. İqtisadi sferada inhisarçılıq aradan qalxır, qiymətləri bazarda tələb və təklif tənzimləyir, ölkəyə xarici investisiyalar axmağa başlayır. Çünki kapital sahibi olan iş adamları özlərinin iqtisadi maraqlarını və məhkəmədə müdafiələrini təmin etmək üçün hüququn və qanunun hakim olduğu dövlətlərə investisiyalar qoyur və sahibkarlıq fəaliyyətləri ilə məşğul olurlar. Bunun üçün xarici investor sahibkarlıq fəaliyyəti ilə məşğul olacağı ölkələrdə hüququn onun müdafiə edəcəyinə əmin olmalı və həmin ölkənin hüquq sistemi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin hüquqi müdafiəsinə təminat verməlidir.

Müasir dövrdə Avropanın inkişaf etmiş liberal demokratik cəmiyyətləri bu günki inkişaf səviyyələrinə siyasi və iqtisadi şərtlərlə yanaşı həmçinin formalaşdırdıqları hüquq sistemi vasitəsilə çatmışdır. Həmin ölkələrdə hər bir fərdin qanuni maraqlarını hüquq qoruyur. İkinci dünya müharibəsindən sonra

inkişaf etmiş Avropa ölkələri hüququn və qanunçuluğun möhkəmləndirilməsi nəticəsinə bu günkü iqtisadi inkişaf səviyyəsinə gəlib çatıblar.

Həmçinin qeyd etmək lazımdır ki, qanunun hakim olduğu cəmiyyətlərdə siyasi özbaşınalıq, iqtisadiyyatda inhisarçılıq aradan qalxır. Dövlət vətəndaş münasibətlərini, vətəndaş və cəmiyyət münasibətlərini siyasət deyil, hüquq tənzimləyir. Hüquq həmçinin avtoritarizmi və diktaturanı aradan qaldırır. Bu günün özündə də Almaniyada Hitler, İtaliyada Mussolinin, İspaniyada Franko, Portuqaliyada isə Salazar kimi düşünən siyasi təfəkkürlü insanlar yenə də mövcuddur. Lakin Avropanın müasir hüquq sistemi o cür təfəkkürlü insanların iddialarının həyata keçirmələrinə imkan vermir. Avropada cəmiyyət siyasi idarəçilik metodları ilə deyil hüquqla tənzimlənir. Bu səbəbdən də həmin ölkələrdə sürətli iqtisadi inkişaf baş verir, elm, təhsil, səhiyyə inkişaf edir və sosial sistem insanların sosial müdafiəsinə təminat verir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan sonra ictimai-siyasi həyatın bütün sahələrində-siyasi və dövlət idarəçilik sistemində, iqtisadiyyatın bütün sahələrində, səhiyyə, təhsil, elm, mədəniyyət, yerli özünüidarəetmə sahələrində əsaslı islahatlar keçirtdi. Göstərilən islahatların keçirilməsi üçün ilk növbədə həmin sahələr üzrə hüquqi bazanın yaradılması vacib bir məsələ idi. Ona görə də ölkədə ilk növbədə hüquq islahatları keçirilməli idi.

Konstitusiya respublikamızda hüquqi, demokratrik və dünyəvi dövlət quruculuğu işində mühüm bir hüquqi baza rolunu oynamağa başladı. Konstitusiyanın qəbulundan sonra həyata keçirilən hüquq islahatları da konstitusiya prinsiplərinə əsaslanırdı. Dünyanın inkişaf etmiş dövlətlərinin hüquqi və demokratik dövlət quruculuğu, ənənə və təcrübələrinə və beynəlxalq hüquq normalarına uyğun qanunlar hazırlamaq məqsədilə 21 fevral 1996-cı ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev hüquq islahatlarının keçirilməsi ilə

bağlı fərman imzaladı. Bununla da respublikamızda hüquq islahatlarının keçirilməsinə başlandı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən demokratrik konstitusiyalarından biridir. Konstitusiya və onun əsasında həyata keçirilən hüquq islahatları respublikamızda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu daha da möhkəmləndirəcək və həmçinin ölkəmizdə ədalətli cəmiyyətin qurulmasını təmin edəcəkdir.

Fəlsəfi nöqteyi-nəzərdən ədalət hər bir cəmiyyətdə hər kəsin haqqının maneəsiz olaraq onun özünə verilməsidir. Hüquqi nöqteyi-nəzərdən isə ədalət dövlətin vicdanı və qanunun gücüdür.

Qanunlar ədalətli və ədalətsiz olmaqla iki yerə bölünür. Ədalətli qanunlar dövləti gücləndirir və vətəndaşlar arasında dövlətin nüfüzunu daha da artırır. Ədalətsiz qanunlar isə dövləti zəiflədir və vətəndaşlar arasında dövləti nüfüzdan salır. Belə vəziyyətdə vətəndaş dövlətinə, onun nüfuzuna və gücünə inanmır. Vətəndaş pozulmuş hüququnun bərpasını qanunda və dövlətin ədalətində deyil gücdə, cinayətdə və terrorda görür.

Ədalətli qanunlar cəmiyyətdə hər kəs tərəfindən könüllü icra olunur, ədalətsiz qanunlar isə zor gücünə icra olunur. Əgər cəmiyyətdə qanunlar icra olunmursa bunun səbəbi hüquq, ədalət, zaman və həqiqət arasında uyğunsuzluqdur.

## Fəsil 1.

## Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və Konstitusiya islahatlarının keçirilməsi.

18 oktyabr 1991-ci il tarixində dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran vacib məsələlərdən biri yeni Konstitusiyanın qəbul edilməsi idi. Lakin 1991-1994-cü illərə Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində Qarabağ və Şərqi Zəngəzurun işğal edilməsi yeni Konstitusiyanın qəbul edilməsini bir qədər ləngitdi. 12 may 1994-cü il tarixində Bişkek protokolunun imzalanması ilə Ermənistanın Azərbaycan Respublikasına qarşı işğalçı müharibəsi dayandırıldı. Müharibədən sonra respublikamızda yeni dövlət quruculuğuna başlanıldı. Bunun üçün ilk növbədə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası hazırlanıb qəbul edilməli idi.

Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfərdən ibarət tərkibi təsdiq olundu. Komissiyanın tərkibinə Heydər Əliyev (sədr), Rəsul Quliyev (sədr müavini), Fuad Quliyev, Ramiz Mehdiyev, Arif Rəhimzadə, Yaşar Əliyev, Namiq Həsənov, Şəmsəddin Xanbabayev, İzzət Rüstəmov, Elçin Əfəndiyev, Aslan Abbasov, Yusif Vəkilov, Şirin Hacıkərimov, Xanlar Hacıyev, Eldar Həsənov, Həsən Həsənov, Rəfael Allahverdiyev, Südabə Həsənova, Eldar Salayev, Anar Rzayev, Murtuz Ələsgərov, Ziya Bünyadov, Fərəməz Maqsudov, Ağamusa Axundov, Məsumə Məlikova, Səfiyar Musayev, Fuad Qasımzadə, Səfa Mirzəyev, Şahin Əliyev, Etibar Məmmədov, Mixail Zabelin, Hüseynağa Qəniyev, Əli Ömərov və Rəfiqə Əzimova daxil edildi.

Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 5 iyun 1995-ci ildə keçirildi. Həmin iclasda Azərbaycan Respublikasının Prezidenti, yeni Konstitusiya layihəsini

hazırlayan komissiyanın sədri kimi Heydər Əliyev çıxışında bildirdi: “Komissiyanın qarşısında çox böyük iş durur. Biz gərək həm tarixi keçmişimizi, həm də son illərin təcrübəsini təhlil edərək və müstəqil Azərbaycan dövləti üçün uzun müddətli bir konstitusiya layihəsi hazırlayaq. Güman edirəm ki, biz bu işin öhdəsindən gələcəyik və bu vəzifəni layiqincə həyata keçirəcəyik” (177,s.28).

Prezident Heydər Əliyev çıxışında həmçinin Azərbaycanın Konstitusiya quruculuğu tarixinə toxunmuş və müstəqillik əldə etdikdən sonrakı dövrün ictimai-siyasi hadisələrinin geniş təhlilini verərək qeyd etdi ki, Azərbaycanın Konstitusiya quruculuğu tarixi var. Azərbaycan Respublikasının ilk demokratik dövlətinin, 1918-ci il mayın 28-də yaranmış demokratik respublikanın konstitusiyası olmayıb. Ancaq bu hökümət, bu dövlət fəaliyyət göstədiyi dövrdə konstitusiya xarakteri daşıyan bir neçə aktlar, qərarlar qəbul etmiş və onların əsasında işləmişdir. Ona görə də onları, demək olar ki, müəyyən qədər konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar (177,s.28).

Ümummilli Lider daha sonra Azərbaycanın sovetlər dövründə 1921-ci il, 1937-ci il və 1978-ci illərdə konstitusiyalarının qəbul ediməsinə toxunmuş və konstitusiya quruculuğumuzun 80 illik tarixi olduğunu bir daha qeyd etmişdir.

Prezident çıxışında bir daha bildirdi:“Komissiyamızın üzərinə düşən məsuliyyət böyükdür. Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun və tarixi sənəd olsun” (177,s.34).

Heydər Əliyev daha sonra qeyd edir:“Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik. Daimi deyirik ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş

Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərdən istifadə edirik və edəcəyik. Şübhəsiz ki, yaradacağımız layihədə bu müddəalar, bu prinsiplər öz əksini tapmalıdır. Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə, xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, icra və məhkəmə hakimiyyətləri-bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər konstitusiyamızın əsasını təşkil etməlidir" (177,s.35-36).

Ümummilli Liderin fikrincə konstitusiya respublikada sabitliyi təmin etməlidir. Bunun üçün də konstitusiyada gərək elə müddəalar olsun ki, sabitliyi pozmaq istəyən qüvvələrin qarşısı qanuni surətdə alına bilsin. Sabitlik təmin olunan ölkədə şübhəsiz ki, konstitusiya qanunları həm işləyəcək, həm də o, uzun ömürlü və uzunmüddətli olacaqdır.

Prezident çıxışını davam etdirərək qeyd etdi ki, biz ictimai-siyasi sabitliyi qoruyub saxlamağa hazırıq. Bu sözü deyərək mən birinci növbədə ancaq və ancaq Azərbaycan xalqının iradəsinə söykənirəm, arxalanıram, bütün Azərbaycan vətəndaşlarının birliyinə, həmrəyliyinə arxalanıram və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Respublikası vətəndaşlarının tam əksəriyyəti sülh və əmin amanlıq şəraitində daxili ictimai-siyasi sabitlik şəraitində yaşamaq istəyir. Ona görə də hər bir vətəndaş çalışacaq ki, ictimai-siyasi sabitlik daim saxlanılsın, qorunsun və bu da bizim nəinki bu iki tədbiri-Konstitusiyanın qəbul olunmasını və parlament seçkilərinin keçirilməsini, ümumiyyətlə qarşımızda duran bütün vəzifələrin həyata keçirilməsini təmin etsin.

Dövlət quruculuğu, hakimiyyət orqanlarına münasibət bildirən prezident respublikamızda prezident üsul-idarəsinin davam etdirilməsinin tərəfdarı olduğunu bildirdi. O, çıxışında bir daha bildirdi ki, prezident üsul-idarəsinin fəaliyyətini

həyata keçirmək üçün lazım olan bütün müddəalar Konstitusiyada olmalıdır.

Prezident eyni zamanda respublikamızda hakimiyyət bölgüsünün dəqiq müəyyən edilməsini və bu hakimiyyət bölgüsünün xalqın iradəsi ilə təmin olunacağını bildirdi. Daha sonra o əminliklə vurğuladı ki, bütün bunların hamısı respublikamızda demokratiyanın bərqərar olacağına gətirib çıxaracaqdır (177,s.38).

Heydər Əliyev hazırlanan konstitusiyanın ümumxalq səsverməsi-referendum yolu ilə qəbul olunmasına tərəfdar olduğunu bilirdi. Onun fikrincə konstitusiya elə bir sənəddir ki, o yalnız ümumxalq səs verməsi-referendum yolu ilə qəbul edilməlidir.

Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 iyun 1995-ci il tarixli qərarı ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin rəhbərliyi ilə işçi qrupu yaradıldı. İşçi qrupunun tərkibinə Arif Rəhimzadə, Cəfər Vəliyev, Mixail Zabelin, Asya Manafova, Səfa Mirzəyev, Fuad Ələsgərov, Şahin Əliyev, Yusif Hümbətov, Murtuz Ələsgərov, Südabə Həsənova, Niyazi Səfərov, Ağamusa Axundov, Məsumə Məlikova, Rəfiqə Əzimova, Lətif Hüseynov, Ziyafət Əsgərov, Rövşən İsmayılov və Dilarə Rəhimova daxil edildi (182,s.426).

Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 26 iyul 1995-ci il tarixli iclasında Heydər Əliyev parlamentə keçiriləcək seçkinin hansı sistem üzrə keçirilməsi ətrafında geniş və ətraflı çıxış etdi. O çıxışında bildirdi: “Müstəqil Azərbaycan Respublikasının ilk parlamentinin birpalatalı, yaxud ikipalatalı olması barədə fikir müxtəlifliyi meydana çıxdı. Sonra bu seçkilərin hansı qayda ilə-majoritar sistem, proporsional sistem, yaxud qarışıq sistem üzrə keçirilməsi barədə və digər məsələlər, o cümlədən parlament üzvlərinin sayı haqqında da müxtəlif fikirlər söylənildi”.

Ümummilli Lider çıxışında qeyd etdi ki, mən Konstitusiya Komissiyasına iki layihə təqdim etmişəm. Birpalatalı və yaxud da iki palatalı parlamentin yaradılması barədə. Təqdim olunan layihələr respublikamızda parlament seçkilərini demokratik şəraitdə keçirilməsi üçün daha əsaslı, daha əlverişlidir. Birpalatalı parlament yalnız majoritar sistem əsasında keçirilməsi barədə layihəyə şübhəsiz ki, etiraz etmək mümkün deyil. Çünki dünyanın ən demokratik seçki sistemi majoritar sistem hesab olunur. Doğrudur, bəzi ölkələrdə parlamentə seçkilər proporsional sistem, bəzilərində isə qarışıq sistem üzrə keçirilir (182,s.426).

Prezident çıxışında bir daha vurğuladı ki, demokratiyanın ən geniş inkişaf etdiyi Qərb ölkələrində, o cümlədən bütün sahələrdə təcrübəsinə istinad etdiyimiz ABŞ-da seçkilər ancaq majoritar sistem əsasında keçirilir (182,s.426).

Heydər Əliyevin fikrincə majoritar seçki sistemi daha demokratik bir seçki sistemidir və respublikamızın indiki dövrü üçün daha uyğun və əlverişlidir. Lakin Azərbaycanın çoxpartiyalı bir ölkə olduğunu, çoxpartiyalı bir siyasi sistemin təşəkkül tapdığını, həmin partiyaların parlament seçkilərinə böyük həvəslə hazırlaşdıqlarını və iştirak etmək niyyətlərini nəzərə alaraq respublikamızda seçkilərin qarışıq sistem əsasında keçirilməsinə üstünlük verdi. Buna görə də parlament seçkilərinin həm majoritar sistem əsasında, həm də proporsional sistem əsasında keçirilməsi barədə qanun layihələrini komissiyanın müzakirəsinə çıxartdı (182,s.426).

Yeni Konstitusiyasını hazırlayan komissiyanın 26 iyul 1995-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Qanun layihəsini bəyənilərək həmin Qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim edilməsini tövsiyə etdi.

Təqdim olunan Qanun layihəsinə görə Milli Məclisə seçkilər qarışıq seçki sistemi üzrə keçirilməli, Milli Məclisin deputatlarının 100-ü majoritar, 25-i isə proporsional seçki sistemi üzrə seçilməli idi.

Parlament Milli Məclisə seçkilər haqqında Qanunu qəbul etdi və Milli Məclisə 12 noyabr 1995-ci ildə keçirilən ilk seçki həm majoritar, həm də proporsional seçki sistemi üzrə keçirildi.

Yeni Konstitusiya layihəsininin ən mübahisəli maddəsi dövlət dili ilə bağlı olan maddə idi. Bu maddə daha çox mübahisə və müzakirələrə səbəb oldu.

Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 31 oktyabr 1995-ci il tarixində Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclas salonunda dilçi alimlər, tarixçilər, jurnalistlər, yazıçı və şairlərin iştirakı ilə geniş müzakirə keçirildi.

Həmin iclasda geniş məruzə ilə çıxış edən Prezident Heydər Əliyev qeyd etdi ki, layihə ayrı-ayrı təşkilatlarda, birliklərdə, müəssisələrdə, idarələrdə, elm ocaqlarında, yaradıcılıq təşkilatlarında, mədəniyyət birliklərində və Elmlər Akademiyasında müzakirə edilib və fikirlərini bildiriblər.

Ümummilli Lider həmin iclasda konstitusiyanın dövlət dili haqqında maddəsinin çox böyük siyasi və hüquqi əhəmiyyət daşıdığını nəzərə alaraq Elmlər Akademiyasında da dövlət dili haqqında maddənin geniş müzakirə olunmasının vacib olduğunu bildirdi. O, bir daha dedi ki, Konstitusiya komissiyasinda layihə müzakirə olunarkən komissiyanın üzvlərindən üç nəfər - şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Əfəndiyev belə fikir söylədilər ki, "dövlət dili Azərbaycan türk dilidir" yazılsın. Həmin iclasda dövlət dilinin “türk dili” və yaxudda “Azərbaycan dili” olması barədə geniş müzakirəsi keçirildi. Lakin yekun qərara gəlinmədi (182,s.426).

Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci il tarixli iclasında çıxış edən Prezident Heydər Əliyev dil haqqında fikirlərini belə izah etdi: “Dil, millət fəlsəfi məfhumdur, tarixi anlayışdır, insanlar dünyada mövcud olandan onlar hansısa dili danışıblar. Bir halda ki, insanlar olub, demək, onların bir-biri ilə əlaqəsi üçün dil də olubdur, insanlar dünyada mövcud olandan müəyyən tayfalar, qruplar yaranıbdır, bundan sonra onlar genişlənib, millət şəkilinə gəlib çıxıblar. Ona görə

həm millət anlayışı, həm dil anlayışı, yenə deyirəm, fəlsəfi məfhumdur, fəlsəfi, tarixi anlayışdır"(182,s.459).

Geniş və hərtərəfli müzakirələrdən sonra yeni konstitusiyanın layihəsi hazırlanmış və yeni konstitusiya layihəsini hazırlayan komissiyanın 14 oktyabr 1995-ci il tarixli qərarına əsasən yeni konstitusiya layihəsi bəyənildi və ümumxalq müzakirəsinə vermək üçün 15 oktyabr 1995-ci ildə mətbuatda dərc edilməklə ümumxalq müzakirəsinə verildi.

Həmin qərarın ikinci bəndində qeyd edilirdi ki, Milli Məclisə, dövlət orqanlarına, elm və təhsil müəssisələrinə, siyasi partiyalara və ictimai birliklərə tövsiyyə edilirdi ki, konstitusiya layihəsini müştərək müzakirə etsinlər, öz təkliflərini, düzəliş və əlavələrini yeni konstitusiya layihəsini hazırlayan komissiyaya təqdim etsinlər.

Qərarın 3-cü bəndində isə göstərilirdi ki, yeni konstitusiyanın layihəsini hazırlayan komissiyanın işçi qrupu daxil olan bütün təklifləri və əlavələri müntəzəm təhlil etsin, onları ümumiləşdirərək layihəni yenidən işləyib təkmilləşdirsin və 30 oktyabr 1995-ci ildək komissiyanın müzakirəsinə təqdim etsin (177,s.211).

Yeni Konstitusiyanın layihəsini hazırlayan komissiya yeni Konstitusiyasının layihəsini ümumxalq müzakirəsi üçün mətbuatda dərc edilməsi ilə əlaqədar olaraq dövlət orqanlarının, elm və təhsil müəssisələrinin, siyasi partiyaların, ictimai birliklərin və vətəndaşların nəzərinə çatdırırdı ki, yeni Konstitusiyasının layihəsinə aid qeyd və təkliflərini 30 oktyabr 1995-ci il ədək yeni Konstitusiyanın layihəsini hazırlayan komissiyaya təqdim etsinlər.

Konstitusiya layihəsi dərc edildikdən sonra vətəndaşlardan və siyasi partiyalardan komissiyaya üç mindən çox təklif daxil olmuşdu. Bu təkliflərin hamısı işçi qrupu tərəfindən tam və hərtərəfli öyrənilmiş və onların bir çoxu yeni konstitusiya layihəsinin hazırlanmasında istifadə edilmişdir. Bu təkliflər içərisində ən mübahisəli və narahatlıq doğuran məsələ yenə də

dövlət dilinin “türk dili” və ya “Azərbaycan dili” olması ilə bağlı məsələ idi.

Komissiyanın 10 noyabr tarixində keçirilən iclasında Konstitusiyada dövlət dilinin “Azərbaycan dili” kimi yazılması təklifi qəbul edildi. Bu məsələ ilə bağlı çıxış edən Heydər Əliyev bildirdi: “Dövlət dili ilə bağlı doğru, düzgün və ən əsaslı bir qərar qəbul edirik. Bu azərbaycan xalqı üçün onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli bir qərardır. Bu Azərbaycanda bütün azərbaycan xalqının tərkibini təşkil edən xalqların hamısının bir dili qəbul etməsi üçün çox əsaslı qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmətdir, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik”. Həmin iclasda komissiya konstitusiya layihəsində Azərbaycan Respublikasının dövlət dilinin “Azərbaycan dili” yazılması barədə qərar qəbul etdi.

Prezident Heydər Əliyev yeni Konstitusiya Komissiyasının iclasında müstəqil Azərbaycan Respublikasının ilk konstitusiya layihəsinin əhəmiyyətinə toxunaraq bildirdi ki, konstitusiyamızın ən böyük tarixi əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın və respublikamızın tarixində ilk dəfə olaraq sərbəst və müstəqil şəkildə bu konstitusiyanı qəbul etmişik. Sonra çıxışını davam etdirən Prezident Azərbaycanın Konstitusiya tarixinə nəzər saldı və bir daha bildirdi ki, sovetlər dövründə 1921-ci ildə, 1937-ci ildə və 1978-ci ildə qəbul olunmuş konstitusiyalar Sovetlər ittifaqının tərkibində olan, sosialist quruluşuna mənsub olan respublikanın konstitusiyası olmuş, amma eyni zamanda 70 il müddətində xalqımızın, Azərbaycan Respublikasının tarixi yol keçməsində, yaşamasında və gəlib bu günlərə çatmasında böyük rol oynamışdır. Sonda Prezident bir daha vurğuladı: “Biz tarixə daima hörmətlə yanaşmalıyıq, keçmişimizi qiymətləndirməliyik. Bu gün mən konstitusiyanı yaradanlara və o konstitusiya əsasında on illər boyu Azərbaycanda görülmüş işlərə hörmət və ehtiramımı bildirirəm (179,s.473).

Ümummilli Lider 12 noyabr 1995-ci ildə 28 saylı Səbail seçki dairəsinin 17 saylı məntəqəsində səs verdikdən sonra jurnalistin Konstitusiya layihəsində dövlət dilinin Azərbaycan dili yazılması hansı siyasi məqsəddən irəli gəlir sualına belə cavab vermişdir: "Bu, siyasi məqsəd deyil. Bu, Azərbaycan dilinin keçdiyi tarixi yolun əsasında olan bir şeydir. Bizim dilimiz Azərbaycan dilidir, biz azərbaycanlıyıq, respublikamız Azərbaycandır. Ancaq tarix, dilçilik elmi nöqteyi-nəzərindən Azərbaycan dili dünyada mövcud olan türk dilləri qrupuna daxildir. Ona görə ki, Azərbaycan dilinin mənşəyi türk dilləri kökündən gəlir. Amma dünyada türk dilləri qrupu çox böyükdür. Keçmiş Sovetlər İttifaqının ərazisində bu qrupa daxil olan 23 dilin hərəsinin müstəqil adı var, amma hamısı türk dilləri qrupuna mənsubdur.Bunlardan biri də Azərbaycan dilidir. Mənşəyimiz, kökümüz də, şübhəsiz ki, türk kökündən gəlibdir. Dilimiz isə Azərbaycan dilidir" (179,s.507).

Heydər Əliyev 1 iyul 1996-cı ildə Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan cəmiyyətləri federasiyasının nümayəndələri ilə görüşündə dövlət dilimizin azərbaycan dili olmasının əhəmiyyətindən danışarkən bir daha demişdir: "Azərbaycanda son illər bəzi adamlar deyirlər ki, biz türkük, dilimiz də türk dilidir. Biz bir kökdənik, amma bu bir kökdən neçə budaq gedib. Anadoluda yaşayanlar da, Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Dağıstanda da, Qırğızıstanda da yaşayanlar türkdürlər. Çində yaşayan uyğurlarda türklərdir. Amma onlar bir kökün bir şaxəsidir. O şaxəni itirmək lazım deyil.

Biz yeni bir konstitusiya qəbul etdik. Orada yazıldı ki, biz azərbaycanlıyıq, dövlət dilimiz azərbaycan dilidir. Azərbaycan dili türk dilləri qrupuna məxsus olan bir dildir. Türk dilləri qrupunun bir qolu Anadolu türklərinin, bir qolu azərbaycanlıların dilidir, biri özbəklərin, biri qırğızların, biri qazaxların və başqalarınındır. Ona görə də bu ümumi kökləri həmişə qorumaq lazımdır. Çünki kökümüz, dilimiz, dinimiz, milli adət-ənənələrimiz bizi bir-birimizə bağlayır və bağlamalıdır. Bunun

əsasında da  biz bir olmalıyıq. Amma eyni zamanda, bir dili başqasının  içərisində  əritmək lazım deyil ”(181,s.22).

Nəhayət, ümumxalq səsverməsi (referendum) yolu ilə Azərbaycan Respublikasının  ilk  demokratik Konstitusiyası 12 noyabr 1995-ci ildə qəbul edildi.

Mərkəzi Seçki Komissiyasının 20 noyabr 1995-ci il tarixində C.Vəliyevin sədrliyi  və İ.Məmmədəliyevin katibliyi ilə keçirilən tarixi iclasında 12 noyabr 1995-ci ildə keçirilən Referendumda səsvermənin nəticələri təsdiq edildi.

Mərkəzi Referendum Komissiyasının səlahiyyətlərini həyata keçirən Milli Məclisə seçkilər üzrə Mərkəzi Seçki Komissiyası 20 noyabr 1995-ci il tarixli qərarında göstərirdi ki, 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyanın qəbulu ilə əlaqdar keçirilən Referendumda “Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında” Qanunun 24-cü maddəsinə uyğun olaraq yekun vurulmuşdur.

Referendumda  səsvermə siyahılarına daxil edilmiş Azərbaycan Respublikası vətəndaşlarının 86 faizi iştirak etmişdir. Səsvermədə iştirak etmiş 3.566.277 seçicidən  3.267.538 nəfəri, yəni 91,9 faizi təklifə “HƏ”cavabı verərək  müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiya layihəsinin qəbul olunmasına tərəfdar çıxmışdır (177,s.212).

Yeni Konstitusiya 27 noyabr 1995-ci ildən qüvvəyə mindi. Konstitusiya dövlətin əsaslarını, insan və vətəndaşın hüquqi statusunu, Azərbaycan Respublikasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının təşkili və fəaliyyəti prinsiplərini, yerli özünüidarəetmənin və dövlətin qanunvericilik sisteminin əsaslarını təsbit etdi.

24 noyabr 1995-ci ildə Heydər Əliyev Milli Məclisin ilk iclasında konstitusiyanın qəbul olunmasının tarixi əhəmiyyətinə toxunaraq demişdir: “Konstitusiyanın qəbulu böyük nailiyyətdir. Bunlar onu sübut edir ki, artıq Azərbaycan xalqı müstəqillik yolu ilə cəsarətlə, əzmlə, uğurla irəliləyir.  Müstəqil Azərbaycanın ilk konstitusiyası xalqımızın keçdiyi yolun məntiqi

nəticəsidir. Xalqımızın böyük tarixi var. Biz bu gün tarixi keçmişimizə hörmət edərək, keçdiyimiz yolun nə qədər əzab-əziyyətli olduğunu qeyd edərək, eyni zamanda xalqımızın müstəqillik yolunda inamla irəli getməsindən məmnun olduğunu bildirərək yeni konstitusiyamızın qəbul olunmasının tarixi bir hadisə kimi, qeyd etməyə haqqımız var, ixtiyarımız var". Çıxışını davam etdirən cənab Prezident daha sonra bir daha bildirdi ki, yeni konstitusiya Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, insanların, vətəndaşların hüquq və azadlıqlarının qorunması, Azərbaycanda demokratik hüquqi dövlət qurulması və inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir (180,s.5-6).

Yeni Konstitusiya hakimiyyətin mənbəyinin xalq olduğunu bəyan etdi. Heydər Əliyev Konstitusiyanın bu maddəsi ilə bağlı çıxışlarında fikirlərini belə izah etmişdir: "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkil olunması konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları J.J.Russo, Ş.Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük. Konstitusiyamızda bu prinsip əsasında hakimiyyət bölgüsü tam demokratik olaraq öz əksini tapıbdır və bizim də vəzifəmiz, borcumuz konstitusiyaya riayət etmək və konstitusiyanın müddəaları əsasında hakimiyyətin təşkilini bundan sonra da təmin etməkdən ibarət olacaqdır" (180,s.7).

Konstitusiyanın 7-ci maddəsi Azərbaycan dövlətinin anlayışına həsr edilib. Həmin maddəyə görə Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi və unitar dövlətdir. Prezident Heydər Əliyev 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan

Respublikası gənclərinin birinci forumunda çıxışında bu barədə demişdir:"Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qururuq. Dövlət quruculuğu prosesi gedir və gedəcək və mən tam əminəm ki, biz Azərbaycanda hüquqi, demokratik dövləti tamamilə qurub, onu dünya demokratiyası səviyyəsinə çatdıra biləcəyik" (180,s.310).

Konstitusiyada hüquqi dövlətin bütün əlamətləri-hüququn və qanunun aliliyi, insan hüquq və azadlıqlarının təmin edilməsi, demokratik konstitusiyanın mövcudluğu, hakimiyyət bölgüsü, xalqın hakimiyyətin mənbəyi kimi tanınması və müstəqil məhkəmə hakimiyyətinin mövcudluğu öz əksini tapdı.

Konstitusiyaya əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Konstitusiyaya görə qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərməli və səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Prezident Heydər Əliyev Milli Məclisdə çıxışında hakimiyyətlər bölgüsü ilə bağlı fikirlərini belə izah etmişdir: "Hakimiyyətin təşkilində hakimiyyət bölgüsünün budaqlarından biri Milli Məclis, o birisi icra hakimiyyəti-prezident və onun yaratdığı icra hakimiyyət orqanları, üçüncüsü məhkəmə hakimiyyəti orqanları-hamısı birlikdə ahəngdar fəaliyyət göstərməlidir. Deputatları, Milli Məclisi əmin etmək istəyirəm ki, icra orqanları ilə, prezident ilə parlament arasında işgüzar, sağlam münasibətlər indiyə qədər olduğu kimi, bundan sonra da olacaq və konstitusiyanın bütün müddəalarına mən prezident kimi və bütün icra orqanları da riayət etməyə çalışacağıq. Əminəm ki, parlamentdə də deputatlar fikir müxtəlifliyi ilə qanunların

qəbul olunması üçün böyük səylər göstərəcəklər və bundan sonra respublikamız üçün lazım olan qanunlar yüksək səviyyədə qəbul ediləcəkdir” (180, s.15).

Konstitusiyanın qəbulundan sonra ictimai həyatın bütün sahələrində- məhkəmə və hüquq, dövlət idarəetmə sistemi, insan hüquqları, seçki hüququ və seçki sistemi, pensiya, təhsil, səhiyyə və s. istiqamətlərdə islahatların keçirilməsinə başlanıldı. Konstitusiya keçiriləcək islahatların hüququ bazasını və mənbəyini formalaşdırdı.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə Hüquqi İslahatlar Komissiyası yaradıldı. H.Əliyev komissiyanın sədri oldu. Komissiyanın tərkibinə Rəsul Quliyev, Murtuz Ələsgərov, Südabə Həsənova, Şahin Əliyev, Fuad Ələsgərov, Səfa Mirzəyev, Lətif Hüseynov, Ziyafət Əsgərov, İlham Əhmədov və başqaları daxil edildi.

Bu komissiyanın əsas məqsədi Azərbaycanın dövlətçilik ənənələrini və inkişaf etmiş dövlətlərin hüquq sistemlərinin təcrübəsini nəzərə alaraq, müasir və demokratik hüquq sisteminin formalaşdırılması olmuşdur.

Hüquqi İslahat Komissiyasının ilk iclası 4 mart 1996-cı il tarixində keçirildi. Həmin iclasda geniş məruzə ilə çıxış edən Ümummilli Lider məhkəmə və hüquq mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması və qəbul olunmasının çox mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Çıxışını davanm etdirən Prezident bir daha vurğuladı ki, qarşımızda duran əsas vəzifə konstitusiya əsasında yeni qanunların hazırlanması və qəbul olunmasıdır. Hər sahədə müvafiq qanunlar qəbul etməliyik. Bir neçə ilə bütün sahələr üzrə biz yeni qanunların qəbul olunmasına nail olmalıyıq. Bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olmalıdır. Çıxışının sonunda bir daha qeyd etdi ki, dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Ancaq qanunların əksəriyyəti keçmiş Sovet İttifaqından qalmış qanunlardır. Onlara müəyyən dəyişikliklər və əlavələr olunubdur. Lakin həmin qanunların kökü Sovetlər İttifaqı vaxtında qəbul olunmuş qanunlardır.

Heydər Əliyev çıxışında bir daha demişdi: “Məhkəmə və hüquq mühafizə orqanlarının islahatı çox mühüm əhəmiyyətli olduğuna görə həmin islahatların keçirilməsi üçün müəyyən bir komissiyanın yaradılması zərurəti meydana çıxmışdır. Konstitusiya əsasında onlarla, yüzlərlə qanun qəbul ediləcək. Şübhəsiz ki, bunlarla parlamentin komissiyaları məşğul olmalıdır. Ancaq məhkəmə və hüquq mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların zəruriliyi və onların ümumiliyini nəzərə alaraq mən hesab edirəm ki, bu layihələri belə bir komissiyada müzakirə edib parlamentə təqdim edək. Bütün qanun layihələrini bu komissiyada müzakirə etmək olmaz” (180,s.383).

Hüquqi İslahat Komissiyasının işi qanunların və digər normativ hüquqi aktların hazırlanması, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin yenidən qurulması, əhalinin hüquq düşüncəsinin və cəmiyyətin hüquq mədəniyyətinin səviyyəsinin yüksəldilməsi, hüquqi informasiyanın axtarılması və istifadəsi sisteminin təkmilləşdirilməsi kimi tədbirləri ehtiva edirdi. Bununla da, ölkəmizin hüquq sistemində Sovet İttifaqından miras qalmış prinsip, norma və institutlar aradan qaldırılmalı, mütərəqqi inkişafa və beynəlxalq aləmə hüquqi inteqrasiya prosesi güclənməli idi (205,19.04.2023).

Konstitusiyanın qəbulundan sonra cəmiyyətin demokratikləşdirilməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılması prinsipial əhəmiyyət kəsb edirdi. Bu sahədə islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadiyyatın tarazlaşdırılmış tənzimlənməsi məqsədi ilə zəruri islahatların formalaşdırılmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiya olunmasını sürətləndirmək məqsədi ilə iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüqiqi baza yaradılmasını təmin etməli idi. Eyni zamanda, bu məqsədlər üçün dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması, audit və dövlət idarəetmə sisteminin yenidən qurulması, iqtisadiyyatın idarə olunmasının təsisat sisteminin təkmilləşdirilməsi, hüquq və

məhkəmə islahatlarının aparılması sistemli yanaşma əsasında kompleks şəkildə həyata keçirilməsini tələb edir.

29 dekabr 1998-ci il tarixində Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyası yaradıldı. Dövlət Komissiyasının sədri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, müavinləri Artur Rasizadə və Ramiz Mehdiyev oldu. Komissiyanın tərkibinə Xanlar Hacıyev, Abid Şərifov, Eldar Həsənov, Vahid Axundov, Fuad Ələsgərov, Şahin Əliyev, Namiq Nəsrullayev, Südabə Həsənova, Ramil Usubov, Fikrət Yusifov, Əli Nağıyev, Kəmaləddin Heydərov, Nadir Nəsibov, Şöhlət Vəkilov və Elman Rüstəmov daxil idi.

Bu dövlət komissiyasının tərkibində 4 işçi qrupu yaradıldı.

- dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması;
- audit sisteminin islahatı;
- dövlət idarəetmə sisteminin islahatı;
- hüquq və məhkəmə sisteminin islahatı.

Dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması və audit sisteminin islahatı işçi qrupuna rəhbərlik Azərbaycan Respublikasının Baş naziri A.Rasizadə, dövlət idarəetmə sisteminin islahatı, hüquq və məhkəmə sisteminin islahatı işçi qrupuna isə rəhbərlik Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri R.Mehdiyevə tapşırıldı (12).

Komissiyanın fəaliyyətinin nəticəsində dövlət idarəetmə sistemində əsaslı islahatlar keçirildi. Köhnə idarəetmə sistemi yenisi ilə əvəz olundu.

Konstitusiyanın qəbulundan sonra keçirilən hüquq islahatları, siyasi və iqtisadi sistemdə baş verən dəyişikliklər Konstitusiya islahatının keçirilməsi zərurətini yaratdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 22 iyun 2002-ci il tarixində Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında Fərman verdi. Fərmana müvafiq olaraq 24 avqust 2002-ci ildə keçiriləcək

referendumda Konstitusiyanın 24 maddəsində 32 əlavə və dəyişiklik təklif edilirdi.

Ümummilli Lider Konstitusiyanın mətninin referendum yolu ilə dəyişdirilməsi barədə fikirlərini belə izah etmişdir:“Konstitusiya qəbul olunanda belə qərara gəldik ki, Konstitusiyamız ancaq referendumla qəbul edilsin. Bu düzdür, gələcək üçün də belə olmalıdır. Əgər Konstitusiyanı parlamentin ixtiyarına versək, ildə on beş dəfə dəyişiklik edəcəklər. Bu olmaz. Amma görürsünüz, birinci dəfə referendumun keçirilməsi artıq problem yaradıbdır. Demək, biz düz etmişik, həm də qərar qəbul etmişik ki, Konstitusiyanı ancaq referendum vasitəsilə dəyişdirmək olar” (192,s.108).

Milli Məclisin 29 iyul 2002-ci il tarixində referendumla əlaqədar Azərbaycan xalqına müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Konstitusiyamız ötən illər ərzində özünü tam doğrultmuş, demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlində dayanmış, demokratikləşdirmə, insan hüquqlarının və azadlıqlarının bərqərar olması, qanunun aliliyinin təmin edilməsi, bazar iqtisadiyyatının qurulması istiqamətində həyata keçirilən siyasi, iqtisadi, sosial və hüquq islahatları üçün möhkəm qanunvericilik bazası yaratmışdır.

Müraciətdə həmçinin göstərilirdi ki, müstəqil dövlətimizin siyasi həyatında cərəyan edən proseslər, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin getdikcə möhkəmlənməsi, Avropa xalqları ailəsinə inteqrasiyasının güclənməsi, üzv olduğu beynəlxalq təşkilatlar qarşısında öhdəliklər götürməsi Konstitusiyanın mətnində müvafiq dəyişikliklər aparılmasını tələb edir.

Referenduma çıxarılan məsələlər Azərbaycanda dövlət quruculuğunun hüquqi bazasının təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə yönəldildiyini və Konstitusiyada nəzərdə tutulan dəyişikliklər insan hüquqlarının və azadlıqlarının

qorunmasının əlavə təminatları, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin tənzimlənməsi, məhkəmə hakimiyyətinin rolunun artması ilə bağlı olduğunu bildirirdi.

Müraciətinin sonunda Milli Məclis Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ümumxalq səsverməsinə (referenduma) çıxardığı konstitusiya dəyişikliklərini dəstəklədiyini və bu dəyişikliklərin həyati zərurətlə bağlı olduğunu bəyan edir və Azərbaycan xalqını 24 avqust 2002-ci ilə təyin olunmuş referendumda fəal iştirak etməyə çağırırdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 21 avqust 2002-ci ildə Bakının Nizami rayonun sakinləri ilə görüşündə referendumun keçirilməsinin zəruriliyindən danışaraq qeyd etdi ki, biz 7 ildir ki, Konstitusiyanın müddəalarından istifadə edərək, bu Konstitusiyanın göstərdiyi yolla gedərək Azərbaycanı inkişaf etdiririk. Konstitusiya əsasında yüzlərlə qanun qəbul edildi.

Ancaq illər keçir, dünyada və respublikamızda dəyişikliklər əmələ gəlir, bunlar da konstitusiyanın bəzi maddələrinin də vaxtaşırı dəyişiklik etmək zərurətini meydana çıxarır. Amma Azərbaycan Konstitusiyası referendum vasitəsilə qəbul olunduğuna görə, biz xalqın ixtiyarı olmadan Konstitusiyamızın heç bir maddəsini dəyişə bilmərik. Ona görə də mən Azərbaycan prezidentinə konstitusiya ilə verilmiş səlahiyyətlərdən istifadə edərək, iyunun 22-də konstitusiyada bəzi dəyişikliklər olmasına dair referendum aktı layihəsinin müzakirəyə verilməsi haqqında fərman imzaladım. Mən əminəm ki, bu dəyişikliklərin tam əksəriyyətini Azərbaycanın səsvermə hüququna malik olan vətəndaşları artıq bilirlər. Avqustun 24-də referendum keçiriləcək və həmin dəyişikliklərə səs verəcəkdirlər (192,s.375).

24 avqust 2002-ci il tarixində konstitusiyaya ilk dəyişikliklər edilməsi üçün referendum keçirildi.

Referendum başa çatdıqdan sonra Mərkəzi Seçki Komissiyası referendum dairə seçki komissiyalarının səslərin hesablanması haqqında pratokollarına əsasən müəyyən etmişdir ki, ölkə üzrə 100 referendum dairəsindən 99-da səsverənlər

siyahısına daxil edilmiş seçki hüququ olan 4449260 Azərbaycan Respublikası vətəndaşından 3731051 nəfəri və ya 83,86 faizi referendumda iştirak edərək səs vermişdir. Səsverənlərin 96 faizindən çoxu referendum aktı layihəsinin lehinə səs vermişdir.

Mərkəzi Seçki Komissiyasının 2002-ci il 29 avqust tarixli iclasında respublika üzrə 100 referendum dairəsindən 99-da səsverənlər siyahısına daxil edilmiş vətəndaşların yarıdan çoxu səsvermədə iştirak etdiyinə və onların yarsından çoxu referendum aktı layihəsinin bütün hissələrinin lehinə səs verdiyinə görə ümumxalq səsverməsinə çıxarılmış ”Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında’’ referendum aktının layihəsi qəbul edilmiş sayılması barədə qərar qəbul etdi.

Referendumda yalnız 42 saylı Xankəndi referendum dairəsi səsvermədə iştirak etmədi.

Referendumla Konstitusiyaya aşağıdakı dəyişikliklər edildi:

Konstitusiyaya təklif olunan dəyişikliklərdən biri referendumun keçrilməməsi ilə bağlı idi. Dəyikliyə əsasən vergilər və dövlət büdcəsi, amnistiya və əfv etmə və seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi qanunvericilik və icra hakimiyyəti orqanlarının səlahiyyətinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi ilə bağlı referendum keçirilə bilməz (90,2002.29.08).

İnsan hüquqları ilə bağlı dəyişikliklər sırasında ilk növbədə konstitusiyada təsbit edilmiş yaşamaq hüququnun təmin edilməsi ilə əlaqədar edilmiş dəyişiklik olduqca mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın 27-ci maddəsindən “ fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi” sözləri çıxarıldı. Bu dəyişiklik Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi ilə konstitusiyada olan ziddiyyətin aradan qaldırılmasına yönəlmişdir (66).

Digər bir dəyişiklik Konstitusiyanın 76-cı maddəsində “alternativ hərbi xidmət” ifadəsinin “alternativ xidmət” ifadəsi ilə əvəzedilməsi ilə əlaqədardır. Belə ki, “alternativ xidmət”

hərbi deyil, mülki xarakter daşıyır və şəxsin vicdan, din, əqidə azadlığını təmin edir və bu dəyişikliklə Avropa Konvensiyasının 9-cu maddəsinin tələbləri yerinə yetirildi (66).

Referendumla seçki sistemində dəyişiklik edilərək proporsional seçki sistemi konstitusiyanın mətnindən çıxarıldı. Bu dəyişiklikdən sonra Milli Məclisə seçkilər yalnız majoritar seçki sistemi əsasında keçirilməyə başladı.

Konstitusiyaya edilən əhəmiyyətli dəyişikliklərdən biri də Baş Prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilməsi və Konstitusiyanın mətnindən "qanunların eyni cür və dürüst icra və tətbiq olunmasına" nəzarət funksiyasını nəzərdə tutan müddəanın çıxarılması ilə bağlı idi.

Referenduma qədər Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin üçdə iki səs çoxluğu ilə seçilirdi. Dəyişiklikdən sonra isə Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilməli idi.

22 iyul 2002-ci il tarixində Prezident Heydər Əliyev milli mətbuat günü münasibətilə Bakı mətbuat klubunun təsisçiləri ilə görüşündə bu barədə demişdir: "Əvvəl prezidentin seçilməsi üçdə iki səs çoxluğu ilə seçilirdi. Hesab edirdim ki, bu mənim üçün elə bir çətinlik yaratmaz. Amma indi baxıb görürəm ki, məndən də sonra da seçkilər olacaq. Mən niyə özümdən sonra belə çətin bir vəziyyəti qoyub gedim. Bu dəyişikliklə gələcək seçkilərdə prezidentlərin vəziyyətini yüngülləşdirərəm" (192,s.109).

Həmçinin səsvermənin ikinci dövrəsində prezidentin seçilməsi ilə bağlı da mühüm dəyişiklik edildi. Əgər referendumdan əvvəl prezident ikinci dövrədə sadə səs çoxluğu ilə seçildiyi halda, referendumla sadə səs çoxluğu Konstitusiyanın mətnindən çıxarıldı. Dəyişiklikdən sonra Azərbaycan Respublikasının Prezidenti səs çoxluğu ilə seçilməli idi.

Konstitusiyada edilən dəyişikliklərdən biri də Prezident vaxtından əvvəl vəzifəsindən getdikdə onun səlahiyyətlərinin kimin icra etməsi ilə bağlı idi. Əvvəl Prezident vaxtından əvvəl

vəzifəsindən getdikdə yeni prezident seçilənədək Prezidentin səlahiyyətlərini Milli Məclisinin sədri, Milli Məclisin sədri istefa verdikdə isə Prezidentin səlahiyyətlərini baş nazir icra etməli idi. Dəyişiklikdən sonra isə Prezident vaxtından əvvəl vəzifəsindən getdikdə yeni prezident seçilənədək Prezidentin səlahiyyətlərini baş nazir, baş nazir istefa verdikdə isə Prezidentin səlahiyyətlərini Milli Məclisin sədri icra etməli idi. Bu dəyişiklik həm hüquqi, həm də siyasi cəhətdən olduqca əhəmiyyətli dəyişiklik idi.

22 iyul 2002-ci il tarixində Prezident Heydər Əliyev milli mətbuat günü münasibətilə Bakı mətbuat klubunun təsisçiləri ilə görüşündə bu dəyişikliklə bağlı fikirlərini belə izah etmişdir: “Biz 1995-ci ildə yazdıq ki, əgər prezident istefa versə, yaxud səhhətinə görə vəzifəsini yerinə yetirməyə imkanı olmasa, onu üç aylığa parlamentin sədri əvəz edəcəkdir. Biz o vaxt, 1995-ci ildə belə düşünürdük. Amma indi vəziyyət dəyişilibdir, düşüncə də dəyişilibdir.

İqtisadiyyat bizim respublikanın əsasıdır. Prezident yoxdur, kimsə onu üç ay əvəz etməlidir. Əgər bunu əvəz edən adam Baş nazir olsa, demək, o, iqtisadiyyatın içindədir, iqtisadiyyat baxımından və başqa məsələlər baxımından prezidentin gördüyü bütün işlərin içindədir. Demək, o, üç ay respublikanı bu sahədə idarə edə bilər və respublika iqtisadiyyatına zərər dəyməz. Dəysə də az dəyər. Amma parlamentin sədrinin başı parlamentə qarışır, qanunlar qəbul edir. Təbidir, o, qanunları qəbul edərək iqtisadiyyatı bilir, iqtisadiyyatdan xəbərsiz deyildir. Amma o, icra funksiyasını həyata keçirmir. İcra funksiyaları bizdə prezidentdədir və prezidentdən sonra onun ən yüksək icra orqanı olan Nazirlər Kabinetidir. Ona görə bu, tamamilə məntiqə uyğun bir məsələdir“ (192, s.112).

Konstitusiyaya edilmiş dəyişikliyə əsasən hər kəsin, habelə məhkəmələrin və İnsan Hüquqları üzrə Müvəkkilin də Konstitusiya Məhkəməsinə müraciət hüququ təmin edilmiş və bu müddəa ilə Konstitusiya Məhkəməsinin səlahiyyətləri artırılaraq, eyni zamanda, insanlara pozulmuş hüquq və azad-

lıqları ilə əlaqədar ölkədaxili prosedurların daha geniş istifadə edilməsinin hüquqi əsasları yaradılmışdır. Qeyd etmək lazımdır ki, bu dəyişiklik Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə bağlı olmuşdur.

Referendumla məhkəmə islahatları ilə əlaqədar Konstitusiyada bir sıra dəyişiklik edildi. Belə ki, referendumadək Ali Məhkəmə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına nəzarət qaydasında baxmaq səlahiyyətinə malik idi və bu hal süründürməçilik, işlərə baxılmasının uzadılması və işlərə bir neçə dəfə baxılması ilə nəticələnirdi. Bununla əlaqədar olaraq, Konstitusiyanın 131-ci maddəsindən Ali Məhkəmənin nəzarət funksiyası çıxarılmış və onun yalnız kassasiya instansiyası məhkəməsi funksiyası təsbit olunmuşdur.

Məhkəmə quruluşunda aparılan dəyişiklikdən biri də Konstitusyanın mətnində olan "İqtisad Məhkəməsi" sözləri" Apellyasiya Məhkəmələri" sözləri ilə əvəz edildi.

Referendumla Konstitusiyanın 132-ci maddəsi dəyişdirilərək yenidən qəbul edildi. Həmin maddəyə görə Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə qanunla onların səlahiyyətinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəməsi hüququ verildi. Referendumadək respublikamızda bir apelliyasiya məhkəməsi-Azərbaycan Respublikası Apellyasiya məhkəməsi fəaliyyət göstərirdi. Həmin məhkəmə Bakı şəhərində yerləşirdi və yurisdikasiyası bütün Azərbaycan Respublikasına aid edilirdi. Referendumla Konstitusiyada apellyasiya məhkəmələri sözününün yazılması respublikamızda bölgələr üzrə də apellyasiya məhkəmələrinin yaradılması nəzərdə tutulurdu.

24 avqust 2002-ci il tarixində keçirilən referendumla respublikamızda birinci konstitusiya islahatı başa çatdı.

İkinci Konstitusiya islahatı 18 mart 2009-cu il tarixində keçirildi. 26 dekabr 2008-ci il tarixində Milli Məclisin qərarı ilə 18 mart 2009-cu il tarixinə Konstitusiyaya əlavə və dəyişiklər edilməsi barədə ümumxalq səsverməsi (referendum) təyin edildi. Konstitusiyanın 29 maddəsində 41 əlavə və dəyişiklik təklif edilirdi.

18 fevral 2009-cu ildə başlanmış təşviqat kampaniyası 27 gün davam edərək, martın 17-də başa çatdı.

18 mart 2009-cu il tarixində Konstitusiyaya ikinci dəfə dəyişikliklər edilməsi üçün referendum keçirildi. Səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu ümumxalq səsverməsinə (referenduma) çıxarılmış Referendum Aktı lahiyəsinin lehinə səs verdiyindən layihə qəbul edilmiş hesab edildi.

Referendumla Konstitusiyaya aşağıdakı dəyişikliklər edildi:

Referendumla Konstitusiyanın 12-ci maddəsində insan hüquqlarının təmin edilməsi ilə bağlı mühüm dəyişiklik edildi. Həmin maddəyə əlavə edildi ki, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir (90,2009.31.03).

Konstitusiyanın 15-ci maddənin II hissəsinə "sosial yönümlü" sözü əlavə edildi. Bu əlavə vətəndaşların sosial rifahının yüksəldilməsinə şərait yaratmaq imkanı vermək üçün edildi (90,2009.31.03).

Konstitusiyanın 15-ci maddəsində edilən dəyişiklik Azərbaycan dövlətinin üzərinə sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratmaq vəzifəsi qoymaq məqsədi daşıyır. Müasir dövlət demokratik, hüquqi, dünyəvi olmaqla yanaşı, həm də sosial dövlət olmalıdır. 1995-ci ildə Konstitusiya qəbul edilərkən Azərbaycan iqtisadiyyatının o qədər də güclü olmaması dövlət tərəfindən sosial funksiyanın yerinə yetirməsini təmin edə bilməzdi. İnkişaf edən Azərbaycan iqtisadiyyatı artıq vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi yolunda möhkəm zəmin yaradır. Bu səbəbdən dövlətin imkanları artdıqca, vətəndaşların rifahı yüksəldikcə, dövlət sosial funksiyasını daha yaxşı həyata keçirilə bilər və dövlət öz vətəndaşlarına daha layiqli həyat səviyyəsi təmin edə bilər (218,2009.15.03).

Referendumla uşaq əməyinin müdafiəsinə xüsusi diqqət yetirilmişdir. Dəyişiklik nəticəsində 15 yaşına çatmamış uşaqların işə götürülməsi qadağan edildi. Bundan sonra 15 yaşına çatmamış uşaqların işə götürülməsi və onlarla fərdi əmək

müqaviləsinin bağlanılması işəgötürənlərə qadağan edildi (90,2009.31.03).

Referendumla Konstitusiyaya şəxsi toxunulmazlıq hüququ ilə də bağlı dəyişikliklər edildi. Dəyişikliyə əsasən hər kəsə şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ verildi. Həmçinin qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsə onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını tələb etmək hüququ verildi (90,31.03.2009).

Vicdan azadlığı ilə bağlı edilən dəyişiklik hüquqi əhəmiyyətlə yanaşı, həm də dini, siyasi və multikultural əhəməyyətə malikdir. Belə ki, dəyişikliyə görə heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz" sözü əlavə edildi (90,31.03.2009).

Konstitusiyanın 67-ci maddənin II hissəsinə "cinayət törədilməsində təqsirləndirilən hər bir şəxs məhkum edilməzdən əvvəl dinlənilməlidir" sözləri əlavə edildi. Bu dəyişiklik cinayət törətməkdə təqsirli bilinən şəxslərin hüquqlarının müdafiəsi baxımından əhəmiyyətli dəyişikliklərdən biri hesab olunur. (90,31.03.2009).

Referendumla qanunvericilk hakimiyyəti ilə bağlı əhəmiyyətli dəyişikliklər edildi. Həmin dəyişikliyə əsasən Konstitusiyaya "müharibə şəraitində hərbi əməliyyatların aparılması Milli Məclisə seçkilərin keçirilməsini mümkün etmədikdə, Milli Məclisin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır" cümləsi əlavə edildi (90,31.03.2009).

Həmçinin referendumla Milli Məclisin sessiyalarının hansı halda qapalı keçirilməsi qaydası da müəyyənləşdirildi. Dəyişikliyə görə, Milli Məclisin 83 deputatının tələbi ilə və ya

Prezidentin təklifi ilə Milli Məclisin sessiyasının qapalı iclası keçirilə bilər sözləri əlavə edildi (90,31.03.2009).

Referendum vətəndaşlara həmçinin qanunvericilik hüququ verdi. Edilən dəyişikliyə əsasən Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi hüququnu verdi. Dəyişiklikdən sonra seçki hüququ olan 40 min vətəndaş Milli Məclisə qanun-vericilik təşəbbüsü hüququndan istifadə edərək hər hansı bir qanun layihəsini qəbul etmək üçün təqdim edə bilər (90,31.03.2009).

Edilən mühüm dəyişiklikdən biri də müharibə şəraitində prezident seçkilərinin keçirilməsi ilə bağlı idi. Dəyişikliyə görə müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə, Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılmalı idi. Bu dəyişiklik həm siyasi, həm də hüquqi əhəmiyyətə malik idi. Belə ki, Prezident Konstitusiyaya görə silahlı qüvvələrin ali baş komandanıdır. Müharibə şəraitində ölkədə prezident seçkilərinin keçirilməsi və hərbi əməliyyatlara rəhbərlik edən prezidentin seçkilərdə iştirakı siyasi və hərbi nöqteyi nəzərdən əlverişli hesab edilmir. Ona görə də müharibə şəraitində seçkilərin təxirə salınması daha düzgün bir dəyişiklik idi (90,31.03.2009).

Konstitusiyaya edilən dəyişikliklərdən biri də "məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməsi" ilə bağlı idi. Bu olduqca əhəmiyyətli bir dəyişiklikdir. Çünki ədalət mühaki-məsini həyata keçirən məhkəmənin vəzifələrindən biri də istər cinayət, istər mülki və istərsə də inzibati işlərdə həqiqəti müəyyən etməkdir (90,31.03.2009).

Dəyişiklkdən sonra Konstitusiya həqiqətin müəyyən edil-məsi vəzifəsini məhkəmə icraatının üzərinə qoydu. Məhkəmə icraatı hakim tərəfindən təmin edildiyindən, bu vəzifə hakim-lərin üzərinə qoyulmuş bir vəzifədir. Yəni məhkəmə icraatı zamanı hakim həqiqətin müəyyən edilməsi, əsl həqiqətin nədən ibarət olması sübutlar vasitəsi ilə müəyyən olunur. Cinayət

işinə baxan hakim icraatında olan cinayət işi üzrə baş vermiş hadisənin cinayət olub-olmamasını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamasını, bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini və onun təqsirli olub-olmamasını müəyyən etməlidir (232, 14.12.2022).

Məhkəmə icraatı və məhkəmə araşdırmasının həqiqətin müəyyən edilməsinə yönəldilməsinin yolu sübutların toplanmasından, toplanmış sübutların mümkünlüyündən, yoxlanılmasından və qiymətləndirilməsindən keçir. Həqiqətin müəyyən edilməsində ən çətin mərhələ sübutların qiymətləndirilməsi mərhələsindir. Cinayət işi üzrə sübutların yoxlanılması və qiymətləndirilməsi mərhələləri bir-birinə çox yaxın mərhələlərdir və əksər hallarda bir-birinə qovuşur. Yəni hər iki mərhələdə toplanmış sübutların keyfiyyətinə, sübutlar və onların mənbəyinin mötəbərliyinə qiymət verilir(232, 14.12.2022).

Konstitusiyaya edilən dəyişiklikliklərdən biri də məhkəmə qərarlarına verilən tələblərlə bağlı idi. Dəyişikliyə əsasən məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır. Bu o demək idi ki, məhkəmələr qərarlarını qanuna və sübutlara istinad edərək çıxartmalıdır. Çünki məhkəmələr qərarlarını Azərbaycan dövlətinin adından çıxarır və məhkəmə qərarlarının arxasında dövlətin nüfuzu və ədadləti dayanır. Məhkəmə qərarları qanuni və ədalətli olmalıdır ki, hüquqları pozulmuş vətəndaş dövlətin gücünə və ədalətinə inansın və hüquqları pozulduqda hüquqlarının bərpası üçün məhkəməyə müraciət etsin.

Referendumla Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin qərarları ilə bağlı dəyişiklik olduqca böyük hüquqi əhəmiyyətə malik idi. Belə ki, edilən dəyişiklikdən sonra həm Konstitusiya Məhkəməsinin, həm də Ali Məhkəmənin qərarları artıq dərc olunmalı idi. Referendumdan əvvəl də Konstitusiya Məhkəməsinin qərarları rəsmi qəzetlərdə dərc olunurdu. Bu dəyişiklikdən sonra Ali Məhkəmənin qərarları artıq Ali Məhkəmənin internet saytında yerləşdirildi.

20 oktyabr 2017-ci il tarixində "Məhkəmələr və hakimlər haqqında" Qanuna edilmiş dəyişikliyə görə inzibati-iqtisadi

məhkəmələrin iqtisadi mübahisələrlə bağlı qərarları, habelə kassasiya və apellyasiya instansiyası məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq dərc edilməli və elektron qaydada yayılmalı idi. Kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ilə birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarlarının da yayılması nəzərdə tutulurdu. Həmçinin birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minmiş qərarlarının da qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlanması nəzərdə tutulurdu (90,8.11.2017).

28 dekabr 2018-ci ildə göstərilən Qanununda edilən dəyişikliyə əsasən məhkəmələrin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmalıdır (90,30.12.2018).

Məhkəmə qərarlarının elektron qaydada yayılmasının təcrübi baxımdan əhəmiyyəti olduca böyükdür. Belə ki, bu məhkəmə qərarlarının aşkarlığına, ədalətliliyinə və məhkəmələrin eyni xarakterli analoji mübahisəli işlər üzrə fərqli qərarlarının çıxarılmasının qarşısının alınmasına köməklik edəcək.

Dəyişikliklərdən biri də bələdiyyələrin səlahiyyəti ilə bağlı idi. Dəyişikliyə əsasən bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər. Bu dəyişiklik bələdiyyələrə öz inzibati ərazi vahidlərində müstəqillik verməklə yanaşı həm də bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında məsuliyyətdən də azad etmir. Bələdiyyələrlə bağlı digər bir dəyişiklik isə bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası ilə bağlıdır (90,31.03.2009).

Bələdiyyələrlə bağlı edilən dəyişiklikdən biri də bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməməsi ilə bağlı idi (90,31.03.2009).

Bu o deməkdir ki, bələdiyyələr öz ərazi vahidlərində səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının

Konstitusiyasına, qanunlarına, digər normativ hüququ aktlara və bələdiyyə qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində sərbəstdirlər.

Referendumla dövlətə bələdiyyələrin fəaliyyətinə nəzarət etmək hüququ verildi. Həmçinin bələdiyyələrin üzərinə fəaliyyətləri barədə Milli Məclisə hesabat təqdim etmək vəzifəsi qoyuldu. Bütün bunlar bələdiyyələrin fəaliyyətində özbaşınalığı, rüşvətxorluğu, süründürməçiliyin və korrupsiya hallarının qarşısını almalı idi.

Konstitusiyanın 149-cu maddəsinə edilən dəyişikliyə əsasən normativ hüquqi aktların dərc edilməsi nəzərdə tutulurdu. Bu o demək idi ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan bütün normativ hüquqi aktlar rəsmi dövlət qəzetlərində dərc edilməlidir. Bu dəyişikliyə əsasən heç kəs dərc edilməmiş normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz (90,31.03.2009).

Bu referendumla da ikinci Konstitusiya islahatı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevın 26 iyul 2016-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi haqqında referendumun keçirilməsi 26 sentyabr 2016-cı ilə təyin edildi. Referenduma təqdim edilən layihəyə görə Konstitusiyanın 23 maddəsinə 34 əlavə və dəyişiklik təklif edildi.

Ümumxalq səs verməsi (referendum) ilə əlaqədar olaraq Mərkəzi Seçki Komissiyasında "Yeni Azərbaycan", "Bələdiyyə" və "Vətəndaş Cəmiyyəti" referendum üzrə təşviqat qrupları qeydiyyatdan keçdi.

3 sentyabr 2016-cı ildə başlanmış təşviqat kampaniyası sentyabrın 25-dək davam edərək, ümumilikdə sivil və müasir tələblərə cavab verən şəraitdə keçirildi.

26 sentyabr 2016-cı il tarixində Konstitusiyaya üçüncü dəfə dəyişikliklər edilməsi üçün referendum keçirildi.

Mərkəzi Seçki Komissiyasının 11 oktyabr 2016-cı il tarixli qərarına əsasən 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsinin (referendumun) nəticələri qəbul edildi. Qərarda qeyd edilir ki, daimi siyahıda olan seçicilərin 25%-dən çoxu (69.70%) səsvermədə iştirak etdiyindən ümumxalq səsverməsi (referendum) baş tutmuş hesab edilərək, Referendum Aktı layihəsində təqdim edilən 29 hissənin hər birinin lehinə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdiyindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi qəbul edilmiş hesab edilsin.

Referendumla Konstitusiyaya aşağıdakı dəyişikliklər edildi:

Konstitusiyaya edilən dəyişiklərdən biri Azərbaycan Respublikası təhlükəsizliyi və müdafiəsi ilə bağlı idi. Dəyişikliyə əsasən "Azərbaycan Respublikası öz təhlükəsizliyini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır və Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir" sözləri əlavə edildi (90,12.10.2016).

Konstitusiyada mülkiyyət hüququ ilə bağlı da dəyişikliklər edildi. Dəyişikliyə əsasən "Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur və torpaqlardan səmərəli istifadə etmək məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər" sözləri əlavə edildi (90,12.10.2016).

Digər bir dəyişikliyə əsasən qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağan edilidi.

Konstitusiyaya "Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklərin fəaliyyətinin qadağan edilməsi ilə bağlı" müddəa əlavə edildi (90,12.10.2016).

Konstitusiyanın 60-cı maddəsi dəyişdirilərək yeni redaksiyada verildi. Həmin maddəyə görə hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verildi. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsə inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ verildi. Dəyişiklikdən sonra hər kəsə dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilmək hüququ təmin edildi" (90,12.10.2016).

Referendumdan əvvəl Konstitusiyanın 85-ci maddəsinə əsasən yaşı 25-dən aşağı olmayan hər bir vətəndaş Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilirdi. Dəyişiklikdən sonra isə seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşa Milli Məclisin deputatı seçilmək hüququ verildi. Bununlada seçki gününədək 18 yaşı tamam olmuş və fəaliyyət qabiliyyətli hər bir vətəndaş Milli Məclisə deputat seçilmək hüququ əldə etdi (90,12.10.2016).

Referendumla Milli Məclisin buraxılması qaydası da müəyyənləşdirildi. Dəyişikliyə əsasən Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bankın İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə Prezident Milli Məclisi buraxa bilər (90,12.10.2016).

Konstitusiyaya edilən dəyişikliklərdən biri də Prezidentin seçilməsi üçün tələb olunan yaş həddi və səlahiyyət müddəti ilə bağlı idi. Referenduma qədər Konstitusiyaya əsasən yaşı otuz beşdən aşağı olmayan Azərbaycan Respublikasının vətəndaşı Prezident seçilə bilərdi. Referendumla edilən dəyişikliyə əsasən isə Prezident seçilmək üçün otuz beş yaşdan aşağı omayan yaş senzinə qoyulan tələb Konstitusiyadan çıxarıldı. Dəyişiklikdən

sonra artıq seçki hüququna malik olan, fəaliyyət qabiliyyətli və ali təhsilli hər bir vətəndaş Azərbaycan Respublikasının Prezidenti seçilə bilər (90,12.10.2016).

Referendumla Prezidentin səalahiyyət müddəti 5 ildən 7 ilə qaldırıldı və həmçinin Prezidentə "növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan" edə bilmək səlahiyyəti də verildi (90,12.10.2016).

Konstitusiyaya prezidentin səlahiyyəti müddətinin 5 ildən 7 ilə qədər uzadılması ilə bağlı təklif olunan dəyişiklik Azərbaycan dövlətçiliyinin varisliyinin, ölkənin ardıcıl və davamlı sosial-iqtisadi inkişafının və siyasi sisteminin sabitliyinin təmin olunmasına, münbit investisiya mühitinin yaranmasına, dövlətin müdafiəsi və təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə, dövlət idarəetmə mexanizminin daha da təkmilləşdirilməsinə xidmət edəcək (236).

Referendumla Konstitusiyaya Azərbaycan Respublikasının vitse-prezidentləri maddəsi əlavə edildi. Həmin maddəyə əsasən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər sözləri əlavə edildi (90,12.10.2016).

Təklif olunan bu dəyişikliyin əsas məqsədi prezident üsul-idarəsinin təkmilləşdirilməsi və siyasi idarəetmə mexanizminin müasir dövrün tələblərinə cavab verməsinin təmin edilməsi, icra hakimiyyətinin həyata keçirilməsinin səmərəliliyinin artırılması, məsuliyyəti və intizamının möhkəmləndirilməsindən ibarətdir.

Konstitusiyaya Prezident vəzifəsindən vaxtından əvvəl getdikdə onun səlahiyyətlərinin icrası müddəti ilə bağlı da dəyişikliklər də edildi. Əvvəl Prezident vəzifəsindən vaxtından əvvəl getdikdə üç ay ərzində növbədənkənar Prezident seçkiləri keçirilirdi. Dəyişikliyə əsasən bu müddət "üç aydan" "60 gün" müddətinə endirildi (90,12.10.2016).

Referendumdan əvvəl Prezident vəzifəsindən vaxtından əvvəl gedərdisə yeni prezident seçilənədək onun səlahiyyətlərini

Baş nazir icra etməli idi. Dəyişiklikdən sonra isə Prezident vəzifəsindən vaxtından əvvəl getdikdə yeni Prezident seçilənədək onun səlahiyyətlərini Birinci vitse-prezidenti icra edəcək. Prezidentin səlahiyyətlərini icra edən Birinci vitse-prezident istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Prezidentin səlahiyyətlərini icra edəcək.

Eyni səbəblərdən də Prezidentin səlahiyyətlərini vitse-prezidentinin icra etməsi mümkün olmadıqda, Prezidentin səlahiyyətlərini Baş nazir icra edəcək.

Prezidentin səlahiyyətlərini Baş nazirin icra etməsi mümkün olmadıqda, Prezidentin səlahiyyətlərini Milli Məclisin sədri icra edəcək. Həmin səbəblərə görə Prezidentin səlahiyyətlərini Milli Məclisin sədri də icra etməsi mümkün olmadıqda, Milli Məclis Prezidentin səlahiyyətlərinin icrasını başqa bir vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edəcək və həmin şəxs də yeni prezident seçilənədək prezident vəzifəsini icra edəcəkdir (90,12.10.2016).

Konstitusiyaya həmçinin vitse-prezidentin şəxsiyyətinin toxunulmazlığı ilə bağlı da maddə əlavə edildi. Dəyişikliyə əsasən Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Baş prokurora xəbər verməlidir (90,12.10.2016).

Konstitusiyaya dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun başqa vəzifəli şəxslərə verilməsi haqda maddə əlavə edildi. Həmin maddəyə əsasən Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Nazirlər Kabinetinin üzvlərinə və Prezidentin

müəyyən etdiyi digər şəxslərə verə bilər. Bundan sonra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququ Azərbaycan Respublikasının Prezidenti ilə yanaşı göstərilən vəzifəli şəxslərdə bağlaya biləcəklər (90,12.10.2016).

Referendumda hakimlərin yaş həddi ilə bağlı da dəyişikliklər edildi. Əvvəl yaşı 30-da aşağı olmayan hər bir vətəndaş hakim seçilə bilərdi. Dəyişikliyə əsasən isə hakim vəzifəsinə seçilmək üçün tələb olunan yaş həddi aradan qaldırıldı. İndi seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim seçilə biləcəklər (90,12.10.2016).

Konstitusiyaya bələdiyyələrin mülki məsuliyyəti ilə bağlı da yeni bir maddə əlavə edildi. Həmin maddəyə əsasən bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyacaqlar.

Azərbaycan Respublikası Konstitusiyasına 26 sentyabr 2016-cı ildə edilən dəyişikliklərlə üçüncü konstitusiya islahatı müvəffəqiyyətlə başa çatdırıldı.

Qeyd etmək lazımdır ki, Konstitusiyasının qəbulu və konstitusiya islahatlarının keçirilməsi dövlət müstəqilliyini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu daha da mökməmləndirdi.

Konstitusiya islahatları gələcəkdə də aşağıdakı istiqamətlərdə davam etdirilməlidir:

Nazirlər Kabineti və baş nazir vəzifəsi ləğv edilməli və bütün səlahiyyətləri Azərbaycan Respublikasının vitse-prezidentinə verilməlidir;

Milli Məclis deputatlarının sayı artırılmalıdır. Belə ki, konstitusiya qəbul ediləndə respublikamızda əhalinin sayı təxminən 7,5 mln nəfər idi. Hal-hazırda isə əhalinin sayı 10 mln. nəfərdən çoxdur. Əhalinin sayının artımına müvafiq olaraq Milli Məclis deputatlarının da sayı artırılmalıdır;

Rayon, şəhər icra hakimiyyətləri ləğv edilməli və onların da səlahiyyətləri bələdiyyələrə verilməlidir;

Yerli özünüidarə sistemində geniş islahatlar keçirilməli, ümumi bələdiyyələr yaradılmalı və onların səlahiyyətləri artırılmalıdır;

Naxçıvan Muxtar Respublikasının hüquqi statusu məhdudlaşdırılmalıdır. Naxçıvana Muxtar Respublika statusu deyil, Muxtar Vilayət statusunun verilməsi həm hüquqi, həm də siyasi baxımdan daha düzgün olardı. Çünki konstitusiyaya əsasən Azərbaycan Respublikasının dövlət quruluşu unitar dövlətdir. Naxçıvanın statusunu isə konstitusiya deyil, konstitusiya qanunu tənzimləməlidir.

## Fəsil 2.

## Məhkəmə-Hüquq sistemində islahatlar.

### 1.Məhkəmə islahatının keçirilməsi.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə hüquq islahatlarının aparılmasına zəmin yaratdı. Konstitusiyada demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün bütün müddəalar öz əksini tapdı.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Sərəncamı ilə Hüquqi İslahatlar Komissiyası yaradıldı. Bu Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquq islahatlarının prioritetlərini müəyyən etməli və sovet hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirməli idi.

Məhkəmə-Hüquq sistemində islahatın keçirilməsinin məqsəd və vəzifələri müəyyən edildi. Hüquqi dövlət çərçivəsində məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinin təmin edilməsi, vətəndaşların məhkəməyə ədalətli araşdırma üçün müraciət etmək hüququnun təmin edilməsi, peşəkar hüquqi yardım almaq imkanı, məhkəmə qərarlarından şikayət vermək hüququnun həyata keçirilməsi və sair.

Keçiriləcək məhkəmə islahatı ilə totalitar rejimə xas olan keçmiş sovet dövründən qalmış köhnə məhkəmə sisteminin müstəqillik şəraitinə uyğun gələn yeni demokratrik məhkəmələrin yaradılması qarşıda duran əsas vəzifələrdən biri idi. İlk növbədə islahatların hüquqi bazası formalaşdırılmalı və qəbul edilən qanunlar beynəlxalq hüquq normalarına uyğunlaşdırılmalı idi.

10 iyun 1997-ci il tarixində "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul edildi və bu qanun qüvvəyə minməsi

ilə əlaqədar olaraq məhkəmə islahatlarının həyata keçirilməsinə başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 17 yanvar 2000-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında hakim vəzifəsinə namizədlərin seçilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Fərmanı ilə hakimlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun seçilməsi, hakimliyə namizədlərin peşə hazırlığının, bu vəzifəyə layiq olmasının müəyyən edilməsi və hakim vəzifəsinə ixtisaslı və səriştəli şəxslərin təyin edilməsi məqsədlərinə uğurla nail olundu.

İlk dəfə olaraq 2000-ci ilin aprel ayında test üsulu və müsahibə əsasında vakant hakim vəzifəsinə seçki keçirildi. İmtahanı uğurla keçən namizədlər Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 1 sentyabr 2000-ci ildən hakim vəzifəsinə təyin olundular. Bununla da Azərbaycan Respublikasında yeni hakim korpusu formalaşdırıldı. Əvvəlki hakim korpusu 60% yeniləndi. Bundan sonra Ümummilli Lider ABŞ-da "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda keçirilmiş beynəlxalq konfransda demişdir: "Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu ".

Məhkəmə islahatının uğurla həyata keçirilməsi üçün yeni Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual Məcəllələri qəbul edildi. Həmin Məcəllələr 1 sentyabr 2000-ci ildən qüvvəyə mindi.

Beləliklə 2000-ci ilin sentyabr ayında yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başladı. Bunula da məhkəmə islahatının birinci mərhələsi başlandı. Bu mərhələ 2000-ci ilin sentyabrından-2010-cu ilin iyununadək olan dövrü əhatə edir.

"Məhkəmələr və hakimlər haqqında" Qanuna əsasən 2000-ci ildə Azərbaycan Respublikasının məhkəmə sisteminə aşağıdakı məhkəmələr daxil edildi:

- rayon (şəhər) məhkəmələri;
- Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının məhkəməsi;
- Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi;
- hərbi məhkəmələr;
- Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi;
- yerli iqtisad məhkəmələri;
- Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsi;
- Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;
- Azərbaycan Respublikasının Apellyasiya məhkəməsi;
- Azərbaycan Respublikasının İqtisad Məhkəməsi;
- Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Məhkəmə islahatına əsasən respublikamızda aşağıdakı üç pilləli məhkəmə sistemi təşkil edildi.

1. birinci instansiya məhkəmələri;
2. apellyasiya məhkəməsi;
3. ali məhkəmə.

Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onların hüquqa və fakta görə apelyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yoxlanılmasına imkan yaratdı. Bu isə, öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə, süründürməçiliyin aradan qaldırlmasına, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə zəmin yaratdı.

Rayon (şəhər) məhkəmələri, ağır cinayətlər məhkəmələri, inzibati məhkəmələr, Kommersiya məhkəmələri, hərbi məhkəmələr birinci instansiya məhkəməsi kimi fəaliyyət göstərirlər.

Rayon (şəhər) məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş mülki, cinayət işlərinə və inzibati xətalara dair və digər

işlərə baxır. Bu məhkəmələrdə işlərə bir hakimdən ibarət tərkibdə, yalnız Ağır Cinayətlər Məhkəməri işə üç hakimdən ibarət tərkibdə baxır.

Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsi 2000-ci ildə təşkil ediləndə nəzərdə tutulmuşdur ki, qanunla səlahiyyətlərinə aid edilmiş mülki, cinayət və inzibati xətalara dair işlər üzrə apellyasiya instansiya məhkəməsidir. 30 dekabr 2005-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə "Məhkəmələr və hakimlər haqqnda" Qanuna dəyişiklik edilərək apellyasiya məhkəmələrinə mülki, kommersiya və inzibati mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsi səlahiyyəti verildi. Beləliklə bu dəyişikliklə apellyasiya məhkəmələrinə baxdıqları işlər üzrə yuxarı instansiya məhkəməsi səlahiyyətlərini verdi (18,2005, №1, maddə 7).

30 dekabr 2005-ci il Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikasının İqtisad Məhkəməsi ləğv edildi. Həmin qanununa əsasən bölgələrdə də apellyasiya məhkəmələri yaradıldı. Hal-hazırda respublikamızda Bakı Apellyasiya Məhkəməsi, Gəncə Apellyasiya Məhkəməsi, Sumqayıt Apellyasiya Məhkəməsi, Şəki Apellyasiya Məhkəməsi və Şirvan Apellyasiya Məhkəməsi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi səlahiyyətlərinə aid edilmiş işlər üzrə apellyasiya instansiya məhkəməsi kimi fəaliyyət göstərir və onun səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir (18,2005, №1,maddə 7).

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarlarından kassasiya şikayəti Azərbaycan Respublikasının Ali Məhkəməsinə verilir.

Konstitusiyanın 132-ci maddəsinə əsasən apellyasiya məhkəməsi mülki, kommersiya və inzibati mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir. Apellyasiya məhkəməsinin təşkili və olduğu yer Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla

Azərbaycan Respublikası Prezidenti tərəfindən və ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir (90,6.12.2016).

Konstitusiyanın 131-ci maddəsinə əsasən Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən kommersiya və inzibati mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

14 iyun 2005-ci il qanunadək Ali Məhkəmə kassasiya instansiya məhkəməsi kimi müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsi həyata keçirir, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin fəaliyyətinə nəzarət edirdi. Göstərilən qanunla Ali Məhkəmənin ümumi və ixtisaslaşdırılmış məhkəmələrin fəaliyyətinə nəzarət funksiyası aradan qaldırıldı. Bu dəyişiklikdən sonra Ali Məhkəmə kassasiya instansiya məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirməyə başladı (18,2005, №8,maddə 686).

Ali Məhkəmə Respublikamızda kassasiya instansiyası məhkəməsi kimi fəaliyyət göstərir onun səlahiyyətləri Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Ali Məhkəmə Plenumdan və kassasiya kollegiyasından ibarətdir.

Sovet dövründə Ali Məhkəmənin səlahiyyəti daha geniş idi. Ali Məhkəmə həm birinci instansiya, həm də kassasiya instansiyası məhkəməsi funksiyalarını həyata keçirməklə yanaşı, həm də qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına nəzarət qaydasında işlərə yenidən baxmaq hüququna malik idi. Məhkəmə islahatı müxtəlif məhkəmə instansiyalarının səlahiyyətlərinə aid olan bu funksiyaların Ali Məhkəmədə cəmləşməsini aradan qaldırdı. "Məhkəmələr və hakimlər haqqında" Qanun köhnə məhkəmə quruluşundan tamamilə imtina etdi və beynəlxalq standartlara cavab verən yeni məhkəmə quruluşunu yaratdı.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına

dəyişikliklər və əlavələr edilməsi haqqında" 19 yanvar 2006-cı il tarixində Fərman imzaladı. Bu fərmanla respublikamızda məhkəmə sistemində islahatların ikinci mərhələsinin əsası qoyuldu. İkinci mərhələ 2010-cu ilin iyunundan-3 aprel 2019-cu ilədək dövrü əhatətə edir. Bu mərhələdə məhkəmə islahatı regionları da əhatə edərək regionlarda da apellyasiya və yerli iqtisad məhkəmələri təşkil edildi.

Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq regional əhəmiyyət kəsb edən böyük enerji və nəqliyyat-kommuniksiya infrastrutkrunun inkişaf etdirilməsi layihələri, regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasının iqtisadi siyasət kursunun əsas məqsədi iqtisadi inkişaf templərini daha da artırmaq, sosial-iqtisadi islahatları sürətləndirmək, xarici ölkələrlə iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək, yeni texnologiyaların ölkəmizə gətirilməsi ilə onun müasirləşməsinə nail olmaq və bu inkişafa mane ola biləcək amilləri aradan qaldırmaqdır. Belə ki, iqtisadiyyatın sürətli inkişafı, eyni zamanda mülki və iqtisadi mübahisələrin sayının artmasına gətirib çıxarır. İqtisadi islahatlar prosesində yaranan yeni mülkiyyət münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının müdafiəsi müstəqil məhkəmə sistemini və səmərəli ədalət mühakiməsini zəruri edir.

Fərmanda qeyd edilirdi ki, məhkəmə sisteminin müasirləşdirilməsinin növbəti mərhələsində regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulur.

Regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həlli nəzərdə tutulur.

Regionların sosial-iqtisadi inkişafına xüsusi əhəmiyyət verilərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rayonlarda yaşayan vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsini yaxşılaşdırmaq, onlarda narazılıq doğuran sui-istifadə, süründürməçilik hallarını, eləcə də digər nöqsanları aradan qaldırmaq, ədalət mühakiməsinin səmərəliliyini yüksəltmək, məhkəmələrə inamı artırmaq, vətəndaşların müraciət imkanlarını asanlaşdırmaq məqsədilə 19 yanvar 2006-cı il tarixdə Fərmanı imzalamışdır (28).

Fərmanda göstərilirdi ki, Bakı şəhərində yerləşən və respublika üzrə vahid olan apellyasiya və iqtisad məhkəmələrinə müraciətlərin çətinliklər yaratması nəzərə alınaraq, ölkənin bütün bölgələrini əhatə edən 6 regional apelyasiya, habelə regionlarda əlavə olaraq 3 yerli iqtisad məhkəməsi təşkil edilsin.

Fərmanda Məhkəmə-Hüquq Şurasına apellyasiya məhkəmələrinin, yerli iqtisad məhkəmələrinin, müvafiq hərbi məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsinə dair təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsini və yeni təşkil edilmiş məhkəmələrdə hakimlərin sayının müəyyən edilməsi və digər məhkəmələrdə isə hakimlərin sayının artırılması barədə təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etməyi, hakimlərin peşə səviyyəsinin artırılması, hakim vəzifələrinə namizədlərin müasir tələblərə cavab verən hazırlığının təmin edilməsi üçün tədbirlər

görülməsini, ədalət mühakiməsinin həyata keçirilməsinin yüksək mənəvi və mədəni meyarlarının müəyyən edilməsi məqsədilə Hakimlərin Etik Davranış Kodeksini hazırlanmasını, hakimlərin fəaliyyətində sui-istifadə, korrupsiya halları və digər qanun pozuntuları ilə bağlı müraciətlərin təxirəsalınmadan araşdırılması və müvafiq əsaslar olduğu halda hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi üçün ciddi tədbirlər görülməsini tövsiyə edilirdi (28).

Həmçinin Məhkəmə-Hüquq Şurasına tövsiyə edilirdi və Ədliyyə Nazirliyinə tapşırılırdı ki, məhkəmələrin fəaliyyətinin təşkilati məsələlərini təhlil etsinlər, məhkəmələrdə statistika və kargüzarlığın aparılması işini təkmilləşdirsinlər, müvafiq məhkəmələrdə əmək və icra intizamına ciddi əməl olunmasını təmin etsinlər, süründürməçilik hallarının və vətəndaşların qəbulunda olan nöqsanların aradan qaldırılması üçün tədbirlər görsünlər (28).

Ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsi məqsədilə Ali Ədliyyə Məktəbinin yaradılması tapşırığı da verildi (28).

Ali Məhkəməyə, apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilirdi ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar (28).

Baş Prokurorluğa da tövsiyə edilirdi ki, yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin təşkilində müvafiq dəyişikliklər etsin və Vəkillər Kollegiyasına da tövsiyə edilirdi ki, yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, vəkillərin sayının artırılması məsələsinə baxsın və regionlarda əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin artırılması üçün tədbirlər görsün (28).

Fərmanda göstərilən tələblərin icrası ilə əlaqədar olaraq Bakı 1 saylı və 2 saylı Yerli İqtisad Məhkəmələri, Şirvan Yerli

İqtisad Məhkəməsi, Gəncə Yerli İqtisad Məhkəməsi, Sumqayıt Yerli İqtisad Məhkəməsi, Şəki Yerli İqtisad Məhkəməsi və Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsi yaradıldı. Ədliyyə Akademiyası təşkil edildi, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqləndi, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olundu, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirildi.

Azərbaycan Respublikasında iqtisadi mübahisələrə dair işlərə Yerli iqtisad məhkəmələri, Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsi və Azərbaycan Respublikasının iqtisad məhkəməsi tərəfindən baxılırdı.

Yerli iqtisad məhkəmələri və Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsi birinci instansiya məhkəmələri kimi fəaliyyət göstərmişdir.

İqtisad Məhkəməsi iqtisadi mübahisələrə dair işlər üzrə yuxarı məhkəmə orqanı idi. İqtisad Məhkəməsi apellyasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş qaydada yerli iqtisad məhkəmələrinin və Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsinin baxdığı işlərə dair qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə işlərə baxırdı.

Azərbaycan Respublikasının İqtisad Məhkəməsinin qərarlarından Ali Məhkəmənin iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyasına kassasiya şikayəti verilirdi. 30 dekabr 2005-ci il tarixli Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan Respublikasının İqtisad Məhkəməsi ləğv edildi (18,2005, №1,maddə 7).

Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş iqtisadi mübahisələrə dair işlərə baxırdı və onun səlahiyyətləri Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilirdi. Bu məhkəmə 2000-ci ildən 2006-cı ilə kimi fəaliyyət göstərib və 30 dekabr 2005-ci il Azərbaycan

Respublikasının qanuna əsasən özünü doğrutmadığına görə ləğv edildi (18,№1,2006).

22 iyun 2010-cu il tarixli Azərbaycan Respublikasının qanununa əsasən Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsinin əsasında Bakı, Lənkəran, Gəncə və Şəki Ağır Cinayətlər Məhkəmələri yaradıldı (90,2010.17.07).

03 fevral 2021-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Sumqayıt Ağır Cinayətlər Məhkəməsi təşkil edildi. Onun ərazi yurisdikasiyasına Sumqayıt şəhəri, Xızı, Şabran, Siyəzən, Quba, Xaçmaz və Qusar rayonları daxil edildi. Həmin tarixədək göstərilən rayonlarda baş verən ağır və xüsusilə ağır cinayət işlərinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılırdı. Ağır Cinayətlər Məhkəmələri birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş ağır və xüsusilə ağır cinayət işlərinə baxır.

22 iyun 2010-cu il tarixli "Məhkəmələr və hakimlər haqqında" Qanuna edilmiş dəyişikliyə və Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2010-cu il tarixli fərmanına əsasən Yerli İqtisad Məhkəmələri də ləğv edildi və həmin məhkəmələrin əsasında Bakı 1 saylı və 2 saylı İnzibati-İqtisad məhkəməsi, Gəncə İnzibati-İqtisad məhkəməsi, Sumqayıt İnzibati-İqtisad məhkəməsi, Şəki İnzibati-İqtisad məhkəməsi, Şirvan İnzibati-İqtisad məhkəməsi və Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisad məhkəməsi yaradıldı (90,17.07.2010).

Respublikamızda yeni İnzibati-İqtisad Məhkəmələrinin yaradılması həyata keçirilən məhkəmə islahatının məntiqi nəticəsi idi. Həmin məhkəmələrin təşkili ilə yanaşı həmçinin yeni qanunvericilik bazası da formalaşdırıldı. 21 oktyabr 2005-ci ildə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və 30 iyun 2009-cu ildə isə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi qəbul edildi. Hər iki qanun eyni vaxtda 1 yanvar 2011-ci ildə qüvvəyə mindi.

9 iyul 2019-cu il tarixli Azərbaycan Respublikasının qanununa əsasən İnzibati-İqtisad Məhkəmələri ləğv edildi və həmin məhkəmələrin əsasında Bakı İnzibati və Kommersiya

məhkəmələri, Gəncə İnzibati və Kommersiya məhkəmələri, Şəki İnzibati və Kommersiya məhkəmələri, Sumqayıt İnzibati və Kommersiya məhkəmələri, Şirvan İnzibati və Kommersiya məhkəmələri və Naxçıvan Muxtar Respublikası İnzibati və Kommersiya məhkəmələri yaradıldı (90,17.07.2010).

Hərbi məhkəmələr Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qarnizonlarının yerləşdiyi ərazilərdə və bu məhkəmənin fəaliyyət dairəsinə aid edilmiş hərbi hissələrin sayı nəzərə alınmaqla təşkil edilirdi. Hərbi məhkəmənin səlahiyyəti müvafiq qarnizonun hərbi hissələrinə şamil edilirdi. 30 dekabr 2005-ci il tarixində Qanuna dəyişiklik edildi. Dəyişiklikdən sonra hərbi məhkəmələr hərbi hissələrin sayı nəzərə alınmaqla onların yerləşdikləri inzibati ərazi vahidləri üzrə yaradılmağa başlandı (18,2005, №1,maddə 7).

Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1999-cu il tarixli Fərmanına əsasən Bakı hərbi məhkəməsi, Naxçıvan Muxtar Respublikası hərbi məhkəməsi, Sumqayıt hərbi məhkəməsi, Gəncə hərbi məhkəməsi, Lənkəran hərbi məhkəməsi, Füzili-Qubadlı hərbi məhkəməsi, Tərtər hərbi məhkəməsi, Ağdam hərbi məhkəməsi və Qazax hərbi məhkəməsi yaradıldı.

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2010-ci il tarixli Fərmanı ilə Cəlilabad hərbi məhkəməsi təşkil edildi.

22 iyun 2010-cu il tarixli Azərbaycan Respublikasının qanununa əsasən Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi, Lənkəran hərbi məhkəməsi, Ağdam hərbi məhkəməsi və Sumqayıt hərbi məhkəməsi ləğv edildi. Həmin məhkəmələrin əsasında Bakı, Cəlilabad, Füzuli, Gəncə, Tərtər və Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəmələri yaradıldı (90,17.07.2010).

Hərbi məhkəmələr birinci instansiya məhkəməsi kimi müharibə və hərbi xidmət əleyhinə olan böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə dair, habelə hərbi qulluqçular tərəfindən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə dair işlərə baxır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 3 aprel 2019-cu il tarixində "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzaladı. Bununlada məhkəmə sistemində həyata keçirilən islahatların üçünçü mərhələsi başlandı. Bu mərhələdə vahid məhkəmə praktikasının formalaşması, elektron məhkəmə sisteminə keçid və s. bu kimi tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Həmin Fərmanla Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Məhkəmə-Hüquq Şurasına tövsiyə edilmişdir ki, məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Ali Məhkəməyə vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər (44).

Məlum olduğu kimi Fərmanın qəbul olunduğu tarixədək ölkəmizdə vahid məhkəmə təcrübəsini formalaşdırmağa imkan verən mexanizmlər kifayət qədər təkmil deyildi. Belə ki, Ali Məhkəmənin Plenumu tərəfindən verilən izahlar tövsiyə xarakteri daşıdığından və onun nəzərə alınmamasının heç bir hüquqi nəticəsi olmadığından vahid məhkəmə təcrübəsinin yaradılmasında həmişə nəzərdə tutulan nəticəyə nail olmaq mümkün olmurdu. Bundan başqa, işə baxan Ali Məhkəmənin məhkəmə tərkibləri arasında hüququn tətbiqində yaranan fikir ayrılıqlarının hansı qaydada həll edilməli olduğunu nizama salan təkmil mexanizm də mövcud deyildi. Ona görə də, bəzi hallarda, məhkəmə tərkibləri tərəfindən oxşar faktiki halları olan mübahisələr üzrə fərqli qərarların qəbul edilməsinə rast gəlmək mümkün olurdu (44).

Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının icrası ilə əlaqədar bir neçə qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edildi.

Belə ki, “Məhkəmələr və hakimlər haqqında” Qanunda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli Qanunu ilə yeni 79-1-ci maddə əlavə edildi.

Dəyişikliyə əsasən Ali Məhkəməyə vahid məhkəmə təcrübəsi formalaşdırmaq hüququ verildi (90,22.12.2019).

Həmin dəyişikliyə qədər Ali Məhkəmənin Plenumu tərəfindən verilən izahlar və məhkəmə kollegiyalarının qərarları tövsiyə xarakteri daşıyırdı və onların nəzərə alınmaması heç bir hüquqi nəticəyə səbəb olmurdu. Bu səbəbdən vahid məhkəmə təcrübəsini formalaşdırmaq mümkün deyildir.

Vahid məhkəmə təcrübəsinin formalaşmasında əsas məqsəd məhkəmələrin hüquqi məsələlərə yanaşmasında sabitliyin təmin edilməsi və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etməkdən ibarətdir.Vahid məhkəmə təcrübəsinin formalaşdırılmasının olduqca həm təcrübi, həmdə hüquqi əhəmiyyəti vardır. Belə ki, Ali Məhkəmə tərəfindən formalaşdırılan vahid məhkəmə təcrübəsi birinci instansiya, apellyasiya və kassasiya instansiya məhkəmələri tərəfindən oxşar işlərə baxılmasında mütləq nəzərə alınır.

Qanuna görə Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır (90,22.12.2019).

Vahid məhkəmə təcrübəsi ilə əlaqədar qanunvericilikdə edilmiş dəyişikliyin əsas mahiyyəti ondan ibarətdir ki, həmin təcrübə qüvvədə olduğu müddətdə məhkəmələr üçün məcburi xarakter daşıyır. Yəni, təcrübənin mövcud olduğu zaman kəsiyində məhkəmələrin qəbul etdikləri qərarlar ona uyğun olmalıdır. Belə ki, təcrübəyə əməl olunmaması həmin qərarların ləğvi üçün əsas hesab olunur (227,21.12.2019).

Hüququn inkişafını təmin etmək məqsədi ilə formalaşmış mövcud təcrübənin dəyişdirilməsi, Apellyasiya Məhkəməsi və

ya Ali Məhkəmənin məhkəmə tərkibi tərəfindən göstərilmiş təşəbbüsə əsasən məhkəmə təcrübəsinin yenisi ilə əvəzlənməsi anına kimi mövcud olan təcrübə məcburi xarakter daşıyır .

Qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərdən sonra Ali Məhkəmənin Plenumunun müxtəlif məsələlərə dair işlər üzrə maddi və prosessual hüquq normalarının tətbiqinə dair verdiyi izahla bağlı qərarlarının hüquqi əhəmiyyəti artmaqdadır.Vahid məhkəmə təcrübəsi formalaşmasınadək Ali Məhkəmənin Plenumunun qərarları məcburi hüquqi qüvvəyə malik deyildi, tövsiyə xarakterli idi. Yeni dəyişikliklərlə Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlarla bağlı qərarlarının məcburi hüquqi qüvvəyə malik olduğu təsbit edildi. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması isə məhkəmə aktlarının ləğv edilməsinə yalnız o halda əsas olacaqdır ki, qətnamə, hökm, qərar və ya qərardad Ali Məhkəmənin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın (227, 21.12.2019).

Ali Məhkəmənin İnzibati Kollegiyasının 06 noyabr 2023-cü il tarixli qərardadında göstərilir ki, məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməməsi hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxarır. Belə ki, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün həm hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə olunacağına, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir.

Vahid məhkəmə təcrübəsinin mövcudluğu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyinin və ədalət

mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsinin təminatı kimi çıxış edir. Qanunun eyni cür tətbiqi hüququn ümumiliyini, qanun qarşısında bərabərliyi və hüquqi müəyyənliyi təmin edir. Hüquqi dövlətdə bu prinsiplərin hakim olması şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə olan inamını artırır, onlara öz hərəkətlərinin hüquqi nəticələrini öncədən görmə imkanı verir. Bundan başqa, vahid məhkəmə təcrübəsinin mövcudluğu oxşar məhkəmə işlərinin həllinin proqnozlaşdırıla bilən olmasını təmin etməklə mübahisələrin məhkəmədən kənar həllinə kömək edir, bununla həm də, son nəticədə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verilmiş olur (46).

Vahid məhkəmə təcrübəsi işlərə baxılması zamanı normativ-hüquqi aktların və Ali Məhkəmə tərəfindən işlənib hazırlanmış izahların vahid şəkildə tətbiq edilməsini təmin edən əsas rəhbər ideyalar və mülahizələrdir. Vahid məhkəmə təcrübəsi məhkəmə icraatında aşağı məhkəmələrin Ali Məhkəmə tərəfindən hazırlanmış məhkəmə təcrübəsinin eyniliyini, ardıcıllığını təmin edir (157,№ 4.2023).

Məhkəmə praktikasının vahidliyinin və ardıcıllığının təmin edilməsinin hər bir ölkənin hüquq sistemi üçün böyük əhəmiyyəti vardır. Bununla ilk növbədə, hüquq tətbiqetmə təcrübəsində qanunvericilik normalarının vahid qaydada anlaşılması və tətbiq edilməsi təmin edilmiş olur. Məhkəmə praktikası həmçinin hüquq normalarının effektivliyinin yoxlanılmasına, qanunvericilikdə olan boşluqların və kolliziyaların aşkar edilməsinə, onların aradan qaldırılması və təkmilləşdirilməsi üçün uyğun tədbirlərin nələrdən ibarət olacağının müəyyənləşdirilməsinə imkan verir. Bu mənada, vahid məhkəmə praktikası həm də qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsinə, eləcə də dövlət orqanlarının praktikalarının dəyişməsinə və inkişafına gətirib çıxarır.

Vahid məhkəmə təcrübəsi üçün üç şərt tələb olunur. Vahid məhkəmə təcrübəsi mövcud və aydın olmalı, kifayət

qədər müddət ərzində davamlı tətbiq edilməklə sabit təcrübəyə çevrilməli və təcrübə tərəflər üçün əlçatan və bəlli olmalıdır.

Həmin maddənin tələbinə görə vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır. Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Vahid məhkəmə təcrübəsinin tətbiqi ilə əlaqədar olaraq Cinayət-Prosessual Məcəlləyə, Mülki-Prosessul Məcəlləyə və İnzibati-Prosessual Məcəlləyə əlavələr edildi.

29 noyabr 2019-cu il tarixli Azərbaycan Respublikası Qanununa əsasən Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab hesab etdikdə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki, kommersiya və inzibati kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

Ali Məhkəmənin mülki, kommersiya və inzibati kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki, kommersiya və inzibati kollegiyaların hakimlərinin azı

üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır (90,2019.20.12.№ 283).

29 noyabr 2019-cu il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Ali Məhkəmənin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın (90,2019.22.12.№ 285).

Məhkəmə sisteminin təşkili, hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri həll etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1 dekabr 1998-ci ildə Azərbaycan Respublikası Prezidentinin yanında Məhkəmə-Hüquq Şurası yaradıldı

"Məhkəmə-Hüquq Şurası haqqında" Qanun 28 dekabr 2004-cü ildə qəbul edildi və 2005-ci ilin fevralından isə Şura fəaliyyətə başladı.

Qanuna əsasən Məhkəmə-Hüquq Şurası daimi fəaliyyət göstərən müstəqil orqandır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir.

Məhkəmə-Hüquq Şurası 15 üzvdən ibarət tərkibdə fəaliyyət göstərir. Məhkəmə-Hüquq Şurasının tərkibinə kassasiya instansiyası məhkəməsinin, apellyasiya instansiyası məhkəmələrinin, birinci instansiya məhkəmələrinin hər birindən

üç hakim, Konstitusiya Məhkəməsi tərəfindən təyin edilən hakim, Milli Məclis tərəfindən təyin edilən şəxs, Ədliyyə Nazirliyi tərəfindən təyin edilən şəxs, Vəkillər Kollegiyası tərəfindən təyin edilən vəkil, Milli Elmlər Akademiyası tərəfindən təyin edilən hüquqşünas alim və hüquq ictimaiyyətinin hakimlərin konfransı tərəfindən seçilən nümayəndələr təmsil olunurlar (68).

Məhkəmə-Hüquq Şurasına üzv seçilən və ya təyin edilən şəxslər ali hüquq təhsilinə və hüquqşünas ixtisası üzrə on ildən artıq iş stajına malik olmalıdırlar. Məhkəmə-Hüquq Şurası üzvlərinin səlahiyyət müddəti beş ildir (68).

Ədliyyə Naziri və Ali Məhkəmənin sədri vəzifəsinə görə Məhkəmə-Hüquq Şurasının üzvləri hesab edilirlər. Ədliyyə Naziri 9 iyun 2023-cü ilədək Məhkəmə-Hüquq Şurasına rəhbərlik etmişdir. Bu həm hüquqi, həmdə siyasi cəhətdən düzgün hesab edilmirdi. Belə ki, Ədliyyə Naziri hakimiyyət bölgüsündə icra hakimiyyətinə aid edilir. Müstəqil məhkəmə hakimiyyətinin də icra hakimiyyətinin nümayəndəsinə tabe edilməsi məhkəmələrin və hakimlərin müstəqilliyini məhdudlaşdırırdı. Ümumiyyətlə məhkəmələrin ədliyyə nazirliyinə tabe edilməsi sovetlər dövründən qalmış köhnəlmiş avtoritar idarəçiliyin bir qalığı idi. Məqsəd isə məhkəmələrin və hakimlərin müstəqilliyinə imkan verməmək, onları sovet dövlət və partiya aparatına tabe etməkdən ibarət olmuşdur.

9 iyun 2023-cü ildə "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna dəyişiklik edildi. Dəyişikliyə əsasən Məhkəmə-Hüquq Şurasının sədri Şuranın hakim üzvləri sırasından sadə səs çoxluğu ilə beş il müddətinə seçilir (90,2023.15.06.N 126).

Bu dəyişiklikdən sonra Ali Məhkəmənin sədri Məhkəmə-Hüquq Şurasın sədri seçildi. Bununla da demək olar ki, məhkəmə hakimiyyətinin icra hakimiyyəti orqanlarından asılılığı getdikcə zəifləməyə başladı.

Məhkəmə-Hüquq Şurası məhkəmələrin təşkil olunmasına dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir, məhkəmələrin ərazi yurisdiksiyasını müəyyən edir, hakim

vəzifəsinə namizədlərin seçilməsi işini təşkil edir, hakimlərin fəaliyyətini qiymətləndirir, hakimlərin iş yerinin dəyişdirilməsinə, onların vəzifədə irəli çəkilməsinə, səlahiyyət müddətinin uzadılmasına, Ali Məhkəmənin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, ağır cinayətlər məhkəmələrinin sədrləri istisna olmaqla təyin olunmuş hakimlər sırasından məhkəmə sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsinə, habelə bu şəxslərin vəzifədən azad edilməsinə və ya digər vəzifəyə keçirilməsinə dair məsələləri həll edir (68).

Məhkəmə islahatının keçirilməsinin istiqamətlərindən biri də hakimlərin seçilməsidir. Belə ki, sovetlər dövründə hakimlər formal olar xalq tərəfindən seçilirdi. Əslində isə hakimlər sovet dövlət və partiya aparatı tərəfindən vəzifəyə təyin edilidilər. Müstəqillik dövründə hakimlərin seçilməsi prosesində də ciddi dəyişikliklər edildi.

Hakim vəzifəsinə namizədlərin seçilməsini ayrıca bir orqan Hakimlərin Seçki Komitəsi həyata keçirir. Hakimlərin Seçki Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən təşkil edilir və hakim vəzifəsinə namizədlərin seçimini həyata keçirir (18,2005.N 1.maddə7).

Məhkəmə-Hüquq Şurası 11 mart 2005-ci il tarixli qərarı ilə Hakimlərin Seçki Komitəsi haqqında əsasnaməni təsdiq etdi. Şura hakim vəzifəsinə namizədlərin seçkisini həyata keçirmək məqsədi ilə 11 üzvdən ibarət Hakimlərin Seçki Komitəsini formalaşdırır. Ali Məhkəmənin iki hakimi, apellyasiya instansiyası məhkəmələrinin dörd hakimi, Milli Məclis Aparatının nümayəndəsi, Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndəsi, Ədliyyə Nazirliyinin nümayəndəsi, Prokurorluğun nümayəndəsi, Vəkillər Kollegiyasının üzvü və hüquqşünas alimdən ibarət tərkibdə təşkil edilir.

Hakimlərin Seçki Komitəsi üzvlərinin səlahiyyət müddəti beş ildir. Məhkəmə-Hüquq Şurasının və ya Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvü eyni zamanda Hakimlərin Seçki Komitəsinin üzvü ola bilməz.

2005-ci ildən-2024-cü ilə kimi vakant hakim vəzifəsinə namizədlər yazılı (test və yazılı inşa) və şifahi imtahan əsasında seçilirdilər. İmtahanlardan müvəffəqiyyətlə keçmiş namizədlər avtomatik şəkildə uzunmüddətli təlim mərhələsi keçirdilər. Təlim mərhələsi tədris müəssisəsində təşkil edilirdi.

Təlim mərhələsi başa çatdıqdan sonra hər bir namizəd qiymətləndirilir. Namizədin qiymətləndirilməsi tədris müəssisəsi tərəfindən təqdim olunmuş tədrisin nəticələri və namizədin Hakimlərin Seçki Komitəsi üzvləri ilə yekun müsahibəsinin əsasında həyata keçirilirdi. Namizədlərin qiymətləndirilməsi bal sistemi ilə aparılırdı.

Namizədlər Hakimlərin Seçki Komitəsi tərəfindən topladıqları ballara uyğun sıralanırlar.

7 noyabr 2024-cü il tarixli "Məhkəmələr və hakimlər haqqında"Qanuna edilən dəyişiklikdən sonra vakant hakim vəzifəsinə namizədlər test imtahanı, yazılı imtahan və müsahibə əsasında seçilirlər. İmtahanlar və müsahibə Hakimlərin Seçki Komitəsi tərəfindən aparılır. İmtahanların və müsahibənin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Şura isə namizədlərin vakant hakim vəzifəsinə təyin edilmələri barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir (90,2024.1.12.N 278).

Göründüyü kimi qanunda edilən dəyişiklikdən sonra namizədlər artıq təlim mərhələsi keçmədən qiymətləndirilərək hakim vəzifəsinə təyin olunmağa başladılar.

Hakim vəzifəsinə namizədlərin seçilməsində ədalətsizliyə də yol verilirdi. Bu istiqamətdə ən qanunsuz və ədalətsiz qərar 2008-ci ilin dekabrında Məhkəmə-Hüquq Şurası tərəfindən şifahi olaraq verilmişdir. Beləki həmin şifahi qərarda göstərilirdi ki, iki dəfə dalbadal hakim seçkilərində iştirak edib hakim seçilməyən namizədlər üç vakant hakim seçkilərində iştirak edə bilməzdi. Həmin namizədlərin sənədləri Hakimlərin Seçki Komitəsi tərəfindən qəbul edilmir və imtahana buraxılmırdılar. Bu ədalətsiz qərardadan da məqsəd iki dəfə vakant hakim

seçkilərində iştirak edib, hakim seçilməyən və münasib bilmədikləri daha hazırlıqlı namizədlərin hakim seçilmələrinin qarşısını almaq idi. Bu ədalətsiz qərar 2022-cü ilədək qüvvədə oldu.

Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən həyata keçirilir. Məhkəmə-Hüquq Şurasının 23 yanvar 2025-ci il tarixli Qərarı ilə "Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnamə" təsdiq edildi.

Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onların peşə hazırlığının artırılması məqsədilə təşkil edilən orqandır.

Şura hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə 9 üzvdən ibarət Hakimlərin Qiymətləndirilməsi Komitəsini təşkil edir. Komitənin tərkibinə Azərbaycan Respublikası Ali Məhkəməsinin, apellyasiya instansiyası məhkəmələrinin və birinci instansiya məhkəmələrinin hər birindən üç hakimi daxildir.

Məhkəmə-Hüquq Şurasının və ya Hakimlərin Seçki Komitəsinin üzvü eyni zamanda Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvü ola bilməz. Komitə üzvlərinin səlahiyyət müddəti beş ildir.

Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ədalət mühakiməsinin keyfiyyətinin artırılması, məhkəmə sistemində idarəçiliyin təkmilləşdirilməsi, hakimlərin vəzifədə irəli çəkilməsində şəffaflığın təmin olunması, onların fəaliyyətinin stimullaşdırılması, tədris ehtiyaclarının müəyyənləşdirilməsi və fəaliyyətini davam etdirməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə aparılır.

Məhkəmə-Hüquq Şurası ilk dəfə 3 il müddətinə təyin edilmiş hakimlərin fəaliyyətini həmin müddətin sonunda, digər hakimlərin fəaliyyətini 5 ildə bir dəfədən az olmayaraq, məhkəmə sədrlərinin, sədr müavinlərinin və kollegiya sədrlərinin

inzibati səlahiyyətlərin icrası üzrə fəaliyyətini isə həmçinin bu vəzifələr üzrə fəaliyyət müddətinin sonunda qiymətləndirir.

Hakimlərin fəaliyyəti Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən toplanılan materiallar əsasında onların peşəkarlıq səviyyəsini müəyyən etməyə imkan verən kəmiyyət (məhkəmə fəaliyyəti üzrə iş yükü və onun öhdəsindən gəlmək bacarığı) və keyfiyyət (məhkəmə aktlarının və məhkəmə proseslərinin idarə edilməsi keyfiyyəti, kommunikasiya bacarıqları, hakim etikası və intizamlılıq) göstəriciləri üzrə qiymətləndirilir.

Hakimlərin Qiymətləndirilməsi Komitəsi hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə dair yekun rəy tərtib edərək Məhkəmə-Hüquq Şurasına təqdim edir.

Şura Hakimlərin Qiymətləndirilməsi Komitəsindən daxil olmuş yekun rəyi iclasında müzakirə edir və hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinin təsdiqinə dair qərar qəbul edir.

İslahatların başlanmasından keçən 25 il ərzində Şura tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və tədrisinin müasir tələblər səviyyəsində təşkili, qanun pozuntusu, süründürməçilik və digər mənfi halların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülüb.

Məhkəmə islahatlarının istiqamətlərindən biri də elektron məhkəmə sisteminin yaradılmasından ibarət idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 fevral 2014-cü il tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" sərəncamı bu sahədə işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əhəmiyyətli sənəd oldu (40).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 aprel 2019-cu il "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı məhkəmə hüquq sistemində keçirilən islahatları daha da dərinləşdirdi. Fərmanda göstərilirdi ki, müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini

sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir (44).

Fərmanda bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilirdi ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə Ali Məhkəməyə və Baş Prokurorluğa tövsiyə edilsin, Ədliyyə Nazirliyinə isə tapşırılsın ki, müvafiq qanun layihələrini hazırlayıb Prezidentə təqdim etsinlər (44).

Fərmanda həmçinin Ali Məhkəməyə və Məhkəmə-Hüquq Şurasına tövsiyə edilirdi, Ədliyyə Nazirliyinə isə tapşırılırdı ki, aşağıdakı məsələlərə dair normativ hüquqi aktların layihələrini hazırlayıb iki ay müddətində Prezidentə təqdim etsinlər:

- sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması;
- məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi formalaşdırmaq

vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi;

- hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması;

- məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibi tələbinin müəyyən edilməsi;

- mülki işlər, habelə inzibati xətalara, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi tərəflərinin ekspertiza təyin edilməsi ilə bağlı hüquqlarının genişləndirilməsi.

Fərmanda Məhkəmə-Hüquq Şurasına tövsiyə edilirdi ki, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xətt yaratsın, hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığı daha da artırsın, bu sahədə tətbiq edilən meyarlar təkmilləşdirsin.

Həmçinin məhkəmə qərarlarının elektron qaydada dərc edilməsi, məhkəmələrdə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi, qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi göstərişi verilirdi (44).

Fərmanda Ali Məhkəməyə tövsiyə edilirdi ki, məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görsün, ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətini gücləndirsin.

Ədliyyə Nazirliyinə məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin

edilməsi, “Elektron icra” informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol verməl借lərinin qarşısının alınması məqsədilə ciddi tədbirlər görməyi, məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Prezidentə təqdim etməyi, məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsini və həmin təcrübənin Azərbaycan Respublikasında tətbiqinin mümkünlüyü barədə üç ay müddətində Prezidentə məlumat versin (44).

Ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılmasını təmin etməyi, “Elektron məhkəmə” informasiya sistemində dərc edilən məhkəmə qərarları üzrə müxtəlif meyarlar əsasında effektiv axtarış aparmaq üçün müvafiq funksional imkan yaradılması məqsədilə tədbirlər görməyi, fiziki və hüquqi şəxslərin “Elektron məhkəmə” informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görməyi mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərini həyata keçirmək göstərişi verilirdi (44).

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında” 13 fevral 2014-cü il tarixli Sərəncamı müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə,

məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edəcək (40).

Fərmanda məhkəmələrin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılması tapşrığı verilirdi.

"Elektron məhkəmə" informasiya sistemi aşağıdakıları təmin etməlidir: ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulunu, cinayət işləri, mülki, kommersiya, inzibati mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılmasını və sənədlərin elektron dövriyyəsini, məhkəməyə daxil olan işlərin hakimlər arasında avtomatlaşdırılmış qaydada bölgüsünün aparılmasını, məhkəmədə işlərə baxılması vaxtlarına dair elektron cədvəlin tərtib edilməsini, məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada (elektron poçt, SMS məlumatlandırma və s.) çatdırılmasını, məhkəmə proseslərinin audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınmasını və onları onlayn rejimdə müşahidə etmək imkanının yaradılmasını, işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsini və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalara malik olmasını, qəbul edilən məhkəmə qərarlarının icraya yönəldilməsinin və icra prosesinin izlənilməsini, sistemdə proses iştirakçısının iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq imkanlarına malik "şəxsi kabineti"nin yaradılmasını, "Elektron hökumət" portalı ilə və Baş Prokurorluğa tətbiq olunan informasiya sistemi ilə inteqrasiyanı və məhkəmə statistikasının elektron qaydada aparılmasını (45).

Ali Məhkəməyə tövsiyə edilirdi, Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılsın ki, "Elektron məhkəmə" informasiya sisteminin təşkilini

və fəaliyyətini birgə təmin etsinlər, “Elektron məhkəmə” informasiya sistemindən istifadə qaydalarını müəyyən etsinlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə 1 iyun 2020-ci il tarixində “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə təsdiq edildi. Fərmanda Ali Məhkəməyə və Məhkəmə Hüquq Şurasına “Elektron məhkəmə” informasiya sistemi fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruru tədbirlərin görülməsi tövsiyyə edilirdi (41).

Əsasnamə “Elektron məhkəmə” informasiya sisteminin formalaşdırılmasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etdi. “Elektron məhkəmə” İnformasiya sisteminin tətbiqi insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyinin və şəffaflığının artırılmasına, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlığın və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət etməli idi (41).

Bu sistem vasitəsi ilə vahid məhkəmə portalı, elektron kabinet, dövlət rüsumlarının məhkəmələr üzrə elektron uçotu, yekun məhkəmə qərarlarının vahid bazası, elektron əmr icraatı altsistemi, məhkəmələrdə insan resurslarının elektron idarəetmə altsistemi, məhkəmə işlərinin elektron idarəedilməsi altsistemi, sənədlərin elektron dövriyyəsi altsistemi, məhkəmə proseslərinin elektron audio-video protokollaşdırma altsistemi, proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə olunmaqla iclasda iştirak etmək imkanını təmin edən videokonfrans altsistemi, məhkəmə işinin təşkili üzrə məlumat pəncərəsi, məhkəmə qərarlarını avtomatlaşdırılmış anonimləşdirmə modulu, məhkəmə işlərinin avtomatlaşdırılmış təsadüfi bölgüsü modulu və.s ilə aparılmalı idi (41).

“Elektron məhkəmə” İnformasiya sistemi vasitəsilə aşağıdakılar təmin edilir:

məhkəmə prosesi ilə bağlı elektron xidmətlər göstərilməsi, məhkəmə sənədlərinin layihələrinin hazırlanması, məhkəmə prosesində iştirak edən şəxslərin zəruri məlumatlarının real vaxt rejimində yoxlanılması və informasiya sistemində olduqda, şəxsdən tələb edilməməsi, məhkəmə icraatı zamanı tələb olunan məlumatların elektron əldə edilməsi, mülki işlər və kommersiya mübahisələrinə dair işlər, habelə məhkəmələrin icraatında olan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə icraatın, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə dair işlər üzrə məhkəmə icraatının elektron qaydada aparılması, məhkəməyə daxil olan işlərin hakimlər arasında təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi, məhkəmədə işlərə baxılma vaxtlarına və tarixlərinə dair avtomatlaşdırılmış qaydada elektron cədvəlin tərtibi, məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada (elektron kabinet, elektron poçt və SMS məlumatlandırma) çatdırılması, məhkəmə iclasının audio və video texniki vasitələrdən istifadə etməklə qeydə alınması və onları real vaxt rejimində müşahidə etmək imkanının yaradılması, mülki və kommersiya mübahisələrinə, inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə dair işlər, habelə məhkəmələrin icraatında olan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə yolu ilə iclasda iştirak etmələrinə imkan yaradılması, məhkəmə işləri üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyaların olması, qəbul edilən məhkəmə qərarlarının icraya yönəldilməsi və icra prosesinin izlənilməsi, informasiya sistemində proses iştirakçısının iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almağa imkan yaradan elektron kabinetin təşkili, elektron qaydada yayılan məhkəmə qərarlarının anonimləşdirilməsi və müxtəlif meyarlar əsasında həmin qərarlarda effektiv axtarış aparılması, məhkəmələrin bütün qərarlarının gücləndirilmiş elektron imza ilə təsdiq edildikdən sonra elektron qaydada yayılması, məh-

kəmə fəaliyyəti ilə bağlı analitik təhlil və statistikanın elektron qaydada aparılması, statistik məlumatların emalında intellektual idarəetmədən istifadə olunması və məhkəmə fəaliyyətində süni intellektdən istifadə edilməsi və .s. (41).

28 dekabr 2018-ci il tarixli Azərbaycan Respublikası Qanununa əsasən mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatı elektron qaydada “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə aparılmağa başlanıldı. İnzibati məhkəmə icraatında isə iddiaçının seçimi əsasında inzibati məhkəmə icraatı elektron qaydada, “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə aparıla bilər (90,2018.30.12.№296).

9 iyul 2021-ci il tarixli Azərbaycan Respublikası Qanununa əsasən isə “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin proses iştirakçılarına çatdırılması “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə həyata keçirilməsinə başlanıldı (90,2021.18.07.№149).

Məhkəmə aşağıdakı hallarda məhkəmə icraatını işdə iştirak edən şəxsin, onun nümayəndəsinin, vəkilin, şahidin, ekspertin, mütəxəssisin, tərcüməçinin məhkəmənin iclas zalında bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirə bilər:

1. işdə iştirak edən şəxslər, onların nümayəndələri, vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi ölkədən kənarda və ya ölkə daxilində başqa şəhərdə və ya rayonda olmaqla, üzrlü səbəbdən onların məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

2. tərəflərdən hər hansı birinin Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və başqa silahlı birləşmələrində çağırış üzrə hərbi xidmətdə olduqda və ya digər dövlət vəzifəsini yerinə yetirməyə cəlb edildikdə və tərəf müalicə müəssisəsində olması ilə əlaqədar məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda və iş üzrə icraat dayandırılmadıqda;

3. işdə iştirak edən şəxslər, onların qanuni nümayəndələri və şahidlərin azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılması səbəbindən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə, hərbi vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində işdə iştirak edən şəxslər, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə;

5. məhkəmə icraatının lüzumsuz uzadılmasının qarşısının alınması məqsədilə digər hallarda.

9 iyul 2021-ci il tarixli Azərbaycan Respublikası Qanununa əsasən isə məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi üçün məhkəmə öz təşəbbüsü ilə və yaxud tərəflərin əsaslandırılmış vəsatəti əsasında müvafiq qərardad qəbul edir. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılmasına yol verilmir (90,2021.18.07.№149).

"Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər və kommersiya mübahisələri üzrə işdə iştirak edən şəxslərin məhkəmə sənədləri onların "Elektron məhkəmə" informasiya sistemində yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır. İşdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə sənədləri bu şəxslərin həmin sistemdə yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.

Həmçinin məhkəmələrdə mülki işlər üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişlərsə, onlara məhkəmə sənədləri barədə məlumat bu sistem vasitəsilə şəxsin təqdim etdiyi mobil telefon nömrəsinə SMS-lə çatdırılır. Bu halda işdə iştirak edən şəxs

məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş hesab edilir. SMS-in işdə iştirak edən şəxsə çatdırıldığı vaxt barədə məlumat “Elektron məhkəmə” informasiya sistemində qeyd edilir (90,2021.18.07. № 149).

Məhkəmə qətnamələri də tərəflərə həmçinin elektron qaydada çatdırılır. Belə ki, “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qətnamənin elan edilmiş nəticə hissəsi barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə “Elektron məhkəmə” informasiya sistemində yerləşdirməlidir. Hakim qətnaməni tərtib etdikdən sonra onu elektron imzası ilə təsdiq etməklə 3 (üç) gün ərzində işdə iştirak edən şəxslərin “Elektron məhkəmə” informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin etməlidir. Qərardad barədə məlumatı isə həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə “Elektron məhkəmə” informasiya sistemində yerləşdirilir (90, 2018.30.12. № 296).

9 iyul 2021-ci il tarixli Azərbaycan Respublikası Qanununa əsasən həmçinin “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə apellyasiya və kassasiya şikayəti də elektron qaydada verilməlidir. Elektron qaydada verilməyən apellyasiya və kassasiya şikayəti geri qaytarılır (90,2021.18.07. № 149).

9 iyul 2021-ci il tarixli Azərbaycan Respublikası Qanununa görə Ali Məhkəmənin mülki, kommersiya və inzibati kollegiyaları işə yazılı icraat qaydasında-yəni tərəflərin, onların nümayəndələrinin və vəkillərinin iştirakı olmadan baxır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir (90,2021.18.07. № 149).

15 aprel 2022-ci il tarixli Azərbaycan Respublikasının Qanunundan sonra cinayət prosesində elektron qaydada məhkəmə icraatı, həmçinin məhkəmə nəzarətinin həyata keçirilməsi

“Elektron məhkəmə” informasiya sistemi vasitəsi ilə aparılmağa başlanıldı  (90,2022.14.05.№100).

“Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər “Elektron məhkəmə” informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə həmin şəxslərə verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onların elektron kabinetlərində yerləşdirir. Bu barədə həmin şəxslərə “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə elektron qaydada  (elektron poçt və SMS vasitəsilə) məlumat verilir.

“Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə, məhkəmə  qəbul etdiyi hökm, qərar və digər prosessual sənədləri elektron sənəd formasında tərtib edərək həmin prosessual sənədlər üçün müəyyən edilmiş müddətlərdə “Elektron məhkəmə” informasiya sistemində yerləşdirir.

25 iyun 2020-ci il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən isə cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsinə başlanıldı.

Prosessual hərəkətlər videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində ötürülməsini, cinayət mühakimə icraatının aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərin videoyazısı aparılmalı, prosessual hərəkətlərin nəticəsinə dair videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda cinayət işinə əlavə edilməlidir.

2 iyun 2023-cü ildə Şəmkir rayon Məhkəməsində “Elektron məhkəmə” informasiya sistemi üzrə tam tətbiqin yekun mərasimi keçirildi. Tədbirdə Ədliyyə Naziri Fikrət Məmmədov, Dünya Bankının Avropa və Mərkəzi Asuya regio-

nunda idarəçilik departementinin müdiri Daniel Boyçe, Dünya Bankının aidiyyatı üzrə rəhbər işçiləri, yuxarı və birinci instansiya məhkəmələrinin sədr və hakimləri, regional və yerli ədliyyə qurumlarının məsul əməkdaşları, prokurorlar, vəkillər, hüquq mühafizə orqanlarının təmsilçiləri və media iştirak etmişdir.

Tədbirdə çıxış edən Ədliyyə Naziri Fikrət Məmmədov qeyd etmişdir ki, bu gün tətbiq olunan "Elektron məhkəmə" sistemi vasitəsilə məhkəməyə müraciət edilməsindən qərarın icrasına qədər bütün proses əhatə olunur. İddianın verilməsi, onun aidiyyatı, rüsumların ödənilməsi, işlərin hakimlər arasında bölüşdürülməsi, tərəflərin dəvət edilməsi, elektron kabinetlərin yaradılması və onun vastəsilə proses barədə məlumatların və məhkəmə sənədlərinin əldə eilməsi, habelə şikayətlərin verilməsi və s. məsələlər elektron sistem vasitəsilə həyata keçirilir. Şəffaflığın təmini məqsədilə proseslərin audio-video yazısının aparılması, onların video-konfrans vasitəsilə keçirilməsi imkanının yaradılması, bəzi kateqoriya işlərin yalnız elektron, o cümlədən artıq 4 ildir ki, kommersiya işlərinin yalnız elektron qaydada aparılması təmin edilib. E-məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyin artırılması məqsədilə müxtəlif məhkəmə monitorinqlərinin keçirilməsinə, məhkəmə statistikasının elektron qaydada və dolğun aparılmasına şərait yaradıb. Həmçinin vətəndaş məmnunluğunun və sistemin imkanlarından geniş istifadənin təmin edilməsi məqsədilə onun mobil versiyası da yaradılıb.

Nazir Bakı, Sumqayıt Şəki və Naxçıvan MR apellyasiya məhkəmələrininn yurisdikasiyasına aid məhkəmələrdə E-məhkəmənin tətbiqini qeyd edərək, bu gündən digər-Gəncə və Şirvan apellyasiya məhkəmələrinin də yurisdikasiyasına daxil olan bütün məhkəmələrin qoşulması ilə "Elektron məhkəmə" informasiya sisteminin ölkəni tam əhatə etdiyini vurğuladı.

Dünya Bankının Departament müdiri D.Boyçe çıxış edərək "Elektron məhkəmə" sistemin ölkə üzrə tam tətbiq edilməsini böyük və tarixi nailiyyət kimi qiymətləndirmişdir.

D.Boyce Avropa və Mərkəzi Asiya regionunda Azərbaycanın ədliyyə sistemində vətəndaş məmnunluğuna görə ən öndə getdiyini vurğuladı, ölkəmizin məhkəmə-hüquq sistemi də bu sahədə uğurlu yol keçərək islahatlar aparan olkələrdən ən qabaqcılı olduğunu vurğuladı. O həmçinin qeyd etdi ki, artıq Azərbaycan Dünya Bankı tərəfindən keçirilən və digər beynəlxalq tədbirlərdə məhkəmə-hüquq sahəsindəki müsbət təcrübələrini beynəlxalq ictimaiyyətlə bölüşür. Ölkəmizin beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasının Səmərəliliyi üzrə Avropa Komissiyasında (CEPEJ) fəal üzvlüyü yaxşı təcrübələrin paylaşılmasına imkan yaradıb.

Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2021-ci il tarixli Fərmanı ilə Ali Məhkəməyə tövsiyə edilmişdir ki, mülki prosessual qanunvericiliyə Ali Məhkəmədə işlərə baxılma qaydası ilə bağlı edilmiş dəyişiklikləri nəzərə alaraq və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli nömrəli Fərmanında nəzərdə tutulmuş məqsədləri rəhbər tutaraq, Ali Məhkəmənin fəaliyyətinin daha səmərəli şəkildə təşkil etmək üçün Ali Məhkəmənin Aparatının strukturunu yenidən müəyyən etsin.

Ali Məhkəmənin Aparatı yenidən təşkil edilərkən "Məhkəmə işlərinin idarə edilməsi şöbəsi" təsis edilmiş və onun tərkibində hər məhkəmə kollegiyası üçün ixtisaslaşdırılmış struktur bölmələr və Ali Məhkəmə Plenumun işinin təmin edilməsi struktur bölməsi yaradılmışdır. Bu yeni şöbə Ali Məhkəməyə daxil olmuş işlərin öyrənilməsinə və ilkin qərar layihəsinin hazırlanmasına, hakimlərə təqdim edilməsinə, işlərin daha çevik, obyektiv, hərtərəfli araşdırılmasına, qəbul edilən məhkəmə qərarlarının keyfiyyətinin yüksəldilməsinə, həmçinin məhkəmələrin ayrı-ayrı sahələr üzrə hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyinin və hüquqi mövqeyinin proqnozlaşdırılan olmasına və bununla da vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına xidmət etməkdədir.

Keçirilmiş struktur islahatları ilə Ali Məhkəmənin Aparatında “Elektron məhkəmə və İnformasiya texnologiyaları şöbəsi” təsis edilərək, həmin şöbənin nəzdində isə “İnformasiyanın təhlili sektoru”, “Proqramlaşdırma sektoru” və “Sistem inzibatçılığı və texniki dəstək sektoru” yaradılmışdır.

Azərbaycan Respublikasında Konstitusiya Məhkəməsinin yaradılmasını ilk dəfə 18 oktyabr 1991-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında nəzərdə tutulmuşdur. Həmin Konstitusiya Aktının 13-cü maddəsində göstərilirdi ki, Məhkəmə hakimiyyəti hər biri öz səlahiyyəti çərçivəsində, asılı olmayan məhkəmələr, yüksək instansiyada isə Konstitusiya Məhkəməsi, Ali Arbitraj məhkəməsi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş 21 oktyabr 1997-ci ildə "Konstitusiya Məhkəməsi haqqında" Qanun qəbul edildi və 14 iyul 1998-ci ildə Konstitusiya Məhkəməsi yaradıldı.

Qanuna əsasən Konstitusiya Məhkəməsi Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya mühakiməsi orqanı idi.

Konstitusiya Məhkəməsinin əsas məqsədi Konstitusiyanın aliliyini təmin etməkdən, əsas vəzifəsi isə Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh etməkdən və Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş başqa səlahiyyətləri həyata keçirməkdən ibarətdir. Qanunla şəxsin hüquqları və azadlıqları qüvvədə olan normativ hüquqi aktlarla pozulduqda o, müvafiq məhkəmələrin vasitəsi ilə Ali Məhkəməyə müraciət edərək məsələnin Konstitusiya Məhkəməsinə sorğu vermək yolu ilə, göndərilməsini xahiş edə bilərdi.

24 avqust 2022-ci il tarixli birinci Konstitusiya islahatından sonra 23 dekar 2003-cü ildə Konstitusiya Məhkəməsi haqqında yeni Qanun qəbul edildi. Əvvəlki qanundan fərqli olaraq bu qanun vətəndaşlara pozulmuş hüquqlarının bərpası üçün Konstitusiya Məhkəməsinə müraciət etmək hüquq verdi.

Qanuna görə hər bir kəs Ali Məhkəmənin qərarı qüvvəyə mindiyi andan altı ay müddətində, ərizəçinin məhkəməyə müraciət etmək hüququnun pozulduğu andan üç ay müddətində Konstitusiya Məhkəməsinə şikayət verə bilər.

Hüquq və azdlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınması mümkün olmadıqda şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər.

Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir və şərtsiz icra olunmalıdır. Bu qəraları icra etməyən vəzifəli şəxslər qanunvericilkdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

Konstitusiya məhkəməsinin bütün qərarları və qərarların təsviri-əsalandırıcı hissəsində göstərişləri bütün məhkəmələr üçün məcburidir.

İnsan hüquq və azadlıqlarının bərpa olunmasında və məhkəmələrin qanuni və ədalətli qərarlar qəbul etməsində Konstitusiya Məhkəməsinin qərarlarının olduqca böyük hüquqi əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Prezident İlham Əliyev 12 oktyabr 2025-ci il tarixində Bakıda Beynəlxalq Hakimlər Assosiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına göndərdiyi müraciətində respublikamızda həyata keçirilən məhkəmə islahatının nəticələri barədə deyir:"Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu dövlət siyasətimizin strateji prioritetlərindən biridir. İnsan hüquqlarının müdafiəsinin əsas təminatçısı kimi ədalət mühakiməsinin rolununun daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda genişmiqyaslı tədbirlər görülür. Ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar nəticəsində məhkəmə fəaliyyətinin səmərəliliyi artırılmış, vətəndaşların ədalət mühakiməsinə müraciət imkanları genişləndirilmiş, hakimlərin müstəqilliyi möhkəmləndirilmişdir. Eyni zamanda, informasiya texnologiyalarının və rəqəmsal həllərin tətbiqi ilə məhkəmə idarəçiliyində şəffaflıq və çeviklik təmin olunmuş, vətəndaşların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması

istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar cəmiyyətdə ədalət mühakiməsinə inamın güclənməsinə, məhkəmələrin hüquqi dövlətin əsas sütunlarından biri kimi mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir”.

Respublikamızda həyata keçirilən məhkəmə islahatı bu gündə davam edir, hələ uzun müddət də davam edəcəkdir. Bu islahat ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin təşəkkül tapmasına gətirib çıxaracaqdır.

Məhkəmə sistemində aparılan islahatlarla yanaşı həmçinin prokurorluq orqanlarında da əsaslı islahatlar aparılıb və aparılmaqdadır.

Konstitusiyaya əsasən Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyəti sisteminə daxildir.

Prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri baxımından ədalətin təmin edilməsində əhəmiyyətli iştirakını nəzərə alaraq, habelə prokurorluğun müstəqilliyinin təmin edilməsi nöqteyi-nəzərindən prokurorluq orqanı məhkəmə hakimiyyəti sistemində nəzərdə tutulub.

Lakin Sovet dövründə prokurorluq orqaları heç bir hakimiyyət orqanı sisteminə daxil edilməmişdi və müstəqil idi. Belə ki, Azərbaycanın 1978-ci il Konstitusiyasına görə prokurorluq orqanlarının səlahiyyəti daha geniş idi. Prokurorluq Azərbaycan Respublikasının ərazisində bütün nazirliklər, dövlət Komitələri və baş idarələr, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarəti həyata keçirirdi (2).

Prokurorluq sistemində islahatların keçirilməsi üçün ilk növbədə “Prokurorluq haqqında” yeni Qanunun qəbul edilməsi zəruri idi. Lakin yeni qanunun qəbul edilməsini baş prokuror E.Həsənov və onun tərfədarları bilərəkdən ləngidirdilər. Ən mübahisəli məsələ cinayət törətməkdə təqsirli bilinən şəxslərlə bağlı həbs qətimkan tədbirinin prokuror yoxsa məhkəmə

tərəfindən seçilməsi məsələsi idi. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən hazırlanıb Milli Məclisə təqdim edilən “Prokurorluq haqqında”Qanun layihəsində həbs qətimkan tədbirinin seçilməsi prokurorluq orqanlarında saxlanılırdı. Bu da Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüquq normalarına tamamilə zidd bir hal idi. Çünki dünyanın bütün demokratik və hüquqi dövlətlərində həbs qətimkan tədbirinin seçilməsi məhkəmələrin səlahiyyətinə aid edilmişdir.

Lakin sovet dövlətində isə həbs qətimkan tədbirinin seçilməsi məhkəməyə deyil prokurorluq orqanlarına verilmişdir. Bu da sovet dövrü prokurorluq orqanlarının avtoritar və despotik rejim təbiətindən irəli gəlirdi. Hətta prokurorluq orqanlarında uzun müddət işləmiş mühafizəkar təbiətli şəxslərdə həbs qətimkan tədbirinin seçilməsinin məhkəməyə verilməsinə ciddi müqavimət göstərərək prokurorluq orqanlarında saxlanılmasına çalışırdılar. Bu mühafizəkar qüvvələrin başında respublikanın baş prokuroru E.Həsənov dururdu. E.Həsənov hətta Milli Məclisə və Prezident aparatına ciddi təsir göstərərək qanunun qəbul edilməsini bir ilədək müddətdə ləngiməsinə nail ola bilmişdir.

Lakin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Prokurorluq haqqında” Qanunun qəbul edilməməsinin həmin orqanda mühafizəkar qüvvələrin başda sabiq baş prokuror E.Həsənov tərəfindən ciddi müqavimət göstərildiyindən xəbər tutuduqdan sonra bu işə müdaxilə etmiş və mühafizəkar qüvvələrin geri çəkilmələrinə nail ola bilmişdir.

Prezident Heydər Əliyevin 26 aprel 2000-ci il tarixində Azərbaycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşündə prokurorluq orqanlarının fəaliyyətinə toxunaraq bu barədə demişdir: “1995-ci ildə bizim qəbul etdiyimiz Konstitusiyaya görə prokurorluq məhkəmə hakimiyyətinin daxilindədir. İndi hüquqi demokratik dövlətdə hakimiyyətin üç qolu vardır. İcra hakimiyyəti, qanunvericilik

hakimiyyəti, məhkəmə hakimiyyəti. Prokurorluq da bu məhkəmə hakimiyyətinin bir hissəsidir.

Demokratik ölkələrdə, hüquqi dövlət olan ölkələrdə hər bir məhkəmə hakimiyyətinin öz yeri, prokurorluğun da öz yeri vardır. Amma bu yer Sovet ittifaqının yaratdığı prokurorluq sistemindən çox fərqlidir. Sovet İttifaqında prokurorluq çox böyük səlahiyyətlərə malik idi. Bu da təbiidir və o quruluşun tələblərindən irəli gəlirdi. Çünki Sovet İttifaqı hüquqi dövlət, qanunlar çərçivəsində fəaliyyət göstərən dövlət deyildi. Ona görə də o öz hakimiyyətini təmin etmək üçün belə bir prokurorluq sistemi yaratmışdı və ona da böyük səlahiyyətlər vermişdi. Ancaq inkişaf etmiş demokratik, hüquqi dövlətlərdə bu yoxdur. Biz də hüquqi dövlət qururuq, təbiidir ki, hüquqi islahatlar aparırıq".

Mən 1999-cu ilin fevral ayında "Polis haqqında" qanun layihəsinə baxdım, onu imzaladım, qəbul olunmaq üçün Milli Məclisə göndərdim. Qanun birinci oxunuşda qəbul olundu. Ondan sonra onu saxladılar. Nə üçün? Baş prokuror Eldar Həsənov buna etiraz edib. Niyə etiraz edibdir? Həmin qanuna görə polis orqanları hansısa bir vətəndaşı saxlayırlarsa, 48 saat müddətində onun saxlanması üçün məhkəmənin qərarını almalıdırlar. Polis də, Daxili İşlər Nazirliyi də belə bir layihə verib və hüquqi prinsiplərlə razıdır. Ancaq Eldar Həsənov bunun əksinə gedir. Deyir ki, bu səlahiyyət prokurorluqda saxlanılmalıdır. Nə üçün? Milli Məclisdə bunun müzakirəsini dayandırıblar. Deyibdir ki, gərək mən prezidentə bu barədə fikirlərimi deyim. Gəlib mənə fikirlərini deyib ki, bəs belə olmaz, onda dövlət dağılacaq, biz cinayətkarlarla mübarizə apara bilməyəcəyik və sair, bu səlahiyyətləri prokurorluqda saxlamaq lazımdır. Mən demişəm ki, bilirsən, bu olmaz, get düşün. Ancaq o, Milli Məclisə təsir etmişdir. Milli Məclisdə də fikirləşiblər ki, prokuror bununla razı deyil, saxlayıblar. Beləliklə, bu qanun 7-8 ay orada yatıb, ondan sonra mən bunu bilmişəm və öz mövqeyimi ciddi olaraq bildirmişəm, bu qanun qəbul edilibdir (191,s.421).

Prezident çıxışını davam etdirərək bildirmişdir ki, E.Həsənov hətta bir gün 20 nəfəri, öz idarə rəislərini yığaraq Prezident aparatına gəlmiş və orada Ramiz Mehdiyev, Fuad Ələgərov və Şahin Əliyevlə ciddi mübahisələr aparmış və onlara ciddi təzyiqlər göstərmişdir.

"Prokurorluq haqqında" Qanunun qəbul edilməsinin gecikdirilməsinin günahkarının E.Həsənov olduğunu bildirən prezident bir daha vurğulamışdır ki, əgər prokurorluq dövlətə mənsubdursa, dövlət prokurorluğu bu cür görmək istəyir. Amma belə çıxır ki, prokurorluq artıq özəlləşdirilibdir, prokurorluq prokurorluqda işləyənlərə və xüsusən baş prokurora məxsusdur. O da deyir ki, "mən bu səlahiyyətlərimi saxlamaq istəyirəm". Görürsünüz, nə qədər əcaib bir vəziyyət yaranıbdır. Mən Eldar Həsənova dedim-başa düş ki, sən bu gün prokurorsan, sabah olmayacaqsan. Eləcə də hər biriniz. Heç kəs daimi deyildir. Amma hüquqi dövlət daimidir. Biz bu hüquqi dövləti, demokratik dövləti yaradırıq və onu pillə-pillə yüksəklərə qaldırırıq. İndi bu sanksiya işi qanunla məhkəməyə həvalə olunur. Bu, indiyə qədər prokurorluqda olubdur. Məhkəmədə işləyən də, prokurorluqda işləyən də bizim vətəndaşımızdır. Mən nə üçün düşünməliyəm ki, prokurorluqda işləyən adam sanksiyanı düz verəcək, amma məhkəmədə işləyən adam düz verməyəcəkdir? Mən hətta dedim ki, əgər istəyirsinizsə, sanksiya vermək təcrübəsi olan, təbiidir ki, təmiz adamların bəzilərini gəlin prokurorluqdan məhkəməyə keçirək, gedib orada məhkəmə sədri olsunlar. Demək, burada məqsəd dövlətçilik prinsipini yox, öz sisteminin prinsipini deyil, öz şəxsi mənafeyini, öz səlahiyyətlərini əlində saxlamaqdır (191,s.421-423).

"Polis haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. Həmin müddət ərzinidə tutlmuş şəxs məhkəməyə gətirilməli, məhkəmə təxirə salmadan işə baxmalı və həmin şəxs barəsində həbs qətimkan tədbirinin

seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarılmalıdır (73).

7 dekabr 1999-cu ildə “Prokurorluq haqqında” Qanunun qəbul edilməsi ilə islahatların keçirilməsinə başlanıldı. Prokurorluqda keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılması idi (74).

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 2 iyul 2002-ci ildə “Azərbaycan polisi gün”nə həsr olunmuş təntənəli mərasimdəki çıxışında prokurorluq orqanlarında aparılan islahatlarla bağlı bir daha demişdir: “Biz prokurorluq haqqında qanunun qəbul olunmasını bir il gecikdirdik. Biz gecikdirmədik. Gecikdirdilər. Nə üçün? çünki prokurorluğun bəzi səlahiyyətləri beynəlxalq hüquq normalarına ziddir, bu, SSRİ prokurorluğunun prinsipləridir. SSRİ prokurorluğu da hələ Leninin vaxtından təşkil olunmuş prinsiplər əsasında gedir. Birincisi, prokurorluqda olan adamlar, onların başçıları bunlara öyrəniblər, ikincisi də həmin o müddəalar onlara çox böyük imkanlar yaradır. İmkanlar o mənada yox ki, onlar prokurorluq fəaliyyətlərini daha da yaxşı həyata keçirsinlər. O mənada ki, oradan şəxsi məqsədləri üçün daha çox istifadə etsinlər. Məsələn, indi prokurorluq orqanları vətəndaşların həbsinə sanksiya vermir. Amma iki-üç il bundan öncə bu məsələni qoyanda çoxları deyirdi, nə təhər ola bilər, nə ola bilər. Elə Daxili İşlər Nazirliyində deyirdilər ki, biz bu cinayətkarları tutduq, onu məsuliyyətə cəlb etməliyik, prokurorluqla danışırıq, prokuror sanksiya verir. Amma gərək bu, məhkəməyə getsin, gərək məhkəmə yığışsın, bu işə baxsın, ondan sonra sanksiya versin”. Bu cinayətkarlıqla mübarizəni zəiflədər. Daha sonra çıxışını davam etdirən Ümummilli Lider dir daha bildirdi ki, biz prokurorluq haqqında qanunu qəbul etdik. məhkəmələr bu işə

baxır. Daxili İşlər Nazirliyində, polisdə bir problem yoxdur (192,s.348-349).

"Prokurorluq haqqında" Qanuna əsasən prokurorluq cinayət işi başlayır və ibtidai istintaq aparır, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir, iddia qaldırır (ərizə verir), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir, məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir, məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest verir, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir (74).

Azərbaycan Respublikasının Prokurorluq sisteminə daxildir:

Azərbaycan Respublikasının Baş Prokurorluğu;

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi;

Azərbaycan Respublikasının Hərbi Prokurorluğu;

Naxçıvan Muxtar Respublikasının Prokurorluğu;

Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu;

rayon (şəhər) prokurorluqları;

hərbi ixtisaslaşdırılmış prokurorluqları;

tədris-elm müəssisələri, mətbuat orqanları, mətbəə, sosial-məişət, təsərrüfat təyinatlı digər qurumlar (74).

25 oktyabr 2011-ci ildə "Prokurorluq haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən prokurorluq orqanlarına korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya

istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti verildi.

14 fevral 2014-cü il tarixli Azərbaycan Respublikasının Qanununun qəbul edilməsindən sonra Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradıldı.

15 dekabr 2017-ci il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən prokurorluğa məhkəmə qərarları ilə yanaşı səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest vermək hüququ və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul etmək hüququ da verildi.

Qanuna əsasən ibtidai istintaq aparan və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dövlət ittihamını müdafiə edə bilməz. Ədalət məhkəməsinin həyata keçirilməsində ittihamı sübutetmə vəzifəsi prokurorun üzərinə düşür. Toplanmış sübutlarla ittiham təsdiq edilmirsə və imtinaya əsaslar varsa, prokuror ittihamı müdafiə etməkdən tam və ya qismən imtina edə bilər.

“Prokurorluq haqqında” Qanuna əsasən, mülki məhkəmə icraatında prokurorun fəaliyyəti məhkəmədə iddia qaldırılmasından (ərizə verilməsindən), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edilməsindən ibarətdir (9).

Mülki Prosessual Məcəlləyə əsasən xüsusi olaraq prokurorun mülki prosesdə iddiaçı tərəf ola bilməsi göstərilmiş və özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçı hesab edilirlər (9).

Mülki Prosessual Məcəllədə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda prokuror-

luğun xüsusi icraat qaydasında ərizəçi qismində iştirak etmək hüququ da təsbit edilmişdir.

Belə ki, dövlət idarə və təşkilatlarının və ya təsisçiləri dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror aşağıdakı işlər üzrə ərizə verə bilər:

- mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə;

- daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə.

Mülki Prosessual Məcəllədə nəzərdə tutulmuş hallarda dövlət orqanları, ayrı-ayrı fiziki və hüquqi şəxslər başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün onların xahişi ilə və yaxud digər şəxslərin mənafelərinin müdafiəsi üçün iddia ilə məhkəməyə müraciət edə bilərlər. Fəaliyyət qabiliyyəti olmayan və ya yetkinlik yaşına çatmayan şəxslərin mənafelərinin müdafiəsi üçün maraqlı şəxslərin xahişi olmadan iddia qaldırıla bilər.

Prokurorun yalnız məhkəmə baxışında iddiaçı və ya ərizəçi olduğu hallarda məhkəmə aktlarından protest verə bilər. İştirak etdiyi hallarda Apellyasiya instansiyası məhkəmələrinin aktlarından kassasiya şikayəti də verə bilər (9).

Prokurorun yalnız inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir (7).

1 sentyabr 2000-ci llədək, yəni islahatlar başlananadək prokuror məhkəmələrdə mülki işlərə baxılmasında bütün işlərdə tərəf kimi iştirak edirdi. Mülki mühakimə icraatında qanunların dürüst və və eyni cür icrası üzərində nəzarət prokuror tərəfindən həyata keçirilirdi. Prokuror mülki mühakimə icraatının bütün mərhələlərində, kim tərəfindən olursa-olsun, baş vermiş hər cür qanun pozuntusunun aradan qaldırılması üçün vaxtında qanunla nəzərdə tutulan tədbirlər görməli idi.

Dövlət mənafeyinin və ya ictimai mənafeyin, yaxud vətəndaşların hüquqlarının və qanunla mühafizə edilən mənafeyinin qorunması tələb etdikdə, prokurorun başqa şəxslərin mənafeyinin müdafiə olunması üçün ərizə ilə məhkəməyə müraciət etmək və ya prosesin hər hansı bir mərhələsində işə qarışmaq hüququ vardır.

Qanunla nəzərdə tutulan və ya məhkəmə tərəfindən zəruri hesab edilən hallarda prokurorun mülki işə baxılmasında iştirakı məcburi idi. İşdə iştirak edən prokuror məhkəmə çıxışlarından sonra, bütünlüklə işin mahiyyəti üzrə rəy verirdi.

Azərbaycan Respublikasının bütün məhkəmələrinin qətnamələrindən prokuror kassasiya qaydasında şikayət verə bilərdi. Prokuror və prokurorun müavini həmin işdə iştirak etməsindən asılı olmayaraq məhkəmənin qanunsuz və ya əsassız qətnaməsindən protest də verə bilərdi.

Məhkəmə islahatı nəticəsində prokurorun məhkəmələrdə mülki işlərə baxılmasında tərəf kimi iştirakı aradan qaldırıldı. Bu olduqca mühüm hüquqi əhəmiyyətə malik bir hal idi.

İslahataqədərki dövrdə prokurorluq orqanları respublikamızda idarə, müəssisə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq hüququna malik idi. İslahat nəticəsində prokurorluq orqanlarının bu səlahiyyətləri aradan qaldırıldı. Belə ki, Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 17 iyun 1996-cı il tarixli, "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" 07 yanvar 1999-cu il tarixli, "Sahibkarlığın inkişafına maneə olan müdaxilələrin qarşısının alınması haqqında" 28 sentyabr 2002-ci tarixli Fərmanları bazar iqtisadiyyatının inkişafına maneçilik törədən halların aradan qaldırılmasında, vəzifəli şəxslər tərəfindən sui-istifadə hallarının qarşısının alınmasında, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunmasında mühüm əhəmiyyətə malik hüquqi sənədlərdir.

Prokurorluq orqanlarında islahatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə də davam etməkdədir. Prokurorluq orqanlarının müasir dövrün yüksək tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyətə malikdir. Dövlət proqramı ölkə başçısının prokurorluq orqanlarına və prokurorluq işçilərinə böyük inamının və etimadının, yüksək qayğısının təzahürü olaraq, prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə qəbul edilmişdir.

Prokurorluq orqanlarının ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq qarşıda duran vəzifələrin icrasını təmin etmək məqsədilə “Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzinidə Strateji İnkişaf Konsepsiyası” təsdiq edilmişdir.

Prokurorluq orqanlarında bu gündə islahatlar davam etdirilməkdədir. Hesab edirəm ki, aparılan islahatların davamı olaraq ibtidai istintaq prokurorluqdan, daxili işlər orqanlarından, digər dövlət orqanlarından alınmalı və Azərbaycan Respublikasının Prezidenti yanında vahid İstintaq Komitəsi yaradılaraq ona verilməlidir.

İslahatlar nəticəsində prokurorluq Azərbaycan Respublikasının dövlət orqanları içərisində öz layiqli yerini tutacaqdır.

## §2.2. Vəkillik istiqamətində islahatın keçirilməsi.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi hər bir kəsə yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ

verir. Həmin maddəyə əsasən hər bir çəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

28 dekabr 1999-cu ildə “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanunla müstəqil Azərbaycan vəkilliyinin əsası qoyulmuş, ilk dəfə vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisat kimi formalaşmağa başladı.

Qanun Azərbaycan Respublikasının ərazisində hər bir şəxsə məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmini və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsinə imkan yaratdı.

Azərbaycan Respublikasının Avropa Şurasına üzvlüyə qəbul olunmasından sonra Ali Məhkəmənin Plenumu ədalət mühakiməsinin həyata keçirilməsi zamanı “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyası müddəalarının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli Qərarında qeyd edir ki, məhkəmələr nəzərə almalıdırlar ki, müdafiəçiyə müdafiə etdiyi şəxslə sərbəst, təklikdə görüşüb danışmaq imkanı yaradılmasa, o, öz vəzifəsini layiqincə yerinə yetirə bilməz.

Məhkəmələr nəzərə almalıdırlar ki, müdafiə hüququ demokratik cəmiyyətdə ədalətli məhkəmə baxışının ayrılmaz tərkib hissəsidir. Konvensiya cinayət törətməkdə təqsirləndirilən şəxsə müdafiəsi üçün üç üsuldan istifadə etməyə imkan verir: özünü şəxsən müdfiə etmək; özünün seçdiyi müdafiəçiyə malik olmaq; müəyyən hallarda pulsuz təyin olunmuş müdafiəçidən istifadə etmək zəruri hallarda hüquqi yardım göstərilməsi dövlət hesabına təmin edilməlidir (45).

4 noyabr 1950-ci ildə  Roma şəhərində qəbul edilən "Avropa İnsan Hüquqları Konvensiyası"na əsasən hər bir kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən  pulsuz isifadə etmək hüququna malikdir.

"Avropa İnsan Hüquqları Konvensiyası"nda nəzərdə tutulan bu tələb "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun  20-ci maddəsində də öz əksini tapıb. Həmin maddəyə əsasən inzibati qaydada tutulmuş şəxslərə, cinayət işləri üzrə şübhəli və təqsirləndirilən şəxslərə,  habelə məhkəmədə vəkilin xidmətlərini ödəmək üçün vəsaiti olmayan şəxslərə hansısa məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət tərəfindən həyata keçirilir (79).

Hüquqi yardım almaq üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hüquqi yardımın göstərilməsi həmin şəxslərin hüquq və azadlıqlarının səmərəli müdafiəsinə şərait yaratmaqla yanaşı, ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsində əhəmiyyətli rol oynayır (112).

Dövlət hesabına ödənilən hüquqi yardımın məbləği və ödənilməsi qaydaları Nazirlər Kabineti tərəfindən  müəyyən edilir.

Yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli təmini məqsədilə Nazirlər Kabinetinin 1 fevral 2001-ci il tarixli, "müdafiəçilərə, tərcüməçilərə, mütəxəsislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Qərarının 1-ci bəndində nəzərdə tutulan hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə (vəkilə) hər iş saatı üçün "şərti maliyyə vahidinin 0,9 misli miqdarında" (0,35 manat) müəyyənləşdirilmişdir.

Nazirlər Kabinetinin 27 yanvar 2010-cu il tarixli Qərarı ilə müdafiəçiyə (vəkilə) hər iş saatı üçün ödənilməli məbləğin miqdarını "şərti maliyyə vahidinin 0,9 misli miqdarında" sözlərini "2 manat məbləğində" sözləri ilə, 3 may 2018-ci il tarixli Qərarı ilə "2 manat" sözlərini  "6 manat" sözləri ilə  və 28

aprel 2025-ci ildə isə "6 manat " sözlərini "11 manat" sözəri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə 2020-ci ildən etibarən dövlət büdcəsindən dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsait icra hakimiyyətlərinə deyil, birbaşa Vəkillər Kollegiyasına ayrılması müəyyən olundu (44).

"Dövlət büdcəsi haqqında" Qanununa əsasən hüquqi yardıma görə 2020-ci ildə 5 540 450 manat, 2021-ci ildə 4 518 000 manat, 2022-ci ildə 4 390 106 manat, 2023-cü ildə 5 039 916 manat, 2024-cü ildə 5 562 128 manat, 2025-ci ildə isə 6 061 827 manat məbləğində vəsait ayrılmışdır.

2021 və 2022-ci ilərdə COVİD-19 pandemiyasının geniş yayıldığı bir dövrdə məhkəmələrin fasilələrlə işləməsi səbəbindən hüquqi yardıma görə ayrılan vəsait də əhəmiyyətli dərəcədə azalmışdır. 2023-cü ildən başlayaraq isə COVİD-19 pandemiyasının tədricən aradan qalxması ilə hüquqi yardıma görə ayrılan vəsait də yenidən artırıldı. Lakin hüquqi yardıma görə ayrılan vəsait vəkilin yüksək keyfiyyətli hüquqi yardım göstərməsi üçün kifayət etmir.

Vəkillər Kollegiyası fəaliyyəti barədə-hesabatında qeyd edir ki, 2020-ci il, 2021-ci il və 2022-ci il ərzinidə 61865 məhkəmə qərarı üzrə 7 273 183,19 manat, 16 244 istintaq qərarı üzrə isə 3 551 656,04 manat ödənişin 83 vəkil qurumuna və 37 fərdi qaydada fəaliyyət göstərən vəkilə, ümumilikdə isə, 935 vəkilə ödəniş edilmişdir (91,s.119).

Vəkillər Kollegiyası 2023-cü il üzrə fəaliyyəti barədə-hesabatında göstərir ki, 2023-cü il dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkillərə (müdafiəçilərə) haqların ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitlə bağlı xərclərin rüblər və aylar üzrə bölgüsünə uyğun olaraq, vəkil büroları və ya fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən sənədlərin Kollegiyaya təqdim edilməsi ardıcıllığı gözlənilməklə cinayət prosesini həyata keçirən orqanlar

(təhqiqat, istintaq, prokurorluq orqanları və məhkəmələr), o cümlədən mülki işlər üzrə qəbul olunmuş qərarlar əsasında dövlət hesabına hüquqi yardıma görə 39 830 qərar üzrə 4 999 982,10 manat vəsaitin 97 vəkil qurumuna və 38 fərdi qaydada fəaliyyət göstərən vəkilə, ümumilikdə isə 973 vəkilə ödəniş təmin edilib.

Kollegiya 2024-cü il üzrə hesabatında isə qeyd edir ki, dövlət hesabına hüquqi yardıma görə 40 650 qərar üzrə 5 499 994,34 manat vəsaitin 96 vəkil qurumuna və 37 fərdi qaydada fəaliyyət göstərən vəkilə, ümumilikdə isə 979 vəkilə ödəniş təmin edilib.

Nazirlər Kabinetinin 19 noyabr 2020-ci il tarixli qərarına əsasən, 2020-ci ilin noyabrından etibarən, məhkəmədən başqa cinayət prosesini həyata keçirən digər orqanlara (təhqiqat, istintaq və prokurorluq orqanlarına) da dövlət hesabına göstərilən hüququ yardıma görə vəkilə ödənişi nəzərdə tutan qərarların qəbul edilməsi səlahiyyəti verildi. Bununla da, yalnız məhkəmə qərarı əsasında deyil, o cümlədən, həmin orqanların da əsaslandırılmış qərarları əsasında vəkilə ödənişin həyata keçirilməsinə başlanıldı (91,s.114).

Dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənilməli olan haqq onun təqdim etdiyi hesabata müvafiq olaraq cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı əsasında Vəkillər Kollegiyası tərəfindən ödənilir.

Müdafiəçiyə (vəkilə) hər iş saatı üçün dövlət hesabına ödənilən məbləğin miqdarı hələ də kifayət qədər deyil. Belə ki, keçirilən hüquq islahatları ilə cinayət prosesində ittiham tərəfi ilə müdafiə tərəfinin hüquqları bərabərləşdiyinə görə vəkilə hər iş saatı üçün dövlət hesabına ödənilən məbləğin də miqdarı dövlət ittihamçısına hər iş saatı üçün ödənilən əmək haqqına bərabərləşdirilməlidir.

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanuna əsasən vəkillik hüquq müdafiə fəaliyyətini həyata keçirməli olan müstəqil hüquqi təsisatdır. Vəkillik qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq və konfedensiallıq

prinsipləri əsasında fəaliiyyət göstərir. Kollegiya Azərbaycan Respublikasında qeyri-dövlət, müstəqil, özünüidarə edən və bütün vəkillərin daxil olduğu qurumdur .

Azərbaycan Respublikasının yeni Vəkillər Kollegiyası 3 noyabr 2004-cü ildə təsis edilib.Vəkillik fəaliyyəti sahəsində islahatlara da elə həmin vaxtdan başlanıldı.

Vəkillik fəaliyyəti istiqamətində aparılan islahatı şərti olaraq iki mərhələyə bölmək olar:

Birinci mərhələ 2004-cü ilin noyabrından-2019-cu ilə kimi davam edib. Bu mərhələdə Azərbaycan Respublikasında müstəqil vəkillik təsisatı təşəkkül tapdı. Respublikamızda müstəqil vəkillik təsisatının təşəkkül tapması Vəkillər Kollegiyası Rəyasət Heyətinin keçmiş sədri Azər Tağıyevin müstəsna fəaliyyəti ilə bağlıdır.

İkinci mərhələ 2019-cu ildən-hal-hazıradək olan dövrü əhatə edir. Bu mərhələ Azərbaycanda vəkilliyin inkişafı, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə nüfuzunun artması dövrüdür. Bu dövr Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırovun birbaşa fəaliyyətinin nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 mat 2005-ci il tarixində "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə" Sərancam verdi. Sərəncamda Nazirlər Kabinetinə iki ay müddətində Vəkillər Kollegiyasının fəaliyyətinin təşkili üçün müvafiq bina və maddi-texniki təminat ilə bağlı məsələləri həll etmək, nəqliyyat vasitələrinin alınması, habelə vəkillərin xüsusi geyim formasının hazırlanması üçün vəsait ayırmaq, habelə vəkillərə dövlət hesabına ödənilən hüquqi yardımın məbləğini artırmaq kimi məsələlərin həlli tapşırılırdı. Sərəncamla Kollegiya üzvlərinin peşəkarlıq səviyəsinin, habelə onların göstərdikləri hüquqi yardımın keyfiyyətinin artırılması üçün tədris prosesini təşkil etmək və digər zəruri tədbirlər görmək tövsiyyə edilirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə

tədbirlər haqqında” 22 fevral 2018-ci il tarixli Sərəncamı vəkilliyin inkişafında əhəmiyyətli rol oynadı. Sərəncama əsasən Nazirlər Kabinetinə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin və Kollegiyanın digər strukturlarının fəaliyyətinin təmin edilməsi məqsədi ilə Bakı şəhərində müvafiq bina ilə təmin olunması üçün tədbirlər görmək, Gəncə, Lənkəran Sumqayıt, Şəki və Şirvan şəhərlərində Vəkillər Kollegiyasının vəkil qurumlarının fəaliyyətinin təmini məqsədilə onları müvafiq binalarla təmin etmək, vəkillərin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına göstərilən hüquqi yardıma görə qanunla müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını təmin etmək, Kollegiyanın istifadəsindəki binaların təmiri, zəruri kompüter avadanlığının, habelə nəqliyyat vasitələrinin alınması məqsədilə vəsait ayırmaq tapşırıldı.

Sərəncamda həmçinin Vəkillər Kollegiyasına ixtisas imtahanlarının müntəzəm keçirilməsini təşkil etmək, Vəkillər Kollegiyasına yeni üzvlərin, xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaratmağı, göstərilən hüquqi xidmətlərin keyfiyyətinin daimi yüksəldilməsi məqsədilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlər görməyi, vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfidensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrini təmin etməyi, şəhər və rayonlarında vətəndaşların yüksək keyfiyyətli hüquqi yardıma tələbatını təmin etmək məqsədilə regionlarda vəkillərin fəaliyyətinin stimullaşdırılması üçün tədbirlər hazırlayıb həyata keçirməyi, hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün Vəkillər Kollegiyası tərəfindən pulsuz hüquqi xidmətlər göstərilməsi tövsiyyə edilmişdir.

Göstərilən sərəncam icra edilərək regionlarda apellyasiya məhkəmələrinin yurisdiksiyasına uyğun olaraq Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində regional vəkil

qurumları yaradılmış və fəaliyyətləri üçün müvafiq binalarla təmin edilmişdir (91,s.26).

Vəkillərin prosessual hüquqları və vəzifələri Azərbaycan Respublikasının Cinayət-Prosessual, İnzibati Prosessual, Mülki-Prosessual və İnzibati Xətalar Məcəllələri ilə tənzimlənir.

Cinayət prosesində müdafiəçi qismində yalnız Azərbaycan Respublikasının ərazisində vəkillik fəaliyyətini həyata keçirmək hüququna malik olan vəkil iştirak edə bilər.

Şübhəli və ya təqsirləndirilən şəxsin bir neçə müdafiəçisi ola bilər. Müdafiəçinin iştirakı məcburi olan prosessual hərəkətlər aparılarkən şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçilərindən hər hansının iştirak etməməsi bu hərəkətlərin qanunsuz hesab edilməsinə əsas ola bilməz.

Cinayət prosesində müdafiəçinin iştirakı aşağıdakı hallarda təmin olunmalıdır:

1.şübhəli və ya təqsirləndirilən şəxs tələb etdikdə;

2.şübhəli və ya təqsirləndirilən şəxs görmə, eşitmə və nitq qabiliyyəti tam məhdud olduğuna, danışmaq, eşitmək, görmək funksiyalarında digər ciddi pozuntular olduğuna, uzun sürən ağır xəstəliyinə, habelə əqli geriliyə, aşkar əqli zəifliyə və ya digər pozuntulara görə müdafiə hüququnu müstəqil həyata keçirə bilmədikdə;

3.cinayət təqibi üzrə icraat aparılan anda şübhəli və ya təqsirləndirilən şəxsdə ruhi xəstəliyin kəskinləşməsi və ya müvəqqəti ruhi pozuntu aşkar edildikdə;

4.şübhəli və ya təqsirləndirilən şəxs cinayət mühakimə icraatının aparıldığı dili bilmədikdə;

5.şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törədərkən yetkinlik yaşına çatmadıqda;

6. təqsirləndirilən şəxs müddətli hərbi xidmət qulluqçusu olduqda;

7.şübhəli və ya təqsirləndirilən şəxsə xüsusilə ağır cinayət törətməsi istinad edildikdə;

8.şübhəli və ya təqsirləndirilən şəxs məcburi qaydada xüsusi tibb müəssisəsinə yerləşdirildikdə;

9.şübhəli və ya təqsirləndirilən şəxs tutulduqda və ya təqsirləndirilən şəxs haqqında qətimkan tədbiri qismində həbs tətbiq edildikdə;

10.cinayət təqibi cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçdikdən sonra həyata keçirildikdə;

11.təqsirləndirilən şəxslərin qanuni mənafeləri arasında ziddiyyət mövcuddursa və onlardan birinin müdafiəçisi olduqda;

12. cinayət təqibi cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törədən şəxs barəsində həyata keçirildikdə;

13. şübhəli və ya təqsirləndirilən şəxsin fəaliyyət qabiliyyəti olmadıqda;

14.ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisi müəyyən edilmədikdə;

15.ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin yaxın qohumu onun hüquqi varis qismində tanınması barədə müvafiq istəyini bildirmədikdə;

*16.*məhkəməyədək icraat zamanı cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda (6, s.145-150).

Cinayət prosesində müdafiəçinin iştirakı aşağıdakı andan təmin olunur:

1. şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçini tələb edərkən;

2. şəxs ilk dəfə dindirilərkən, ona tutulması haqqında cinayət prosesini həyata keçirən orqanın qərarı, tutma haqqında protokol və ya qətimkan tədbiri seçilməsi haqqında qərar, yaxud ittiham elan edilərkən;

3. şəxsdə xəstəlik və ya anlaqsızlıq aşkar edilərkən;

4. təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar çıxarılarkən;

5. şübhəli və ya təqsirləndirilən şəxsin xüsusi tibb müəssisəsinə yerləşdirilməsi barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən;

6. şübhəli və ya təqsirləndirilən şəxs tutularkən və ya həbs qətimkan tədbirinin seçilməsi barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən;

7. təqsirləndirilən şəxsə qarşı ittihama məhkəmədə baxılarkən;

8.şübhəli və ya təqsirləndirilən şəxsin mülki mühakimə icraatı qaydasında fəaliyyət qabiliyyəti olmadığı təsdiq edilərkən və ya cinayət mühakimə icraatı qaydasında fəaliyyət qabiliyyəti olmadığı müəyyən edilərkən;

9.cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən (6,s.145-150).

Cinayət prosesində müdafiəçinin məcburi iştirakını cinayət prosesini həyata keçirən orqan təmin edir. Cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirilərsə, məhkəmə xüsusi ittiham qaydasında şikayəti öz icraatına qəbul etdiyi andan müdafiəçinin iştirakını təmin edir.

Şübhəli və ya təqsirləndirilən şəxsin, habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin müdafiəsini öz öhdəsinə götürdükdə, müdafiəçi cinayət prosesini həyata keçirən orqana şəxsiyyətini və Azərbaycan Respublikasının ərazisində vəkillik fəaliyyətini həyata keçirmək hüququnu təsdiq edən sənədi, habelə vəkil qurumunun orderini təqdim etməlidir.

Müdafiəçi nəzərdə tutulmuş tələbləri yerinə yetirilmədikdə cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsin cinayət prosesinə müdafiəçi qismində buraxılmasından imtina edilməsi haqqında əsaslandırılmış qərar çıxarır (6,s.145-150).

Vəkillik sahəsində islahataqədərki dövrdə vətəndaşlara mülki işlərdə hüquqi xidmət Vəkillər Kollegiyasının üzvü olan vəkillər, Ədliyyə Nazirliyindən üç il müddətinə lisenziya alan hüquqşünaslar və nümayəndələr tərəfindən göstərilidi. Lisenziya əsasında hüquqi xidmətin göstərilməsi 2004-cü ilin

noyabrın 3-nə kimi davam etdi. Həmin tarixdə lisenziya əsasında fəaliyyət göstərən hüquqşünaslar Vəkillər Kollegiyasına üzv qəbul edildilər.

Nümayəndələr tərəfindən hüquqi xidmət hüquqşünaslar və qeyri hüquqşünaslar tərəfindən göstərilirdi. 31 oktyabr 2017-ci il tarixli Azərbaycan Respublikasının qanununa əsasən fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və vəkili ola bilər Bunlada nümayəndələrin kənar şəxslərə hüquqi xidmət göstərməsi qanunla qadağan edildi (90,2017.9.11.№ 247).

Mülki prosesdə vəkil kimi Azərbaycan Respublikasında müəyyən olunmuş qaydada səlahiyyəti təsdiq olunmuş vəkillər iştirak edirlər.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinə əsasən kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər (90,2009.24.06.№ 135).

Vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, məhkəmə aktını qəbul etmiş məhkəmə işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında vəkilin prosesdə iştirakını təmin edir.

Vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edir.

Birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması

məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.

Məhkəmə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir.

Məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən şəxslər;
- əlilliyi olan uşaqlar, insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;
- valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;
- ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
- işsiz kimi qeydiyyatda olan şəxslər;
- maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər (90,2024. 14.12.№276).

Məhkəmə həmin şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan, lakin sonrakı iş günündən gec

olmayaraq baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan qanunla müəyyən edilmiş qaydada şikayət verilə bilər.

İş məhkəmə baxışına hazırlandıqda və həmin işə məhkəmədə baxıldıqda vəkil ixtisaslı hüquqi yardım göstərməyə borcludur.

Məhkəmə tərəfindən işə buraxılmış vəkil iş materialları ilə tanış olmaq, onlardan çıxarışlar götürmək, surətlərini çıxartmaq, sübutlar təqdim etmək və sübutların tədqiqində iştirak etmək, işdə iştirak edən başqa şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatət vermək, habelə əlavə sübutlar tələb olunması barədə vəsatət vermək, məhkəməyə şifahi və yazılı izahat vermək, məhkəmə baxışı gedişində baş verən bütün məsələlər barədə öz dəlil və mülahizələrini təqdim etmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək hüququna malikdir.

İnzibati Xətalar Məcəlləsinə əsasən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə hüquqi yardım göstərmək üçün inzibati xəta haqqında iş üzrə icraatda müdafiəçi iştirak edə bilər. Məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraata fiziki şəxsin müdafiəçisi qismində yalnız vəkil buraxılır. Törədilmiş inzibati xətaya görə fiziki şəxs barəsində inzibati qaydada tutma tətbiq edildiyi hallarda müdafiəçi həmin şəxsi inzibati qaydada tutulduğu vaxtdan inzibati xəta haqqında iş üzrə icraatda iştirak etməyə buraxılır.

Vəkilin inzibati xəta haqqında iş üzrə bütün materiallarla tanış olmaq, sübutlar təqdim etmək, vəsatət və etirazlar vermək, işin baxılmasında iştirak etmək, inzibati xətalar üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən, iş üzrə qəbul edilmiş qərardan şikayət vermək və inzibati xəta hadisəsinin baş verdiyi yer videomüşahidə vasitələrinin (videokameraların) nəzarəti altındadırsa, hadisənin görüntülərinin elektron daşıyıcıda surətini almaq hüquqları vardır.

İnzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, nitq, eşitmə, görmə qabiliyyəti tam məhdud olan, fiziki və

ya psixi pozuntularına görə özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir. Göstərilən hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin müdafiəçidən imtinası qəbul olunmur. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən seçilmiş vəkilin gəlməsi mümkün olmadıqda, hakim səlahiyyətli orqan (vəzifəli şəxs) həmin şəxsi vəkil ilə təmin edir. Maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmadıqda, inzibati qaydada tutulmuş şəxsə hüquqi yardım dövlət vəsaiti hesabına göstərilir. Belə halda vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.

Vəkilliyin əsas vəzifələri fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsindən ibarətdir.

Cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Ali Məhkəmədə təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsidir.

Vəkillər hüquqi yardımın göstərilməsi ilə bağlı həmçinin dövlət və qeyri-dövlət orqanlarında və təşkilatlarda, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fiziki və hüquqi şəxslərin nümayəndəliyinin həyata keçirilməsində, hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar və arayışlar verilməsində, ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsində, fiziki və hüquqi şəxslərə lazımi hüquqi yardım göstərilməsində, onların fəaliyyətinin hüquqi təminatının həyata keçirilməsində və digər növ hüquqi yardım göstərilməsində də iştirak edirlər.

Vəkillik fəaliyyəti irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı

olmayaraq, insan və vətəndaş hüquq və azadlıqlarının üstünlüyü, qanunun aliliyi, vəkillərin müstəqilliyi, onlarla hüquqi yardım üçün müraciət edənlər arasında olan münasibətlərin könüllülüyü əsasında və vəkil etikasına riayət edilməklə həyata keçirilir.

Vəkillik fəaliyyəti hüquqi yardım üçün müraciət etmiş şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsinin və ya təmsil edilməsinin vəkilə həvalə edilməsi əsasında və onların tapşırıqlarına müvafiq olaraq həyata keçirilir.

Vəkilin ədalət mühakiməsində iştirakı yalnız hüquqi yardım üçün müraciət edən şəxslə fərdi qaydada fəaliyyət göstərən vəkil və vəkilin daxil olduğu qurum arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

Müraciət etmiş şəxs müqavilə şərtləri əsasında vəkilə həvalə edilmiş tapşırığı qabaqcadan xəbərdarlıq etmədən məhdudlaşdıra və ya geri götürə bilər.

Vəkillər Kollegiyası üzvlüyünə müəyyən olunmuş qayda-da qəbul edilmiş və vəkil andı içmiş şəxs vəkillik fəaliyyətini həyata keçirə bilər.

Qanuna əsasən ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajı olan və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquq sahəsində üç ildən az olmayan müddətdə fəaliyyət göstərən, İxtisas Komissiyasında peşə yararlılığının müəyyən edilməsi məqsədi ilə yazılı testdən və şifahi müsahibədən ibarət olan ixtisas imtahanını müvəffəqiyyətlə vermiş və icbari təlimi müvəffəqiyyətlə bitirmiş şəxs vəkil ola bilər.

Qanunda intizam qaydasında vəkillik fəaliyyətinə xitam verilmiş şəxslər istisna olmaqla əvvəllər vəkil və ya hakim olmuş şəxslərin vəkilliyə qəbulunda güzəştlər də nəzərdə tutulub. Onlar yazılı testi vermədən və icbari təlimə cəlb olunmadan, yalnız şifahi müsahibədən keçdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər. Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, habelə əvvəllər Konstitusiya Məhkə-məsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkə-mələrinin sədri vəzifəsində işləmiş şəxslər yazılı testi vermədən,

şifahi müsahibədən keçmədən və icbari təlimə cəlb olunmadan vəkil ola bilərlər (79).

Qanun həmçinin vəkil ola bilməyən şəxslərin də dairəsini müəyyənləşdirib. Belə ki, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, qanunvericiliklə müəyyən edilmiş qaydada alınan tibbi rəyə əsasən əqli pozuntularına görə vəkillik fəaliyyətini həyata keçirməyə qadir olmayan, qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər vəkil ola bilməzlər (79).

Qanun vəkillərin peşə fəaliyyətinin həyata keçirilməsi üçün bir sıra təminatlarda verir. Beləki vəkili peşə borcunu həyata keçirməklə əlaqədar olaraq ona məlum olan hallar barədə dindirmək qadağandır. Cinayət Prosessual Məcəlləsinə görə də müdafiəçi qismində hüquqi yardım göstərilməsi ilə əlaqdar olaraq həmin cinayət prosesinə aid olan məlumatları bilən vəkillər şahid qismində məhkəməyə çağrıla və dindirilə bilməzlər.

Göründüyü kimi ibtidai istintaq mərhələsində ona aid olan hallar barədə vəkili məhkəməyə çağırılıb şahid kimi dindirməyi qanun qadağan edir. Lakin təcrübədə xüsusən də Ağır Cinayətlər Məhkəmələrinin hakimləri göstərilən qanunların tələblərini kobud şəkildə pozaraq vəkilləri ibtidai istintaq mərhələsində onlara məlum olan hallar barədə dindirmək üçün məhkəməyə şahid kimi çağırırlar. Vəkillər isə haqlı olaraq şahid kimi dindirilmək üçün məhkəməyə getməkdən imtina etdikdə həmin məhkəmələrin bir sıra hakimləri özlərinin üstünlüklərini nümayiş etdirməyə çalışaraq həmin vəkillər haqda təqsirləndirilən şəxsə göstərdikləri hüquqi yardımın formal xarakter daşıması barədə Vəkillər Kollegiyasına səhv məlumatlar verir. Bu məlumat əsasında da həmin vəkillər intizam komissiyasına çağrılır və əsassız olaraq incidilir.

Bəzi vəkillər isə intizam komissiyasına çağrılmasın deyə məcbur olaraq məhkəmədə şahid kimi ifadə verirlər. Bu səbəbdən də qanunun tələblərinə müvafiq olaraq vəkili məhkəməyə şahid kimi çağırıb dindirməyin qarışısı alınmalıdır.

Azərbaycan Respublikasında vəkillik fəaliyyəti fərdi qaydada və ya qanunvericiliyin tələblərinə uyğun vəkillər tərəfindən yaradılmış vəkil qurumlarının tərkibində həyata keçirilir. Vəkil qurumlarına daxildir:

regional vəkil büroları;

vəkil büroları;

fərdi vəkil büroları.

Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında" Qaydalara əsasən vəkil qurumu üzvlüyə əsaslanan, təsisçilər tərəfindən təsdiq edilən Nizamnamə əsasında və həmin təsisçilərin öz aralarında təsis müqaviləsi bağlaması yolu ilə təsis edilən və fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır.

Vəkil qurumu bir qayda olaraq üç və daha çox vəkil tərəfindən təsis edilə bilər, qurumun rəhbəri seçiləcək şəxsin isə minimum 2 il vəkil stajı olmalıdır. Qurum Azərbaycan Respublikasının ərazisi daxilində, Qurumun yerləşdiyi inzibati ərazidən kənarda olmamaq şərtilə vəkil kabineti yarada bilər.

Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Vəkil kabinetinin yaradılması" Qaydalara əsasən vəkil qurumunda fəaliyyət göstərən vəkil özünün ayrıca vəkil kabinetini yarada bilər. Vəkil kabineti hüquqi şəxs deyil və vəkil kabineti təşkil edən vəkil daxil olduğu vəkil qurumunda fəaliyyət göstərən vəkil hesab olunur.

Vəkillik istiqamətində həyata keçirilən islahatlardan biri də "Vəkillər Kollegiyası Akademiyası"nın yaradılmasıdır. Akademiya Vəkillər Kollegiyası Rəyasət Heyətinin 20 oktyabr 2023-cü il tarixli qərarı ilə yaradılıb.

Rəyasət Heyətinin 02 iyul 2025-ci il tarixli qərarı ilə "Vəkillər Kollegiyasının Akademiyası"nın adı dəyişdirilərək "Vəkillər Kollegiyasının Tədris Mərkəzi" adlandırılıb.

Tədris Mərkəzinin fəaliyyətinin əsas istiqamətlərinə vəkillərin peşə hazırlığının daima artırılmasına, ixtisaslaşmanın dərinləşdirilməsinə, davamlı tədrisinə və müxtəlif istiqamətlərdə ardıcıl və zəruri təlimlərin təşkilinə, qabaqcıl beynəlxalq təcrübə əsasında və müasir dövrün tələblərinə uyğun vəkillik institunun inkişaf etdirilməsinə dəstək verilməsi, vəkillik fəaliyyətinin ümumiləşdirilməsi və inkişafı üzrə mütamadi dərslərin həyata keçirilməsi, hüquqi maarifləndirmənin yüksək səviyyədə təşkili, vəkillərin fəaliyyət göstəriciləri üzrə mütamadi dərslərin həyata keçirilməsi, vəkillərin fəaliyyət göstəriciləri üzrə statistik təhlilin aparılması və informasiya sisteminin qurulmasına dəstək verilməsi, davamlı treninqlərin, təlimlərin və müxtəlif kursların təşkil edilməsi, hüquqi müstəvidə konfrans, seminar, dəyirmi masa, simpozium, kurs, sərgi, müsabiqələr təşkil edilməsi, vəkillər kollegiyasının rəsmi jurnalı olan "Azərbaycan Vəkili" jurnalının dərcinin davamlılığının təmin edilməsi, hüquq təhsili müəssisələri-fakültələri ilə sıx əməkdaşlığın qurulması, peşə hazırlığı üzrə proqramların və metodik vəsaitlərin hazırlanması, ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla vəkilliyin inkişafına yönəlmiş layihələrin həyata keçirilməsi, elmi-praktik müsabiqələrin və vəkillərin elmi-yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi üzrə tədbirlərin təşkili, Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə həvalə edilən digər tapşırıqların yerinə yetirilməsi və s. aiddir.

Tədris Mərkəzinə rəhbərliyi Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təyin edilən direktor həyata keçirir. Tədris Mərkəzinin tərkibində Elmi-Şura və Ekspert Şurası fəaliyyət göstərir.

Vəkillik fəaliyyətinin müasir tələblərə müvafiq olaraq qurulması yəni elektron vəkil kabineti, elektron order, elektron müqavilə və digər elektron xidmətlərin göstərilməsi vəkillik

fəaliyyəti sahəsində aparılan islahatlar sırasında ən vaciblərindəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2022-ci il tarixli Sərəncamında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini və hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlər görməyi tövsiyyə etmişdir.

Sərəncamda tövsiyyə edilən tapşırığın icrası məqsədilə Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli Qərarı ilə "Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə Qaydaları" təsdiq edilmişdir.

Bu istiqamətdə aparılan işlərin nəticəsində Kollegiyanın rəsmi internet saytında Vəkillər Kollegiyası və onun üzvləri arasında çevik məlumat mübadiləsinin, "Elektron məhkəmə portalı"na keçidin təmin edilməsi məqəsdilə "Elektron vəkil kabineti" funksiyası əlavə olunmuşdur.

3 aprel 2024-cü il tarixində Vəkillər Kollegiyasının təşkilatçılığı ilə elektron order, elektron müqavilə və digər elektron xidmətlərin ictimaiyyət üçün təqdimatı keçirildi. Kollegiyanın sədri Anar Bağırov açılış nitqi ilə çıxış edərək son dövrlər vəkillikdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə böyük üstünlük verildiyini, bu sahədə müəyyən layihələrə imza atıldığını, o cümlədən Kollegiya tərəfindən yaradılan "Elektron vəkil orderi" sistemindən artıq bir sıra vəkillərin istifadə etdiyini bildirdi.

Məqsədin vəkillərin işinin asanlaşdırılması, vaxt itkisinin qarşısının alınması və vətəndaş məmnunluğunun yaradılması olduğunu söyləyən Anar Bağırov elektron vəkil sorğusu ilə bağlı da müəyyən işlərin görüldüyünü, bu istiqamətdə müvafiq nor-

mativ hüquqi aktlara dəyişikliklə bağlı təkliflərin hazırlandığını və aidiyyəti qurumlarla razılaşdırıldığını vurğuladı.

Vəkillər Kollegiyası Rəyasət Heyətinin 1 mart 2024-cü il tarixli iclasında, "Elektron vəkil orderi"nin aprel ayından isə ilin sonuna qədər kağız daşıyıcı ilə paralel olaraq, 2025-ci ildən ildən isə məcburi qaydada istifadə edilməsi barədə qərar qəbul etdi.

Vəkillər Kollegiyası 2024-cü il üzrə fəaliyyəti barədə-hesabatında göstərir ki, 01 sentyabr 2023-cü ildən 31 dekabr 2024-cü ilə kimi "Elektron vəkil orderi" vasitəsi ilə Vəkil bürolarında 13128, habelə fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən isə 554 elektron müqavilə bağlanılıb. Beləliklə, qısa müddət ərzinidə ümumilikdə 13682 elektron müqavilə bağlanaraq Vəkillər Kollegiyasının informasiya kommunikasiya texnologiyaları sahəsində yeni uğura imza atıb. 2024-cü il ərzinidə ümumilikdə 13662 elektron markadan istifadə olunub.

Cəmiyyətdə vəkillərin nüfüzunun artması vəkil bürolarının və vəkillərin sayının da artmasına gətirib çıxartdı. Vəkillər Kollegiyasının 2024-cü il üzrə fəaliyyəti barədə hesabatında respublikamızda 138 Vəkil Bürosunun fəaliyyət göstərdiyi və həmin ildə Ağdaş və Ağsuda Vəkil büroları təşkil edilərək fəaliyyət göstərdiyi qeyd olunub.

2004-cü ilin noyabrında Vəkillər Kollegiyası təsis olunan zaman respublikamızda vəkillərin sayı 370 nəfər idi.

Azərbaycan Respublikasında vəkillərin sayı 2017-ci ildə 931 nəfər, 2018-ci ildə 1503, 2019-cu ildə 1708, 2020-ci ildə 1844, 2021-ci ildə 2132, 2022-ci ildə 2237, 2023-cü ildə 2431 və 2024-cü ildə isə 2503 nəfər olub. Göründüyü kimi hər il vəkillərin sayı artır. Bu da cəmiyyətimizdə vəkilliyin nüfuzunun artması ilə birbaşa əlaqədardır.

01 oktyabr 2025-ci ilədək olan məlumata əsasən respublikamızda vəkillərin sayı 2770 nəfərə çatıbdır. Keçən 21 il ərzinidə vəkillərin sayı 2400 nəfər artıb. Yəni, 21 il ərzinidə ortalama bir ildə təxminən 115 nəfər vəkil artımı qeydə alınıb.

Bu da təxminən respublikamızda hər 3646 nəfər bir vəkil düşür. Bu say yenə azdır, respublikamızda vəkillərin sayının artırılmasına ehtiyac var. Vəkillərin sayının artması cəmiyyətimizdə hüquqi problemlərin həllinə köməklik göstərəcək və korrupsiyaya qarşı mübarizəni gücləndirəcək.

Vəkillər Kollegiyasının son dövrlərdə həmçinin beynəlxalq nüfüzuda yüksəlmişdir. Bu hər şeydən əvvəl vəkillik istiqamətində keçirilən islahatlarla birbaşa əlaqədardır.Vəkillər Kollegiyası 2017-ci ildən başlayaraq Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasına (CCBE), Asiya və Sakit Okean Hüquq Assosiasiyasına (LAWASIA), Beynəlxalq Vəkillər Assosiasiyasına (UIA), Avropa Vəkillər Assosiasiyasına (AEA-EAL), Avropa Gənc Vəkillər Assosiasiyasına (EYBA) və Avropa Vəkillər Kollegiyaları Federasiyasına (FBE) üzv qəbul edilmiş və həmin təşkilatlarla əməkdaşlığını genişləndirmişdir.

Hər bir ölkədə insan hüquq və azadlıqlarının qorunmasında, azad sahibkarlığın inkişaf etdirilməsində, mətbuat azadlığının təmin edilməsində, ölkənin demokratik və hüquqi dövlətə çevrilməsində vəkillərin xidməti əvəzsizdir. Demokratik və hüquqi dövlətlərdə insan hüquqlarının qorunması vəkillərə münasibətlə müəyyənləşdirilir. Vəkillik institunun inkişaf etdiyi ölkələrdə insan hüquqları qorunur və iqtisadi inkişaf da baş verir.

Vəkillik sahəsində keçirilən islahatlar Azərbaycan Respublikasında vəkillərin mövqeyini və nefuzunu daha da möhkəmləndirəcək, hər kəsin pozulmuş hüquqları qanunla bərpa ediləcək, məhkəmə və hüquq mühafizə orqanları isə tədricən vəkillərin qanuni mövqeləri ilə hesablaşacaqlar.

## III Fəsil.
## Hüququn digər sahələrində islahatların keçirilməsi.

### 1. İnsan hüqüqlarının qorunması sahəsində.

Azərbaycan Respublikasının Konstitusiyasında “İnsan hüquqlarının Ümumi Bəyənnamə”sində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi Azərbaycan dövlətinin demokratik ənənələrə və insan hüquqları ideyasına əməl etmək istəyindən xəbər verir.

Konstitusiyanın 12-ci maddəsində insan hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyənləşdirilmişdir. Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasında qəbul edilən qanunların ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsi zəruridir. Çünki insan hüquq və azadlıqlarının qorunmadığı və müdafiə edilmədiyi cəmiyyətlər demokratik cəmiyyətlər hesab olunmur. Hər bir ölkədə demokratiyanın inkişaf səviyyəsi həmin ölkədə insan hüquqlarının qorunması və reallaşdırılması ilə müəyyənləşdirilir.

Ümummilli Liderin Heydər Əliyev YUNESKO-nun baş direktoru Federiko Mayora göndərdiyi 3 sentyabr 1997-ci il tarixli məktubunda bu barədə yazmışdır: ”Konstitusiyaya görə Azərbaycan dövlətinin ali məqsədi insan hüquq və azadlıqlarının təmin edilməsidir. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılmasını və təbliğ edilməsini qadağan edir, həmçinin, insanları hər hansı bir diskriminasiyadan müdafiə edir. Sülhün

qorunmasında mədəniyyətin danılmaz rolunu nəzərə alaraq qeyd etmək lazımdır ki, Konstitusiya hər kəsin mədəni sərvətlərdən sərbəst istifadə etmək hüququnu, eləcə də milli mənsubiyyətini qoruyub saxlamaq və ana dilindən istifadə etmək hüquqlarını təmin edir, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqatı və təbliğatı qadağan edir" (185,s.150).

Konstitusiya ilə ölkəmizdə hər kəsə yaşamaq, azadlıq, mülkiyyət və.s kimi əsas təbii hüquqlar verildi. Sovet dövrü Konstitusiyalarında Azərbaycan vətəndaşları üçün bu hüquqlar nəzərdə tutulmamışdır. Halbuki 10 dekabr 1948-ci ildə BMT-nin Baş Məclisi tərəfindən qəbul edilən "Ümumdünya insan hüquqları bəyannaməsi"nin 3-cü maddəsində hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olduğu göstərilmişdir. Bu bəyannamə qəbul edilməsindən 40 il sonra 10 dekabr 1988-ci ildə Sovet dövlətində dərc edildi. Göründüyü kimi bəyannamə uzun müddət sovet insanlarından gizlədildi və sovet insanının bəyannamədə nəzərdə tutulan hüquqlardan xəbəri olmadı.

Lakin Azərbaycan Respublikasının Konstitusiyasının 27-ci maddəsi hər kəsə yaşamaq hüququ verdi. Konstitusiyaya görə, insana qarşı silah işlədilməsinə aşağıdakı hallarda yol verilir:

1. zəruri müdafiə və son zərurət;
2. cinayətkarın yaxalanması və tutulması;
3. həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması;
4. dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması;
5. ölkəyə silahlı basqın zamanı.

"Polis haqqında" Qanununa əsasən polis əməkdaşı aşağıdakı hallarda insana qarşı odlu silah tətbiq edilə bilər:

1.insan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə;
2. şəxs yaxalanarkən silahlı müqavimət göstərdikdə;
3. insan həyatına real təhlükə yaradan cinayətin qarşısı alındıqda;

4. odlu silahın digər şəxs tərəfindən ələ keçirilməsinin qarşısı alındıqda.

Polis əməkdaşı yalnız real təhlükənin qarşısını alarkən odlu silah tətbiq edə bilər. Odlu silahı tətbiq etməzdən əvvəl şifahi xəbərdarlıq edilməli və ya xəbərdarlıq atəşi açılmalıdır. Odlu silahın tətbiq edilməsi barədə isə 24 saat ərzinidə müvafiq prokurora yazılı məlumat verilməlidir (73).

22 fevral 1998-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında Fərman imzaladı". Fərmanda qeyd edilirdi ki, demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insaniləşdirən ən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil (13).

Ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilmişdir. Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun

təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

Fərmanda həmçinin Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılırdı ki, əlaqədar dövlət orqanları ilə birlikdə insan hüquqlarının müdafiəsinə dair dövlət proqramının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının, habelə insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılmasına dair məsələni müzakirə edib Azərbaycan Respublikasının Prezidentinə müvafiq təkliflər təqdim etsinlər, qaçqınların və məcburi köçkünlərin, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi ilə əlaqədar təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, insan hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun yaradılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi üçün tədbirlər görsünlər, insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, insan hüquqları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin tam və səmərəli həyata keçirilməsi üçün müvafiq təşkilati və digər tədbirlərin görülməsini təmin etsinlər, Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-dövlət hüquqi müdafiə təşkilatları ilə qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf

etdirilməsini təmin etsinlər, BMT-nin insan hüquqlarına dair ümumi bəyannaməsinin 50 illiyi münasibətilə yubiley tədbirlərinin keçirilməsi üzrə komissiyanın yaradılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, BMT-nin Azərbaycandakı nümayəndəliyi ilə razılaşdırmaqla qadınların, uşaqların, milli azlıqların hüquqlarının müdafiəsinə və digər zəruri tədbirlərin həyata keçirilməsinə dair proqram layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər, insan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə müvafiq tədqiqat və təhsil proqramlarının öyrənilməsi üçün mütəxəssislərin iştirakını təmin etsinlər (13).

Azərbaycan Respublikasının Prokurorluğuna, Daxili İşlər Nazirliyinə və Dövlət Təhlükəsizliyi Xidmətinə tapşırılırdı və Ali Məhkəməyə tövsiyə edilirdi ki, təhqiqat, istintaq və məhkəmə orqanları tərəfindən insan hüquqları sahəsində qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilsin, insan hüquq və azadlıqlarının pozulması hallarının aradan qaldırılmasını təmin etsinlər.

Ədliyyə və Daxili İşlər Nazirliklərinə, Dövlət Təhlükəsizliyi Xidmətinə və Baş Prokurorluğa tapşırılırdı ki, azadlıqdan məhrum edilmiş və ibtidai istintaq zamanı həbsə alınmış şəxslərin saxlanılması şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirsinlər.

Elm və Təhsil Nazirliyinə isə tapşırılırdı ki, insan hüquqlarına dair beynəlxalq aktların öyrənilməsi məqsədilə respublikanın ali, orta ixtisas və orta məktəbləri üçün insan hüquq və azadlıqlarına dair dərsliklərin hazırlanmasını, olimpiadaların, müsabiqələrin keçirilməsini, insan hüquqlarının təbliğinə dair bədii sərgilərin, festivalların və digər tədbirlərin keçirilməsini təmin etsin (13).

Azərbaycan Respublikasında insan hüquqlarının qorunması istiqamətində üç dövlət proqramı, qanunlar və digər normativ xarakterli aktlar qəbul edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 iyun 1998-ci il

tarixli Sərəncamı ilə ölkəmizdə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"ı təsdiq edildi. Ümummilli Liderin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə 28 dekabr 2006-cı ildə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 27 dekabr 2011-ci ildə isə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artıqmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olundu.

27 may 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın milli bayramı-Respublika günü münasibətilə təntənəli yığıncaqda insan hüquqlarının qorunması ilə bağlı demişdir: "Azərbaycanda demokratik prinsiplərin hamısı-çoxpartiyalı sistem, mətbuat azadlığı, insan azadlığı, insan haqlarının qorunması, vicdan, söz azadlığı bərqərar olubdur. Hər bir Azərbaycan vətəndaşı bərabər hüquqlara malikdir və öz hüquqlarından istədiyi kimi istifadə etmək imkanına malikdir. Bunlar hamısı bizim tarixi nailiyyətimizdir" (184,s.16).

"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda 42 cür tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqramda İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin təbliğ edilməsi, insan hüquqları üzrə elmi tədqiqat institutunun yaradılması, insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkilli təsisatının yaradılması, insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin aparılması, insan hüquqları və azadlıqları problemləri üzrə ixtisaslaşan mütəxəssislərin hazırlanması, əsas insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyasının müddəalarının media ilə geniş əhali kütləsinə çatdırılması, Azərbaycan Respublikasının qoşulduğu insan hüquq və azadlıqlarına dair beynəlxalq konvensiyaların, aktların, sazişlərin Azərbaycan dilində dərc olunması və BMT-nin 10 dekabr 1948-ci il tarixli

“Ümumdünya İnsan Hüquqları Bəyannaməsi”nin nəşri və yayılması və s. nəzərdə tutulmuşdur (19).

Dövlət Proqramı qəbul edildikdən sonra orada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə başlanıldı. Nəzərdə tutulan tədbirlərdən biri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Omdudsman) təsisatının yaradılması idi. 28 dekabr 2001-ci il tarixində “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanunu qəbul edildi.

Konstitusiya qanununa əsasən İnsan hüquqları üzrə müvəkkili (ombudsman) vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir.

Müvəkkil məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ var.

Müvəkkil cari il bitdikdən sonra 2 aydan gec olmayaraq ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası Prezidentinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Milli Məclis qarşısında çıxış edir. İllik məruzədə azadlıq hüququ, milli preventiv mexanizm funksiyalarının həyata keçirilməsi, informasiya əldə etmək hüququ, seçki hüququ, məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi, hüquq və azadlıqların məhkəmə təminatı, əmək hüququ, sosial təminat hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, Ermənistandan qaçqın düşmüş azərbaycanlıların hüquq

və azadlıqları, qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi, şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının müdafiəsi, hərbi qulluqçuların hüquqlarının müdafiəsi, qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi, uşaq hüquqlarının müdafiəsi, ahılların hüquqlarının müdafiəsi, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, həbs yerində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi, beynəlxalq əməkdaşlıq, insan hüquqları sahəsində əməkdaşlıq, elmi-analitik fəaliyyət, ictimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq, media ilə əməkdaşlıq və s. məsələlərlə bağlı çıxış edir.

İllik məruzədə insan hüquqlarını pozan, Müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir. İllik məruzə Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Baş prokurorluğa göndərilir (25).

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərdən biri də Azərbaycan Respublikasının qoşulduğu insan hüquq və azadlıqlarına dair beynəlxalq konvensiyaların, aktların və sazişlərin Azərbaycan dilində dərc olunması və yayılması idi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra BMT-nin "İnsan hüquqlarına dair" ümumi bəyannaməsinə, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında", "Mülki və siyasi hüquqlar haqqında", "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında", "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında", "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı", "Köləlik haqqında", "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında","Uşaq hüquqlarına dair", "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunmas haqında" konvensiyalara və paktlara qoşulmuş və öz üzərinə çoxsaylı öhdəliklər götürmüşdür.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının "Ümumdünya İnsan hüquqları bəyannaməsi"nin 50 illiyinin keçirilməsi haqqında 16 aprel 1998-ci il tarixli Sərəncamı qəbul etdi.

Sərəncamda qeyd edilirdi ki, 10 dekabr 1948-ildə BMT-nin Baş Məclisi tərəfindən ümumdünya insan hüquqları bəyannaməsi qəbul edildi. Həmin bəyannamə insan hüquqları sahəsində ilk rəsmi sənəd olmasa da miqyasına və əhəmiyyətinə görə şübhəsiz ki, birincidir. Məhz 1948-ci il bəyannaməsi insanın beynəlxalq hüququn obyektindən subyektinə çevrilməsinə ilk işarə idi, onun əsasında sonralar yüzlərlə beynəlxalq konvensiyalar qəbul edilmiş, əksər dövlətlər onun müddəalarını konstitusiyalarında təsbit etmişlər (187,s.207).

Heydər Əliyevin 16 aprel 1998-ci il tarixli Sərəncamı ilə "Ümumdünya insan hüquqları bəyannaməsi"nin 50 illiyinin keçirilməsi üçün Dövlət Komissiyası yaradılmışdır. Heydər Əliyev Dövlət Komissiyasının sədri oldu. Dövlət Komissiyasının tərkibinə Artur Rasizadə, Ramiz Mehdiyev, Vasif Talıbov, Tofiq Zülfüqarov, Ramil Usubov, Südabə Həsənova, Misir Mərdanov, Əbülfəz Qarayev, Polad Bülbüloğlu, Sirus Təbrizli, Rafael Allahverdiyev, Nizami Xudiyev, Zəhra Quliyeva, Vəfa Quluzadə, Fatma Abdullazadə, Fuad Ələsgərov, Fərəməz Maqsudov, Anar Rzayev və Səttar Mehbalıyev daxil edildi (187,s.207).

Sərəncamda həmçinin BMT-nin "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 50 illiyi münasibətilə 1998-ci ildə keçiriciləcək tədbirlər proqramı da təsdiq edilmişdir.

Tədbirlər Proqramında Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsində insan hüquqlarının beynəlxalq standartlara uyğun müdafiəsi üzrə tədrisin təşkil olunması, kütləvi informasiya vasitələri və qeyri-dövlət təşkilatlarının nümayəndələri üçün insan hüquqlarına dair seminarın keçirilməsi, kütləvi informasiya vasitələri və qeyri-dövlət təşkilatlarının nümayəndələri üçün insan hüquqları üzrə BMT standartlarına və prosedurlarının müəyyən edilməsi,

tətbiqi və işıqlandırılması üzrə tədrisin təşkil edilməsi, ali və orta məktəblər üçün insan hüquqlarına dair dərsliklərin hazırlanması, insan hüquqlarının müdafiəsinə dair televiziya və radio verilişlərinin təşkil edilməsi, Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair məlumatların İNTERNET informasiya şəbəkəsi vasitəsi ilə yayılması, insan hüquqlarının müdafiəsinə dair beynəlxalq sazişlərin, ixtisaslaşmış jurnalın nəşri və yayımının təmin edilməsi, insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq institutlarla əlaqələrin inkişaf etdirilməsi və.s tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur (187,s.207).

10 dekabr 1998-ci ildə BMT-nin "Ümumdünya insan hüquqları bəyannaməsi"nin 50 illiyinə həsr olunmuş tədbirdə çıxış edən Prezident Heydər Əliyev demişdir: "Azərbaycan müstəqil dövlət kimi Ümumdünya insan hüquqları bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq qalacaqdır. Biz həyatımızın bütün sahələrində və xüsusən dövlət quruculuğu prosesində Konstitusiyada həkk olunmuş insan hüquqlarına aid bütün maddələrin həyata keçirilməsini təmin edəcəyik. Konstitusiyanın maddələrindən irəli gələn vəzifələri həyata keçirmək üçün bundan sonra da yeni qanunlar qəbul edəcəyik və beləliklə Azərbaycanı həqiqətən demokratik, hüquqi, dünyəvi dövlət edəcəyik" (189,s.366).

Azərbaycan Respublikasın Prezidenti Heydər Əliyev Azərbaycanda ölüm hökmünün ləğv edilməsi üçün 22 yanvar 1998-ci ildə Milli Məclisə qanunvericilik təşəbbüsü ilə təqdimat göndərməsi barədə bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi ki, Azərbaycan Respublikasında ölüm cəzası Azərbaycanın cinayət məcəlləsində olubdur və bu gün də var. Ancaq biz ölüm cəzasının da bu son illərdə azaldılması və onun tamamilə ləğv olunması üçün çox işlər görmüşük. Bu, ondan ibarətdir ki, Azərbaycanın cinayət məcəlləsində ölüm cəzası ilə əlaqədar olan bir çox maddələrə 1996-cı ildə baxılıb, mənim təklifimlə Milli Məclisdə qərarlar qəbul olunmuşdur. Bu qərarlara görə Azərbaycanın cinayət məcəlləsində 21 maddədən ölüm cəzası

götürülmüşdür. Ondan sonra indiyə qədər cinayət məcəlləsində ən ağır cinayətlər üzrə 11 maddədə ölüm cəzası saxlanılıbdır. Bununla bərabər, 1996-cı ildə qadınlara və 65 yaşına çatmış kişilərə ölüm cəzası hökmü çıxarılması qadağan edilibdir.

Bəyanatda qeyd edilirdi ki, Azərbaycan Respublikasında 1992-ci ildə 9 nəfər haqqında ölüm hökmünün icra olunması haqqında fərman verilmiş, 8 nəfər haqqında icra edilmişdir. Bir nəfər ölüm hökmü icra edilənə qədər özü həbsxanada ölmüşdür. 1993-cü ilin iyun ayından Azərbaycanda ölüm hökmü icra olunmur. Faktiki olaraq bu cəzanın, hökmün icra edilməsinə moratorium qoyulmuşdur. 1993-1998-ci illərdə isə 128 nəfərə xüsusilə ağır cinayətlərə görə ölüm hökmü çıxarılmış məhkum var.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ölüm cəzasının ləğvinə dair 6 saylı Protokolu Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir. Protokolda qeyd edilir ki, ölüm hökmü ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya belə cəzalandırıla bilməz. Daha sonra göstərilir ki, dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər və bu cür cəza yalnız qanunla müəyyən olunmuş tələblərlə və onun müddəalarına müvafiq olaraq tətbiq edilə bilər.

4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyaya və 28 aprel 1983-cü ildə İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ölüm cəzasının ləğvinə dair 6 saylı Protokoluna əsasən Avropa Şurasının üzv dövlətlərində ölüm hökmü ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya belə cəzalandırıla bilməz. Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər, bu cür cəza yalnız qanunla müəyyən olunmuş tələblərlə müvafiq olaraq tətbiq edilə bilər. Dövlət

həmin qanunun müvafiq müddəaları haqqında Avropa Şurasının Baş Katibinə məlumat verməlidir.

Respublikamızda ölüm cəzası Milli Məclisin 10 fevral 1998-ci il tarixində qəbul etdiyi "Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Qanunu ilə ləğv edildi.

Bu Qanunun təşəbbüskarı və ölkəmizdə ölüm hökmünün aradan qaldırılması və bu cəzanın ləğvi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ölüm cəzasının ləğv edilməsi onu göstərdi ki, Azərbaycan dövləti insan hüquqlarının qorunmasına hüquqi baxımdan çox böyük yüksək dəyər verir. Konstitusiyanın 27-ci maddəsində təsbit olunmuş yaşamaq hüququnun kimliyindən asılı olmayaraq hər kəsə şamil edildiyini təsdiq etdi. İnsan hüquqlarının fəlsəfəsi baxımından insanın törətdiyi cinayət əməlinə görə yaşamaq hüququndan məhrum edilə bilməz. Törədilən ən ağır bir cinayətə görə isə cəza yalnız həmin əməli törətmiş şəxsin azadlığının əlindən alınmasından ibarət ola bilər. Çünki ölüm hökmünü çıxaran hakimdə insandır o da səhvə yol verə günahsız bir şəxsi həyatdan məhrum edə bilər. Günahsız bir şəxsin isə cəzalandırılması cəmiyyətdə sosial narazılığı artırır və məhkəmələr tərəfindən təyin edilən cəzaların məqsədinə nail olunmasına imkan vermir. Bununla da hüququn təməl prinsiplərində biri olan sosial ədalət prinsipi pozulmuş olur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Beynəlxalq Amnistiya Təşkilatının baş katibi Pyer Sane cənablarına göndərdiyi 17 iyul 1998-ci il tarixli məktubunda qeyd edirdi ki, müstəqillik qazandıqdan sonra demokratik, hüquqi, və dünyəvi dövlət quruculuğu yolunu özünün inkişaf yolu seçən ölkəmiz qanunvericilik aktlarını beynəlxalq aləmdə yekdilliklə qəbul edilmiş dəyərlər əsasında yaratmağa başlamışdır.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi məqsədi ilə ölkəmizdə hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilmiş, insanı həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur. Bununla da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi dövlət olduğunu sübut etmişdir (188,s.266).

Heydər Əliyevin hakimiyyəti dövründə-1995-ci ildən respublikamızda əfv və amnistiya institutları yenidən bərpa olundu.

18 iyul 2001-ci ildə "Əfvetmə haqqında Əsasnamə" təsdiq edildi. Əfvetmə Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərə və ya başqa dövlətlərin məhkəmələri tərəfindən məhkum olunmuş və cəzalarını Azərbaycan Respublikasında çəkən Azərbaycan Respublikası vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilir (89).

Əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə məhkum cəzasının qalan hissəsini çəkməkdən azad edilə bilər, məhkuma təyin olunmuş cəzanın müddəti azaldıla bilər və məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər.

Əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə həmçinin ömürlük azadlıqdan məhkum olunmuş şəxsin cəzası 25 ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər, habelə cəzanı çəkmiş şəxsin məhkumluğu götürülə bilər. Əfvetmə barədə müraciət, bir qayda olaraq islah işləri, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və böyük ictimai təhlükə törətməyən cinayətə görə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs barədə-hökm qanuni qüvvəyə mindikdən sonra, az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxs barədə-cəza müddətinin ən azı üçdə bir hissəsini çəkdikdən sonra, ağır və xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzaya

məhkum edilmiş şəxs barədə-cəza müddətinin ən azı yarısını çəkdikdən sonra, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs barədə-cəzanın on il müddətini çəkdikdən sonra və məhkumluğun götürülməsi barədə-məhkum olunmuş şəxs cəzanı çəkdikdən sonra verilə bilər (89).

Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfvetmə barədə müraciət və ya vəsatət Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş və Hərbi Məsələlər Şöbəsinin Əfv Məsələləri sektorunda qeydiyyatdan keçirilir və Əsasnamədə nəzərdə tutulmuş tələblərə riayət olunması yoxlanılır. Əfvetmə barədə müraciət həmin orqan tərəfindən yoxlanıldıqdan sonra Əfv Məsələləri Komissiyasına göndərir.

Əfvetmə barədə məsələ üzrə Əfv Məsələləri Komissiyası toplanmış sənədləri öyrəndikdən sonra məhkum olunmuş şəxsin əfv edilməyə tövsiyə olunması və ya olunmaması barədə qərarlardan birini qəbul edir. Əfvetmə barədə məsələlər Əfv Məsələləri Komissiyasının iclasında baxıldıqdan sonra Komissiyada baxılmış sənədlər qəti qərar qəbul edilməsi üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunur. Əfvetmə haqqında qərar Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə rəsmiləşdirilir

Məhkum olunmuş şəxs əfv edilmədikdə, təkrar müraciətə bir qayda olaraq, bir 1 keçdikdən sonra baxıla bilər. Əfv sərəncamının verilməsi və amnistiya aktlarının qəbul edilməsi zamanı məhkumların şəxsiyyəti, səhhəti, ailə vəziyyəti, törətdikləri cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, cəza çəkdikləri müddət və həmin müddətdə davranışları nəzərə alınır.

Əfv Məsələləri Komissiyasının hazırkı üzvləri Azərbaycan Respublikası Prezidentinin 8 sentyabr 2020-ci il tarixli sərəncamı ilə 18 nəfərdən ibarət tərkibdə təsdiq olunmuşdur.

Heydər Əliyevin hakimiyyəti dövründə 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanmışdır. Bu fərmanlar nəticəsində 3102 nəfər əfv olunmuşdur. Prezident Heydər Əliyevin

təşəbbüsü ilə 1996-cı ildən başlayaraq 7 aministiya aktı qəbul edilmişdir və amnistiya aktları 77199 şəxs barəsində tətbiq edilmişdir.

17 oktyabr 1997-ci ildə Prezidentin təşəbbüsü ilə birinci qarabağ müharibəsi dövründə fərarilik etmiş 7 min keçmiş döyüşçüyə amnistiya aktı tətbiq edilərək cəzadan azad edilmişlər.

30 oktyabr 1997-ci ildə Azərbaycan yazıçılarının X qurultayında Ümumilli Lider bu barədə demişdir: Mənim təşəbbüsümlə Milli Məclis oktyabr ayının 17-də "Amnistiya haqqında" böyük bir qərar qəbul etdi. Bu qanun hərbi cinayət etmiş, ordudan fərarilik etmiş və yaxud başqa cinayətlər etmiş gənclər haqqındadır. Bu qərar ilə 7 min adam-onların əksəriyyəti gəncdir-cəzadan azad olunacaqlar. 17 nəfəri hazırda cəza yerlərindədir. Onlar azad ediləcəklər.1300 nəfərin işi məhkəmədədir-onların işləri xətm ediləcək, azad olunacaqlar. 3000 nəfər fərarilik etdiklərinə görə axtarışdadır. 100 nəfər isə yoxlamadadır. Beləliklə, onlar cəzadan azad ediləcəklər. Buraya gələrkən məlumat aldım ki, artıq 460 nəfər azad olunubdur. Bundan əlavə, 30 min gənc 1991-ci ildən başlayaraq ordunu tərk edibdir. Yəqin indi haralardasa gizlənirlər. Onların haqqında cinayət işi başlanmayıbdır. Ancaq bizim hərbi hissələrdə qeydiyyatda var ki, bu sayda adam ordunu tərk edibdir. İndi araşdırma gedəndə onlar da cəzadan azad olunacaqlar. Beləliklə, 37 min adam həmin əfv qərarı ilə cəzadan xilas oldu. Onların demək olar ki, əksəriyyəti gənclərdir, əksəriyyəti ordudan fərarilik etmiş adamlardır.

Mən nə üçün belə bir təşəbbüs etdim? Bir tərəfdən, bunlar cinayət ediblər, ordunu, səngəri tərk ediblər, öz vətəndaşlıq borcundan yayınıblar, qaçıblar. Demək cinayət ediblər. Amma mən təklif verdim və onları əfv etdim. Onu nəzərə aldım ki, həmin illər Azərbaycanda o qədər özbaşınalıq olubdur, o qədər qanunsuzluq olubdur, o qədər ədalətsizlik olubdur ki, bəlkə də bunların bir çoxu elə bir şəraitdə belə bir cinayət yolunu seçiblər (186,s.131).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz siyasətində daima humanizm prinsiplərini əsas götürərək hakimiyyəti dövründə 2003-2025-ci illərdə 37 əfv sərəncamı imzalayıb. Həmin dövrdə isə 4 dəfə amnistiya elan edilibdir.

Müstəqillik dövründə Azərbaycan Respublikasında 15 aministiya aktı, 68 əfv sərəncamı imzalanıb. Əfv olunanların sayı 5672, amnistiya düşənlərin sayı isə 40412 nəfər olub. Ümumilikdə əfv və amnistiya aktları 46084 məhkuma şamil edilib.

Amnistiya aktları aşağıdakı tarixlərdə qəbul edilmişdir:

1.Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin elan edilməsi münasibətilə amnistiya verilməsi haqqında-6 noyabr 1991-ci il tarixli Qanun,

2.Azərbaycan Demokratik Respublikasının 74 illiyi münasibətilə amnistiya verilməsi haqqında -15 iyul 1992-ci il tarixli Qanun,

3.Gəncə şəhərində 1993-cü il 4-10 iyun hadisələrində iştirak etmiş şəxslərə amnistiya verilməsi haqqında- 9 iyun 1993-cü il tarixli Qanun,

4.Azərbaycan Respublikası günü münasibətilə amnistiya haqqında-22 may 1996-cı il tarixli Qərar,

5.Hərbi cinayətlər törətmiş şəxslər barəsində dövlət müstəqilliyi günü münasibətilə amnistiya haqqında -17 oktyabr 1997-ci il tarixli Qərar,

6.Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə amnistiya haqqında-12 may 1998-ci il tarixli Qərar,

7.Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə amnistiya haqqında-29 dekabr 1998-ci il tarixli Qərar,

8.Avropa Şurasının 50 illiyi münasibətilə amnistiya haqqında-10 dekabr 1999-cu il tarixli Qərar,

9.Azərbaycan Respublikasının Avropa Şurasının üzvlüyünə qəbul edilməsi münasibətilə amnistiya haqqında-01 fevral 2001-ci il tarixli Qərar,

10.İkinci Dünya Müharibəsində faşizm üzərində qələbənin ildönümü münasibətilə amnistiya haqqında -06 may 2003-cü il tarixli Qərar,

11.Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında-08 may 2007-ci il tarixli Qərar,

12.Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında-17 mart 2009-cu il tarixli Qərar,

13. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubleyi münasibətiilə amnistiya haqqında-07 may 2013-cü il tarixli Qərar,

14. 28 may-Respublika günü münasibətilə amnistiya elan edilməsi haqqında-20 may 2016-cı il tarixli Qərar,

15. 8 noyabr-Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında -5 noyabr 2021-ci il tarixli Qərar.

Azərbaycan Respublikasının Prezidentinin sonuncu əfv sərəncamını 26 may 2025-ci il tarixində imzalamışdır. Sonuncu aministiya aktı isə 8 noyabr-Zəfər günü münasibətilə 2021-ci il tarixində qəbul edilmişdir. Bütün bunlar bir qayda olaraq dövlətin öz siyasətində insan ləyaqətinə dəyər verdiyinin bariz nümunəsidir .

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 6 avqust 1998-ci il tarixində “Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbir haqqınd” Fərman imzaladı.

Fərmanda qeyd edilirdi ki, ölkəmizdə demokratik cəmiyyətlərə xas olan institutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdır. İlk dəfə çoxpartiyalılıq əsasında, demokratik parlament seçkiləri keçirilmiş, ümumxalq səsverməsi ilə siyasi plüralizm, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərini təsbit edən konstitusiya qəbul edilmişdir (14).

Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul

etdiyini və insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulduğu göstərilirdi.

Kütləvi informasiya vasitələri demokratiya və aşkarlığın mühüm vasitəsi hesab olunduğunu və Azərbaycan dövlətinin onların müstəqil qurulması, azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər gördüyünü və Azərbaycan Respublikasında yüzlərlə qəzet və jurnal, onlarla radio və televiziya şirkəti, çoxsaylı informasiya agentlikləri fəaliyyət göstərildiyi qeyd edilirdi.

Lakin fərmanda Azərbaycanda söz, mətbuat azadlığının təmin edilməsi, bu hüquqdan vətəndaşların və dövlətin mənafeyi naminə düzgün, səmərəli istifadə edilməsi sahəsində müəyyən problemlərin olduğu da qeyd edilirdi. Həmin problemlərdən bir məhz Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarənin olduğu göstərilirdi. Göstərilirdi ki, bu idarə sovet hökuməti vaxtında-27 oktyabr 1966-cı ildə yaranmış və Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirmişdir. 5 dekabr 1990-cı ildə Nazirlər Sovetinin qərarı ilə onun yeni əsasnaməsi təsdiq edilsə də, əslində bu idarənin fəaliyyətində heç bir ciddi dəyişiklik baş verməmişdir (14).

Azərbaycan müstəqillik əldə etdikdən sonra 12 aprel 1992-ci ildə prezident səlahiyyətlərini icra edən Y.Məmmədovun fərmanı ilə hərbi senzura tətbiq etmək adı altında bu idarənin mətbuat üzərində nəzarəti daha da gücləndirilmişdir. Bundan sonra 15 aprel 1993-cü ildə isə Azərbaycan Respublikası Prezidenti Ə.Elçibəyin sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil, bütün məlumatlara aid edilərək, jurnalistlərin sərbəst informasiya fəaliyyəti tam məhdudlaşdırılmış və idarənin fəaliyyəti daha da sərtləşdirilmişdir.

Ümummilli Liderin bu fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel

1992-ci il tarix fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncamı qüvvədən düşmüş hesab edildi. Fərmana əsasən Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edildi. Bununlada Azərbaycan Respublikasında mətbuat üzərində senzura ləğv edildi.

Göstərilən fərmandan sonra 7 dekabr 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanun kütləvi informasiya vasitələri üzərində dövlət senzurasını qadağan etdi, həmçinin fikir və söz azadlığını, mətbuat və jurnalistlərin müstəqilliyini təmin etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2006-cı ildə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncam verdi. Milli fəaliyyət planında 48 cür tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Həmin tədbirlər içərisində qanun layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi, hakimlərin və hakimliyə namizədlərin, məhkəmə qərarlarının vaxtında və dəqiq icrasını təmin etmək məqsədilə icra tədbirlərinin səmərəliliyinin artırılması, hüquq mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədrisində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə edilməsi, şübhəli və ya təqsirləndirilən şəxslərin həbsdə saxlanma yerlərində saxlanılması haqqında qanun layihəsinin hazırlanması, etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi

üzrə araşdırma və tədqiqatların aparılması, vəkillik institutunun gücləndirilməsi, fəaliyyətinin səmərəliliyinin artırılması və müstəqilliyinin təmin edilməsi, habelə əhalinin hüquqi yardım almaq imkanının təmin edilməsi məqsədilə bölgələrdə peşəkar vəkillərin sayının artırılması, sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycan dilinə tərcümə edilməsi, orta və ali məktəblərdə insan hüquqlarının tədrisinə diqqətin artırılması, bu məqsədlə tədris proqramlarının təkmilləşdirilməsi, məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin keçirilməsi, insan hüquqlarının tətbiqinə dair bədii sərgilərin, festivalların və digər tədbirlərin keçirilməsi, insan hüquqları ilə bağlı dərs vəsaitlərinin və ədəbiyyatların hazırlanması və nəşri, ali təhsil və elm ocaqlarında insan hüquqları və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin aparılması, azadlıqdan məhrum edilmiş şəxslərin beynəlxalq standartlara uyğun saxlanılması məqsədilə yeni penitensiar müəssisələrin inşa edilməsi işinin davam etdirilməsi və s. nəzərdə tutulmuşdur (35).

Sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Nəzərdə tutulan tədbirlərdən biri də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycan dilinə tərcümə edilməsi və məhkəmə qərarlarında nəzərə alınmasından ibarət idi.

4 noyabr 1950-ci ildə Roma şəhərində imzalanmış "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın təsdiq edilməsi haqqında" 25 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında

Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında 8 noyabr 2003-cü il tarixində Fərman imzaladı (30).

Fərmana əsasən İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi vəzifəsi və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında Əsasnamə təsdiq edildi.

Əsasnaməyə görə səlahiyyətli nümayəndə insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya əsasən Azərbaycan Respblikasına qarşı qaldırılan işlərə, habelə Azərbaycan Respublikasının qaldırdığı işlərə Məhkəmədə baxılması zamanı Azərbaycan Respublikasının mənafelərini müdafiə etməlidi (30).

Azərbaycan Respblikası 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzv qəbul edildikdən sonra Azərbaycan Respublikasının vətəndaşları İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək hüquq əldə etdilər. İndiyədək İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından 2 mindən artıq müraciət edilib. Məhkəmənin 300-dən artıq qərarı isə icra edilibdir. Hal-hazırda respublikamızda "Avropa Məhkəməsi qərarlarının icrasının təkmilləşdirilməsinə dəstək" layihəsi icra olunur.

İnsan hüquqları üzrə Avropa Məhkəməsi hər il olduğu kimi 2024-cü ildə də öz fəaliyyətinə dair illik hesabatını dərc etmişdir. Azərbaycanla bağlı 2022-ci ilə qədər 389, 2023-cü ilə qədər 438, 2024-cü ilə qədər isə 600 müraciətə baxılmışdır. 2022-ci ildə Azərbaycanla bağlı 23 qərar çıxarılmışdır. 22 qərarda məhkəmə ən azı bir pozuntu tapmışdır. 2023-cü ildə Azərbaycanla bağlı 40 qərar çıxarılmışdır. 2024-cü ildə Azərbaycanla bağlı 39 qərar çıxarılmışdır. 38 qərarda məhkəmə ən azı bir pozuntu tapmışdır, 1 işdə isə pozuntu tapmamışdır.

Ali Məhkəmənin Plenumu Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı ildə qərar qəbul etmişdir.

Qərarda qeyd edilir ki, Azərbaycan Respublikasının 2001-ci ilin yanvar ayının 25-də Avropa Şurasına daxil olması, daha sonra "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməsi demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azalıqların təmininə sadiqliyin ifadəsidir.

Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının iştirakçısı və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır. Azərbaycan Respublikası Konvensiyanı ratifikasiya etdiyi dövrdən sonra yurisdiksiyası altında olan insanların Konvensiyada nəzərdə tutulan hüquqlarını təmin etməlidir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin həmin hüquqların təmininə yönəlmiş qərarlarının icrası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsidir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericilik ilə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər (45).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci ildə Azərbaycan Respublikasında "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqram"ının təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda qanun layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması, Azərbaycan Respublikasının

tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi, həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Qanunun qəbul edilməsi, barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbsdə saxlanılmasının qanuniliyinin təmin edilməsi məqsədilə Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qanun layihəsinin hazırlanması, ekstradisiya olunmaq üçün tutulmuş şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklərin hazırlanması, informasiya texnologiyalarından istifadə etməklə insan hüquqlarının pozulmasına qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə Cinayət Məcəlləsinin "Kompyuter informasiyası əleyhinə olan cinayətlər" fəslinin yenidən işlənməsi və onun "Kibercinayətkarlıq haqqında" 23 noyabr 2001-ci il tarixli Konvensiyanın tələblərinə uyğunlaşdırılması barədə təkliflərin hazırlanması, uşaqların cinsi istismarının qarşısının alınması məqsədilə miqrantların hüquqlarının təmin edilməsi məqsədilə Miqrasiya Məcəlləsi layihəsinin hazırlanması üzrə işin yekunlaşdırılması, Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələrə qoşulması ilə bağlı tədbirlərin davam etdirilməsi, xarici ölkələrdə Azərbaycan Respublikası vətəndaşlarının hüquqi vəziyyətini yaxşılaşdıran və onların hüquqlarının müdafiəsini tənzimləyən müqavilə-hüquq bazasının genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması, işğal nəticəsində Azərbaycanın təbii, tarixi və mədəni sərvətlərinin dağıdılması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə beynəlxalq təşkilatlarda işin davam etdirilməsi, etnik

azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətin davam etdirilməsi, sahibkarların və istehlakçıların hüquqlarının möhkəmləndirilməsi, işsizlərin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, onların yeni peşələrə yiyələnməsinə yönəlmiş kursların təşkili, işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsi, istehsalatda və tikintidə əməyin təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması, əhalinin mülkiyyət hüquqlarının təmin edilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması, əhali, xüsusilə də uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliği, azadlıqdan məhrum edilmiş şəxslərin islah edilməsinə ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının cəlb edilməsi və ictimai nəzarət mexanizmlərinin tətbiq olunması, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması, qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, uşaqların tərbiyəsinə, tədrisinə və maarifləndirilməsinə yönəlmiş televiziya proqramlarının hazırlanması, insan alveri qurbanları, kimsəsizlər, narkomaniyadan və alkoqolizmdən müalicəyə ehtiyacı olanlar üçün krizis mərkəzlərinin yaradılması, ali təhsil müəssisələri nəzdində fəaliyyət göstərən “hüquq klinikaları”nın fəaliyyətinin dəstəklənməsi, əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmini və ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədilə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi, media subyektləri üçün fikir və ifadə azadlıqlarının həyata keçirilməsi ilə bağlı təlimlərin təşkil edilməsi, şəxsin tutulması, həbs edilməsi, müvəqqəti saxlama yerində və istintaq təcridxanalarında

saxlanması zamanı qanunvericiliyin tələblərinin, insan hüquqlarının pozulması, pis rəftar, vəzifədən sui-istifadə və digər bu kimi halların ciddi araşdırılması, hakimlərin, hüquq mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədrisində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə edilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi üzrə araşdırma və tədqiqatların aparılması, vəkillik institutunun gücləndirilməsi, fəaliyyətinin səmərəliliyinin artırılması və müstəqilliyinin təmin edilməsi, habelə bölgələrdə peşəkar vəkillərin sayının artırılması, seçki komissiyaları üzvləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların davam etdirilməsi, məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin, sərgilərin və digər tədbirlərin keçirilməsinin davam etdirilməsi, insan hüquqları ilə bağlı dərs vəsaitlərinin, əyani vəsaitlərin, bukletlərin, plakatların hazırlanması, nəşr edilməsi və əhali arasında yayılması işinin davam etdirilməsi, ali təhsil və elm ocaqlarında insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində təhsilin səmərəliliyinin artırılması və bu sahədə işin əlaqələndirilməsi məqsədilə ixtisaslaşmış insan hüquqları mərkəzlərinin və ya şəbəkələrinin yaradılması, əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi, insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin qarşısının alınması, mədəniyyətlər və dinlərarası dialoqun, eləcə də dini tolerantlığın gücləndirilməsi mövzularında ölkədaxili və beynəlxalq tədbirlərin davam etdirilməsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə edilməsi və müvafiq qurumlar arasında yayılması, insan hüquqları sahəsində beynəlxalq

sənədlərin, xüsusilə İnsan Hüquqlarına dair Avropa Konvensiyasının dövlət qulluqçuları, məhkəmə, prokurorluq, daxili işlər orqanlarının əməkdaşları və vəkillər, İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatının və regional mərkəzlərinin işçiləri, bələdiyyə üzvləri tərəfindən öyrənilməsinin təmin edilməsi, insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlığın təkmilləşdirilməsi, kitabxanalarda insan hüquqları ilə bağlı bölmələrin inkişaf etdirilməsi, informasiya əldə etmək haqqında Azərbaycan Respublikası qanunvericiliyinin izahı ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və informasiya almaq hüququnun səmərəli təmin edilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən dövlət qurumlarının internet səhifələrinin yaradılması və inkişaf etdirilməsi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə əhalinin maarifləndirilməsi üçün könüllülərin hazırlanması, Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış təsisatları və beynəlxalq regional təşkilatlar ilə birgə layihələrin hazırlanması və həyata keçirilməsi, 2012-2013-cü illər üçün Avropa Şurası ilə birgə Fəaliyyət Planının həyata keçirilməsi, BMT-nin "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi kimi mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu (42).

"Milli Fəaliyyət Proqramında" həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən biri "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azdlıqlarının təmin edilməsi haqqında" Qanunun qəbul edilməsi idi. Həmin qanun 22 may 2012-ci ildə qəbul edildi. Bu Qanun həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Tutulmuş və ya həbs edilmiş şəxslər Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində onlar üçün nəzərdə tutulmuş hüquqlardan əlavə həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq, şəxsi təhlükəsizliyi təmin edilməklə saxlanılmaq, işgəncəyə və qeyri-insani və ya ləyaqəti

alçaldan rəftara və ya cəzaya məruz qalmamaq, həbsdə saxlama zamanı onlara aidiyyəti olan bütün prosessual hərəkətlər barədə məlumatlandırılmaq, müdafiəçisi və qanuni nümayəndəsi ilə görüşmək, həbs yerində saxlanıldığı müddət ərzində pulsuz yeməklə, maddi-məişət və tibbi-sanitariya xidmətləri ilə təmin olunmaq, ədəbiyyatdan, o cümlədən xüsusi ədəbiyyatdan istifadə etmək, həbs yerinin kitabxanasından istifadə üçün ədəbiyyat, qəzet və jurnal götürmək və ya öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən yazı ləvazimatı, ədəbiyyat, qəzet və ya jurnal əldə etmək, dini ayinləri yerinə yetirmək, dini ləvazimatdan və ədəbiyyatdan istifadə etmək, bağlama, sovqat və banderol almaq,mülki hüquq münasibətlərində iştirak etmək, notariusun xidmətlərindən istifadə etmək, etik davranışa uyğun rəftar olunmaq, həbs yerinin müdiriyyəti tərəfindən qəbul edilmək, həbsdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı təklif, ərizə və şikayətlərlə müraciət etmək, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması halları istisna olmaqla, prosessual hərəkətlərin aparılmasına cəlb edilməsinin qadağan olunduğu müddətdə-gecə vaxtı səkkiz saat yatmaq, hər gün iki saatdan az olmayaraq gündəlik gəzintiyə çıxarılmaq, idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq, siyahısı və sayı daxili intizam qaydaları ilə müəyyən edilmiş şəxsi əşyalardan istifadə etmək, öz paltar və ayaqqabısından istifadə etmək, münasib paltarı olmadıqda iqlimə uyğun paltarla təmin olunmaq və öz vəsaiti hesabına həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən qida məhsulları və ən zəruri mallar əldə etmək hüquqlarına da malik olduğu təsdiq edilmişdir (83).

“Milli Fəaliyyət Proqram”ında nəzərdə tutulan tədbirlər demək olar ki, əksəriyyəti həyata keçirilib və ya həyata keçirilməkdədir.

Respublikamızda insan hüquqlarının qorunması istiqamətində görülən tədbirlər, qəbul edilən qanunlar və normativ

xatrakterli aktlar və ölkəmizin qoşulduğu beynəlxalq müqavilələr və paktlar onu qətiyyətlə deməyə əsas verir ki, respublikamız qanunun hakim olduğu demokratik və hüquqi bir dövlətə çevriləcək. O dövlətə demokratik və hüquqi dövlət kimi baxa bilərik ki, həmin dövlətdə hər bir kəsin hüquqlarının qorunmasına təminat verilir.

Azərbaycan Respublikasıda aparılan hüquq islahatlarının nəticəsində qanunun hakim olduğu, demokratik və hüquqi bir dövlətə çevriləcək.

## 3.2. Pensiya sahəsində.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün sahlərdə olduğu kimi pensiya sistemində də əsaslı islahatlara başlanıldı. 16 dekabr 1991-ci ildə SSRİ Pensiya Fondunun Azərbaycan şöbəsi Azərbaycan Respublikasının Pensiya Fonduna çevrildi. 30 sentyabr 1992-ci ildə isə Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının Sosial Sığorta Fondunun bazasında Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu yaradıldı. DSMF-yə Azərbaycan Respublikası ərazisində dövlət pensiya təminatının, müavinət və ödəniş xərclərinin maliyyələşdirilməsi vəzifəsi həvalə edildi.

Azərbaycan Respublikasında "dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2003-cü il tarixli Fərmanı ilə DSMF-ə səlahiyyətləri daxilində məcburi dövlət sosial sığortası, pensiyalar və pensiyalara əlavə olunan müavinətlər sahəsində qanunvericilik aktlarının tələblərinin yerinə yetirilməsinə və vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarəti həyata keçirmək, məcburi dövlət sosial sığorta vəsati və dövlət büdcəsi hesabına ölkədə bütün pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin maliyyələşdirilməsini həyata keçirmək və məcburi dövlət sosial sığorta vəsaitlərini idarə etmək, pensiyalar və pensiyalara əlavə olunan müavinətlər sahəsində idarəetməni,

pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin təyin edilməsini, maliyyələşdirilməsini və ödənilməsini həyata keçirmək vəzifələri həvalə edildi (29).

Fərmanda həmçinin Dövlət Sosial Müdafiə Fonduna zəruri infrastruktura, müasir texnologiyalara (o cümlədən, mikroprosessor kartlarının emissiyuasına imkan verən), əhatəli bankomat və nağdsız ödəniş şəbəkəsinə malik beynəlxalq reytinqli ölkə banklarını cəlb etməklə əhaliyə pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin sürətli çatdırılması məqsədi ilə Bakı və Sumqayıt şəhərlərində 2004-cü ilin aprelin 1-dək, ölkənin digər şəhərlərində və rayon mərkəzlərində isə 2004-cü ilin sonunadək kart sisteminə keçidin tətbiqinin təmin edilməsi göstərişi verildi. Bu Fərmanla DSMF-na qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün pensiyaların və pensiyalara əlavə edilən müavinətlərin təyin edilməsi və ödənilməsinə nəzarəti də həyata keçirmək tapşırıldı.

Beləliklə, fərmanla vahid sığorta-pensiya orqanının fəaliyyəti təşkil olundu. Müasir texnologiyaların tətbiqinə keçildi. 2004-cü ildən etibarən pensiya və müavinətlərin əhaliyə çatdırılmasında müasir texnologiyaların tətbiqinə keçildi.

“Nağdsız hesablaşmalar haqqında” 16 dekabr 2016-cı il tarixli Qanunun tətbiqi ilə əlaqədar olaraq əmək pensiyalarının ödənilməsi yalnız nağdsız qaydada həyata keçirilməsinə başlanıldı.

2006-cı ildən məcburi dövlət sosial sığorta haqları hesabına müəssisə və təşkilatlar tərəfindən aparılan sosial ödəmələrin idarə olunması da DSMF-na verildi.

1 yanvar 2007-ci ildən DSMF vasitəsilə hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi və fərdi uçotla əhatə olunmasına, həmin şəxslərin və dövlət qulluqçularının əmək pensiyaları ilə təmininə keçildi.

Pensiya sahəsində ilk milli qanunvericilik formalaşanadək respublikamızda pensiya münasibətləri 1 oktyabr 1956-cı ildə qəbul edilən “Dövlət pensiyaları haqqında” SSRİ Qanunu ilə

tənzimlənirdi. Pensiya sahəsində ilk milli qanunlar 29 aprel 1992-ci ildə "Hərbi qulluqçuların pensiya təminatı haqqında", 23 sentyabr 1992-ci ildə isə "Vətəndaşların pensiya təminatı haqında" haqqında və 1 iyun 2004-cü ildə "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Qanunlar qəbul edildi. Hər üç qanun 1 yanvar 2006-cı ilə kimi qüvvədə oldu və pensiya sahəsində hüquq münasibətlərini tənzimlədi.

"Vətəndaşların pensiya təminatı haqında" Qanun vətəndaşların sosial müdafiəsi və pensiyanın hər kəs üçün əlçatanlığı baxımından ən demokratik və ədalətli qanunlardan biri hesab olunur. Bu qanun vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə onların Konstitusiyada təsbit olunmuş maddi təminat hüququna zəmanət verməklə vahid dövlət pensiya sistemini müəyyən etdi.

Qanunla vətəndaşlara iki növ pensiyaların verilməsini nəzərdə tuturdu. əmək və sosial pensiyalar. Əmək pensiyaları yaşa (qocalığa) görə, əlilliyə görə, ailə başçısını itirməyə görə və xidmət illərinə görə növlərə bölünürdü.

Yaşa görə pensiya 60 yaşına çatmış və ən azı 25 il iş stajı olan kişilərə və 55 yaşına çatmış və ən azı 20 il iş stajı olan qadınlara verilirdi. Əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası yeraltı işlərdə, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan işçilərə və dənizdə çalışan neftçilərə-kişilər 50 yaşına çatdıqda və azı 20 il iş stajı olduqda bu müddətin azı 10 ilini həmin işlərdə çalışarsa, qadınlar 45 yaşına çatdıqda və azı 15 il iş stajı olduqda bu müddətin azı 7 il 6 ayını həmin işlərdə çalışarsa və əmək şəraiti zərərli və ağır olan digər işlərdə çalışan işçilər- kişilər 55 yaşına çatdıqda və azı 25 il iş stajı olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə çalışarsa, qadınlar 50 yaşına çatdıqda və azı 20 il iş stajı olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışarsa güzəştli şərtlərlə yaşa görə pensiyası hüququ verilirdi (80).

Yaşa görə pensiyaların məbləği pensiya üçün müraciət edənin orta aylıq əmək haqqının 60 faizi, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan işçilərə orta aylıq əmək

haqqının 70 faizi və əmək şəraiti zərərli və ağır olan digər işlərdə çalışan işçilərə isə orta aylıq əmək haqqının 65 faizi, lakin minimum pensiyadan az olmayan məbləğdə təyin edilirdi.

Xidmət illərinə görə pensiyalar yaşa görə pensiya almaq hüququ verən yaşa çatandan əvvəl əmək qabiliyyətinin tam və ya qismən itirilməsinə səbəb olan işlərdə çalışan ayrı-ayrı peşə sahibləri üçün təyin edilirdi.Təhsil və uşaq tərbiyə müəssisələrində kişilər azı 25 il, qadınlar-20 il pedaqoji fəaliyyət göstərdikdə və kənd yerlərində və şəhər tipli qəsəbələrdə (respublika tabeli şəhərlərin qəsəbələri istisna olmaqla) kişilər azı 25 il, qadınlar azı 20 il müalicə işlərində və əhalinin sağlamlığının mühafizəsi ilə əlaqədar digər işlərdə çalışdıqda xidmət illərə görə pensiya almaq hüququ əldə edirdilər (80).

Xidmət illərinə görə pensiyaların əsas məbləği pensiya üçün müraciət edənin orta aylıq əmək haqqının 60 faizi məbləğində hesablanırdı.

Sosial pensiyalar isə əmək pensiyası almaq hüququ və əmək qabiliyyətli olmayan vətəndaşlara verilirdi.

“Dövlət qulluqçularının pensiya təminatı haqqında” Qanuna əsasən Dövlət qulluğunda inzibati və yardımçı vəzifələr tutan Azərbaycan Respublikasının vətəndaşları, dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun dul arvadı (əri), anası (atası), ölənin himayəsində olmuş və 22 yaşına çatmamış işləməyən qızı (oğlu) dövlət qulluqçusu pensiyası almaq hüququ vardır.

Pensiya almaq üçün dövlət qulluqçusunun qulluq stajına aşağıdakılar daxil edilir:

"Dövlət qulluğu haqqında" Qanun qüvvəyə mindikdən sonra dövlət qulluğu vəzifəsində qulluq stajı;

18 oktyabr 1991-ci ildən "Dövlət qulluğu haqqında" Qanun qüvvəyə mindiyi günədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında iş stajı;

18 oktyabr 1991-ci ilədək dövlət, sovet və partiya orqanlarında iş müddəti.

Dövlət qulluqçularına təyin edilən pensiya məcburi dövlət sosial sığorta ayırmaları hesabına ödənilir.

Pensiya dövlət qulluğunda, habelə 18 oktyabr 1991-ciilədək dövlət, sovet və partiya orqanlarında xidmət illərindən asılı olaraq aşağıdakı miqdarda təyin edilir:

dövlət qulluğu vəzifəsində azı 5 il qulluq stajı olan şəxsə onun dövlət məvacibinin 45 faizi miqdarında;

dövlət qulluğu vəzifəsində 5 ildən 10 ilə qədər qulluq stajı olan şəxsə dövlət məvacibinin 45 faizi miqdarında, 5 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 2 faizi miqdarında əlavə olunmaqla;

dövlət qulluğu vəzifəsində 10 ildən 15 ilə qədər qulluq stajı olan şəxsə dövlət məvacibinin 55 faizi miqdarında, 10 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 5 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin 80 faizi miqdarından çox olmamaqla ödənilir.

28 iyun 2005-ci il tarixli Qanununadək dövlət qulluğu vəzifəsində 5 ildən 10 ilə qədər qulluq stajı olan şəxsə onun dövlət məvacibinin 60 faizi miqdarında, dövlət qulluğu vəzifəsində 10 ildən 15 ilə qədər qulluq stajı olan şəxsə onun dövlət məvacibinin 70 faizi miqdarında və dövlət qulluğu vəzifəsində 15 ildən artıq qulluq stajı olan şəxsə onun dövlət məvacibinin 80 faizi miqdarında ödənilirdi.

Pensiya almaq üçün müraciət edənin arzusuna əsasən dövlət məvacibi onun müraciət etdiyi gündən əvvəlki dövlət qulluğunun 24 ayı və ya ardıcıl gələn istənilən 60 ayı ərzində aldığı dövlət məvacibindən, dövlət məvacibindəki sonrakı artımlar da nəzərə alınmaqla hesablanırdı.

"Əmək pensiyaları haqında" Qanunla dövlət qulluğu vəzifəsində 5 il qulluq stajı olan şəxsə dövlət məvacibinin orta aylıq məbləğinin 45 faizi miqdarında, dövlət qulluğu vəzifəsində 5 ildən 10 ilə qədər qulluq stajı olan şəxsə dövlət məvacibinin orta aylıq məbləğinin 45 faizi miqdarında, 5 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin orta aylıq məbləğinin 2 faizi miqdarında əlavə, dövlət qulluğu vəzifəsində 10 ildən

yuxarı qulluq stajı olan şəxsə dövlət məvacibinin orta aylıq məbləğinin 55 faizi miqdarında, 10 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin orta aylıq məbləğinin 5 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin orta aylıq məbləğinin 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğdə pensiya verilməsi nəzərdə tutulurdu.

Lakin 10 mart 2017-ci ildə "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən dövlət qulluğu vəzifəsində 15 qulluq stajı olan şəxslərə dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında, və 15 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin orta aylıq məbləğinin 3 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin orta aylıq məbləğinin 80 faizi miqdarından çox olmamaq şərti ilə pensiya verilməsi nəzərdə tutuldu.

Dövlət qulluqçusunun pensiyasının məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq yenidən hesablanır.

Pensiya sahəsində islahatlara Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 17 iyul 2001-ci il tarixli Sərancamı ilə başlanıldı. Ümummilli Lider "Əhalinin sosial müdafiəsini gücləndirmək, vətəndaşların pensiya təminatını yaxşılaşdırmaq, pensiya təminatı sisteminin idarəolunmasını, pensiyaların müəyyən olunması və əhaliyə verilməsi mexanizmini təkmilləşdirmək" məqsədi ilə Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasını təsdiq etdi (31).

Pensiya islahatı bu sahədə yeni hüquqi bazanın yaradılmasını, sosial sığorta haqlarının yığılmasının təkmilləşdirilməsini, pensiya ödənişlərinin ünvanlılığını və onların vaxtında vətəndaşlara çatdırılmasını təmin edən mexanizmin yaradılmasını, pensiya sistemində idarəetmə orqanlarının strukturunun yenidən qurulmasını nəzərdə tuturdu.

Pensiya islahatının 2001-2005-ci illəri əhatə etməklə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulurdu. Birinci mərhələdə pensiya təminatının qanunvericilik bazasının yaradılması nəzərdə tutulurdu. Bununla bağlı 2001-ci ildən başlayaraq

"Vətəndaşların pensiya təminatı haqqında" qanunun yeni redaksiyada işlənib hazırlanması, "Sosial sığorta haqqında" qanuna dəyişiklik və əlavələrin edilməsi, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanunun işlənib hazırlanması, habelə qeyri-dövlət pensiya fondları haqqında qanunvericilik aktlarının hazırlanıb təqdim olunması nəzərdə tutulurdu (31).

Pensiya islahatının ikinci mərhələsində pensiya sisteminin əsasını təşkil edən fərdi uçotun yaradılması üzrə işlərin aparılması, o cümlədən pensiya hesablamaları, vəsaitin yığımı və bütövlükdə pensiyaların müəyyənləşdirilməsi sahəsində avtomatlaşdırılmış sistemin hazırlanması və tətbiqi təmin edilməli idi.

Üçüncü mərhələdə fərdi uçotun yaradılması ilə bağlı əmək qabiliyyətli işçilərin gəlirləri və pensiyaların təyin edilməsi üçün lazım olan digər göstəricilər barədə məlumat toplanmalı idi.

Dördüncü mərhələdə pensiyaların fərdi uçot sənədləri əsasında hesablanmasına başlanılmalı idi.

Pensiya islahatının nəticəsi ölkənin ümumi sosial və iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına kömək etməli idi. Yeni sistem bütün vətəndaşlar üçün pensiya təminatında bərabər şərtlərin yaradılmasına və qazanılmış pensiya hüquqlarının reallaşdırılmasına təminat verməli idi (31).

Pensiya İslahatı Konsepsiyasına müvafiq olaraq "Dövlət sosial sığorta sistemində fərdi uçot haqında" 27 noyabr 2001-ci ildə qanun qəbul edildi. Bu qanun sığortaolunanların qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi uçotunun təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etdi. Fərdi uçotun dövlət sosial sığortasının həyata keçirilməsi, təkmilləşdirilməsi, əmək pensiyalarının məcburi dövlət sosial sığorta haqlarının məbləğindən və sığorta stajından asılı olaraq hesablanması üçün Qanunda nəzərdə tutulan məlumatlardan ibarət informasiya bazasının yaradılmasıdır.

2009-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proq-

ramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2008-ci ildə Sərəncam verdi (37).

Həmin Sərəncamda qeyd edilirdi ki, Sovet dönəmindən qalmış və günün tələblərinə cavab verməyən pensiya münasibətlərində köklü dəyişikliklərin başlanğıcı 2001-2005-ci illəri əhatə edən "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"nın reallaşdırılması ilə qoyulmuşdur. Məhz bu dövrdə sığorta-pensiya sisteminin müasir standartlara uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılmış, vətəndaşların pensiya təminatında sığorta prinsiplərinin tətbiqinə istiqamətlənmiş tədbirlər həyata keçirilmişdir. Sığorta-pensiya və sosial yardım sistemlərinin biri-birindən ayrılması və ödənilən sosial sığorta haqları ilə təyin olunan pensiya məbləğlərinin əlaqələndirilməsi bu tədbirlərin başlıca istiqamətini təşkil edir.

4 noyabr 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın təsdiq edilməsi haqqında Sərəncam verdi (36).

Sərəncamda qeyd edilirdi ki, pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biridir.

Ötən illər ərzində həyata keçirilən islahatlarla respublikamızda müasir və sosial baxımdan yüksək səmərəyə malik pensiya təminatı sisteminin yaradılmasına nail olunmuşdur. Bunun nəticəsində pensiya yaşında olan əhali təbəqəsinin sosial rifah durumu əhəmiyyətli şəkildə yaxşılaşmış və bu təbəqədə yoxsulluq, demək olar ki, tam olaraq aradan qaldırılmışdır. Əhalinin sosial müdafiəsi sahəsində məqsədyönlü tədbirlər 2006-2013-cü illərdə əmək pensiyalarının orta aylıq məbləğinin 5,7 dəfə yüksəldilməsinə və beləliklə də bu göstərici üzrə ölkəmizin postsovet coğrafi məkanında öncül mövqelərdə qərarlaşmasına imkan vermişdir (36).

Bununla belə, pensiya təminatı sisteminin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruriliyi bu sahədə bu gün

də yeni çağırışlara cavab verən islahatların davam etdirilməsini şərtləndirir. Azərbaycanda mövcud pensiya təminatı modelinin beynəlxalq təcrübədə əldə olunmuş qabaqcıl təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi zərurəti ilk növbədə ölkəmizdə bazar iqtisadiyyatına keçidin uğurla başa vurulması və yeni reallıqlar müstəvisində vətəndaşların pensiya təminatının daha yetkin mexanizmlər vasitəsilə həyata keçirilməsinə imkan verən sistemin yaradılması ilə bağlıdır.

"2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası" əhatə etdiyi dövrdə pensiya təminatı sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirir.

Pensiya təminatı üzrə aparılan islahatlar nəticəsində sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid dövlət pensiya təminatı sistemi formalaşdırılmışdır. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş, o cümlədən sığortaolunanlara fərdi hesablar açılaraq, ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda fərdi uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılmışdır.

Həmin Konsepsiya ilə pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biri kimi qəbul olunmuş, ölkəmizdə həyata keçilən islahatlar qeyd edilməklə bu sahədə beynəlxalq təcrübə və Azərbaycan Respublikasında pensiya təminatı sisteminin mövcud vəziyyəti ətraflı təhlil olunmuşdur (36).

Konsepsiyada pensiya təminatı sistemində həllini gözləyən bir sıra problemlər sadalanmışdır: pensiya təminatı sistemində hazırkı şərtlər daxilində uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığının olmaması, əmək pensiyasının baza hissəsinin növbəti mərhələdə tətbiqinin islahat tələblərinə uyğun olmaması, sosial sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsinin zəruriliyi, pensiya təminatı sisteminin yığım potensialını zəiflədən faktorlar və pensiya təminatı sisteminin

bir sıra göstəricilərinin tənzimlənməsində mövcud olan problemlər.

Pensiya təminatı sistemindəki islahatların əsas məqsədləri Konsepsiyada sadalanmışdır: pensiya təminatı sisteminin cari, ortamüddətli və uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması və pensiya təminatının vətəndaşların sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etməsi (36).

Pensiya təminatı sistemində islahatın əsas vəzifələri də müəyyənləşdirilmişdir: pensiya təminatı sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin formalaşdırılması, pensiya təminatı sistemində təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması, sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi, əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi (36).

Konsepsiyanın həyata keçirilməsinin əsas istiqamətləri isə belə müəyyən olunmuşdur: pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması, əmək pensiyasının baza hissəsinin restrukturizasiyası, sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi, pensiya sisteminin ödəmə potensialının gücləndirilməsi, sığorta prinsiplərinə uyğun olmayan, yəni güzəştli və xüsusi şərtlərlə, habelə erkən pensiyaya çıxma hallarında pensiya məbləği ilə ödənilən sığorta haqqı arasında mütənasibliyin təmin edilməsi, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması və əmək pensiyalarının könüllü yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının inkişaf etdirilməsi.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının pensiya təminatı sistemində aşağıdakı nəticələrə nail olmağa imkan verəcəyi göstərilmişdir: təyin olunan pensiya məbləği ilə ödənilən sığorta haqqının məbləği uyğunluq təşkil edəcək, pensiya təminatı sisteminin yığım potensialı güclənəcək, pensiya təminatı sistemi ilə bağlı qanunvericilikdə sığortaya dair prinsiplər təkmilləşdiriləcək, sosial sığorta haqqı normativinin strukturu təkmilləşdiriləcək, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınanların sayı azalacaq, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlər formalaşdırılacaq və pensiya təminatı sisteminin uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunacaqdır.

Aparılan islahat nəticəsində əmək pensiyasının təyin edilməsi müddətlərində də dəyişikliklər edildi. Belə ki, Qanun qəbul ediləndə nəzərdə tutulurdu ki, yaşa görə əmək pensiyası buna hüququ olan şəxsin müraciəti əsasında əmək pensiyası hüququnun yarandığı gündən ömürlük təyin edilir.

8 iyul 2002-ci il Azərbaycan Respublikası Qanunun qəbul edilməsindən sonra fərdi uçotun sığortaçı tərəfindən elektron qaydada aparılmasına başlanıldı (90, 2022.20.08. № 177).

Respublikamızda keçirilən pensiya islahatının davamı olaraq 7 fevral 2006-cı ildə "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunları qəbul edildi. Bu qanunlarla sığorta-pensiya sistemi ilə dövlət sosial yardım sistemləri bir-birindən ayrıldı.

Sosial müavinətlər yaşa görə pensiya yaşına çatmış, əlil olmuş və ailə başçısını itirmiş şəxslərə əmək pensiyası təyin etmək üçün tələb olunan sığorta stajı və pensiya kapitalı olmadıqda həmin şəxslərə yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə təyin edilir.

"Əmək pensiyaları haqqında" Qanunla üç pilləli pensiya sisteminə keçildi.Yeni qurulmuş sığorta-pensiya sistemində pensiyaların artması mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə dəyişdirilməsi, yəni baza hissəsinin

artırılmasında istehlak qiymətləri indeksinin illik səviyyəsinin nəzərə alınması, sığorta hissəsinin isə istehlak qiymətləri indeksinə uyğun indeksləşdirilməsi mövcud maliyyə imkanlarının əmək pensiyaçıları arasında ədalətli bölgüsünə imkan verəcəkdir. Beləliklə, respublikamızda ilk dəfə olaraq istehlak qiymətləri indeksinin illik səviyyəsinə, yəni inflyasiyaya uyğun indeksləşdirmə aparılmasına başlanıldı.

Yeni sığorta-pensiya sisteminə keçidin xarakterik xüsusiyyətlərindən biri əvvəlki sistemlə əhatə olunmuş pensiyaçıların da bu sistemlə əhatə olunması, onların pensiya hüquqlarının qorunmasında heç bir məhdudiyyət qoyulmadan yeni şəraitə inteqrasiyasıdır. Əvvəlki pensiya sistemi ilə əhatə olunmuş şəxslərin pensiya təminatı yeni normalara uyğunlaşdırılmış və onların yeni sistemin iştirakçısına çevrilməsi, o cümlədən pensiyaların artımı və indeksləşdirilməsinin yeni qaydaları ilə əhatə olunmaları təmin edilmiş, onlara pensiyaya çıxdıqdan sonrakı əmək fəaliyyətlərinin nəticələrinə görə pensiya kapitalını artırmaq imkanları da verilmişdir (225,2012. 03.09).

"Əmək pensiyaları haqqında" Qanunun tətbiqi ilə sığorta-pensiya sisteminə keçid baş verdi. Bu qanun pensiya sahəsində yeni islahatlara təkan verdi və pensiya sistemində fərdi uçot, fərdi şəxsi hesab, fərdi şəxsi hesabın sığorta hissəsi, fərdi şəxsi hesabın yığım hissəsi, xüsusi hesab və pensiya kapitalının tətbiq edilməsinə başlanıldı.

Yeni Qanun ilk dövrdə ədalətli və pensiyaçılar üçün daha əlçatan idi. Bu da müəyyən yaş həddinə çatmış və xəstəliyinə görə əmək qabiliyyətini itirmiş və sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşların sosial təminat hüquqlarını müdafiə edirdi. Lakin 2009-cu ildən etibarən qanunda edilmiş çoxsaylı dəyişikliklər vətəndaşların pensiya hüquqlarını məhdudlaşdırdı və pensiya əlçatanlığını bir növ aradan qaldırdı.

Qanun pensiyanın üç növünü: Yaşa görə, əlilliyə görə və ailə başçısını itirməyə görə əmək pensiyalarının növlərini müəyyənləşdirdi. Yaşa və əlilliyə görə əmək pensiyaları baza,

sığorta və yığım hissələrindən və ailə başçısını itirməyə görə əmək pensiyası isə baza və sığorta hissəsindən ibarət idi. Əmək pensiyasının baza hissəsi əmək pensiyalarının birinci pilləsi olmaqla əmək pensiyaçılarının sosial müdafiəsinin dövlət təminatı hesab olunurdu. Əmək pensiyasının sığorta hissəsi əmək pensiyalarının ikinci pilləsi olmaqla, fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir. Əmək pensiyasının yığım hissəsi əmək pensiyalarının üçüncü pilləsi olmaqla, fərdi şəxsi hesabın yığım hissəsində toplanan pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir. Əmək pensiyasının baza hissəsinin məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilirdi.

10 mart 2017-ci ildə "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən yaşa, əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarından baza hissəsi qanundan çıxarıldı. Həmin qanunla əmək pensiyasının baza hissəsi əmək pensiyasının minimum məbləği ilə əvəz edildi (90,2017.3.05. № 93).

Yeni pensiya qanunu 62 yaşına çatmış kişilərə və 57 yaşına çatmış qadınlara azı 5 il sığorta stajı olduqda əmək pensiyası hüquq verirdi. Qanunun həmin maddəsində edilən sonrakı dəyişikliklər pensiyaya çıxmaq üçün bu əlçatanlığını getdikcə aradan qaldırdı. Belə ki, 27 oktyabr 2009-cu il tarixli "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən pensiyaya çıxmaq üçün tələb olunan sığorta stajı 5 ildən 12 ilə qaldırıldı. Pensiya yaşının isə kişilər üçün yaş həddi 1 yanvar 2010-cu ildən başlayaraq 2012-ci ilin yanvarın 1-dək, qadınların yaş həddi isə 1 yanvar 2010-cu ildən başlayaraq 1 yanvar 2016-cı ilədək hər il altı ay artırılması nəzərdə tutuldu (90,2009.11.11. № 252).

10 mart 2017-ci il "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən pensiyaya çıxmaq üçün tələb olunan

sığorta stajı 12 ildən 25 ilə qaldırıldı. Pensiya yaşı isə kişilər üçün 1 iyul 2017-ci ildən başlayaraq 2021-ci ilin 1 iyulunadək, qadınların yaş həddi isə 1 iyul 2017-ci ildən başlayaraq 2027-ci ilin 1 iyuluna dək hər il altı ay artırılmalı idi. Bu həm kişilər, həm də qadınlar üçün yaş artımının son həddi 65 yaşa çatdırılmasını nəzərdə tuturdu (90,2017.3.05. № 93).

10 mart 2017-ci il tarixli Qanunla pensiya yaşına çatmış şəxslərin fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq pensiya təyin olunmasını nəzərdə tuturdu (90,2017.3.05. № 93).

"Əmək pensiyaları haqqında" Qanun qəbul ediləndə üç və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlara pensiya çıxmaqda güzəştlər nəzərdə tuturdu. Belə ki, 3 uşağı olanlar 51 yaşına çatdıqda, 4 uşağı olanlar 50 yaşına çatdıqda, 5 uşağı olanlar 49 yaşına çatdıqda, 6 uşağı olanlar 48 yaşına çatdıqda, 7 uşağı olanlar 47 yaşına çatdıqda, 8 uşağı olanlar 46 yaşına çatdıqda, 9 uşağı olanlar 45 yaşına çatdıqda və azı 5 il sığorta stajı olduqda və 10 və daha çox uşağı olanlar 44 yaşına çatdıqda və ya 10 il sığorta stajı olduqda sığorta stajından asılı olmayaraq qadınlara, sağlamlıq imkanları məhdud övladını səkkiz yaşınadək tərbiyə etmiş anaların, 50 yaşına çatdıqda və azı 5 il sığorta stajı olduqda, yaşa görə əmək pensiyası hüquq verirdi.

27 oktyabr 2009-cu il tarixli "Əmək pensiyaları haqqında" Qanunda edilmiş dəyişikliyə əsasən çoxuşaqlı qadınların, sağlamlıq imkanları məhdud uşağı olan anaların, uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyası məhudlaşdırıldı. Həmin qanuna görə beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş və azı 10 il sığorta stajı olan qadınların yaş həddi hər uşağa görə 1 il azaldılmaqla və sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyyə etmiş və azı 10 il sığorta stajı olan anaların

yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ verdi (90, 2009.11.11. № 252).

10 mart 2017-ci il tarixli Qanunla pensiya yaşına çatmış anaların güzəştli şətrlərlə pensiyaya çıxması üçün tələb olunan ən azı 10 il sığorta stajı ləğv edildi (90,2017.3.05. № 93).

13 may 2022-ci il tarixində "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi haqqında Qanuna əsasən beş və daha çox uşaq doğub, övladlığa və ya qəyyumluğa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş və böyütmüş və azı 10 il sığorta stajı olan qadınların yaş həddi beş il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ verdi (90, 2022.29.06. № 135).

19 aprel 2024-cü il tarixində "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi haqqında Qanuna əsasən valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan qadınların və kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ verdi (90, 2024.04.05. № 91).

Qanun axırıncı iş yerindən yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, həmçinin əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan sığortaolunanların güzəştli şərtlərlə pensiyaya çıxmaq şərtləri və qaydalarını da müəyyən etdi. Qanuna əsasən kişilər 57 yaşına çatdıqda, azı 25 il sığorta stajına malik olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə, qadınlar 52 yaşına çatdıqda, azı 20 il sığorta stajına malik olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışmışlarsa əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verirdi. Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin siyahısı Nazirlər Kabinetinin 23 yanvar 2007-ci il tarixli qərarı ilə müəyyən edilib.

10 mart 2017-ci il tarixli Qanun güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququnda məhdudiyyətlər yaratdı. Həmin qanunla

güzəştli şərtlərlə pensiyaya çıxmaq üçün kişilərin yaş həddi 57 yaşdan 60 yaşına, qadınların yaş həddi isə 52 yaşdan 55 yaşına qaldırıldı və həmçinin bu kateqoriyadan olan şəxslərin pensiyaya çıxmaları üçün daha ağır bir şərt fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı da tələb edilirdi.Tələb olunan pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməli idi (90,2017.3.05. № 93).

13 may 2022-ci il tarixli Qanuna əsasən güzəştli şərtlərlə pensiyaya çıxmaq üçün azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların pensiyaya çıxmaq üçün yaş həddi 5 il azaldılmaqla pensiyaya çıxmaq hüququ verdi. Qanuna edilmiş bu dəyişikliklə qadınların da güzəştli şərtlərlə pensiyaya çıxmaları üçün tələb olunan yaş həddi artırıldı (90,2022.29.06. № 135).

Güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququ olan şəxslərdən pensiya kapitalının tələb edilməsi olduqca ədalətsiz bir tələbdir. Çünki elə olur ki, şəxs güzəştli şərtlərlə pensiyaya çıxmaq üçün tələb olunan yaş həddinə çatır, həm ümumi, həm də güzəştli iş stajını da toplayır, lakin fərdi hesabında pensiya kapitalı tələb olunan həddə olmadıqda o güzəştli şərtlərlə yaşa görə əmək pensiyasına çıxa bilmir.

Güzəştli şərtlərlə pensiyaya çıxan şəxslərin pensiyalarının hesablanması 1 yanvar 2006-cı ildən 1 iyul 2017-ci ilə kimi toplanan pensiya kapitalı 144 aya (12 ilə) bölməklə müəyyən edilirdi. 10 mart 2017-ci il tarixli qanunla bu qayda dəyişdirildi. Qanunda edilmiş yeni dəyişikliyə əsasən yaşa görə əmək pensiyası təyin olunan şəxslərin əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı güzəştli şərtlə pensiyaya çıxma yaşı ilə müəyyən edilmiş pensiya yaşı arasındakı ayların sayı qədər artırılırdı. Bu norma həm ədalətsiz idi, həm də güzəştli şərtlərlə pensiyaya çıxan şəxslər üçün maddi cəhətdən əlverişli deyildi (90, 2017.3.05. № 93).

13 may 2022-ci il tarixli qanunla bu ədalətsiz qayda aradan qaldırılsada 1 iyul 2017-ci ildən qanunun qüvvəyə mindiyi günədək yəni 29 iyul 2022-ci ilə kimi təyin edilmiş yaşa görə əmək pensiyalarının yenidən hesablanmasına, eləcədə həmin günədək pensiya hüququ yaranmış şəxslərə yaşa görə əmək pensiyasının təyin edilməsi və yenidən hesablanması hallarına münasibətdə tətbiq edilmədi (90,2022.29.06. № 135).

Əlilliyə görə əmək pensiyası 19 yaşınadək əlil olmuş sığorta olunana bir il sığorta stajı olduqda, 19 yaşından sonra əlil olmuş sığorta olunana isə 1 il sığorta stajı və əlavə olaraq yaşın üstünə gələn hər tam il üçün 4 ay sığorta stajı olduqda təyin edilirdi.

27 oktyabr 2008-ci il tarixli Qanuna əsasən əlilliyə görə əmək pensiyası əlil və ya sağlamlıq imkanları məhdud sığortaolunana ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərti ilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir (90,2009.11.11. № 252).

10 mart 2017-ci il tarixli Qanunla əlillərin pensiyaya çıxma imkanları məhdudlaşdırıldı. Belə ki, əlilliyə görə əmək pensiyası I qrup əlillərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III qrup əlillərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə və tələb olunan sığorta stajı olduqda təyin edilir (90,2017.3.05. № 93).

Əlilliyə görə əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddətinin aylarının sayı sığorta davamiyyəti əmsalına vurulur. Sığorta davamiyyəti əmsalı əlilliyə görə əmək pensiyası üçün tələb olunan sığorta stajı aylarının sayı 10 mart 2017-ci ilə kimi 184-ə nibəti şəklində müəyyənləşdirilirdi. 10 mart 2017-ci il qanunu ilə 184-ə sözü 192-yə sözü ilə, 29 dekabr 2020-ci il tarixli

Qanunla isə 192-yə sözü 200-ə olan nisbəti şəklində müəyyənləşdirildi (90,2017.3.05. № 93).

Nazirlər Kabinetinin 16 yanvar 2020-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydaları"na əsasən şəxsin əlilliyi ümumi və xüsusi səbəblərdən birinə əsasən müəyyən edilir. Ümumi səbəblərə-ümumi xəstəlik, istehsalat zədəsi, peşə xəstəliyi, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar, hərbi xidmət dövrü ilə əlaqədar, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar və terror hadisəsi ilə əlaqədar. Xüsusi səbəblərə-Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar və Çernobıl AES-də hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar (47).

Orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq orqanizmin funksiyalarının pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir.

Müddət göstərilməklə müəyyən olunmuş orqanizmin funksiyalarının pozulması 31-60 faiz aralığında ardıcıl olaraq 15 il, 61-80 faiz aralığında ardıcıl olaraq 10 il və 81-100 faiz aralığında ardıcıl olaraq 4 il müddətində müəyyən olunduğu halda, eləcə də fərqli faiz aralıqları üzrə 15 il əlillik müddəti olduqda, növbəti qiymətləndirmə zamanı əlillik müddətsiz müəyyən edilir (47).

Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nın qüvvəyə mindiyi günədək əlilliyi müəyyən edilmiş şəxslərin əlillik müddətləri I, II və III dərəcə üzrə müvafiq olaraq 81-100 faiz, 61-80 faiz və 31-60 faiz kimi qeyd edilmiş müddətlərə daxil edilir. Həmin tarixədək müəyyən edilmiş sağlamlıq imkanlarının məhdudluğu müddəti orqanizmin funksiyalarının pozulmasının hər üç faiz aralığı müddəti üzrə nəzərə alınır (47).

“Əmək pensiyaları haqqında” və “Sosial müavinətlər haqqında” qanunlar ilə müəyyən edilmiş yaşa görə əmək pensiyası və yaxud sosial müavinət almaq hüququ verən yaş həddinə çatan şəxslərə əlillik müddətsiz müəyyən edilir.

Əlilliyi qiymətləndirmək məqsədilə tibbi-sosial ekspertiza Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyaları tərəfindən həyata keçirilir.

Agentlik tərəfindən əlilliyin qiymətləndirilməsində süründürməçiliyə, çoxsaylı qanunsuzluğa yol verilərək əlil vətəndaşlar əsassız yerə incidilir. Xəstə olan şəxslərə əlilliyin qiymətləndirilməsi zamanı əlilik dərəcəsi verməkdən imtina edilərək ya yenidən müalicə olnmaq məsləhət görülür yaxud da diaqnoz əlilik dərəcəsinin təyin olunmasına imkan vermir cavabı verilir. Hər 6 aydan bir əlil şəxslərə bu cür imtinalar verilərək sosial cəhətdən həssas olan vətəndaşlar illərlə əsassız yerə incidilir. Bu cür qanunsuzluqların qarşısının alınması olduqca zəruridir.

Əlillik dərəcəsinin qiymətləndirilməsində tibb müəssisələri də vətandaşları əsassız yerə incidirlər. Bu halı İnsan Hüquqları üzrə Müvəkkilinin 2019-cu il üzrə hesabatından da görmək olur. Həmin hesabatda qeyd edilir ki, əlliyin təyin edilməsi və qiymətləndirilməsi ilə bağlı müraciətlərin araşdırılması zamanı müəyyən edilmişdir ki, bir çox hallarda tibb müəssisələri tərəfindən rəsmiləşdirilmiş müvafiq göndərişlərdə (forma 88) qərəzli olaraq, yaxud da qeyri-peşəkarlıq və ya laqeyd münasibət nəticəsində vətəndaşın səhhətinin tam və hərtərəfli şəkildə əks etdirilməməsi, ekspetiza üçün əhəmiyyətli olan tibbi məlumatların qeyd olunmaması, diaqnoz və ağırlaşmaların düzgün formalaşdılmaması səbəbindən əlilik təyinatının aparılması mümkün olmur (109).

Pensiya istiqamətində keçirilən islahat pensiyaların hesablanmasını da əhatə etdi. Belə ki, 17 may 2011-ci il tarixli Qanuna əsasən 1 yanvar 2006-cı ilədək pensiyaya çıxmış şəxslərin əmək pensiyaları, pensiya təyin edilən tarixə nəzərə

alınmış iş stajının hər ili üçün 1,94 manat sığorta hissəsi müəyyən edilməklə 2011-ci il 1 iyul tarixindən yenidən hesablandı. 1 yanvar 2006-cı ilədək pensiyaya çıxmış və sonra əmək fəaliyyətini davam etdirmiş şəxslərin, onlara pensiya təyin edildiyi tarixdən 1 yanvar 2006-cı ilədək olan dövrdəki iş stajının hər ili üçün də 1,94 manat sığorta hissəsi müəyyən edilərək pensiyalarının sığorta hissəsinin 1 iyul 2011-ci il tarixindən yenidən hesablanmasında nəzərə alındı. 1 yanvar 2006-cı ildən 1 yanvar 2010-cu ilədək olan dövrdə pensiyaya çıxmış şəxslərin əmək pensiyaları, 1 yanvar 2006-cı ilədək nəzərə alınmış sığorta stajına hər ili üçün 1,94 manat sığorta hissəsi müəyyən edilməklə 1 iyul 2011-ci ildən yenidən hesablandı (90,2011.10.06. № 124).

Həmin Qanunla "Əmək pensiyaları haqqında" Qanun qüvvəyə mindiyi günədək sığortaolunanların qazanmış olduqları pensiya hüquqları pensiya kapitalına çevrilməklə onların fərdi hesablarında nəzərə alındı. Bu zaman həmin dövrə aid olan ümumi iş stajının hər ili üçün 170 manat pensiya kapitalı verildi. Həmin kapital qanunvericilikdə müəyyən olunmuş gözlənilən pensiya ödənişi müddətinə, yəni 144 aya bölünür, alınan məbləğə 2006-2010-cu illərin inflyasiya faizi tətbiq edilməklə hər il üçün 1,94 manat pensiyanın sığorta hissəsi təyin olundu. Bu dəyişiklikdən sonra 845 min nəfərin pensiyası orta hesabla 40 faiz artdı və artım 390 mln manat təşkil edirdi. 10 mart 2017-ci il tarixli Qanunla 170 rəqəmi 306 rəqəmi ilə əvəz edildi. (90,2017.3.05. № 93).

Pensiyaların hesablanmasının bu qaydası 10 mart 2017-ci il tarixli Qanunla ləğv edildi. Bu qanunla 1 iyul 2017-ci ilədək təyin edilmiş əmək pensiyasının baza və sığorta hissəsinin cəmi məbləği dəyişdirilmədən əmək pensiyasının sığorta hissəsinə şərti çevrilməsi aparıldı.

Həmin Qanunla işləyən əmək pensiyaçılarının 1 yanvar 2006-cı il tarixindən 1 iyul 2017-ci il tarixinədək olan dövr üzrə fərdi şəxsi hesabının sığorta hissəsində toplanan və istifadə olunmamış pensiya kapitalı 80% artırılmaqla, 1 iyul 2017-ci il

tarixinə fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alındı (90, 2017.3.05. № 93).

1 iyul 2006-cı ilədək pensiyaya çıxmış şəxslərin əmək pensiyalarının yenidən hesablanması zamanı yenidən hesablanmış və mövcud pensiya məbləğlərindən daha yüksək olan məbləğ pensiya təyinatı üçün əsas götürüldü. 1 yanvar 2007-ci ildən yeni təyin olunan pensiyaların əmək haqqına məhdudiyyət qoyulmadan hesablanması həyata keçirildi. 1 yanvar 2008-ci ildən əvvəlki sistemlə (2006-cı il yanvarın 1-dək) təyin olunmuş pensiyalar əmək haqqına qoyulmuş məhdudiyyətlər aradan qaldırılmaqla yenidən hesablandı.

Əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində toplanan pensiya kapitalı ildə bir dəfədən az olmamaqla və Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun indeksləşdirilir.

10 mart 2017-ci il tarixli Qanunla əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq hər il Dövlət Statistika Komitəsi tərəfindən indeksləşdirilir.

Həmin Qanunla vətəndaşların pensiya almaq hüququ bir qədər məhdudlaşdırıldı. Belə ki, yeni qanunla əmək pensiyaları onu almaq hüququ yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla və müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə təyin edilir. Həmçinin Qanunda göstərilir ki, ötən dövr üçün hesablanan pensiyanın ümumi məbləği ötən dövrdəki ayların sayına bölünərək aylıq pensiyanın üzərinə əlavə edilməklə ödəniləcəkdir. Lakin əvvəl müraciət etdiyi vaxtdan asılı olmayaraq şəxs nə vaxt müraciət etməsindən asılı olmayaq ona hüququnun yarandığı vaxtdan pensiya təyin edilərək ödənilirdi. İndi isə şəxsə pensiya hüququnun yarandığı vaxtdan deyil müraciət etdiyi vaxtdan əvvəlki üç il üçün pensiya təyin edilir və ödənilir. Bu hal

şəxslərin pensiya hüquqlarını müəyyən qədər məhdudlaşdırılmasına gətirib çıxartdı.

Bu göstərilən məhdudiyyət 10 mart 2017-ci il Qanunu qüvvəyə mindikdən sonrakı dövrə yəni 1 iyul 2017-ci ildən sonrakı dövrə aid edilməsinə baxmayaraq Ali Məhkəmənin İnzibati Kollegiyasının 8 oktyabr 2020-ci il tarixli Qərardadı ilə "müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə" müddəasını pensiya hüququ 1 iyul 2017-ci il tarixədək yaranmış, lakin əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması üçün inzibati orqana həmin tarixdən sonra müraciət etmiş şəxslərə münasibətdə də tətbiq edilməsi barədə qərardad qəbul etdi. Bu Qərardad "Əmək pensiyaları haqqında" Qanuna zidd olmasına baxmayaraq məhkəmələr tərəfindən tətbiq edilir bu da sığortaolunanların mənafelərinə ziddir (46).

Göstərilən qanunadək əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında əmək pensiyası hüququnun yarandığı gündən asılı olmayaraq ömürlük təyin edilirdi (54).

Hətta 1 yanvar 2006-cı ilədək qüüvədə olmuş "Vətəndaşların pensiya təminatı haqqında" Qanuna əsasən hesablanmış, lakin pensiyaçı tərəfindən vaxtında alınmamış pensiya məbləği bunun üçün müraciət edilən vaxtdan əvvəlki dövrün ən çoxu 3 ili üçün ödənilirdi. Pensiyanı təyin edən və ya ödəyən orqanın təqsiri üzündən vaxtında alınmamış pensiyanın məbləği heç bir müddət məhdudiyyəti qoyulmadan bütün dövr üçün ödənilirdi (80).

Konstitusiya Məhkəməsinin 22 may 2001-ci il tarixli qərarı ilə "Vətəndaşların pensiya təminatı haqqında" Qanunda nəzərdə tutulmuş 3 illik müddət Konstitusiyasının 25 və 38-ci maddələrinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmiş, həmçinin bu qərarın qüvvəyə mindiyi gündən sonra yaranan hüquq münasibətlərinə şamil olunacağı qərara alınmışdır.

Konstutisiya Məhkəməsi həmin qərarda özünün hüquqi mövqeyini belə ifadə etmişdir: "...Hesablanmış, lakin pensiyaçı tərəfindən vaxtında alınmamış pensiya məbləğinin bunun üçün

müraciət edilən vaxtdan əvvəlki dövrün ən çoxu 3 ili üçün ödənilməsini nəzərdə tutan "Vətəndaşların pensiya təminatı haqqında" Qanunun Konstitusiyanın 38-ci maddəsində təsbit olunan vətəndaşların sosial təminat hüququnu məhdudlaşdırır.

"Vətəndaşların pensiya təminatı haqqında" Qanunda təsbit edilmiş hesablanmış, lakin pensiyaçı tərəfindən vaxtında alınmamış pensiya məbləğinin bunun üçün müraciət edilən vaxtdan əvvəlki dövrün ən çoxu 3 ili üçün ödənilməsini nəzərdə tutan müddəa Konstitusiya Məhkəməsinin 22 may 2001-ci il tarixli qərarından sonra hüquqi qüvvəsini itirdi.

Aparılan pensiya islahatı pensiyaların yenidən hesablanmasından da yan keçmədi. İşləyən əmək pensiyaçılarının pensiyası əvvəl yenidən hesablanmırdı. Qanunda nəzərdə tutulurdu ki, işləyən əmək pensiyaçılarının yaşa görə əmək pensiyasının baza və pensiya təyin olunan günədək qazanılmış sığorta hissəsi tam məbləğdə ödənilir. Pensiya təyin olunduqdan sonrakı dövr üzrə qazanılan sığorta və yığım hissələri üzrə pensiya kapitalının toplanması davam etdirilir və şəxslər işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdə, həmin dövr üzrə sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı pensiyaçının pensiya yaşından sonra işlədiyi ayların miqdarı qədər, lakin 72 aydan artıq olmamaqla azaldılaraq əmək pensiyası yenidən hesablanır.

10 mart 2017-ci il tarixli Qanunla işləyən əmək pensiyaçılarına pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox işlədikdə həmin dövr üzrə sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı pensiyaçının pensiya yaşından sonra işlədiyi ayların miqdarı qədər, lakin 72 aydan artıq olmamaqla azaldılaraq əmək pensiyası yenidən hesablanır. Sonrakı belə hesablamalar bu maddədə göstərilən şərt nəzərə alınmaqla hər növbəti 6 ildən bir həyata keçirilməsi nəzərdə tutuldu. Qanunda edilən bu dəyişiklikdən sonra işləyən əmək pensiyaçılarının qazandıqları sığorta və yığım hissələri üzrə toplanılan pensiya kapitalı hər 6

ildən bir yenidən hesablamağa imkan verdi (90,2017.3.05. № 93).

Lakin qanunda edilən bu mütərəqqi dəyişiklik hərbi qulluqçulara münasibətdə səhv olaraq tətbiq edilmirdi. Konstitusiya Məhkəməsinin 2 fevral 2022-ci il tarixli qərarından sonra əmək pensiyası təyin olunduqdan sonra digər sahədə əmək fəaliyyətini davam etdirən hərbi qulluqçuların pensiyasının 6 ildən bir yenidən hesablanması onlara da şamil edildi.

Göstərilən bu dəyişiklik əmək pensiyasına çıxmış, lakin işləməkdə davam edən əmək pensiyaçılarınınn sosial müdafiəsinin möhkəmləndirilməsinə və onların sığorta və yığım üzrə pensiya kapitalının hesablanaraq özlərinə qaytarılmasına köməklik etmiş oldu.

Sığorta stajının hesablanması qaydasında da islahat keçirildi. Nazirlər Kabinetinin "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növündən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə 28 aprel 2022-ci il tarixli Qərarına əsasən əmək pensiyasının təyin edilməsi zamanı nəzərə alınan sığorta stajı iki yerə bölünür:

1. 2006-cı il yanvarın 1-dək olan dövr üzrə əsas sənəd işçinin əmək kitabçası, o olmadıqda isə işəgötürənin arayışı və ya dövlət arxivinin arayışı əsas götürülür. Nazirlər Kabinetinin bu qərarı ilə həmçinin işçilərin əyani təhsil dövrü və işləməyən ananın körpə uşaqlarına qulluq etdiyi və ya uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyət dövrləri də iş stajına daxil edildi.

2. 2006-cı il yanvarın 1-dən sonrakı dövr üzrə əsasən dövlət sosial sığorta sistemində fərdi uçot məlumatları əsas götürülməyə başlanıldı (27).

"Əmək pensiyaları haqında" Qanunda əyani təhsil dövrü və işləməyən ananın körpə uşaqlarına qulluq etdiyi və ya uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyət dövrləri iş stajına daxil edilmədiyindən pensiya təyin edən inzibati orqan onları iş stajı kimi qəbul etmirdi. Bu da həmin şəxslər üçün

müəyyən çətinliklər yaradır və məhkəməyə müracət edərək əyani təhsil dövrünü və uşaqlara qulluq etdiyi dövrü iş stajına daxil etdirdilər. Halbuki 1 yanvar 2006-cı ilə kimi qüvvədə olan "Dövlət pensiyaları haqqında" SSRİ Qanununa və "Vətəndaşların pensiya təminatı haqqında" Qanununa əsasən ali, orta ixtisas, texniki peşə məktəblərini bitirmiş şəxslərin təhsil müddəti, habelə kadr hazırlayan kurslarda, ixtisasartırma və yenidən ixtisaskeçmə kurslarında, aspiranturada, doktoranturada və klinik ordinaturada təhsil müddəti və işləməyən ananın körpə uşaqlara qulluq etdiyi müddət, lakin hər uşaq 3 yaşına çatanadək və üst-üstə 6 ildən çox olmayan müddət iş stajına daxil edilirdi. Çünki həmin şəxslər təhsil aldıqları və körpə uşağa qulluq etdikləri dövrdə göstərilən qanunlar qüvvədə olduqlarına görə həmin dövrlər onlara staj hesablanırdı.

2017-ci il üzrə pensiya təminatı sistemi ölkə əhalisinin 13,4 faizini əhatə edirdi. 2017-ci ildə əhalinin etibarlı pensiya təminatına nail olunması məqsədi ilə pensiya təminatı sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə toplanılan sığorta vəsaitləri arasında balanslaşdırma mexanizmlərinin formalaşdırılması, pensiya təminatı sistemində təyin olunan pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi, sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi istiqamətində bir sıra islahat tədbirləri həyata keçirilmişdir.

İslahat nəticəsində həm pensiyaçıların sayı və onların aldıqları pensiya məbləği də ildən-ilə artmışdır. Belə ki, 31 yanvar 2005-ci ildə yaşa görə əmək pensiyaçılarının ayı 779472 nəfər, orta aylıq məbləği 29,49 manat əlilliyiə yörə pensiyaçıların sayı 266888 nəfər, orta aylıq məbləği 32,25 manat, ailə başçısını itirməyə görə 135315 nəfər, orta aylıq məbləği 26,51 manat olmuşdur. Həmin il üzrə pensiyaçıların ümumi sayı 1181675 nəfər, pensiyanın orta aylıq məbləği 29,78 manat olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2017-ci il ölkə üzrə orta aylıq nominal əməkhaqqının 5,7 faiz illik artım tempinə uyğun olaraq, 2018-ci ilin 1 yanvar tarixinə əmək pensiyasının minimum məbləği, bütün növ əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri indeksləşdirilmişdir. Əmək pensiyalarının indeksləşdirilərək artırılması 1236 min nəfər pensiyaçıya və ya onların 94 faizinə şamil olunmuşdur (129,s.20).

Əmək pensiyalarının orta aylıq məbləği 1 yanvar 2018-ci il tarixinə olan 208,36 manatdan 1 yanvar 2019-cu il tarixinə 222,57 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 233,68 manatdan 250,80 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 175,01 manatdan 185,90 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 164,07 manatdan 175,90 manata yüksəlmişdir. Pensiyanın orta aylıq məbləği 2017-ci illə müqayisədə 6,8 %, yaşa görə pensiyanın orta aylıq məbləği isə 7,3 % artmışdır.

1 yanvar 2019-cu il tarixə ölkədə 1 milyon 299 min nəfər və ya ölkə əhalisinin 13 faizi əmək pensiyası alanlardır. Ölkə üzrə əmək pensiyaçılarının 757397 nəfəri və ya 58,3 faizi yaşa görə, 391426 nəfəri və ya 30,1 faizi əliliyə görə, 150638 nəfəri və ya 11,6 faizi isə ailə başçısını itirməyə görə pensiya alanlardır. Pensiyaçıların sayı 2018-ci ilin müvafiq dövrünə nisbətən 18,9 min nəfər və ya 1,4 % azalmışdır (130,s.21).

Azərbaycan Respublikasının Prezidentinin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 7 fevral 2019-cu il tarixli Sərəncamına əsasən 2018-ci il ölkə üzrə orta aylıq nominal əmək haqqının 3% illik artım tempinə uyğun olaraq, 1 yanvar 2019-cu il tarixinə əmək pensiyasının minimum məbləği, bütün növ əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot

sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri indeksləşdirilmiş, bununla əlaqədar olaraq pensiyaların məbləğləri artırılmışdır. Əmək pensiyalarının indeksləşdirilərək artırılması 1,2 mln. nəfər pensiyaçıya (onların 94%-inə) şamil olunmuşdur (130,s.23).

Əmək pensiyalarının orta aylıq məbləği 1 yanvar 2019-cu-il tarixinə olan 221 manatdan 1 yanvar 2020-ci il tarixinə 262 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 249 manatdan 295 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 185 manatdan 225 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 175 manatdan 201 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 15,1%, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 15,0 % artmışdır.

Azərbaycan Respublikası ƏƏSMN-in mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Sığorta” altsistemindən alınan operativ məlumata əsasən 1 yanvar 2020-ci il tarixə ölkədə 1 milyon 278 min nəfər və ya ölkə əhalisinin 12,8%-i əmək pensiyası alanlardır. Ölkə üzrə əmək pensiyaçılarının 745530 nəfəri və ya 58,3%-i yaşa görə, 383304 nəfəri və ya 30,0%-i əliliyə görə, 148923 nəfəri və ya 11,7%-i isə ailə başçısını itirməyə görə pensiya alır (130,s.23).

Aparılmış islahatlar nəticəsində 2019-cu ildə ümumi əsaslarla pensiya yaşına çatan şəxslərin 80%-nə pensiya avtomatlaşdırılmış qaydada təyin olunmuşdur. Əlilliyə görə pensiya 1 mart 2019-cu il tarixindən avtomatlaşdırılmış qaydada həyata keçirilir. 2019-cu il ərzində 14376 nəfərə (13310 nəfərə yaşa görə, 1066 nəfərə isə əlilliyə görə) elektron qaydada əmək pensiyası təyin edilmişdir (130,s.24).

2019-cu ilin əvvəlində əmək pensiyasının sığorta hissəsinin indeksləşməsi nəticəsində minimum pensiya 116 manatdan 119,76 manata qaldırılmışdır.

“Əmək pensiyaları haqqında” Qanuna 1 mart 2019-cu il tarixində edilmiş dəyişikliyə əsasən əmək pensiyasının mini-

mum məbləği 1 mart 2019-cu il tarixindən 41 manat artırılaraq 119 manatdan 160 manata çatdırılmışdır ki, qeyd edilən artım 233 000 pensiyaçını əhatə etmişdir. 1 mart 2019-cu il tarixdən isə əmək pensiyasının minimum məbləği artırılaraq 160 manatdan 200 manata çatdırılmışdır ki, bu da öz növbəsində 660 min nəfərin pensiyasının artımı ilə nəticələnmişdir. Ümumilikdə, 2019-cu il ərzində əmək pensiyasının minimum məbləği 72% artmışdır (130,s.24).

"Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 30 noyabr 2018-ci il tarixli Qanuna əsasən 1 yanvar 2019-cu il tarixdən etibarən sığortaolunanların əmək pensiyasının avtomatlaşdırılmış qaydada təyin edilməsi təmin edilib. Bu zaman, sığortaolunanın fərdi hesabının sığorta hissəsində 1 yanvar 2006-cı il tarixindən 1 iyul 2018-ci il tarixədək qeydə alınmış pensiya kapitalı olduqda, ona 1 yanvar 2006-cı il tarixədək sosial sığorta stajı 25 il hesablanmaqla əmək pensiyası təyin edilir. 2019-cu ilin yanvar-sentyabr aylarında bu kateqoriyadan olan pensiyaların 78%-i avtomatlaşdırılmış qaydada təyin edilmişdir. 1 aprel 2019-cu il tarixindən əlilliyə görə pensiya təyinatının elektron sistem vasitəsilə aparılmasına başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2018-ci il tarixli və 10 dekabr 2018-ci il tarixli Fərmanları ilə Azərbaycan Respublikası ƏƏSMN-in tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və yerlərdə əhaliyə sosial müdafiə və təminat sahəsində xidmətləri təqdim edəcək DOST mərkəzləri yaradılmışdır. DOST Agentliyinin əsas fəaliyyət istiqamətləri DOST mərkəzlərini idarə etmək, onların fəaliyyətinə nəzarəti və fəaliyyətinin qiymətləndirilməsini həyata keçirmək, DOST mərkəzlərində xidmətlərin "bir pəncərə", operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsi üçün tədbirlər görmək, DOST mərkəzlərinin inkişafını, həmin mərkəzlərdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini, onların elektron qaydada həyata keçiril-

məsini və təkmilləşdirilməsini, habelə innovasiyaların tətbiqini təmin etmək, övladlığagötürmə sahəsində müəyyən edilən vəzifələrin icrasını təmin etmək, müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması məqsədilə tədbirlər görməkdən ibarətdir (131,s.25).

9 may 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Bakı şəhərinin Yasamal rayonunda Agentliyin ilk DOST mərkəzinin inzibati binasının və 24 dekabr tarixində isə ölkə Prezidentinin iştirakı ilə Bakı şəhərinin Xəzər rayonunda 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasının açılış mərasimi olmuşdur. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2018-ci il tarixli Fərmanı ilə Agentliyin Nizamnaməsi, strukturu, DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı və göstərilmə qaydaları, Nazirlər Kabinetinin müvafiq qərarı ilə isə "DOST Mərkəzlərinin Nümunəvi Nizamnaməsi" təsdiq edilmişdir (131,s.25).

Nizamnaməsinə uyğun olaraq DOST-un tabeliyindəki DOST mərkəzlərinin idarə edilməsi, fəaliyyətinə nəzarət və qiymətləndirmənin həyata keçirilməsi, eləcə də məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində, habelə Azərbaycan Respublikası ƏƏSMN-in fəaliyyət istiqamətlərinə uyğun olaraq siyahıda müəyyən edilən xidmətlərin DOST mərkəzlərində göstərilməsinin təşkili ilə bağlı fəaliyyət göstərən publik hüquqi şəxsdir (131,s.25).

2020-ci ildə ölkə üzrə əmək pensiyaçılarının 716,7 min nəfəri və ya 58,2%-i yaşa görə, 374,8 min nəfəri və ya 30,4%-i əlilliyə görə, 140,7 min nəfəri və ya 11,4%-i isə ailə başçısını itirməyə görə pensiya almışdır.

1 yanvar 2020-ci il tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2019-cu ildə ölkə üzrə orta aylıq nominal əmək haqqının 16,6% illik artım tempinə və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış

pensiya kapitalı məbləğləri 2019-cu ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 2,6 faizlik illik səviyyəsinə uyğun indeksləşdirilmişdir. Əmək pensiyalarının indeksləşdirilməsi məqsədilə illik 513,6 mln. manat vəsait xərclənmiş və bu artım 1,2 mln. pensiyaçını əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 1 yanvar 2020-ci il tarixinə olan 263,59 manatdan 1 yanvar 2021-ci il tarixinə ilkin hesablamalara görə 298,95 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 291,5 manatdan 329,57 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 229,74 manatdan 261,88 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 210,21 manatdan 241,71 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 13,4%, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 13,1% artmışdır.

2020-ci il ərzində 11,3 min nəfərə (10,5 min nəfərə yaşa görə, 789 nəfərə isə əlilliyə görə) elektron qaydada əmək pensiyası təyin edilmişdir.

2021-ci il  ərzində ölkə üzrə əmək pensiyaçılarının 707,2 min nəfəri və ya 59,1 faizi yaşa görə, 345,6 min nəfəri və ya 28,9 faizi əlilliyə görə, 144,2 min nəfəri və ya 12 faizi ailə başçısını itirməyə görə pensiya almışdır.

1 yanvar 2021-ci il tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2020-ci ildə ölkə üzrə orta aylıq nominal əmək haqqının 11,4 faiz illik artım tempinə və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri 2020-ci ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 2,8 faizlik illik artım səviyyəsinə uyğun indeksləşdirilmişdir. Əmək pensiyalarının indeksləşdirilməsi məqsədilə illik 441,6 milyon manat vəsait xərclənmiş və bu artım 1,14 milyon pensiyaçını əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 1 yanvar 2021-ci il tarixinə olan 302,24 manatdan 1 yanvar 2022-ci il tarixinə ilkin hesablamalara görə 331

manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 331,4 manatdan 358 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 260,9 manatdan 290,8 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 263 manatdan 290,2 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 9 faiz, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 8 faiz artmışdır.

2021-ci il ərzində 22,6 min nəfərə (21 min nəfərə yaşa görə, 1,2 min nəfərə əlilliyə görə, 436 nəfərə isə ailə başçısını itirməyə görə) elektron qaydada əmək pensiyası təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli Sərəncamına əsasən 1 yanvar 2022-ci il tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2021-ci ildə ölkə üzrə orta aylıq nominal əmək haqqının 3,4 faiz illik artım tempinə və pensiya kapitalı məbləğləri isə 2021-ci ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 6,7 faizlik illik artım səviyyəsinə uyğun indeksləşdirilərək artırılmışdır. Bundan başqa, həmin Sərəncama əsasən sığorta prinsipi ilə pensiya alan pensiyaçılara 2022-ci il üzrə 200 manat məbləğində maddi yardımın bərabər hissələrə bölünməklə rübdə bir dəfə ödənilməsi təmin edilmişdir. Bununla yanaşı, cənab Prezidentin digər Sərəncamı ilə qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə onların aylıq pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım ayrılmışdır. Əmək pensiyalarının indeksləşdirilməsi və maddi yardımın ödənilməsi məqsədilə illik 440 milyon manat vəsait xərclənmiş və bu artım bütün növ pensiyaları əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 1 yanvar 2022-ci il tarixinə olan 331,7 manatdan 1 yanvar 2023-cü il tarixinə ilkin hesablamalara görə 371,7 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 360,9 manatdan 398,9 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 290,9 manatdan 325,4 manata və ailə başçısını itirməyə görə əmək

pensiyasının orta aylıq məbləği isə 280,0 manatdan 327,9 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği əvvəlki illə müqayisədə 12,1 faiz, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 10,6 faiz artmışdır (134).

Ölkəmizdə aparılan pensiya islahatı pensiyaçıların həm maddi rifahının yaxşılaşdırılması, həm də onlara rahat və əlçatan pensiyaların təyinatına gətirib çıxaracaqdır. Belə ki, pensiya sahəsində gələcəkdə də aşağıda göstərilən islahatların davam etdirilməsi vacibdir:

1. Pensiya yaşı kişilər üçün 62, qadınlar üçün 57 yaşına azaldılmalı və sığorta stajı isə 15 ilə endirilməli;

2. Güzəştli şərtlərlə əmək pensiyası kişilər üçün 57 yaşa, qadınlar üçün isə 52 yaşa endirilməli;

3. Sığortaolunan pensiya yaşına çatanadək və yaxud da pensiyaya çıxdıqdan sonra vəfat edərsə onun fərdi hesabında toplanan pensiya kapitalı vərəsələrinə miras olaraq verilməlidir;

4. Müəllimlər və həkimlər yüksək həssaslıq, həyacan, zehni, fiziki və əsəb gərginliyi şəraitində işlədiklərinə görə 30 il sığorta stajına malik olduqda onlara da güzəştli şərtlərlə əmək pensiyasına çıxmaq hüququ verilməli;

5. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının 15 il üzvü olan vəkili də güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququ verilməli və vəkilin pensiyası son 24 ay və ya ardıcıl gələn istənilən 60 ay ərzində aldığı qonarar nəzərə alınmaqla hesablanmalıdır

### 3.3.Təhsil sahəsində.

Dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan dövlətinin qarşısında duran həlli vacib məsələlərdən biri də təhsil sahəsində islahatların keçirilməsindən ibarət idi. Digər sahələrdə olduğu kimi təhsil sahəsində də islahatların həyata keçirilməsi üçün ilk növbədə normativ hüquqi baza yaradılmalı idi.

Təhsil sahəsində ilk islahat ”Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında” qanunun qüvvəyə minməsi ilə başlanıldı. Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci il tarixli Qərarına əsasən 1992-ci ilin sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslərin yeni əlifba ilə keçirilməsinə başlanıldı. Qərara əsasən 1993-cü ildən orta, orta ixtisas və ali məktəb dərslikləri latın qrafikalı əlifba ilə çap edilməli, orta məktəblərin ibtidai siniflərində latın qrafikalı əlifbanın öyrənilməsinə başlanılmalı və təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın tətbiqi başa çatdırılmalıdır. Lakin latın qrafikalı əlifbaya keçid ləngidilirdi.

Ümummilli Lider 1 sentyabr 1997-ci ildə ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması münasibəti ilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilən mitinqdə çıxışında bu barədə demişdir: “Biz yeni əlifbaya-latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun.

Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır. Nəşriyyatlara da müraciət edirəm ki, kitabların hamısını latın əlifbası ilə çap etsinlər. 1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunubdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar. Əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, gecikmiş olacağıq. Bu işlər məktəblərdə xüsusilə təşkil olunmalıdır. Mən Təhsil

Nazirliyindən, bütün məktəblərdən bunu tələb edirəm” (185,s.138).

Təhsil sahəsində aparılan islahat tələbə qəbulundan da yan keçmədi. Belə ki, keçən əsrin ikinci yarısından-1992-ci ilədək respublikamızda tələbə qəbulu çox ədalətsiz bir şəraitdə keçirilirdi.Tələbə qəbulunda korrupsiya, özbaşınalıq və sürün-dürməçilik hökm sürürdü. Demək olar ki, bütün vətəndaşlar mövcud tələbə qəbulu sistemindən narazı idi və həmin sistemin dəyişdirilməsini tələb edirdi. Nəhayət 1992-ci ildə hakimiyyətə gələn Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy höküməti mövcud tələbə qəbul sistemindən imtina etdi və Türkiyə Respublikasının tələbə qəbulu nümunəsinə-test üsuluna keçdi. Yeni tələbə qəbulunu həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy 21 iyul 1992-ci il tarixli Fərmanı ilə Tələbə Qəbubulu üzrə Dovlət Komissiyasını yaratdı. 1992-ci ildə ali və orta ixtisas məktəblərinə qəbul ilk dəfə olaraq mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilməsinə başlanıldı və uğurlu nəticələr əldə edildi. Qəbul imtahanlarında test üsulunun tətbiqi Əbülfəz Elçibəy iqtidarının ən böyük tarixi nailiyyəti idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2 avqust 1994-cü il tarixində Ali və Orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədə qəbul imtahanlarının test üsulu ilə aparılması ilə əlaqədar fikrini belə bildirmişdir: “Son illər Azərbaycanda ali və orta ixtisas məktəblərinə qəbul test üsulu ilə keçirilir. 1992-1993-cü illərdə bu üsul tətbiq olunub və öz müsbət nəticələrini verib.Ümumi ictimai rəy də, bizim rəyimiz belədir ki, test üsulundan bu il də istifadə edilsin. Ötən iki ildə bu sahədə müəyyən təcrübə qazanılıb. Bu təcrübədən səmərəli istifadə olunması, əvvəllər buraxılan səhvlərin təkrar edilməməsi, bu üsulun təkmilləşdirilməsi əsas vəzifədir. Belə ki, ali və orta ixtisas məktəblərinə qəbul böyük hadisədir. Bu məsələ ictimaiyyəti həmişə maraqlandırır, narahat edir. Çünki respublikamızın bu keçid dövründə, ağır sosial-iqtisadi vəziyyəti dövründə, müharibə şəraitində təhsil almaq istəyən gənclərin

sayı çoxdur. Ona görə də ən bilikli gənclərin ali məktəblərdə təhsil almasını təmin edən qəbul kampaniyası çox mühüm tədbir kimi qiymətləndirilməlidir” (178,s.103).

7 oktyabr 1992-ci ildə müstəqil Azərbaycanın ilk “Təhsil haqqında” Qanunu qəbul edildi. Bu qanun respublikamızda ilk dəfə olaraq dövlət təhsil müəssisələri ilə yanaşı özəl təhsil müəssisələrinin də yaradılmasına və fəaliyyətinə icazə verdi. Ali məktəblərdə bakalavr və magistr pilləli təhsil sisteminə keçildi (76).

Lakin 1995-ci il 12 noyabr tarixində yeni Konstitusiyanın qəbulundan sonra bu qanun dövrün tələblərinə cavab vermədi və yeni qanunun qəbul edilməsi zərurəti yarandı.

Azərbaycan Respublikası Konstitusiyanın 42-ci maddəsinə əsasən dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

Dövlətin Azərbaycan Respublikasının gənclərinə ümumi orta təhsili pulsuz və icbari etməsinin olduqca böyük əhəmiyyəti vardı. Heydər Əliyev 29 avqust 1997-ci il tarixində Azərbaycan və xarici ölkələrin Ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşündə icbari ümumi orta təhsilin əhəmiyyətindən danışaraq demişdir: “bizim qonşu, dost Türkiyə Cümhuriyyətində indi səkkizillik icbari təhsil haqqında mübahisələr, mübarizələr gedir. Türkiyə Böyük Millət Məclisi bu məsələni müzakirə edir. Bəziləri hesab edir ki, səkkizillik icbari təhsil lazımdır, bəziləri isə hesab edir ki, lazım deyil və gəncləri məcbur etmək lazım deyil ki, onlar 8 ilə qədər oxusunlar. Onların bəzilərinin fikrincə, gənclər oxumasa da olar və yaxud iki-üç il oxuyandan sonra qoy özləri bildikləri kimi yaşasınlar. Bu, şübhəsiz ki, Türkiyənin daxili problemidir. Biz bu işə qarışmırıq. Ancaq Türkiyəni yaxşı bilən adam kimi bu, mənim üçün yeni bir təəccüblü hadisə oldu ki, əcəba, indiyə qədər Türkiyədə gənclərin 8 il təhsil alması icbari xarakter daşımamışdımı? Bilirsiniz, bu heç də insanları nəyəsə məcbur etmək deyil. Bizim ölkəmizdə neçə illərlə onillik icbari təhsil olubdur. Gənclər mütləq 10 il oxumalı, icbari orta təhsil

almalıdırlar. İndi biz bunun gözəl nəticələrini görürük. Respublikamızda savadsızlıq yoxdur. Biz bunu adi bir hal hesab edirdik. Ancaq yenə də deyirəm ki, indi biz başqa ölkələrin vəziyyətini dərindən görəndən sonra mən bunu adi hal hesab etmirəm. Bu bizim böyük nailiyyətimizdir və bununla biz fəxr edə bilərik" (185,s.114).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 30 mart 1998-ci il tarixli sərəncamı ilə təhsil sahəsində islahatların keçirilməsi məqsədi ilə Dövlət komissiyası yaradıldı. Komissiyanın sədri təhsil naziri Misir Mərdanov, komissiya sədrinin müavini iqtisadiyyat naziri Namiq Nəsrullayev, komissiyanın üzvləri isə Rafael Allahverdiyev, Fərəməz Maqsudov, Fikrət Yusifov, Südabə Həsənova, Əli İnsanov, Əbülfəz Qarayev, İsmayıl Sadıxov, Elman Rüstəmov, Səttar Mehbalıyev, Əvəz Ələkbərov Arif Vəliyev və Barat Nuriyev oldu (11).

Heydər Əliyev 15 iyun 1999-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq etdi. İslahat Proqramı Prezidentin 30 mart 1998-ci il tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən hazırlanmışdır.

Sərəncamda qeyd edilirdi ki, təhsil sistemində islahatların zəruriliyi respublikanın sosial-iqtisadi, ictimai-siyasi və dövlət quruluşunda baş vermiş köklü dəyişikliklərlə bağlıdır. İndiki mərhələdə təhsil sistemi inzibati-amirlik prinsipinə əsaslanan totalitarizmdən azad, açıq, demokratik və çoxşaxəli formada qurulmalıdır.

Təhsilin inkişafı müasir şəraitdə yalnız dövlətin vəzifəsi olmayıb, demokratik cəmiyyətin bütün ünsürlərinin, təhsil alanların və onların ailələrinin, dövlət və qeyri-dövlət təhsil müəssisələrinin, elmi-pedaqoji birliklərin, mütəxəssislərlə təmin olunmağa ehtiyacı olan potensial tələbatçıların, ictimai və dini birliklərin çoxsahəli və çoxaspektli əməkdaşlıq sahəsidir.

Bu sahədə islahatların aparılması indiyə qədər bir sıra obyektiv və subyektiv səbəblərdən asılı olaraq həyata keçiril-

məmişdir. İctimai-siyasi həyatımızdakı qeyri-sabitlik, iqtisadi sistemin bütün sahələrində istehsalın aşağı düşməsi və milli gəlirin azalması həm təhsilin büdcə təminatını aşağı salmış, həm də bütövlükdə təhsil sisteminin yeni iqtisadi mexanizminin yaranmasına imkan verməmişdir.

İqtisadi inkişafın indiki mərhələsində müşahidə olunan dirçəliş, yaranmış maliyyə sabitliyi, qeyri-büdcə sferasından əlavə vəsaitlərin cəlb olunma imkanlarının mövcudluğu həm qeyd olunan çətinlikləri aradan qaldırmağa, həm də bütövlükdə təhsil sistemində köklü islahatlara başlamağa əlverişli şərait yaratmışdır.

Təhsil sahəsinin islahatı təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarə sistemi və iqtisadiyyatında köklü yeniləşmənin həyata keçirilməsini nəzərdə tutur. İslahatın gedişində elmi tədqiqat işlərinin aparılması və onun nəticələrinin təhsil prosesinə tətbiqinə əlverişli şərait yaradılmasına, təhsil sistemi işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və təhsil alanların sağlamlığının və sanitar-gigiyenasının təşkilinə xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

Aparılacaq islahatlar nəticə etibarilə təhsil sisteminin müasir bazar iqtisadiyyatı şəraitinə cavab verən yeni iqtisadi-təşkilati və idarəetmə mexanizminin yaradılmasını təmin etməlidir.

Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir.

İslahat Proqramında təhsil sistemində islahatların üç mərhələdə aparılması nəzərdə tutulurdu.

Birinci mərhələ hazırlıq mərhələsi idi və 1999-cu ili əhatə edirdi. Bu mərhələdə Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tutulurdu.

İkinci mərhələ 2000-2003-cü illərdə qısamüddətli perspektivi əhatə edirdi. Bu mərhələdə təhsil sahəsinin sosial-iqtisadi stabilliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və geniş miqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulurdu.

Üçüncü mərhələ 2004-cü ili əhatə edirdi. Bu mərhələdə proqramda nəzərdə tutulan bütün tədbirlər həyata keçirilməli idi.

Proqramda nəzərdə tutulan bütün tədbirlər demək olar ki, hamısı müvəffəqiyyətlə həyata keçirildi.

İslahatın həyata keçirdiyi dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci il tarixində "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi.

Fərmanda qeyd edilirdi ki, müstəqil Azərbaycan Respublikasında təhsil sahəsində geniş miqyaslı islahatlar həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş İslahat Proqramından irəli gələn məsələlərin həlli, o cümlədən təhsilin idarə olunmasında yeni prinsiplərin bərqərar olması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması təhsil sisteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyur (24).

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək,

idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət Təhsil Nazirliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutuldu.

Fərmanla Dövlət ali və orta ixtisas təhsil müəssisələrinin filialları ləğv edildi. Bakı Dövlət Universitetinə, Azərbaycan Tibb Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına özünüidarəetmə hüququ verildi və onların maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsi hazırlanarkən ayrıca sətirlə qeyd edilməsi göstərişi verildi (24).

Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq və Kommersiya İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradıldı.

Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət profilli fakültələrinin və Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun bazasında Azərbaycan Rəssamlıq Akademiyası təsis edildi. Akademiyanın nəzdində İncəsənət Kolleci yaradıldı (24).

Bakı Musiqi Akademiyasının xalq musiqisi profili ixtisaslarının və Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Azərbaycan Milli Konservatoriyası təsis edildi. Konservatoriyanın nəzdində Musiqi Kolleci yaradıldı.

Fərmanla məktəbəqədər təhsil müəssisələri və ümumtəhsil müəssisələrinin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin əlavə təhsilini təmin etmək məqsədi ilə Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu yaradıldı. İnstitutun Ağcabədi,

Cəlilabad, Gəncə, Qazax, Quba, Mingəçevir, Naxçıvan, Sumqayıt, Şamaxı, Şəki, və Zaqatalada filialları açıldı (24).

Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti, Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun profili genişləndirməklə "Bakı Slavyan Universiteti", və Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirməklə "Azərbaycan Dillər Universiteti", Gəncə Dövlət Pedaqoji İnstitutunun profili genişləndirilməklə "Gəncə Dövlət Universiteti", Azərbaycan Texnologiya İnstitutunun profili genişləndirilməklə "Azərbaycan Texnologiya Universiteti", Azərbaycan İnşaat Mühəndisləri Universiteti "Azərbaycan Memarlıq və İnşaat Universiteti" və Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Azərbaycan Respublikasının Təhsil İnstitutu adlandırıldı (24).

19 iyun 2009-cu il tarixində "Təhsil haqqında" yeni Qanun qəbul edildi. Bu qanun təhsil sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin əsas prinsiplərini, təhsilin əsas məqsədini, təhsil hüququna dövlət təminatı, təhsil sahəsində dövlət standartları, təhsil sisteminin quruluşu, təhsilin keyfiyyət səviyyəsi, təhsil proqramı (kurikulum), təhsilin formaları və təhsilalma formalarını müəyənləşdirildi (77).

Qanuna əsasən respublikamızda mülkiyyət növünə görə aşağıdakı təhsil müəssisələri fəaliyyət göstərir:

1. dövlət;
2. bələdiyyə;
3. özəl.

Təhsil müəssisəsinin aşağıdakı tipləri və növləri müəyyən edildi:

1. Məktəbəqədər təhsil müəssisələri;
2. Ümumtəhsil müəssisələri;
3. məktəbdənkənar təhsil müəssisələri (yaradıcılıq və inkişaf mərkəzləri, ekologiya və turizm mərkəzləri, uşaq-gənclər idman-şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri və s.);
4. peşə təhsili müəssisələri;

5. orta ixtisas təhsili müəssisələri (kolleclər);

6.ali təhsil müəssisələri (universitetlər, akademiyalar, institutlar və s.);

7.əlavə təhsil müəssisələri (universitetlər, institutlar, mərkəzlər və s.);

8.təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr (uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri və s.) (77).

Qanuna əsasən təhsil müəssisəsində təhsil dövlət hesabına və ya ödənişli əsaslarla həyata keçirilir. Lakin xüsusi təyinatlı (hərbi, dövlət təhlükəsizliyi və digər) təhsil müəssisələrində təhsil dövlət hesabına həyata keçirilir.

Təhsil sahəsində aparılan islahatın bilavasinə nəticəsidir ki, dövlətimiz sosial müdafiəyə xüsusi ehtiyacı olan dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan aşağıdakı şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir:

1.valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;

2. şəhid ailəsinin üzvləri;

3.Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər;

4.orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər;

5.Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;

6.“Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” Qanuna uyğun olaraq

məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları;

7.20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər;

8.köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar;

9.işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış və 2025/2026, 2026/2027, 2027/2028-ci tədris illərində təhsil almaqda olan şəxslər.

Qanuna əsasən respublikamızda təhsilin aşağıdakı pillələri və səviyyələri müəyyən olundu:

1. Məktəbəqədər təhsil.
2. Ümumi təhsil:
1. ibtidai təhsil;
2. ümumi orta təhsil;
3. tam orta təhsil.
3. Peşə təhsili:
*1*. ilk peşə təhsili;
2. texniki peşə təhsili;
*3*. yüksək texniki peşə təhsili.
4. Orta ixtisas təhsili.
5. Ali təhsil:
1. bakalavriat;
2. magistratura (rezidentura);
3. doktorantura (adyunktura) (77).

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək

vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

14 aprel 2017-ci il tarixində "Məktəbəqədər təhsil haqqında" Qanun qəbul edildi. Bu qanunla məktəbəqədər təhsil sahəsində respublikamızda dövlət siyasətinin əsas prinsipləri, dövlətin vəzifələri, dövlət standartları, məktəbədər təhsilin məqsədi və məzmunu, məktəbədər təhsilin təşkili qaydaları, məktəbəqədər təhsilin proqramı (kurikulum) və məktəbəqədər təhsil sisteminin quruluşu müəyənləşdirildi (70).

Qanuna əsasən məktəbəqədər yaşlı uşaqların təhsili ilə məşğul olan müəssisələrin aşağıdakı növləri müəyyən edilmişdir:

1. körpələr evi;
2. körpələr evi-uşaq bağçası;
3. uşaq bağçası;
4. uşaq evləri;
5.məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi ümumtəhsil məktəbləri;
6.təhsil kompleksi nəzdində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisəsi;
7.müəssisə və təşkilatların nəzdində yaradılmış məktəbəqədər təhsil müəssisəsi;
8. sanator tipli məktəbəqədər təhsil müəssisəsi;
9. sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəbəqədər təhsil müəssisələri;
10.elmi-tədqiqat müəssisələrinin və ali təhsil müəssisələrinin yanında yaradılan eksperimental məktəbəqədər təhsil müəssisələri;
11. ailə tipli kiçik qrup evi;
12. uşaqlar üçün icma əsaslı təlim qrupları (70).

Məktəbəqədər xüsusi təhsil müəssisələri nitq, eşitmə, görmə pozulmaları, əqli (psixi), dayaq-hərəkət aparatının funksiyalarının pozuntuları olan uşaqlar üçün yaradılır.

Məktəbəqədər təhsil müəssisəsinin təsisçisi (təsisçiləri) dövlət, bələdiyyələr, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri ola bilər.

Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllim heyətinin tərkibində Azərbaycan Respublikasının vətəndaşları sayca üstünlük təşkil etməlidir.

Respublikamızda məktəbəqədər təhsil 1-6 yaşlı uşaqları əhatə edir (70).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə körpələr evi, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri İcra Hakimiyyətlərinin tabeliyinə verildi. Bundan məqsəd bağçaların maddi-texniki bazasının gücləndirilməsi və təmir-tikinti işlərinin daha çevik aparılması idi. Lakin bu özünü doğrultmadı. 2011-2021-illər ərzinidə məktəbəqədər təhsil müəssisələrinin idarəetmə formasında bir sıra neqativ hallar müşayət olundu. Kadr seçimində qeyri-şəffaflıq, elektron sistemlərin tətbiq olunmaması və maliyyə və nəzarət problemləri məktəbəqədər təhsil müəssisələrinin idarəetmə formasında yenidən dəyişiklik edilməsi zərurətini ortaya çıxartdı.

Məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 dekabr 2021-ci il tarixli Sərəncamına əsasən məktəbəqədər təhsil müəssisələri yenidən Elm və Təhsil Nazirliyinin tabeliyinə qaytarıldı.

29 mart 2019-cu il tarixində "Ümumi təhsil haqqında" Qanun qəbul edildi. Bu qanun Konstitusiyanın 42-ci maddəsinə uyğun olaraq, respublikamızda ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən etdi (78).

Qanuna əsasən respublikamızda ümumtəhsilin aşağıdakı səviyyələri müəyyənləşdirildi:

1. məktəbəhazırlıq mərhələsi (5 yaş);
2. ibtidai təhsil (I-IV siniflər);

3. ümumi orta təhsil (V-IX siniflər);
4. tam orta təhsil (X-XI siniflər) (78).

Ümumi təhsil müəssisələrinin aşağıdakı növləri vardır:

1. ibtidai ümumtəhsil məktəbi;
2. ümumi orta ümumtəhsil məktəbi;
3. tam orta ümumtəhsil məktəbi;
4. lisey;
5. gimnaziya;
6. inteqrasiya təlimli ümumtəhsil məktəbi;
7. xüsusi ümumtəhsil məktəbi;
8. ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi;
9. internat tipli lisey;
10. internat tipli gimnaziya;
11. inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi;
12. internat tipli xüsusi ümumtəhsil məktəbi;
13. internat tipli sanator ümumtəhsil məktəbi (78).

Qanuna əsasən ümumi təhsil ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziyalarda, liseylərdə, peşə və orta ixtisas təhsili müəssisələrində, habelə ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə həyata keçirilə bilər. Ümumtəhsil məktəbi ibtidai, ümumi orta və tam orta məktəb formasında ayrı-ayrılıqda da təşkil oluna bilər.

İbtidai təhsilin məqsədi təhsilalanlara oxu, yazı və hesablama bacarıqları, vətənpərvərlik və Azərbaycan xalqının dəyərlərinə, dövlət rəmzlərinə hörmət hissi aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin biliklər, şəxsiyyətin formalaşdırılmasına yönəlmiş həyati bacarıqlar, sadə əmək vərdişləri, məntiqi təfəkkür elementləri, bədii-estetik keyfiyyətlər və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

Respublikamızda ibtidai təhsil altı yaşdan başlanır. Valideynlərin və ya digər qanuni nümayəndələrin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar da məktəbə qəbul edilirlər.

Ümumi orta təhsilin məqsədi təhsilalanlarda nitq, yazı və ünsiyyət mədəniyyətinin, sağlam həyat tərzinin formalaş-

dırılmasını, onların dövlətə və dövlətçiliyə, Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasını, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmasını təmin etməkdən ibarətdir (78).

Respublikamızda ümumi orta təhsil icbaridir. Xüsusi proqram əsasında təhsilverən təhsil müəssisələri istisna olmaqla, ümumtəhsil müəssisəsinin yerləşdiyi ərazidə yaşayan təhsilalanlar həmin təhsil müəssisəsinə ilk növbədə qəbul olunurlar.

Tam orta təhsil ümumtəhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində ümumtəhsil pulsuzdur.

Ümumtəhsilin tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə (humanitar, texniki, riyaziyyat-iqtisadiyyat, təbiət ) təşkil edilir. Təmayül sinifləri şagirdlərin sayı ən azı 15 nəfər olmaqla komplektləşdirilməlidir. Tədris ili ərzində təmayül siniflərində şagird sayının azalması həmin siniflərin fəaliyyətinin davam etdirilməsinə məhdudiyyət yaratmır (78).

Təmayül siniflərin təşkilindən əsas məqsəd orta təhsil səviyyəsini uğurla başa vuran, bu və ya digər fənn qrupu üzrə xüsusi istedad və qabiliyyət nümayiş etdirən, seçdikləri təmayül üzrə ali məktəbdə təhsillərini davam etdirmək potensialına malik şagirdlərin müəyyənləşdirilməsi və onların səmərəli təhsilinin təşkilindən ibarətdir.

Tam orta təhsil səviyyəsində təmayülləşmənin pilot qaydasında tətbiqinə 2011-2012-ci tədris ilindən etibarən Bakı Avropa Liseyi, Fizika-riyaziyyat və informatika təmayüllü lisey, "Elitar" gimnaziya, Akademik Zərifə Əliyeva adına lisey və 6 nömrəli məktəb-liseydə başlanıldı (117,s.26).

Pilot layihənin tətbiqində başlıca məqsəd tam orta təhsil səviyyəsində təhsilin təmayüllərə görə təşkilini sınaqdan keçirmək, gələcəkdə həmin prosesə kütləvi keçidlə bağlı müvafiq hazırlıq işləri aparmaq və bu barədə cəmiyyətdə ictimai rəy formalaşdırmaqdan ibarət olmuşdur.

Həyata keçirilən pilot layihənin nəticələri müsbət qiymətləndirildiyi üçün bu müəssisələrin şəbəkəsinin genişləndirilməsi məqsədəuyğun sayılmış və 2015-2016-cı tədris ilindən daha 50 məktəbdə (Bakı-33, Sumqayıt-5, Mingəçevir-4, Gəncə-3, Şirvan-1, bilavasitə nazirlik tabeliyində-4) 4 təmayül (texniki, riyaziyyat-iqtisadiyyat, humanitar, təbiət) istiqamətində tədrisə başlanılmışdır. Bununla da təmayülləşmə tətbiq olunan məktəblərin sayı 58-ə çatmışdır (117,s.26).

“Peşə Təhsili haqqında” Qanuna uyğun olaraq, peşə təhsili müəssisələrinə ümumi orta təhsil bazasında qəbul olunanlar peşə ixtisası ilə yanaşı, tam orta təhsil almaq hüququna malikdirlər. Qanuna əsasən peşə təhsilinin səviyyələri aşağıdakılardır:

1. ilk peşə təhsili;
2. texniki peşə təhsili;
3. yüksək texniki peşə təhsili (75).

Peşə təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif sənətlər və kütləvi peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edir.

Yüksək texniki peşə təhsili səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədi ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır (75).

Peşə təhsili müəssisələrinin növləri aşağıdakılardır:

1. peşə məktəbi;
2. peşə liseyi;
3. peşə təhsil mərkəzi.

Qanunla peşə liseyi ilə peşə məktəbi fərqləndirilir. Belə ki, peşə liseyi peşə təhsili ilə birlikdə tam orta təhsil verən təhsil müəssisəsidir, peşə məktəbi isə yalnız peşə təhsili verən təhsil müəssisəsi hesab olunur (75).

Peşə təhsil mərkəzi müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış ümumi orta təhsil və tam orta təhsil bazasında peşə

təhsilinin bütün səviyyələrində fəaliyyət göstərən təhsil müəssisəsidir.

29 mart 2019-cu ildə “Peşə Təhsili Haqqında” Qanuna edilmiş dəyişiklikdən sonra ilk peşə təhsili bitirən məzunlara ilk, texniki peşə təhsilini bitirən məzunlara texniki və yüksək texniki peşə təhsilini bitirən məzunlara isə subbakalavr peşə-ixtisas dərəcə verilməyə başlandı (90, 2019, 26.05.№ 115).

24 aprel 2020-ci il tarixli qanuna əsasən isə yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulur (90,2020, 2.05.№ 85).

5 noyabr 2021-ci ildə Qanuna görə isə yüksək texniki peşə səviyyəsi üzrə diplom alan şəxsə ali təhsil müəssisəsinə daxil olmaq hüququ verildi (90, 2021, 5.11.№ 259).

Peşə təhsili sahəsində peşə hazırlığının səmərəliliyini artırmaq və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradıldı. Həmin ildə ilk dəfə olaraq Bakı və Gəncə şəhərlərində ilk peşə-ixtisas təhsil müəssisələrinə şagird qəbulu “ASAN Peşə” layihəsi çərçivəsində həyata keçirilmişdir.

2020-2021-ci tədris ilində peşə təhsili müəssisələrinə qəbul ilk dəfə olaraq tam elektron qaydada həyata keçirildi.

Orta ixtisas təhsili cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəsis hazırlığını təmin edir.

Orta ixtisas təhsili əsasən kolleclərdə və ali təhsil müəssisələrinin müvafiq struktur bölmələrində həyata keçirilir və subbakalavr peşə-ixtisas dərəcəsinin verilməsi ilə başa çatır. Ümumi orta təhsil bazasında orta ixtisas təhsili almaq üçün qəbul olunanlar həm də tam orta təhsil alırlar.

Orta ixtisas təhsili haqqında dövlət sənədi ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.

Bu təhsil pilləsini müvəffəqiyyətlə başa vuran məzunların – subbakalavrların topladıqları kreditlər bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınır.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər, elmi və elmi-pedaqoji kadrlar hazırlığı üç səviyyəlidir:

1. bakalavriat ;
2. magistratura (rezidentura);
3. doktorantura (adyunktura).

Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir.

Ali tibb təhsili təhsil proqramlarına və dövlət ali tibb təhsili standartlarına uyğun olaraq, əsas tibb təhsili və rezidentura səviyyələrində aparılır, məzunlara müvafiq olaraq həkim və həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir.

Xüsusi qabiliyyət tələb edən və öz xüsusiyyətləri ilə fərqlənən mədəniyyət, musiqi, incəsənət, idman, memarlıq, dizayn və bu kimi digər sahələr üzrə magistr hazırlığı yalnız nəzəri hazırlıq və tədqiqat tələb edən sahələr üzrə həyata keçirilir.

Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda yaradılan doktoranturalarda həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır.

Respublikamızda aşağıdakı elmi dərəcələr müəyyən edilib:

1. fəlsəfə doktoru (elm sahələri göstərilməklə);
2. elmlər doktoru (elm sahələri göstərilməklə).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 iyun 2019-cu il tarixli Fərmanı ilə "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"ni təsdiq etdi.

Əsasnaməyə əsasən fəlsəfə doktoru elmi dərəcəsi magistr (rezident) elmi-ixtisas dərəcəsi olan iddiaçılara elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının yaratdığı dissertasiya şuralarında fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra dissertasiya şurasının vəsatəti əsasında verilir.

Elmlər doktoru elmi dərəcəsi fəlsəfə doktoru elmi dərəcəsi və xüsusi elmi hazırlığı olan iddiaçılara elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində Azərbaycan Rerspublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın yaratdığı dissertasiya şuralarında elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra dissertasiya şurasının vəsatəti əsasında verilir.

9 iyun 2009-cu il "Təhsil haqqında" Qanun qüvvəyə minənədək verilmiş elmlər namizədi elmi dərəcəsi fəlsəfə doktoru elmi dərəcəsinə bərabər tutuldu (76).

Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi iddiaçılarının xüsusi elmi hazırlığı Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları" əsasında həyata keçirilir.

Qaydalara əsasən Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru verilməsi ilə başa çatır. Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə həyata keçirilir. Doktoranturada təhsilalma əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir.

Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması təhsil sahəsində keçirilən islahatlar içərisində ən əhəmiyyətlilərindən biri hesab olunur.

Diaqnostik qiymətləndirmə 2014-cü ilin aprelindən başlanmış və 2018-ci ildə isə başa çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2015-ci il tarixli Sərəncamına əsasən dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırıldı.

Göründüyü kimi bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin vəzifə maaşlarının artırılması onların sosial rifah hallarının yaxşılaşdırılmasına köməklik göstərmiş oldu.

Təhsil sahəsində keçirilən islahatlardan biri də ümumi təhsil məktəblərində işləyən müəllimlərin sertifikatlaşdırmadan keçirlməsidir.

Nazirlər Kabinetinin dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası haqqında 30 aprel 2020-ci il tarixli Qərarına əsasən təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlər peşəkarlıq səviyyələrinin və peşə yararlıqlarının yoxlanılması məqsədilə 5 (beş) ildə bir dəfə ödənişsiz setifikatlaşdırmadan keçməlidirlər.

Aşağıdakı şəxslər sertifikatlaşdırmadan keçmirlər:

1. hamilə qadınlar;

2. uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);

3. ilk dəfə işə qəbul olunanlar 3 (üç) il müddətində;

4. azı üç dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər.

60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.

Sertifikatlaşdırma Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlər 5 (beş) il müddətində təhsil müəssisələrində öz ixtisası üzrə pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ əldə edirlər.

Üzürlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslərin 1 (bir) il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər. Təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

İslahatlar təhsilin idarəedilməsindən də yan keçmədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 dekabr 2021-ci il tarixli sərəncamı ilə rayon təhsil şöbələri ləğv edildi və Regional Təhsil idarələri yaradıldı. Sərəncama əsasən Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ, Qazax-Tovuz, Quba-Xaşmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Şəki-Zaqatala, Şərqi Zəngəzur və Şirvan-Salyan Regional Təhsil idarələri yaradıldı ( 203,2021.21.12.№277).

Regional Təhsil idarələrinin yaradılmasının əhəmiyyəti ondan ibarətdir ki, iqtisadi zonalart üzrə təşkil edildi və yerli icra hakimiyyətlərinə tabe edilmədilər. Təhsildə idarəetmənin regionlaşması bu sahədə şəffaflığın artırılması və idarəetmənin səmərəliliyinin yüksəldilməsinə gətirib çıxaracaqdır.

"Təhsil haqqında" Qanunun qəbulundan sonra ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" qəbul edildi. Azərbaycan Respublikasının Prezidenti Əliyev 22 may 2009-cu il tarixli Sərəncamı ilə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nı təsdiq etdi.

Sərəncamda qeyd edilirdi ki, müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan həyata keçirilən tədbirlər arasında Bolonya prosesi önəmli yer tutur (39).

Azərbaycan Respublikası 2005-ci ildə Bolonya prosesinə qoşulmuş və bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların konturları müəyyənləşdirilmişdir. Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən müvafiq Tədbirlər Planı hazırlanıb təsdiq edilmişdir.Tədbirlər Planına uyğun olaraq, "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu" təsdiq edilmiş və buna müvafiq istiqamətlər üzrə yeni dövlət təhsil standartları hazırlanmışdır. Beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmış bu standartlarda fənlərin sayı, auditoriya saatlarının miqdarı (4140 saatdan orta hesabla 3305 saata qədər) azaldılmış, seçmə fənlərə ayrılan saatların miqdarı 10 faizdən 20 faizədək artırılmış və tələbələrin müstəqil işinə xeyli vaxt ayrılmışdır. Azərbaycanın Bolonya prosesinə qoşulması ilə əlaqədar ali təhsildə kredit sisteminin tətbiqinə zərurət yaranmışdır. Bu sistemin tətbiqi ilə bağlı hüquqi normativ bazanın yaradılması istiqamətində bir çox xarici ölkələrin təcrübəsi öyrənilmiş, "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə" hazırlanıb təsdiq edilmiş, görüləcək işlərin həcminin genişliyi nəzərə alınaraq, ilkin mərhələdə bir neçə ali məktəbdə eksperiment şəklində kredit sisteminin tətbiq olunması qərara alınmışdır. 2006-2007-ci tədris ilində 10 ali məktəbdə başlanan eksperiment 2007-2008-ci tədris ilində artıq 21 dövlət ali məktəbini əhatə etmişdir (39).

Aparılan təhsil islahatlarının istiqamətlərindən biri də Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric edulmələri ilə bağlı Qaydalarda də-yişikliklər edilməsidir. Yeni Qaydalar Azərbaycan Respub-likasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 21 fevral 2024-cü il tarixli Qərarı ilə təsdiq edilmişdir.

Qaydalara əsasən təhsil müəssisəsini, ixtisasını dəyişən və təhsil müəssisəsinə bərpa olunan şəxslər təhsillərini yalnız

ödənişli əsaslarla davam etdirə bilərlər. Bu zaman tələbə müvafiq ixtisas üzrə müəyyən edilən məbləğdə təhsil haqqı ödəyir. Bu qayda dövlət sifarişi ilə təhsil alıb eyni ixtisas üzrə təhsil müəssisəsini, təhsilalma formasını dəyişən, akademik məzuniyyətdən qayıtdıqda əvvəllər təhsil aldığı ixtisas üzrə həmin müəssisədə kadr hazırlığı aparılmadığı halda ixtisasını dəyişən tələbələrə aid deyil.

Təhsil aldığı müddət ərzində təhsil proqramı ilə həmin dövr üçün müəyyən olunmuş kreditlərin ən azı ikidə bir hissəsini toplamayan tələbələrin təhsil müəssisəsini, ixtisasını və təhsilalma formasını dəyişdirməsinə yol verilmir.

Ali təhsilin bakalavriat səviyyəsində təhsil müddətinin sonuncu tədris ilində və ya təhsil müddətindən artıq müddətdə təhsil alan tələbələrin təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını və magistratura səviyyəsində təhsil alan tələbələrin ixtisaslarını dəyişdirməsinə yol verilmir.

Ali təhsilin bakalavriat səviyyəsində təhsil alan tələbənin təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişdirməsi o şərtlə aparılır ki, həmin tələbənin tələbə qəbulu imtahanında topladığı bal ali təhsil müəssisəsinə qəbul olunduğu ildə dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas və təhsilalma forması üzrə minimal keçid balından çox olsun.

Ali təhsilin magistratura səviyyəsində təhsil alan tələbənin öz ixtisası üzrə təhsil müəssisəsini dəyişməsi o şərtlər aparılır ki, həmin tələbənin magistraturaya qəbul imtahanında topladığı bal, dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından çox olsun.

Ali təhsil müəssisəsindən xaric olunmuş şəxslər xaric olunma tarixindən 15 il müddətində yalnız əvvəl təhsil aldığı ali təhsil müəssisəsinə bərpa olunmaq üçün müraciət edə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında ”Təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı təsdiq etdi.

Bu Strategiyada Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur (43).

Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil,

istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Strategiyada həmçinin göstərilirdi ki, təhsilin məzmunu ilə bağlı başlıca meyillərdən biri təhsil kurikulumlarının ölkənin sosial-iqtisadi inkişaf tələbləri və prioritetləri ilə sıx əlaqələndirilməsindən ibarətdir. Kurikulumlar iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik olmalıdır. İqtisadi uğurlar əldə etmiş ölkələrdə biliklərə əsaslanan iqtisadiyyatın yaradılması sosial-iqtisadi siyasətin prioriteti olduğundan, kurikulumlarda innovasiyaların əhəmiyyəti, təhsilalanların müxtəlif sosial fəaliyyətə təşviq olunması və onların tədris bacarıqlarının inkişafı xüsusi vurğulanır.

Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki, bu da müxtəlif təhsil pillələrində spesifik yanaşma tələb edir. Burada ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılması prioritet olduğu halda, ali təhsildə əmək bazarının cari və gələcək tələbləri əsas götürülür. Ali təhsil kurikulumunun daimi inkişafı əmək bazarı subyektlərinin tələblərinin sistematik öyrənilməsini vacib edir. Bu proses əmək bazarında iş təklif edən, istər dövlət, istərsə də qeyri-dövlət sektorunda fəaliyyət

göstərən bütün subyektləri ali təhsil prosesində başlıca maraqlı tərəfə çevirmişdir.

"Təhsil haqqında" Qanuna əsasən Azərbaycan Respublikasında təhsil proqramları kurikuluma əsaslanır. 2008-2009-cu tədris ilində respublikamızda kurikum təhsilin tətbiqinə başlanıldı. Şagirdlərdə nəticəyönümlü xarakter daşıyan bu mexanizm kreativ bacarıqlara malik insan yetişdirməklə yanaşı şagirdlərin tənqidi, məntiqi və yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir. Həmçinin təlim prosesində içtirak edən bütün şagirdlər bu mexanizmin yaratdığı imkandan istifadə etməklə fəaliyyət göstərir, tədqiqatçılıq, təhliletmə, tətbiqetmə, mühakiməyürütmə, izahetmə, təsviretmə, müstəqil və birgə fəaliyyət göstərmə kimi bacarıqlara yiyələnəcəklər.

2019-cu ildə yeni kurikulumla təhsil alan XI sinif şagirdlərin buraxılış və qəbul imtahanlarında yeni modelə keçidlə bağlı yeni qaydalar tətbiq olundu. İlk dəfə olaraq ali məktəblərə qəbul buraxılış və qəbul imtahanlarında toplanan ballar nəzərə alınmaqla həyata keçirildi.

Respublikamızda sağlamlıq imkanları məhdud uşaqların istər məktəbəqədər və istərsədə orta təhsil almaları üçün müvafiq təhsil müəssisələrinə, inkişafetdirici bərpa mərkəzlərinə böyük ehtiyac var. Ümumiyyətlə, belə uşaqların təhsildən kənarda qalması onların əqli və mənəvi inkişafdan qalmasına, bir sıra hüquqlarının məhdudlaşdırılmasına gətirib çıxarır. Belə uşaqların inklüziv təhsiə cəlb edilmələri olduqca vacib bir şərtdir.

Azərbaycan Respublikasaının Prezidenti İlham Əliyevin "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə 14 dekabr 2017-ci il tarixində Sərəncam imzaladı.

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər göstərilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində

inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası olaraq 15 ümumi təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Layihələrin icrası dövründə inklüziv təhsilin hüquqi tənzimlənməsində boşluqların mövcudluğu inklüziv təhsilin Azərbaycan Respublikasında tətbiqində çətinliklər yaratmışdır.

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçmişdir. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur.

2015-2016-cı tədris ilindən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. İnklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nına əsasən sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları

məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi zərurəti yaranmışdır.

Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi, təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi, sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması, inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması Dövlət Proqramının əsas vəzifələri kimi göstərilmişdir.

İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilmələrinə imkan yaratdı.

Müəllimlərin işə qəbul qaydalarında da ciddi dəyişikliklər edildi. İslahatadək müəllimlər məktəb direktorları tərəfindən işə götürülürdü. İslahat nəticəsində müəllilərin mərkəzləşdirilmiş qaydada imtahan verərək işə qəbul edilmələrinə başlanıldı.

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş ”Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq müəllimlərin işə qəbulunun mərkəzləşdirilmiş qaydada, elektron proqramı təminatı tətbiq olunmaqla şəffaf keçirilməsinə başlanıldı.

Müsabiqə üç mərhələdən təşkil edilir. Birinci mərhələdə elektron ərizə qəbulu aparılır. İkinci mərhələdə namizədlərlə

imtahan keçirilir. Üçüncü mərhələdə isə test imtahanlarından müvəffəqiyyətlə keçərək seçdiyi vakant yeri tutmaq hüququ qazanan namizədlərlə müsahibə keçirilirdi. Müsahibədən uğurla keçənlər vakant müəllim vəzifəsinə təyin edilir.

Təhsil sahəsində həyata keçirilən islahatların nəticəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə dəyişmiş, təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, həmçinin məktəbəqədər, ümumi və peşə təhsilinin, habelə ali təhsilin müasir tələblər səviyyəsində qurulması davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər) regionlarda da təhsil islahatlarının keçirilməsinə geniş yer verilmişdir. Bu məqsədə aşağıdakı tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1.təhsilin məzmununun müasirləşdirilməsi, onun keyfiyyətinin artırılması;

2. əhalinin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi;

3. şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi;

4. tələbələrin təqaüdlərinin artırılması;

5.məktəbəqədər təlim-tərbiyə təhsil sisteminin təkmilləşdirilməsi;

6. rayonlarda yeni məktəblərin inşası, kənd məktəblərinin texniki və kadr təminatının yaxşılaşdırılması (32).

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda regionlarda təhsil sahəsində həyata keçiriləcək islahatlarda göstərilmişdir. Dövlət Proqramında qeyd edilir ki, Ölkədə bütün əhali təbəqələri üçün müasir tələblər səviyyəsində qurulmuş təhsil xidmətlərinin göstərilməsini təmin edə biləcək maddi-texniki və tədris-metodiki şəraitin yaradılması və bu zəmində təhsil sisteminin yüksək sosial-iqtisadi səmərəliliyinə nail olunması

dövlətin sosial siyasətində əsas yer tutur. Eyni zamanda, ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından müasir tələblərə cavab verən kadrlara ehtiyacın ödənilməsi, gənclərin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etmək prioritet olacaqdır.

Bu məqsədlərə nail olmaq üçün 2009-2013-cü illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1.yeni məktəblərin inşası, məktəblərin texniki və kadr təminatının yaxşılaşdırılması;

2. təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması;

3. şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi;

4. əhalinin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi;

5. xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin yaxşılaşdırılması;

6. məktəbəqədər təhsil sahəsində islahatların sürətləndirilməsi, belə təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi və ehtiyac duyulan şəhər, kənd və qəsəbələrdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin yaradılması;

7.peşə və ali təhsil sistemində islahatların gücləndirilməsi, o cümlədən kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması (32).

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda təhsil sahəsində həyata keçiriləcək işlər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun

olaraq dünya ölkələri sırasında keyfiyyət nəticələri və əhatəliliyinə görə aparıcı mövqe tutan, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri nəzərdə tutur. İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sistemi ölkədə kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın davamlı inkişafını təmin edəcəkdir (34).

Bu məqsədlərə nail olmaq üçün qarşıdakı illərdə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

1. regionlarda təhsil müəssisələrinin tikintisi və əsaslı təmir işlərinin davam etdirilməsi;
2. təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün müvafiq tədbirlərin görülməsi;
3. regionlarda əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması;
4. distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması (34).

Təhsil sahəsində həyata keçirələn bu islahatlar çox böyük tarixi əhəmiyyətə malikdir. Qəbul olunan qanunlar və digər normativ hüququ aktlar və onların əsasında həyata keçirilən bu islahatlar ölkəmizdə elm və təhsilin inkişafına təkan verəcək, elm və təhsilin inkişafı baxımından respublikamızı dünyanın inkişaf etmiş ölkələrinə yaxınlaşdıracaqdır.

### 3.4. Səhiyyə sahəsində.

Dövlət müstəqilliyimizin bərpa olunmasından sonra islahat keçirilməsi vacib olan sahələrdən biri də səhiyyə sahəsi idi.

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsi hər kəsə sağlamlığını qorumaq və tibbi yardım almaq hüququnu verir.

Konstitusiyaya əsasən dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır (1).

Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli fərmanı ilə səhiyyə sahəsində islahatların keçirilməsi məqsədi ilə Dövlət Komissiyası yaradıldı. Komissiyanın sədri Səhiyyə Naziri Əli İnsanov, komissiya sədrinin müavinləri iqtisadiyyat naziri Namiq Nəsrullayev, Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra Quliyeva, komissiyanın üzvləri isə İsmayıl Sadıqov, Namiq Həsənov, Füzuli Axundov, Arif Vəliyev, Raqib Quliyev, Əvəz Ələkbərov, Səttar Mehbalıyev, Azər Cəfərov, Barat Nuriyev və Dağlar Abdullayev daxil edildi (22).

29 dekabr 1998-ci il tarixində səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında əsasnamə təsdiq edildi.

29 iyun 1999-cu ildə Ümummilli Lider "Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu"nun binasının açılışı mərasimində səhiyyə sistemində keçirilən islahatlarla bağlı demişdir: "Səhiyyədə islahatlar aparılır. Bu da təbiidir. Apardığımız islahatların əsas məqsədləri, əsas mənası bundan ibarətdir ki, biz sosial ədalətli cəmiyyət qurmaq istəyirik. Bütün islahatlar sosial yönümlü olmalıdır, sosial ədaləti təmin etməlidir". Onu bildirmək istəyirəm ki, hər yerdə, hər sahədə olduğu kimi, səhiyyədə də islahatlar keçirilməlidir. Bu labüddür və o yerlərdə ki, islahatlar həyata keçirilib, o yerlərdə ki, doğru, düzgün, ədalətli səhiyyə xidməti-həm pullu xidmət, həm pulsuz xidmət- təmin olunubdur (190,s.379-380).

İslahatın keçirilməsi üçün ilk növbədə həmin sahə üzrə hüquqi baza yaradılmalı idi. Bu məqsədlə 26 iyun 1997-ci ildə "Əhalinin sağlamlığının qorunması haqqında", 28 oktyabr 1999-

cu ildə "Tibbi sığorta haqqında", 30 dekabr 1999-cu ildə "Özəl tibb fəaliyyəti haqqında", 2 may 2000-ci ildə "Vərəmlə mübarizə haqqında","Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", 28 oktyabr 1999-cu il və 20 oktyabr 2020-ci il tarixli "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edildi.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda qeyd edilirdi ki, əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir.

Qanuna əsasən Azərbaycan Respublikasının səhiyyə sistemi dövlət və qeyri-dövlət səhiyyə sistemlərinə bölündü.

Dövlət səhiyyə sisteminə dövlət tabeçiliyindəki müalicə-profilaktika, elmi-tədqiqat, təhsil, əczaçılıq, sanitariya-profilaktika müəssisələri, eləcə də səhiyyənin maddi-texniki təchizatı ilə məşğul olan, dərman və tibb vasitələri, habelə dərman maddələri istehsal edən müəssisələr, sanitariya-epidemiologiya xidməti, məhkəmə-tibb ekspertizası daxildir.

Qeyri-dövlət səhiyyə sisteminə qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən və əmlakı xüsusi mülkiyyətə, yaxud icarə müqaviləsi əsasında istifadə olunan mülkiyyətə əsaslanan özəl tibb müəssisələri, o cümlədən əmlakını bələdiyyə mülkiyyəti təşkil edən tibb və əczaçılıq müəssisələri, özəl tibbi praktika və əczaçılıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər daxildir.

Dövlət səhiyyə sistemi əsasən dövlət büdcəsi, eləcə də icbari tibbi sığorta vəsaitləri, müəssisə, idarə və təşkilatların gəlirlərindən könüllü ayırmalar, hüquqi və fiziki şəxslərin ianələri və istifadəsi qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Səhiyyə sahəsində islahatların gedişişində Nazirlər Kabineti tərəfindən müxtəlif xəstəliklər üzrə tədbirlər

proqramları qəbul edildi. Bu dövlət proqramları səhiyyənin ayrı-ayrı sahələri üzrə əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsinə və keyfiyyətinin artırılmasına, eyni zamanda xəstəliklərin proflaktikasında xüsusi rol oynayır.

Keçən əsrin 90-cı illərindən başlayaraq respublikamızda əhali daha çox malyariya, xroniki böyrək çatışmazlığı, talasemiya, hemofiliya, şəkərli diabet, vərəm və s. xəstəliklərdən olduca əziyyət çəkirdi. Nazirlər Kabineti elə bu səbəbdən də həmin xəstəliklər üzrə dövlət proqramlrı qəbul etdi.

Nazirlər Kabineti 26 noyabr 2010-cu il tarixli Qərarı ilə “2011-2015-ci illər üçün və 28 yanvar 2016-cı il tarixli Qərarı ilə isə “2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı”, “2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı”nı, “2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Tədbirlər Proqramı”nı, “Uşaqların icbari disponserizasiyasiyadan keçirilməsinə dair Dövlət Proqramı”, “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”, “Talassemiya ilə mübarizəyə dair Dövlət Proqramı”, “2016-2020-ci illər üçün xroniki böyrək çatışmamazlığı üzrə Tədbirlərn Proqramı”nı, “2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nı, “2016-2020-ci illər üçün qan, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı”nı, “2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı”nı təsdiq etdi.

“Malyariya xəstəliyinə qarşı 2008-2013-cü illər üçün qəbul olunmuş Milli Strategiyaya və Milli Fəaliyyət Planına” uyğun olaraq profilaktik tədbirlər həyata keçirilməsi nəticəsində ayrı-ayrı yoluxucu xəstəliklərin azalmasına, bəzilərinin isə tam ləğv olunmasına nail olundu.

Nazirlər Kabineti 19 iyul 2006-cı ildə, 26 noyabr 2010-cu ildə 2011-2015-ci illər üçün və 28 yanvar 2016-cı ildə isə 2016-2020-ci illər üçün “Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı”nı qəbul etdi.

“Tədbirlər Proqramı”nda qeyd edilirdi ki, Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli qərarı ilə təsdiq edilmiş “2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı”nın bu xəstələrin aşkar olunmasında və dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təmin olunmasında böyük rolu olmuşdur.

“Tədbirlər Proqramı” çərçivəsində bu sahədə müasir müalicə və diaqnostika üsullarının tətbiqi mümkün oldu.

Xroniki böyrək çatışmazlığı olan xəstələrin sayına uyğun olaraq hemodializ mərkəzlərinin şəbəkəsi genişləndirilmiş, 14 yeni hemodializ mərkəzi istifadəyə verildi. Hazırda respublikada fəaliyyət göstərən 34 hemodializ mərkəzində 2800-dən artıq xəstə hemodializ seansları ilə təmin olunur (54).

“Tədbirlər Proqramı”na müvafiq olaraq Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının böyrəkköçürmə mərkəzində və Mərkəzi Neftçilər Xəstəxanasının transplantologiya şöbəsində dövlət vəsaiti hesabına böyrəkköçürmə əməliyyatları icra olunmağa başlanıldı (54).

“2016-2020-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı” xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə göstərilən tibbi yardımın həcminin və keyfiyyətinin artırılmasına, onların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir (55).

Tədbirlər Proqramının əsas məqsədi xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə göstərilən tibbi yardımın həcminin və keyfiyyətinin artırılmasından, onların həyat keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir.

Xroniki böyrək çatışmazlığı olan xəstələrin sayına uyğun olaraq, hemodializ mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi, hemodializ mərkəzlərinin müvafiq tibbi avadanlıq və ləvazimatlarla təmin edilməsi, xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların hemodializ seansları və dərman preparatları ilə davamlı təminatı, ehtiyacı olan xəstələr üzərində böyrəkköçürmə əməliyyatlarının həyata keçirilməsi, nefroloji xidmətin kadr potensialının gücləndirilməsi və əhalinin xroniki

böyrək çatışmazlığının profilaktikası sahəsində maarifləndirilməsi Tədbirlər Proqramının vəzifələri kimi göstərilmişdir (55).

Respublikamızda əhalinin əziyyət çəkdiyi xəstəliklərdən biri də xərəm xəstəliyidir. Vərəmlə mübarizə keçən əsrin 90-cı illərinin ikinci yarısından olduqca genişlənmişdir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, vərəm xəstəliyi ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. 2013-cü ildə dünyada 9 milyon insan vərəmə yoluxmuş və 1,5 milyon insan bu xəstəlikdən vəfat etmişdir. Son illər vərəmin diaqnostikasının və müalicəsinin səmərəliliyinin artırılmasının nəticəsi olaraq bu xəstəliyə yoluxanların və ölüm hallarının sayı bir qədər azalmışdır.

Bununla yanaşı, vərəmin daha ağır, dərmanadavamlı formalarının çoxalması epidemioloji vəziyyəti gərginləşdirir. Belə ki, 2013-cü ildə dünya üzrə yeni yoluxma hallarının 3,5%-i vərəmin dərmanadavamlı formasına aid olmuşdur və bu göstərici son illər getdikcə artmaqdadır.

Vərəm xəstəliyi bütün dünyada olduğu kimi Azərbaycanda da ictimai sağlamlığın ciddi problemlərindən biridir.

Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası məqsədi ilə genişmiqyaslı tədbirlər həyata keçirildi.

Proqram qəbul edildikdən sonra respublikada vərəm xəstəliyi ilə mübarizə aparan bir çox tibb müəssisələrinin tikintisi və təmiri həyata keçirilmiş, bu müəssisələrin maddi-texniki bazası gücləndirilmişdir. Respublikanın şəhər və rayonlarında vərəm əleyhinə tibb müəssisələrində mikrobioloji laboratoriyalar yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında, Gəncə şəhərində və Masallı rayonunda fəaliyyət göstərən laboratoriyaların müasir avadanlıqlarla təchiz olunması nəticəsində sürətli molekulyar test sistemlərinin köməyi ilə dərmanadavamlı vərəmin diaqnostikası yaxşılaşmışdır. Xəstələrin ambulator müalicəsini təmin etmək üçün nəzarət altında dərman preparatlarının qəbulu üçün təşkil edilmiş kabinetlərin sayı

artırılmışdır. Vərəmin dərmanadavamlı formalarının stasionar müalicəsi üçün xüsusiləşdirilmiş vərəm xəstəxanaları təşkil edildi (48).

Həyata keçirilmiş tədbirlər nəticəsində 2011-ci illə müqayisədə dispanser qeydiyyatında olan vərəmli xəstələrin sayı 11 mindən 9,5 minə qədər azalmış, bu xəstəlikdən ölüm halları hər 100 min nəfərə 4,2-dən 3,9-a enmişdir. Penitensiar müəssisələrdə də vərəmlə mübarizə sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur (48).

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”na uyğun olaraq hazırlanmış “2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı” yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

Tədbirlər Proqramında Mərkəzi Referens Laboratoriyasında, Sumqayıt Vərəm Əleyhinə Xəstəxanasında, Xaçmaz Vərəm Əleyhinə Xəstəxanasında, Lənkəran Vərəm Əleyhinə Xəstəxanasında, Bərdə Vərəm Əleyhinə Xəstəxanasında və Ədliyyə Nazirliyinin ixtisaslaşdırılmış müalicə müəssisəsində vərəmin diaqnostikasının yaxşılaşdırılması məqsədi ilə vərəm əleyhinə tibb müəssisələrinin müasir laboratoriya avadanlığı ilə təchiz edilməsi, laboratoriya avadanlıqlarının təmiri və onlara texniki xidmətin təmin edilməsi, laboratoriyaların havalandırma sistemlərinin təmiri və yenilənməsi, vərəmə qarşı dərman preparatlarının keyfiyyətinə nəzarətin təmin edilməsi, vərəm xəstəliyinin profilaktikası məqsədi ilə uşaqların peyvənd təqviminə uyğun peyvəndlə əhatə edilməsi, vərəmin erkən diaqnostikası məqsədi ilə tibb müəssisələrinin spesifik sınaq vasitələri ilə təmin edilməsi, vərəm əleyhinə müəssisələrdə infeksiyaya qarşı mühafizə tədbirlərinin gücləndirilməsi məqsədi ilə tibbi heyətin fərdi mühafizə vasitələri ilə təmin edilməsi, dezinfeksiya işlərinin aparılması, vərəm əleyhinə tibb müəssisələrinin dərman preparatları ilə davamlı təminatı və başqa tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu  (49).

“Vərəmlə mübarizə haqqında” Qanuna əsasən ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edildi. Bu peşə və vəzifələr üzrə işə qəbul olunarkən, eləcə də işlədiyi müddətdə ətrafdakıları yoluxdurmaq təhlükəsi olan şəxslər müəyyən olunmuş ardıcıllıqla, məcburi rentgen-flyüoroqrafiya müayinəsindən keçirilməlidirlər (63).

Ətrafdakıları yoluxdurmaq təhlükəsi olan xəstələri yataqxanalara və çoxsaylı sakinləri olan mənzillərə yerləşdirmək qadağandır.Yataqxanalarda və çoxsaylı sakinləri olan mənzillərdə yaşayanlar vərəmlə xəstələndikdə dərhal hospitalizasiya olunmalıdırlar. Bir il müddətində aparılan müalicə nəticəsində vərəm çöplərinin ifraz edilməsinin qarşısı alınmayan xəstələr fərdi yaşayış sahəsi ilə təmin edilirlər.

Vərəm mikrobakteriyaları ifrazedicisi kimi növbədənkənar və ya ilk növbədə mənzil almış şəxslərin qazanc məqsədi ilə mənzillərini satmalarına, kirayəyə vermələrinə, başqa məqsədlərlə istifadə etmələrinə və ya daha pis şəraitli mənzillərə dəyişdirmələrinə yol verilmir (63).

Vərəm xəstəliyinə tutulmuş şəxslərin stasionar və sanatoriya müalicəsi zamanı sərf olunan yol xərcləri dövlət və yerli büdcələrin vəsaitləri hesabına ödənilir.

Nazirlər Kabineti 18 yanvar 2006-cı ildə “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Qərar qəbul etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10 fevral 2015-ci il tarixində isə “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq eilməsi barədə Sərəncam verdi.

Dövlət Proqramında qeyd edilir ki, Azərbaycanda talassemiyanın geniş yayıldığı ölkələr sırasındadır. Hər il respublikada 200-dən artıq uşaq bu xəstəliklə doğulur. Şəki, Ağdaş, Masallı, Sabirabad, Oğuz, Göyçay rayonlarında həmin xəstəliyə daha çox rast gəlinir.

Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunmuş, bu xəstəlikdən əlillik və ölüm halları azalmışdır. Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında talassemiya xəstəliyinin profilaktikasının və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılmasından ibarətdir.

Dövlət Proqramında həmçinin talassemiya daşıyıcılarının aşkar edilməsi sahəsində normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi, nikaha daxil olmaq istəyənlər arasında talassemiya daşıyıcıları üzrə vahid elektron proqramın hazırlanması və tətbiq edilməsi, müasir informasiya texnologiyalarından istifadə etməklə, talassemiya üzərində nəzarət sisteminin təşkili, Talassemiya Mərkəzində, B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda, Mərkəzi Qan Bankının rayon bölmələrində talassemiyanın kapillyar elektroforez üsulu ilə müayinəsinin təşkili, talassemiya daşıyıcılarının aşkar edilməsi məqsədi ilə tibb müəssisələrinin zəruri avadanlıq və reaktivlərlə təmin edilməsi, talassemiya daşıyıcılarının aşkar edilməsi məqsədi ilə nikaha daxil olmaq istəyən şəxslərin müayinəsinin aparılması kimi tədbirlərin 2015-2020-ci illərdə həyata keçirilməsi nəzərdə tutulurdu.

Nazirlər Kabinetinin 18 yanvar 2006-cı il tarixli "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"nı təsdiq etdi.

Dövlət Proqramında qeyd edilirdi ki, hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərin həyat tərzinin yaxşılaşdırılması və ömürlərinin uzadılması, hemofiliya və talassemiyanın fəsadlarından əmələ gələn əlilliyin, sağlamlıq imkanları məhdudluğunun və ölüm hallarının azaldılması, hemofiliya və talassemiyalı uşaqların doğulmasının qarşısının alınması, tədbirlərinin maliyyələşdirilməsi qaydasının müəyyən edilməsi, hemofiliya və talassemiya xəstəliyinin müalicəsi və bu xəstəliyin profilaktikası üzrə tibb mütəxəssislərinin hazırlanması və onların ixtisaslarının artırılması və hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərin sanatoriya-kurort

müəssisələrində müalicəsinin təşkili Dövlət Proqramının məqsəd və vəzifələri kimi göstərilmişdir (56).

"Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2005-ci il tarixli Fərmanına uyğun olaraq Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş tədbirlər proqramlarının həyata keçirilməsi bu xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaratmışdır.

Respublikamızda əhalinin daha çox əziyyət çəkdiyi xəstəliklərdən biri də şəkərli diabet xəstəliyidir. Bu səbəbdən də həyata keçirilən səhiyyə islahatlarında şəkərli diabet xəstəliyinə qarşı mübarizə mühüm yer turtur.

Nazirlər Kabineti 7 iyun 2005-ci il tarixli Qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı"nı təsdiq etdi.

Dövlət Proqaramında qeyd edilirdi ki, şəkərli diabetin geniş miqyasda artımı əhalinin sağlamlığının ümumi səviyyəsini azaldır. Məhz buna görə Dünya Səhiyyə Təşkilatı 1992-ci ildə şəkərli diabet xəstəliyini qeyri-infeksion epidemiya kimi qiymətləndirmişdir.

Dünyanın bir çox ölkələrində diabet ölüm səbəbinə görə ürək, qan-damar çatışmazlığından və onkoloji xəstəliklərdən sonra üçüncü yeri tutur. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, əhalinin şəkərli diabetlə xəstə olanlar arasında ürək, qan-damar çatışmazlığından ölüm halları 4-5 dəfə, korluq halları 10 dəfə, qanqren və aşağı ətrafların amputasiyası 50 dəfə, xroniki böyrək çatışmazlığı 5-6 dəfə çoxdur. Diabetin xroniki, ağır fəsadlarına qoyulan maddi vəsait onun profilaktikasına sərf edilən məbləğdən qat-qat çoxdur.

Hazırda respublikada Bakı, Şəki, Mingəçevir və Naxçıvan endokrinoloji dispanserləri, Gəncə şəhərində poliklinika şöbəsi olan endokrinoloji xəstəxana, həmçinin Bakı şəhərində Respublika Endokrinoloji Mərkəzi fəaliyyət göstərir. Qeyd edilən müəssisələrlə yanaşı, şəkərli diabet ilə xəstə olanlara

ambulator və stasionar yardım poliklinikaları, tibbi-sanitariya hissələri, mərkəzi rayon xəstəxanalarının endokrinoloji kabinetləri və şöbələri tərəfindən də göstərilir. Bakı, Sumqayıt, Şəki və Mingəçevir şəhərlərində endokrinoloji xidməti olan tibb müəssisələrində xəstələr üçün ictimai əsaslarla özünənəzarət təlim məktəbləri fəaliyyət göstərir (51).

"Şəkərli Diabet üzrə Dövlət Proqramı" diabet xəstələri üçün tibbi yardımın iqtisadi cəhətdən əsaslandırılmış modelinin yaradılmasına, onların həyat fəaliyyətinin yüksəldilməsinə, ömürlərinin uzadılmasına, müalicə keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir. Proqram 2 mərhələdən ibarət olmaqla, 2005-2009-cu illəri əhatə edir. Birinci mərhələ-2005-2007-ci illər-təcili tədbirlərin hazırlanması və həyata keçirilməsi, ikinci mərhələ -2007-2009-cu illər-tədbirlərin həyata keçirilməsi və Proqramın yerinə yetirilməsinin yekun nəticələri kimi nəzərdə tutulmuşdur.

Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin həyat fəaliyyətlərinin yüksəldilməsi və uzadılması, şəkərli diabetin fəsadlarından əmələ gələn əlilliyin, sağlamlıq imkanları məhdudluğunun və ölüm hallarının azaldılması, şəkərli diabet və onun fəsadlarının profilaktika sisteminin təşkili, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın həcminin, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısının və miqdarının, habelə bu preparat və vasitələrlə təminat qaydasının müəyyən edilməsi, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin registrinin və indiki zamanda xəstəliyin vəziyyəti barədə zəruri məlumat bankının yaradılması, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinəsinin və müalicəsinin maliyyələşdirilməsi qaydasının müəyyən edilməsi, şəkərli diabet xəstəliyinin müalicəsi üzrə tibb mütəxəssislərinin hazırlanması, ixtisaslarının artırılması və diabetoloji xidmətin strukturunun yaradılması, şəkərli diabet xəstəliyinə tutulmuş uşaq və gənclərin qeydiyyatı aparılmaqla, onlara təhsil aldıqları müəssisələrdə tibb mütəxəssisləri və müəllimlər vasitəsilə

xüsusi nəzarətin təşkil edilməsi, səhhətlərində hər hansı dəyişiklik baş verdikdə təcili tibbi yardımın göstərilməsi və şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin sanator-kurort müəssisələrində müalicəsinin təşkili, eləcə də dərman vasitələrinə və diabetik ərzaq məhsullarına olan tələbatının təmin edilməsi Dövlət Proqramının əsas məqsəd və vəzifələri kimi göstərilmişdir (51).

Tibb müəssisələri tərəfindən şəkərli diabet xəstəliyindən əziyyət çəkən şəxslərə bəzən laqeyd münasibətlər də göstərilir. Bunu İnsan Hüquqları üzrə Müvəkkilinin 2019-cu il üzrə hesabatından da görmək olur. Hesabatda qeyd edilir: “Şəkərli diabet xəstəliyindən əziyyət çəkən, imtiyazlı qrupa daxil olan, dövlət büdcəsi hesabına dərman preparatları və özünənəzarət vasitələri ilə təmin edilməli olan bir sıra şəxslərdən daxil olan müraciətlərdə sahə poliklinikaları tərəfindən zəruri dərman preparatları ilə təmin edilməsində ciddi problemlərlə üzləşdiklərini, dərman almaq üçün saatlarla növbədə durduqlarını, böyük stres və əsəb keçirdiklərini, bir çox hallarda dərman çatışmazlığının yarandığını, növbəti gün gəldikdə isə ayrılmış preparatların qurtardığı səbəb gətirilərək müvafiq dərmanlarla təmin edilmədiklərini bildirirlər” (109).

Səhiyyə sahəsində aparılan islahatlar içərisində onkoloji xəstəliklərə qarşı mübarizə xüsusi yer tutur.

19 iyul 2006-cı ildə Nazirlər Kabineti “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramını” təsdiq etdi.

Tədbirlər Proqramında göstərilirdi ki, onkoloji xidmət səhiyyə sisteminin ən mühüm və mürəkkəb sahələrindəndir. Bədxassəli şişlərdən yüksək xəstələnmə və ölüm göstəriciləri bu xəstəliklə mübarizə işinə dövlətin prioritet istiqamətlərindən biri kimi yanaşmağa əsas verir (58).

Proqram respublikada onkoloji xəstələrin müalicəsinin keyfiyyətinin yaxşılaşdırılması və lazımi preparatlarla təmin edilməsi məqsədilə hazırlanmışdır.

Proqramın qəbulundan sonra onkoloji xəstələrə 229 dərman və dərman preparatı pulsuz verilməyə başlanıldı.

Hazırda bədxassəli şişlərin müalicəsində dərman terapiyası aparıcı metodlardan biridir. Eyni zamanda xəstələrin 50 faizdən çoxunun müalicəsi zamanı bu və ya digər mərhələdə kimyəvi terapiyadan istifadə olunur.

Onkoloji xəstəliyə düçar olmuş şəxslərin həyat tərzinin yaxşılaşdırılması və ömürlərinin uzadılması, onkoloji xəstəliyə düçar olmuş şəxslərin dərman preparatlarına olan tələbatının ödənilməsi, onkoloji xəstəlik nəticəsində əmələ gələn əlilliyin, sağlamlıq imkanları məhdudluğunun və ölüm hallarının azaldılması, onkoloji xəstəliyə düçar olmuş şəxslərin registrinin yaradılması, onkoloji xəstəliyə düçar olmuş şəxslərin dövlət tibb müəssisələrində müayinəsinin və müalicəsinin maliyyələşdirilməsi qaydasının müəyyən edilməsi, onkoloji xəstəliklərin müalicəsi və profilaktikası üzrə tibb mütəxəssislərinin hazırlanması və onların ixtisaslarının artırılması Tədbirlər Proqramının əsas məqsəd və vəzifələri kimi qeyd edilmişdir.

Tədbirlər Proqramında onkoloji xəstələrin dərman preparatlarına olan tələbatının ödənilməsi, müəyyən edilmiş illik dərman preparatlarının onkoloji xəstələrə çatdırılma mexanizminin təkmilləşdirilməsi, onkoloji xəstələrin dövlət registrinin, məlumat bankının yaradılması və fəaliyyət mexanizminin hazırlanması, onkoloji xəstəliklərin müayinə və müalicəsinin beynəlxalq standartlara uyğun aparılması üçün metodik vəsaitlərin hazırlanması və treninqlərin keçirilməsi, onkoloji xidmət göstərən tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və müasir tibb avadanlığı ilə təchizatının yaxşılaşdırılması, onkoloji xəstəliklərin erkən diaqnostikasında və profilaktikasında müasir üsulların tətbiqi, ərazi tibb müəssisələrində risk qrupuna aid olan şəxslərin qeydiyyata götürülməsi və onkoloji xəstəliklərlə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur (58).

Statistik hesabatlara əsasən, 2005-ci ildə Azərbaycan Respublikasında 6148, 2018-ci ildə 11606, 2020-ci ildə 11595, 2021-ci ildə 13644 və 2023-cü ildə isə 59000 nəfərdə onkoloji xəstə qeydiyyata alınmışdır.

Respublikamızda onkoloji xəstələr hələdə icbari tibbi sığorta ilə əhatə olunmayıbdır. Bunun üçün 200 milyon manat vəsait tələb olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ildə təsdiq etdiyi "Azərbyacan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda göstərilibdir ki, İcbari Tibbi Sığorta üzrə Dövlər Agentliyi Səhiyyə Nazirliyi ilə birlikdə 2026-cı ilədək onkoloji xəstəliklərin erkən mərhrələdə aşkarlanması göstəricisinin 45 faizə qaldırılmasını təmin etməlidirlər.

Səhiyyə sahəsində keçirilən islahatların bilavasitə nəticəsidir ki, insan orqan transplantasiyasının dairəsi genişlənmişdir. "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Qanuna əsasən donor canlı və meyit donorlarına bölünür. Canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər (88).

Meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və kök hüceyrələri götürülə bilər (88).

Azərbaycan Respublikasında elmi-tədqiqat işləri istisna olmaqla ksenotransplantasiya (heyvan orqanlarının insana köçürülməsi) qadağandır.

Orqan donorluğu və transplantasiyası üzrə monitorinq Azərbaycan Respublikasının Prezidentinin 8 dekabr 2020-ci il tarixli Fərmanına əsasən Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Qanuna əsasən, Azərbaycan Respublikasında donor orqanlarının alqı-satqısı və reklamı qadağandır.

Nazirlər Kabinetinin 20 avqust 2021-ci il tarixli “Donor orqanlarının transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”nın təsdiq edilməsi haqqında Qərarına əsasən ürək, ürək-ağciyər kompleksi, qaraciyər, böröklər, mədəaltı vəzi və onun seqmentləri, gözün buynuz qişası, nazik bağırsağın bir hissəsi və sümük iliyinin transplantasiyasına 1 yanvar 2022-ci ildən icazə verildi. Bundan əvvəl isə respublikamızda yalnız böyrək transplantasiyası həyata keçirilirdi. Respublikamıza gətirilən müasir tibbi texnika və keçirilən islahatlarının bilavasitə nəticəsidir ki, orqan transplantasiyasının dairəsi getdikcə genişlənir.

Azərbaycanın səhiyyə sistemində ən uğurlu islahat Tibbi Sığorta Sisteminin tətbiqidir. Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə sığortaolunanın tibbi xidmət və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir (61).

İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, sığorta hadisəsi zamanı sığortaolunanlara icbari tibbi sığortanın maliyyə mənbələri hesabına və xidmətlər zərfi çərçivəsində sığortaolunanların tibbi yardım almasını təmin edir.

Könüllü tibbi sığorta sığortaolunanların əlavə tibbi xidmət və dərman yardımı almasını təmin edir.

İcbari tibbi sığorta üzrə xidmətlər zərfinin baza hissəsinə münasibətdə Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığortaolunan hesab edilir.

“Tibbi sığorta haqqında” Qanuna əsasən aşağıdakı şəxslərə tibbi xidmət pulsuz göstərilir:

1.Azərbaycan Respublikasının vətəndaşı olan 18 yaşınadək şəxslər;

2.peşə təhsili, orta ixtisas təhsili və ya ali təhsil müəssisələrində əyani təhsilalma forması üzrə təhsil alan 23 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları;

3.“Əmək pensiyaları haqqında” Qanuna əsasən növündən asılı olmayaraq əmək pensiyası alan şəxslər;

4.“Sosial müavinətlər haqqında” Qanuna əsasən sosial müavinət almaq hüququna malik olan əmək qabiliyyəti olmayan şəxslər;

5.“Ünvanlı dövlət sosial yardım haqqında” Qanuna uyğun olaraq ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

6.Ərazi poliklinikalarında və qadın məsləhətxanalarında qeydiyyatdan keçmiş hamilə qadınlar, habelə doğuşdan sonra 42 gün müddətində qadınlar;

7.Əmək Məcəlləsinə əsasən qismən ödənişli sosial məzuniyyətdə olan qadınlar.

1 yanvar 2020-ci ildən Azərbaycanın bütün ərazisində icbari tibbi sığorta sisteminin tətbiqinə başlanıldı. Xidmətlər Zərfi çərçivəsində vətəndaşlara 3000 sayda tibbi xidmət göstərilir. Xidmətlər Zərfi icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur. Bura ilkin səhiyyə, təcili və təxirəsalınmaz tibbi yardım, ixtisaslaşdırılmış ambulator və stasionar tibbi yardım üzrə xidmətlər, habelə laboratoriya, fizioterapiya, və invaziv radiologiya xidmətləri təminata alınıb.

Həmin tibbi xidmətlərdən vətəndaşlar “Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) tabeliyində olan dövlət tibb müəssisələrində istifadə edirlər. TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində müvafiq xidmətin göstərilməsi mümkün olmadığı təqdirdə müqaviləli tibb müəssisəsinə göndəriş verilir.

2022-ci ilin ilk iki ayının göstəricilərinə görə, ölkə üzrə 1 milyon vətəndaşa 5 milyondan çox xidmət göstərilib. Beləliklə, bu dövrdə əhalinin 13 faizi icbari tibbi sığortadan yararlanıb.

“Tibbi sığorta haqqında” Qanuna əsasən sığortaolunanın tibb müəssisəsini və həkimi seçmək hüququ vardır.Vətəndaş ailə həkimini, həmçinin ona göndəriş verilən TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində çalışan həkimləri

seçməkdə sərbəstdir. Xidmətlər Zərfi çərçivəsində lazım olan tibbi xidməti TƏBİB-in tabeliyindəki tibb müəssisələrində və ya Səhiyyə Nazirliyinin tabeliyindəki elmi-tədqiqat institutlarında göstərmək mümkün olmadıqda vətəndaşa özəl tibb müəssisəsinə göndəriş verilir. Vətəndaş göndəriş vərəqəsi əsasında müqaviləli tibb müəssisəsinə müraciət etdikdə Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən ödənişsiz yararlanır. Göndərişin etibarlılıq müddəti 10 iş günüdür (61).

Vətəndaş təcili və təxirəsalınmaz tibbi yardım zamanı yaxınlıqdakı özəl tibb müəssisələrinin birinə birbaşa müraciət edə bilər. Bu halda icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində göstərilən tibbi xidmətlər üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi müəyyən edilmiş tariflərə uyğun olaraq xəstəxanaya ödəniş edir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2007-ci il tarixli Sərəncamına əsasən yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli Fərmanına əsasən bu qurum fəaliyyətə başlamış, 24 noyabr 2016-cı il tarixli Fərmanla onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yaradılmışdır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi icbari tibbi sığortanın tətbiqini təmin edən, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən qurumdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 dekabr 2018-ci il tarixli Fərmanına əsasən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxs yaradılmışdır.

Fərmanda qeyd edilirdi ki, səhiyyə sistemində islahatların mühüm istiqamətlərindən biri də Azərbaycanda əhali arasında icbari tibbi sığortanın tətbiq edilməsi yönündə aparılan işlərdir. Səhiyyə xidmətlərinin müasir tələblərə uyğunlaşdırılmasında, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi

əsaslarla təkmilləşdirilməsində və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığorta sisteminin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2016-cı il tarixli və 16 fevral 2018-ci il tarixli Fərmanlarına əsasən 2017-ci ildən etibarən icbari tibbi sığortanın pilot layihə şəklində müvafiq olaraq Mingəçevir şəhəri və Yevlax rayonu, 2018-ci ildən isə Ağdaş rayonunun inzibati ərazilərində tətbiqinə başlanılıb. Pilot layihə 2019-cu ilin sonunadək davam etdi.

Layihə müddətində əhalidən sığorta haqqı tutulmamış və pilot ərazilərdə rəsmi qeydiyyatda olan 343 min 800 nəfər sığortaolunan baza zərfi (1829 adda tibbi xidmət) çərçivəsində ödənişsiz tibbi xidmətlərdən istifadə etmək hüququ əldə etmişdir. Baza zərfi (əsas xidmətlər) icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığorta olunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur. Pilot layihə dövründə baza zərfi Azərbaycan Respublikası Prezidentini 28 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Pilot layihə müddətində səhiyyə xərclərinin maliyyələşməsinə ümumilikdə 101203,39 manat vəsait sərf edilmişdir.

Nazirlər Kabinetinin 10 aprel 2020-ci il tarixli Qərarı ilə icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığı təsdiq edildi.

Birinci mərhələdə, 1 yanvar 2020-ci il tarixindən etibarən icbari tibbi sığorta Naxçıvan Muxtar Respublikasında, Mingəçevir şəhərində, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında tətbiq edildi.

İkinci mərhələdə, 21 yanvar 2021-ci il tarixindən 36 şəhər və rayon-Gəncə, Naftalan, Şirvan, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Xocalı, Beyləqan, Xocavənd, Ağcabədi, Laçın, Bərdə, Füzuli, Ağdam, Tərtər, Kəlbəcər, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı,

Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl, Salyan, İmişli, Saatlı, Sabirabad və Hacıqabul sözügedən sistemə qoşuldu.

Üçüncü mərhələdə, 1 aprel 2021-ci il tarixindən etibarən isə Bakı, Sumqayıt və Abşeronda da icbari tibbi sığorta tətbiq edildi.

Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 2018-ci il Fərmanına əsasən Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri 1 yanvar 2020-ci ildən TƏBİB-in tabeliyini verildi. Fərmanın icrası məqsədilə 12 aprel 2019-cu il tarixində Nazirlər Kabineti TƏBİB-in tabeliyindəki 3042 dövlət tibb müəssisəsinin siyahısının təsdiq edilməsi barədə qərar qəbul etdi.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət və neft sektorunda, qeyri-dövlət və qeyri-neft sektorunda çalışanlar, mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən 1 yanvar 2021-ci il tarixindən etibarən icbari tibbi sığorta haqqı toplanılır. Əmək və ya mülki-hüquqi müqavilə əsasında işləyən və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları "Tibbi sığorta haqqında" Qanun və Nazirlər Kabinetinin müvafiq qərarları ilə tənzimlənir.

İcbari tibbi sığorta haqlarının məbləği "Tibbi sığorta haqqında" Qanuna əsasən aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Dövlət və neft, o cümlədən qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2%, 8000 manatdan yuxarı olan hissəsindən 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulur.

Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərin aylıq gəlirinin 8000

manata qədər olan hissəsindən 2%, 8000 manatdan yuxarı olan hissəsindən 1% miqdarında icbari tibbi sığorta haqqı tutulur.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə müəyyən edilən icbari tibbi sığorta haqqı minimum aylıq əmək haqqından 4% miqdarında ödənilməlidir.

Xidmətlər Zərfinə 3315 sayda tibbi xidmət daxildir:

-ilkin tibbi-sanitariya yardımı – 35;
- təcili və təxirəsalınmaz tibbi yardım xidməti – 6;
- ixtisaslaşdırılmış ambulator yardım xidmət – 634;
- laboratoriya xidməti – 931;
- fizioterapiya xidməti – 77;
- invaziv radiologiya xidməti – 32;
- stasionar cərrahi xidmət – 1334;
- stasionar terapevtik xidmət – 266 (61).

Ölkədə geniş yayılmış, əlillik və ölüm riski yüksək olan xəstəliklərin stasionar şəraitdə və cərrahi müalicəsi icbari tibbi sığorta təminatına alınıb.

Stasionar müalicə və təcili və təxirəsalınmaz tibbi yardım zamanı istifadə olunan dərman vasitələri icbari tibbi sığorta təminatına daxildir. Ambulator şəraitdə tibb müəssisəsində vətəndaşa göstərilən bir sıra tibbi xidmətlərdə istifadə edilən anesteziya, dərman və tibbi sərf də icbari tibbi sığorta ilə qarşılanır (61).

Ambulator müalicə üçün həkim tərəfindən resept əsasında təyin olunan dərman vasitələri icbari tibbi sığorta təminatına daxil deyil.

İcbari tibbi sığortanın tətbiqindən sonra Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası” təsdiq edildi. Qaydaya əsasən tibb işçisinin əməkhaqqına tutduğu vəzifədən, stajından və xidməti fəaliyyətinin qiymətləndirilməsindən asılı olaraq müəyyən edilən vəzifə (tarif) maaşı, əmək şəraitinə görə ödənilən əlavələr, həvəsləndirici əlavələr və Əmək Məcəlləsində nəzərdə tutulmuş digər ödənişlər daxildir.

10 yanvar 2008-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası" təsdiq edilmişdir. Konsepsiyada nəzərdə tutulmuş islahatların həyata keçirilməsi mövcud hüquqi bazanın təkmilləşdirilməsini zəruri edir.

Respublikamızda həyata keçirilən səhiyyə islahatları regionları da əhatə etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişaf dövlət proqramlarında regionlarda da səhiyyə islahatlarının keçirilməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda (2004-2008-ci illər) səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarət olduğu göstərilmişdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakı kimi göstərilmişdir:

1.dövlətin maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və onun keyfiyyətinin artırılması;

2. ölkədə tibbi sığorta sisteminin yaradılması;

3. səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının və fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi;

4. tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi;

5. əhalinin sosial cəhətdən ən aşağı təminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi;

6. rayonlarda yeni səhiyyə müəssisələrinin inşası (32).

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən səhiyyə sahəsində həyata keçiriləcək tədbirlər əhalinin sağlamlığının qorunmasına, tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, Azərbaycan Respublikasında müasir standartlara cavab verən səhiyyənin qurulmasına təminat verməli olması göstərilmişdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakı kimi göstərilmişdir:

1.dövlətin maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin artırılması;

2.əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi;

3. analar və uşaqlar arasında qidalanmanın yaxşılaşdırılması;

4. tibbi-profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi;

5. səhiyyə sektorunun tələblərinə uyğun olaraq tibbi kadr hazırlığının planlaşdırılması və ailə həkimlərinin hazırlanması;

5.səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının və fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi;

6. rayonlarda yeni səhiyyə müəssisələrinin inşası;

7.bütün ölkə üzrə səhiyyə sahəsində coğrafi məlumat sisteminin yaradılması (34).

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən səhiyyə sahəsində qarşıya qoyulan əsas məqsədlər regionlarda ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi, əhaliyə göstərilən

tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi olacaqdır. Regionlarda səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi işləri davam etdiriləcəkdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakı kimi göstərilmişdir:

1. regionlarda əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması, mütəxəssislərin bilik və bacarıqlarının daim artırılması sahəsində müvafiq tədbirlərin davam etdirilməsi;

2. regionlarda əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi, tibbi-profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi;

3. səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının dəstəklənməsi;

4. rayonlarda yeni səhiyyə müəssisələrinin tikintisi və əsaslı təmiri işlərinin davam etdirilməsi;

5. regionlarda sanatoriya-kurort müəssisələrinin yaradılması, yenidən qurulması və onların infrastruktur təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi (34).

İldən-ilə səhiyyəyə ayrılan büdcə vəsaiti də artırılır. Hökumətin dəstəyi ilə həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan xəstəliyi, böyrək çatışmazlığı və s. xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yaxşılaşmış və ölüm hallarının sayı azalmışdır.

Həyata keçirilən səhiyyə islahatları respublikamızda vətəndaşlara göstərilən tibbi xidmət göstərilməsini yaxşılaşdıracaq və ölkəmizdə geniş yayılan xəstəliklərin qarşısını alacaqdır.

## Nəticə

Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş və həmin ilin noyabrın 27-də qüvvəyə minmişdir.

Konstitusiyanın qəbulu ilə əlaqədar Azərbaycan Respublikasının milli qanunvericilik sisteminin yeniləşməsinə başlandı və bir sıra yeni normativ-hüquqi aktlar qəbul edildi. İlk növbədə Cinayət və Cinayət Prosessual, Mülki və Mülki Prosessual, İnzibati-Prosessual, Cəzaların İcrası, Əmək, Ailə, Gömrük, Vergi, Miqrasiya, Seçki, Su, Meşə, Mənzil və İnzibati Xətalar Məcəllələri qəbul edildi. Həmçinin bir sıra yeni qanunlar-"Polis haqqında","Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Vətəndaşlıq haqında","Məhkəmələr və hakimlər haqqında" və "Konstitusiya Məhkəməsi" haqqında, "İnzibati icraat haqqında","İcra haqqında" və başqa bu kumi yeni qanunlar qəbul edildi. Qəbul edilən qanunlar respublikamızda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə və milli qanunvericilik sisteminin Avropa hüquq sisteminə inteqrasiya olunmasında mühüm rol oynamağa başladı.

Konstitusiyanın qəbul edilməsinin Azərbaycanın milli dövlətçiliyi tarixində müstəsna əhəmiyyətini nəzərə alan Ümummilli Lider Heydər Əliyev 1 noyabr 1996-cı il tarixində Konstitusiya gününün qeyd edilməsi ilə bağlı fərman imzaladı. Fərmana əsasən hər il noyabrın 12-si respublikamızda Konstitusiya günü kimi qeyd edilir. Fərmanda, həmçinin Konstitusiya günü ilə əlaqədar aşağıdakı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur:

1.şəhərlər, qəsəbələr və kəndlər Azərbaycan Respubliksının dövlət bayrağı ilə bəzədilsin və bayram tədbirlərinin keçirilməsi təmin edilsin;

2. kütləvi informasiya vasitələrində müstəqil Azərbaycanın ilk Konstitusiyasının mahiyyətini işıqlandıran materialların dərc olunması təşkil edilsin;

3.elm və təhsil müəssisələrində Konstitusiyanın öyrənilməsi və izahı ilə bağlı elmi-nəzəri konfransların və digər tədbirlərin keçirilməsi təmin edilsin.

Fərmanda göstərilən tədbirlərin keçirilməsi müvafiq olaraq şəhər və rayon icra hakimiyyətinin başçılarına, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılmışdır.

Ümummilli lider H.Əliyev 1996-cı il 11 noyabr tarixində Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrikində deyirdi: "Bu konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf prespektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir.

Bu gün ən mühüm vəzifə konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir. Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməli, onlardan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir (182,s.34-35).

Konstitusiyanın qəbulu Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoydu və hüquq islahatlarının aparılmasına zəmin yaratdı. Konstitusiyada demokratik cəmiyyətin qurulması, fəaliyyət göstərməsi və inkişafı üçün bütün müddəalar öz əksini tapdı.

Konstitusiyanın qəbulundan sonra respublikamızda geniş hüquq islahatlarının keçirilməsinə başlanıldı Bu islahatlar içərisində ən əhəmiyyətlisi məhkəmə-hüquq sistemində və insan hüquqlarının müdafiəsi sahəsində keçirilən islahatlardır.

Demokratiya, söz azadlığı, iqtisadi inkişaf və insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvü surətdə bağlı olan və bir-birini tamamlayan amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyada insanları və cəmiyyətləri birləşdirən ən əsas meyardır.

Konstitusiyada insan hüquqlarının müdafiəsinə yüksək diqqət ayrılması onu hər bir cəmiyyətin inkişafının insan hüquq və azadlıqlarının təmin edilməsindən keçdiyini göstərir.

Respublikamızda hüquqi qanunvericilik bazasında köklü dəyişikliklərə təkan verən Konstitusiya müasir dünyanın hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşdırılması işində mühüm əhəmiyyət daşıyır.

## İstifadə edimiş ədəbiyyat siyahısı.

## Normativ hüquqi aktlar.


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 2024.
2. Azərbaycanın Respublikasının 1978-ci il Konstitusiyası. Bakı 1994.
3. Azərbaycan SSR-nin "Suverenliyi haqqında" 23 senyabr 1989-cu il Konstitusiya Qanunu. Bakı 1989.
4. Azərbaycan Respublikasının "Dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il Konstitusiya Aktı. Bakı 1991.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı 2024.
6. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. Bakı 2024.
7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı 2024.
8. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı 2024.
9. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı 2024.
10. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı 2024.
11. Azərbaycan Respublikası Prezidentinin " təhsil sahəsində islahatların keçirilməsi məqsədi ilə Dövlət komissiyası yaradılması barədə" 30 mart 1998-ci il Fərmanı.
12. Azərbaycan Respublikasının "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyası yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 1998-ci ili Fərmanı.
13. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il Fərmanı.
14. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi

sahəsində əlavə tədbirlər haqqında” 6 avqust 1998-ci il tarixli Fərmanı.

15. Azərbaycan Respublikası Prezidentinin “Birləşmiş Millətlər Təşkilatının ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında” 16 aprel 1998-ci il tarixli Sərəncamı.

16. Azərbaycan Respublikası Prezidentinin “16 aprel 1998-ci il tarixli Sərəncamı ilə Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi” münasibəti ilə keçiriləcək Tədbirlər Proqramı.

17. Azərbaycan Respublikasında “İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənləsi haqqında” Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu.

18. Azərbaycan Respublikasının Qanunvericilik toplusu.

19. Azərbaycan Respublikası Prezidentinin “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında”18 iyun 1998-ci il tarixli Sərəncamı.

20. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan ədliyyəsinin inkişafına dair 2000-2013-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi barədə 6 fevral 2009-cu il tarixli Sərəncamı.

21. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi barədə 18 dekabr 2018- ci il tarixli Sərəncamı.

22. Azərbaycan Respublikası Prezidentinin “Səhiyyə sahəsində islahatların keçirilməsi məqsədi ilə Dövlət komissiyası yaradılması barədə” 13 iyun 1998-ci il tarixli Fərmanı.

23. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi haqqında” 28 dekabr 2024-cü il tarixli Sərəncamı.

24. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli Fərmanı.

25. Azərbaycan Respublikasının “İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu.

26. Azərbaycan Respublikasının “Dövlət sosial sığorta sistemində fərdi uçot haqında” 27 noyabr 2001-ci il tarixli qanunu.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növündən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nın təsdiq edilməsi barədə 28 aprel 2022-ci il tarixli Qərarı.

28. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” 19 yanvar 2006-cı il tarixli Fərmanı.

29. Azərbaycan Respublikası Prezidentinin “Dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında” 4 avqust 2003-cü il tarixli Fərmanı.

30. Azərbaycan Respublikası Prezidentinin “İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında” 8 noyabr 2003-cü il tarixli Fərmanı.

31. Azərbaycan Respublikası Prezidentinin “2001-2005-ci illəri əhatə edən pensiya islahatı Konsepsiyasının təsdiq edilməsi haqqında” 17 iyul 2001-ci il tarixli Sərəncamı.

32. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004 -2008-ci illər)” təsdiq edilməsi barədə Fərmanı.

33. Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərmanı.

34. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Fərmanı.

35. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi Milli Fəalyyət Planının təsdiq edilməsi haqqında” 28 dekabr 2006-cı il tarixli Sərəncamı.

36. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında “2014-2020-ci illərdə pensiya təminatı sisteminin islahatı Konsepsiyası”nın təsdiq edilməsi haqqında 4 noyabr 2014-cü il tarixli Sərəncamı.

37. Azərbaycan Respublikası Prezidentinin 2009-2015-ci illərdə “Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 30 dekabr 2008-ci il tarixli Sərəncamı.

38. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 27 sentyabr 2008-ci il tarixli Sərəncamı.

39. Azərbaycan Respublikası Prezidentinin “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə 22 may 2009- cu il tarixli Sərəncamı.

40. Azərbaycan Respublikası Prezidentinin “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı.

41. Azərbaycan Respublikası Prezidentinin “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə 1 iyun 2014-cü il tarixli Fərmanı.

42. Azərbaycan Respublikası Prezidentinin “ Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın təsdiq edilməsi haqqında 27 dekabr 2011-ci il tarixli Sərəncamı.

43. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı təsdiq edilməsi barədə 24 oktyabr 2013-cü il tarixli Sərəncamı.

44. Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə-hüquq sistemində” islahatların dərinləşməsi haqqında 3 aprel 2019-cu il tarixli Fərmanı.

45. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli qərarı.

46. Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 6 noyabr 2023-cü il tarixli Qərardadı.

47. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlilliyin qiymətləndirilməsi Qaydalarının təsdiq edilməsi barədə" 16 yanvar 2020-ci il tarixli Qərarı.

48. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə 26 noyabr 2010-cu il tarixli Tədbirlər Proqramı" barədə Qərarı.

49. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Nazirlər Kabineti 26 noyabr 2010-cu il tarixli Qərarı.

50. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlərn Proqramı"nın təsdiq edilməsi barədə 22 yanvar 2016-cı il tarixli Qərarı.

51. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyun 2005-ci il tarixli Qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı"nı təsdiq edilməsi barədə 7 iyun 2005-ci il tarixli Qərarı.

52. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 18 yanvar 2006-cı il tarixli Qərar qəbul etdi.

53. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Talassemiya ilə mübarizəyə dair Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 10 fevral 2015-ci il tarixli Qərarı.

54. Azərbaycan Respublikası Nazirlər Kabineti 2011-2015-ci illər üçün üçün "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlır Proqramı"nı təsdiq edilməsi barədə 26 noyabr 2010-cu il tarixli Qərarı.

55. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “2016-2020-ci illər üçün xroniki böyrək çatışmamazlığı üzrə Tədbirlər Proqramı”nın təsdiq edilməsi barədə 19 iyul 2016-cı il tarixli Qərarı.

56. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə 18 yanvar 2006-cı il tarixli Qərarı.

57. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nın təsdiq edilməsi barədə 19 iyul 2006-cı il tarixli Qərarı.

58. Azərbaycan Respublikası Nazirlər Kabinrtinin “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı” nın təsdiq edilməsi haqqında 19 iyun 2006-cı il tarixli Qərarı.

59. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Donor orqanlarının transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”nın təsdiq edilməsi haqqında 20 avqust 2021-ci il tarixli Qərarı.

60. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanunu.

61. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu.

62. “Özəl tibb fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu.

63. “Vərəmlə mübarizə haqqında” Azərbaycan Respublikasının 2 may 2000-ci il tarixli Qanunu.

64. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının 3 may 2005-ci il tarixli Qanunu.

65. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının 21 oktyabr 1997-ci il tarixli Qanunu.

66. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunu.

67. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanunu.
68. “Məhkəmə quruluşu haqqında” Azərbaycan SSR-nin 22 iyun 1990-cı il tarixli Qanunu.
69. “Məhkəmə Hüquq-Şurası haqqında” Azərbaycan Respublikasının 28 dekabr 2004-cü il tarixli Qanunu.
70. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 14 aprel 2017-ci il tarixli Qanunu.
71. “Hərbi qulluqçuların pensiya təminatı haqqında” 23 sentyabr 1992-ci il tarixli Qanunu.
72. Əmək Pensiyaları haqqında Azərbaycan Respublikasının 06 mart 2006-cı il tarixli Qanunu.
73. “Polis haqqında” Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu.
74. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu.
75. “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 24 aprel 2018-ci il tarixli Qanunu.
76. “Təhsil haqqında” Azərbaycan Respublikasının 7 oktyabr 1992-ci il tarixli Qanunu.
77. “Təhsil haqqında” Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu.
78. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının 29 aprel 2019-cu il tarixli Qanunu.
79. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli Qanunu.
80. “Vətəndaşların Pensiya təminatı Haqqında” Azərbaycan Respublikasının 23 sentyabr 1992-ci il tarixli Qanunu.
81. “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanunu.
82. “Onkoloji yardım haqqında” Azərbaycan Respublikasının 23 may 2006-cı il tarixli Qanunu.
83. “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında “ Azərbaycan Respublikasının 22 may 2012- ci il tarixli Qanunu.

84. “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu.
85. İnzibati icraat haqqında Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli Qanunu.
86. “İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi haqqında” 8 noyabr 2003-cü il tarixli Əsasnamə.
87. “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu.
88. “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” 20 oktyabr 2020-ci il tarixli Azərbaycan Respublikasının Qanunu.
89. "Əfvetmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001- ci il tarixli Fərmanı.

Kitab və məqalələr.

90. “Azərbaycan” qəzeti 1995-2025- ci illər.
91. Azərbaycan Respublikası “Vəkillər Kollegiyasının dekabr 2017-dekabr-2022-ci illər üzrə fəaliyyəti barədə” hesabatı. Bakı 2022.
92. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın ) 2003-cü il üzrə məruzəsi . Bakı 2004.
93. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2004- cü il üzrə məruzəsi. Bakı 2005.
94. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2005-ci il üzrə məruzəsi. Bakı 2006.
95. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Omdudsmanın) 2006-cı il üzrə məruzəsi. Bakı 2007.

96. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2005-ci il üzrə məruzəsi. Bakı 2006.
97. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Omdudsmanının) 2006-cı il üzrə məruzəsi. Bakı 2007.
98. Azərbaycan Respublikasıİnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2007-ci il üzrə məruzəsi. Bakı 2008.
99. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2008-ci il üzrə məruzəsi. Bakı 2009.
100. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2009-cu il üzrə məruzəsi. Bakı 2010.
101. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Omdudsmanının) 2010-cıuil üzrə məruzəsi. Bakı 2011.
102. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2011-ci il üzrə məruzəsi. Bakı 2012.
103. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2012-ci il üzrə məruzəsi. Bakı 2013.
104. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2013-cü il üzrə məruzəsi. Bakı 2014.
105. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2014-cü il üzrə məruzəsi. Bakı 2015.
106. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2015-ci il üzrə məruzəsi. Bakı 2016.
107. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2016-cı il üzrə məruzəsi. Bakı 2017.
108. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2017-ci il üzrə məruzəsi. Bakı 2018.
109. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Omdudsmanının) 2018-ci il üzrə məruzəsi. Bakı 2019.
110. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2019-cu il üzrə məruzəsi. Bakı 2020.
111. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2020-ci il üzrə məruzəsi. Bakı 2021.

112. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsi. Bakı 2022.

113. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsi. Bakı 2023.

114. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Omdudsmanının) 2023-cü il üzrə məruzəsi. Bakı 2024.

115. Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) 2024-cü il üzrə məruzəsi. Bakı 2025.

116. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2015-ci il üzrə illik hesabat jurnalı.

117. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-cı il üzrə illik hesabat jurnalı.

118. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2017-ci il üzrə illik hesabat jurnalı.

119. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2018-ci il üzrə illik hesabat jurnal.

120. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2019-cu il üzrə illik hesabat jurnalı.

121. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il üzrə illik hesabat jurnalı.

122. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2021-ci il üzrə illik hesabat jurnalı.

123. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2021-ci il üzrə illik hesabat jurnalı.

124. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2022-ci il üzrə illik hesabat jurnalı.

125. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2023-cü il üzrə illik hesabat jurnalı.

126. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2024-cü il üzrə illik hesabat jurnalı.

127. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2024-cü il üzrə illik hesabat jurnalı.

128. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2017-ci il üzrə hesabatı.

129. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il üzrə hesabatı.
130. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2019-cu il üzrə hesabatı.
131. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2020-ci il üzrə hesabatı.
132. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatı.
133. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il üzrə hesabatı.
134. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2023-cü il üzrə hesabatı.
135. Abbas G. Hüquqi islahatların müəllifi:Heydər Əliyevin təşəbbüsü ilə yaranan Ombudsman aparatının fəaliyyət istiqaməti. “Yeni Azərbaycan” qəzeti, 02.08.2023.
136. Abbasov G. Müasir məhkəmə-hüquq sisteminin yaradıcısı. “Azərbaycan” qəzeti, 17.05.2023.
137. Abbasov İ. Hüquq elmlərinin inkişafı və hüquqi islahatlar. “Xalq qəzeti”, 03.02.2010.
138. Abdullayev F. Azərbaycan Respublikasının Konstitusiyası və Suverenliyi. “Xalq qəzeti”, 1.02.2025.
139. Abdullayev N. Hüquqi islahatlar cəmiyyətin inkişafının təməlidir. “Xalq qəzeti”, 10.10. 2010.
140. Abdullayev E. Avropa Şurası və hüquqi islahatlar. “Azərbaycan” qəzeti, 21.08.2001.
141. Abdullayev F. Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının banisi.”Respublika” qəzeti, 04.05.2023.
142. Ağayev İ.Azərbaycanda məhkəmə-hüquq islahatları uğurla davam etdirilir. “Respublika” qəzeti, 19.11.2008.
143. Allahverdiyev M. Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarının təməli Ümummilli Lider tərəfindən qoyulub. “Səs “ qəzeti, 08.05.2020.
144. Aslanov S. Prokurorluqda aparılan islahatlar Azərbaycanda hüquqi dövlət quruculuğunun tərkib hissəsidir. Prokurorluq orqanları-90. “Xalq qəzeti”, 25.09.2008.

145. Ağazadə A.Hüquqi islahatlar dövründə hərbi məhkəmələrin rolu. “Azərbaycan” qəzeti, 01.08.2001.

146. Akimova E. Heydər Əliyevin dil siyasəti. “Xalq qəzeti”, 26.04.2025.

147. Axundov T.Ulu öndər Heydər Əliyev:Məhkəmə-hüquq islahatlarının müəllifi. “525-ci qəzet”, 27.04.2023.

148. Babayev A. İslahatlar demokratiyanın inkişafına xidmət edir. “Azərbaycan “ qəzeti, 11.09.2001.

149. Bədəlov Ə.Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. “Xalq qəzeti”, 10.12.2009.

150. Cəfərli C, Hüseynli F. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları.Bakı 2018.

151. Cəfərli C, Həşimov Ə. Konstitusiya hüququnun əsasları. Bakı 2003.

152. Cəfərov Z. Hüquqi dövlət ideyasını gerçəkliyə çevirən lider. “Azərbaycan” qəzeti, 20.04.2013.

153. Cəfərov Ə. Məhkəmə-hüquq sisteminin müasirləşdirilməsinə xidmət edən islahatlar. “Xalq qəzeti”, 19.11.2010.

154. Cəfərov K. Heydər Əliyev və hüquqi dövlət quruculuğu. “Olaylar” qəzeti, 14.07.2023.

155. Cəbrayılov O. Ulu öndərin məhkəmə-hüquq islahatları. “Xalq qəzeti”, 29.04.2023.

156. Eyvazov R. Heydər Əliyev və məhkəmə-hüquq sistemində islahatlar. “Xalq qəzeti”, 14.04. 2023.

157. Əsgərova M. Vahid məhkəmə təcrübəsi ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Polis Akademiyasının elmi xəbərləri. № 4. 2023.

158. Əhmədov M. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna xidmət edən məhkəmə-hüquq islahatları. “Respublika “ qəzeti, 30.06.2008.

159. Əsədov M. Azərbaycanda məhkəmə-hüquq islahatlarının banisi:Heydər Əliyev-90.”Respublika” qəzeti, 18.04.2013.

160. Əsgərov Z. İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edən islahatlar. “Azərbaycan “ qəzeti, 09.05.2020.
161. Əsgərov Z. Mükəmməl Konstitusiyanın müəllifi. “Azərbaycan” qəzeti, 09.05.2017.
162. Əsgərov Z. Heydər Əliyev Azərbaycanda konstitsion dövlət quruculuğunun banisidir. “Azərbaycan” qəzeti, 11.05.2019.
163. Əliyev İ. Azərbaycanda məhkəmə-hüquq sisteminin müasirləşməsi mütərəqqi dünya təcrübəsinə əsaslanır. “Xalq qəzeti”, 22.11.2014.
164. Əliyev Ə. Dövlət quruculuğu və hüquqi islahatlar prosesinin nəzəri tribunası. “Azərbaycan” qəzeti, 14.09.2018.
165. Əliyeva S. Ölkəmizdə hüquqi dövlət quruculuğu və insan hüquqları sahısində islahatların müəllifi.”Respublika” qəzeti,5.05.2023.
166. Əliyev İ. Azərbaycanda məhkəmə-hüquq sisteminin humanistləşdiril məsində ulu öndərin xidməti. “Xalq qəzeti”, 04.05.2023.
167. Ələsgərov F. Hüquqi islahatların yeni mərhələsi. “Azərbaycan” qəzeti, 14.02.2014.
168. Ələsgərov F. Hüquqi, demokratik dövlət quruculuğunun müəllifi. “Azərbaycan” qəzeti, 04.05.2019.
169. Ələsgərov F. Uğurlu hüquqi islahatların müəllifi. “Azərbaycan” qəzeti, 29.04.2011.
170. Ələsgərov A. Azərbaycanda məhkəmə-hüquq sistemi keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. “Xalq qəzeti”, 19.04.2019.
171. Əkbərov F. Ulu öndər və Azərbaycanda hüquqi islahatlar. “Xalq qəzeti” 30.04.2023.
172. Fərhadov X. Heydər Əliyev Azərbaycanda köklü məhkəmə-hüquq islahatlarının müəllifidir. “Respublika” qəzeti, 03.04.2013.
173. Fərəcov L. Ölkəmizin hüquq sistemində islahatlar uğurla davam edir. “Xalq qəzeti”, 17.09.2021.
174. Hacıalıyev E. Azərbaycanda hüquq islahatları uğurla davam etdirilir. “Azərbaycan” qəzeti, 17.12.2011.

175. Hacıyev Ə. Məhkəmə-hüquq sistemində aparılan islahatlar ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir. “Respublika” qəzeti, 01.03. 2013.

176. Hacıyev A. Ulu Öndər Heydər Əliyev müasir prokurorluq sisteminin qurucusudur. “Respublika” qəzeti, 15.09.2023.

177. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası (Tərtibçilər: Qumru Əliyeva, Günay Hacızadə). Bakı, 2011.

178. H.Əliyev Müstəqilliyimiz əbədidir.İkinci kitab. may 1994-dekabr 1994. Bakı 1997.

179. H.Əliyev Müstəqilliyimiz əbədidir.Dördüncü kitab. iyun 1995-noyabr 1995. Bakı 1997.

180. H.Əliyev Müstəqilliyimiz əbədidir. Beşinci kitab. noyabr 1995-mart 1996. Bakı 1998.

181. H.Əliyev Müstəqilliyimiz əbədidir. Altıncı kitab. mart 1996-iyun 1996. Bakı 1998.

182. H.Əliyev Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. iyun 1996-noyabr 1996. Bakı 1998.

183. H.Əliyev Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. noyabr 1995-mart 1996. Bakı 1998.

184. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onuncu kitab. may 1997-iyul 1997. Bakı 2002.

185. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onikinci kitab. avqust 1997-oktyabr 1997. Bakı 2004.

186. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onüçüncü kitab. oktyabr 1997-dekabr 1997. Bakı 2004.

187. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onbeşinci kitab. mart 1998-iyun 1998. Bakı 2005.

188. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onaltıncı kitab. iyun 1998-iyul 1998. Bakı 2005.

189. H.Əliyev Müstəqilliyimiz əbədidir. Onsəkkizinci kitab. oktyabr 1998-dekabr 1998. Bakı 2006.

190. H.Əliyev Müstəqilliyimiz əbədidir. İyirminci kitab. aprel 1999-iyul 1999. Bakı 2007.

191. H.Əliyev Müstəqilliyimiz əbədidir. iyirmialtıncı kitab. Mart 2000-aprel 2000. Bakı 2008.

192. H.Əliyev Müstəqilliyimiz əbədidir.otuz doqquzuncu kitab.iyun 2002-iyul 2002. Bakı 2012.

193. Əliyev K. Azərbaycan prokurorluğu dövlətçiliyin və qanunçuluğun keşiyindədir. “Azərbaycan” qəzeti, 2021.01.10.

194. Əliyev K. Müasirləşən Azərbaycan Prokurorluğu.”Azərbaycan” qəzeti, 2020.1.10.

195. Əliyev Z. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi 75. “Respublika” qəzeti, 2023.10.12.

196. Həsənov E. Heydər Əliyev Azərbaycanda hüquq islahatlarının banisidir. “Xalq qəzeti”, 06.05.2017.

197. Həsənov M. Hüquqi dövlətin əsaslarını yaradan lider. “Xalq qəzeti”, 31.05.2023.

198. Həmidov Z. Heydər Əliyev müasir Azərbaycanın hüquqi dövlətçiliyinin banisidir. “Şərq qəzeti”, 13.07.2023.

199. Hüseynli Ə. Heydər Əliyev:Azərbaycanda müasir hüquqi dövlətin banisi. “İki sahil” qəzeti, 24.04.2013.

200. Hüseynli Ə. Heydər Əliyev və müasir dövlət quruculuğu. “Respublika” qəzeti, 10.05.2023.

201. Hüseynli Ə. Hüquqi dövlətin banisi. “Azərbaycan” qəzeti, 28.04.2011.

202. Hüseynova M. Heydər Əliyevin dil və Azərbaycançılıq siyasəti. “Azərbaycan müəllimi” qəzeti, 20.10.2023.

203. “Xalq qəzeti” 1995-2025-ci illər.

204. Xəlilov F. İnkişafa xidmət edən mütərəqqi hüquqi islahatlar. “Azərbaycan” qəzeti, 20.05.2021.

205. İsmayılov R. Heydər Əliyev:hüquqi dövlətin banisi. “Respublika” qəzeti, 19.04.2023.

206. İmanov S. Hüququn aliliyi təmin edilir. “Respublika” qəzeti, 2021.09.09.

207. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2016-cı il üzrə fəaliyyətinə dair hesabatı.

208. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2017-ci il üzrə fəaliyyətinə dair hesabatı.

209. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 20218-ci il üzrə fəaliyyətinə dair hesabatı.

210. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2019-cu il üzrə fəaliyyətinə dair hesabatı.
211. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2020-ci il üzrə fəaliyyətinə dair hesabatı.
212. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2021-ci il üzrə fəaliyyətinə dair hesabatı.
213. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2022-ci il üzrə fəaliyyətinə dair hesabatı.
214. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2023-cü il üzrə fəaliyyətinə dair hesabatı.
215. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2024-cü il üzrə fəaliyyətinə dair hesabatı.
216. Kazımov E. Hüquqi islahatlar uğurlu nəticələr verir. “Respublika” qəzeti, 22.11.2012.
217. Kərimova R. Ədliyyə orqanlarında aparılan islahatlar vətəndaşların hüquq və mənafelərinin etibarlı təminatına xidmət edir.”Xalq qəzeti”, 21.11.2014.
218. Kərimov G. Konstitusiyaya təkilf edilən əlavə və dəyişikliklər dövlətçiliyin möhkəmləndirilməsinə yönəlməlidir. “Xalq qəzeti”, 2009.15.03.
219. Kərimli İ. Məhkəmə hüquq sistemində islahatlar: Heydər Əliyev dühası və böyük uğurlar. “Respublika” qəzeti, 11.05.2023.
220. Qasımov F. Məhkəmə-hüquq sistemində islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoyur. “Azərbaycan” qəzeti, 19.11.2019.
221. Qasımov B. Məhkəmə orqanlarında mütərəqqi yeniliklər müəllifi. “Respublika” qəzeti, 12.05.2023.
222. Quliyev R. Heydər Əliyev və Konstitusiya ədalət mühakiməsi. “Respublika” qəzeti, 17.03.2023.
223. Qənizadə Ç. Demokratik cəmiyyətin və hüquqi dövlətin qurucusu. “Xalq qəzeti”, 11.05.2022.
224. Məmmədov X. Azərbaycanın sığorta-pensiya modeli-20 il. AZƏRTAC 03.09.2012.
225. Məmmədov Z. Hüquqi dövlət quruculuğunun müəllifi. “Respublika” qəzeti, 28.04.2023.

226. Məmmədov X. Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları və inzibati məhkəmələrin yaradılması: İnzibati məhkəməlr-10 il. “Respublika” qəzeti, 18.06.2021.

227. Məmmədov X. Vahid məhkəmə təcrübəsinin yaradılması mexanizmləri müəyyən edildi. “Xalq qəzeti”. 21.12.2019.

228. Mirzəyev Ş. Uğurlu islahatlar ədalət mühakiməsinin səmərəliliyini artırır. “Azərbaycan” qəzeti, 19.09.2021.

229. Mehdiyev E. Heydər Əliyev və hüquqi dövlət quruculuğu. “Xalq qəzeti”, 08.05.2025.

230. Mehdizadə N. Məhkəmə və hüquq islahatı genişlənir. “İki sahil” qəzeti, 04.04.2009.

231. Mirzəyev M. Heydər Əliyev və hüquqi dövlət quruculuğu. “İki sahil” qəzeti, 30.09.2023.

232. Muxtarov T. Cinayət hüququnda həqiqət və ədalət prinsiplərinin müqayisəli təhlili. Hüquq.az, 2022.14.12.

233. Nurəlibəyov H. Ulu öndər Heydər Əliyev və məhkəmə-hüquq sistemində əsaslı islahatlar. “Xalq qəzeti”, 03.05.2018.

234. Niyazov S.Hüquqi islahatlar müstəqilliyimizin bəhrəsidir. Müstəqilliyimizin 10 ili. “Azərbaycan” qəzeti, 06.05.2001.

235. Nuriyev S. Konstitusiya və suverenlik: Heydər Əliyev siyasi irsinin təməl sütunları. “Xalq qəzeti”, 10.05.2025.

236. Nəsirov E. Konstitusiyaya əlavə və dəyişiklilər inkişafın yeni mərhələsinin təminatıdı. www Yap.orq.az saytına müsahibəsi.

237. Paşayeva Ə. Heydər Əliyev və müstəqil Azərbaycan Konstitusiyası. “Azərbaycan” qəzeti, 28.02.2025.

238. Pənahov N. Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi. “Yeni Azərbaycan” qəzeti, 13.05.2023.

239. Rəsulbəyova N. Məhkəmə-hüquq sistemində islahatların keyfiyyətcə yeni mərhələsi.”Respublika”qəzeti,19.10.2008.

240. Rəsulbəyova N. Ədliyyə sistemində islahatlar insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. “Azərbaycan” qəzeti”, 15.11.2009.

241. Rzaquliyeva S, Bünyadov Z və Muradova K. Azərbaycan Respublikasında pensiya islahatı konsepsiyasının mahiyyəti və əsas müddəaları. Sumqayıt Dövlət Universiteti. "Elmi Xəbərlər", Sosial və humanitar elmlər bölməsi. cild 13, № 3, 2017.

242. "Respublika" qəzeti 1995-2025-ci illər.

243. Salmanova S. Heydər Əliyev Azərbaycanda müasir hüquqi dövlətçilyin banisidir." Respublika" qəzeti, 2.03.2023.

244. Səfərov H. Heydər Əliyev və Azərbaycanda məhkəmə hakimiyyəti. "İki sahil" qəzeti, 03.05.2023.

245. Süleymanova E. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi insan hüquq və azadlıqlarının müdafiəsinin təməl sənədidir."Respublika" qəzeti, 2008.07.12.

246. Seyidov Ə. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 2009.

247. Tağıyev X. Azərbaycanda aparılan məhkəmə-hüquq islahatları beynəlxalq aləmdə təqdir olunur."525-ci qəzet", 20.11.2014.

248. Tağıyev A. Məhkəmə-hüquq sisteminin inkişafına yönəlmiş islahatlar uğurla davam etdirilir. "Azərbaycan" qəzeti, 14.05.2014.

249. Vəliyev X. Hüquq islahatları dövlət quruculuğunun tərkib hissəsidir. "Xalq qəzeti", 12.05.2019.

250. Vəliyev A. Azərbaycanda müasir qanunvericilik sistemini yaratmış lider. "Yeni Azərbaycan" qəzeti, 2023.14.06.

251. Zülbalayev A. Azərbaycanda məhkəmə hüquq-islahatlarının uğurla aparılması ulu öndərin adı ilə bağlıdır. "Xalq qəzeti", 2022.17.06.

**Cəfərli  Cəfər Sudeyyub oğlu.**

**Azərbaycan Respublikasında hüquq  islahatları.**
**(Konstitusiya, məhkəmə, vəkillik, insan hüquqları, pensiya, təhsil və səhiyyə  sahələrində)**
**(1995-2025)**


| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | *Hüseyn  Hacıyev* |
| *Redaktor:* | *Mustafa Şəfiyev* |
| *Korrektor:* | *Sevinc Mamoyeva* |
| *Dizayn:* | *Müşfiq  Hacıyev* |
| *Cildçi:* | *Elmar  Mikayılov* |

*Çapa imzalanmış 23.10.2025-ci  il*
*Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 15*
*Sifariş 122,  sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*